**ARZU ABDULLAYEV**

# NAXÇIVAN ŞƏHƏRİ: TARİXİ-SİYASİ VƏ MƏDƏNİ İNKİŞAFI (XIX əsr)

**Dərs vəsaiti**

*Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 22 sentyabr 2023-cü il tarixli iclasının (protokol № 2) qərarı ilə nəşr olunması tövsiyə edilmişdir.*

**NAXÇIVAN - 2024**



**Naxçıvanın qədim dövlətçilik tarixi vardır.**
**Bu, Azərbaycanın dövlətçilik tarixidir.**

**Heydər ƏLİYEV**
*Azərbaycan xalqının Ümummilli Lideri*



**Naçıvanın türk dünyasında çox böyük xüsusi yeri vardır. Naxçıvan çox böyük tarixə malik olan diyardır.**

**İlham ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

***Arzu Abdullayev***. *Naxçıvan şəhəri: tarixi-siyasi və mədəni inkişafı (XIX əsr)*
*Naxçıvan, "Əcəmi"Nəşriyyat-Poliqrafiya Birliyi-2024, 224 səh.*

**Ön sözün müəllifi:** **Elnur Həşim oğlu Kəlbizadə**
AMEA Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent

**Elmi redaktor:** **Nərgiz Çingiz qızı Axundova**
İctimai elmlər üzrə problem şurasının sədri, Akademik

**Rəyçilər:** **Oqtay Balaqədəş oğlu Sultanov**
tarix elmləri doktoru, professor

**Zeynal Mədət oğlu Həsənalıyev**
tarix elmləri doktoru, professor

Dərs vəsaitində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan şəhərinin XIX əsr tarixi kompleks şəkildə araşdırılır. Naxçıvan şəhərinin Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati-ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilir.

Təqdim edilən dərs vəsaiti ali məktəblərin tarix ixtisasının tələbələri, magistrləri, doktorant və dissertanları üçün nəzərdə tutulur.

Dərs vəsaitindən tarixçilər, müəllimlər, tədqiqatçılar və geniş oxucu kütləsi istifadə edə bilər.

9 789952 391893

**ISBN: 978-9952-39-189-3**

# MÜNDƏRİCAT

**ÖN SÖZ**.......................................................................................................6
**GİRİŞ**.........................................................................................................9

**I HİSSƏ. Naxçıvan şəhəri XIX əsrin əvvəllərində**.........................................16
1.1. Fənnin tarixşünaslığı və öyrənilməsi üçün başlıca qaynaqlar...................... 16
1.2. XIX əsrin əvvəllərində hərbi-siyasi proseslər və Naxçıvan şəhəri paytaxt kimi.........................................................................................................26
1.3. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Naxçıvan şəhərinin idarəçiliyi, məhkəmə sistemi və əhalinin sosial strukturu...................................................35
1.4. XIX əsrin əvvəllərində Naxçıvan şəhər əhalisinin iqtisadi həyatı və vergilər.......................................................................................................35

**II HİSSƏ. Rus işğalı və ondan sonrakı dövrdə Naxçıvan şəhəri**.....................49
2.1. Naxçıvan şəhəri Rusiya ilə Qacarlar dövləti arasındakı I və II müharibə dövründə.........................................................................................49
2.2. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin tarixi coğrafiyası..........64
2.3. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin quruluşu və məhəllələri...................................................................................................77
2.4. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin əhalisinin etnik və sosial tərkibində dəyişikliklər..................................................................90
2.5. Rus işğalından sonra Naxçıvan şəhərinin idarəçiliyi və kənd təsərrüfatı.....105

**III HİSSƏ. Sənətkarlıq, ticarət və mədəni həyat**..........................................122
3.1. Naxçıvan şəhərində sənətkarlıq..................................................................122
3.2. XIX əsr Naxçıvan şəhərində sənaye və ticarət...........................................133
3.3. XIX əsr Naxçıvan şəhərində təhsil və xalq maarifi...................................145
3.4. Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikrin inkişafı prosesləri...............156
3.5. XIX əsr Naxçıvan şəhərində ədəbi mühit, incəsənət və teatrın inkişafı.......167
3.6. Naxçıvan şəhərində memarlıq...................................................................174

**Nəticə**.....................................................................................................182
**İstifadə edilmiş ədəbiyyat** ........................................................................188
**Əlavələr**..................................................................................................212

# TƏDQİQATÇILIQ BACARIĞI VƏ PEDOQOJİ TƏCRÜBƏ BİRLƏŞƏNDƏ

***(Ön söz əvəzi)***

Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında da ictimai elmlərin müxtəlif sahələri müstəqillik dövrünün tələblərinə uyğun olaraq, keçmiş imperiyanın ideoloji xəttinin buxovlarını yararaq inkişaf etməyə başlamışdır. Xüsusən Vətən tarixinin, Naxçıvanşünaslığın ayrı-ayrı istiqamətlərinin müfəssəl şəkildə öyrənilməsi tarix elmimizin qarşısında duran başlıca vəzifələrdən biri olmuşdur. Naxçıvanın tarixinin, mədəniyyətinin dərindən öyrənilməsi ilə bağlı vəzifələr hələ ümummilli lider Heydər Əliyev tərəfindən AMEA Naxçıvan Bölməsi yaradılarkən dəqiqliklə müəyyən edilmişdir. Naxçıvanda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi, tariximizin yeni istiqamətlərinin öyrənilməsi ilə yanaşı, bu istiqamətdə tədqiqat aparacaq potensiallı gənclərin müəyyən edilməsi üçün məqsədyönlü işlər həyata keçirilmişdir. Təsadüfi deyildir ki, son onilliklərdə Naxçıvan Muxtar Respublikasında yerləşən müxtəlif elm və təhsil ocaqlarında elmlər doktororları və fəlsəfə doktorlarının yetişdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Vaxtilə Naxçıvan elmi mühitində formalaşmış neçə-neçə tədqiqatçılar bu gün nəinki muxtar respublikada elmi mühitin iştirakçılardır, hətta ölkənin digər şəhər və rayonlarında, o cümlədən paytaxt Bakı şəhərində müxtəlif elmi müəssisələrdə tədqiqatlara rəhbərlik edirlər.

Naxçıvan Dövlət Universitetinin baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Arzu Kamal oğlu Abdullayev son illərdə Naxçıvan elmi mühitinin yetişdirdiyi ən perspektivli gənc alimlərimizdən biridir. Uzunmüddətli elmi tədqiqatlarının nəticəsi olaraq 2021-ci ildə müdafiə etdiyi tarix üzrə fəlsəfə doktorluğu dissertasiyası elmi mühit üçün yeni hadisəyə çevrilmiş, ölkənin müxtəlif elmi müəssisələrində çalışan sahə tədqiqatçılarının diqqətini cəlb etmişdir.

Tarix üzrə fəlsəfə doktoru Arzu Abdullayevin tədqim etdiyi bu dərs

vəsaiti çox aktual və əhəmiyyətli bir mövzuya həsr olunmuşdur. Naxçıvan diyarı və onun tarixi, siyasi, mədəni və ictimai mərkəzi olan Naxçıvan şəhəri Azərbaycanın ən qədim ərazilərindəndir. Bu mənada Naxçıvan Azərbaycanda qədim dövlətlərin yaranması prosesində fəal iştirak etmiş, hər zaman Azərbaycan dövlətləri üçün ciddi strateji əhəmiyyət kəsb etmişdir. Naxçıvan şəhərində ilkin şəhər mədəniyyətinin yaşı 5000 ildən artıqdır. Bu mənada Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan tarixinin digər istiqamətləri kimi bu diyarda şəhər tarixinin öyrənilməsi, tələbə və magistrantlara onun ayrı-ayrı məqamlarının müfəssəl şəkildə öyrədilməsi vacibdir. Unutmamaq lazımdır ki, Naxçıvan şəhəri Azərbaycanda mövcud olan bir çox dövlətlərin paytaxtı funksiyasını yerinə yetirmiş nadir şəhərlərdən biridir.

Dərs vəsaitində də qeyd edildiyi kimi Azərbaycan tarixinin ən qanlı dövrlərindən biri olan XIX əsr Naxçıvanın tarixində ictimai-siyasi proseslərin zənginliyi və ağırlığı ilə xarakterizə olunur.

Dərs vəsaitində mövzularının fənni əhatələyəcək şəkildə bölgüsü aparılmış, tələbə və magistrantların mövzunu daha müfəssəl şəkildə öyrənə biləcəkləri tövsiyyə ədəbiyyatlar təqdim edilmişdir. Fənnin öyrənilməsinin aktuallığı kifayət qədər yüksək səviyyədə əsaslandırılmış, obyekt və predmeti, məqsəd və vəzifələri tələbə və magistrantların başa düşə biləcəkləri aydın və axıcı bir dillə izah edilmişdir.

Fənn çərçivəsində təqdim olunan ayrı-ayrı mövzularda XIX əsrin əvvəllərində Naxçıvan şəhərinin Naxçıvan xanlığının paytaxtı kimi daşıdığı əhəmiyyətli funksiyaya diqqət yetirilmiş, bu dövrdə şəhər uğrunda gedən mübarizələr, şəhərin təsərrüfat həyatının xüsusiyyətləri, quruluşu, memarlıq abidələri barədə ətraflı təhlillər aparılmışdır. Dərs vəsaitində Rusiya və Qacarlar arasındakı I müharibə dövründə (1804-1813) Naxçıvan şəhərinin vəziyyəti ilə bağlı ayrıca mövzu təqdim olunur. Bu dövrdə şəhərin Naxçıvan xanlığının paytaxtı kimi təkcə hərbi proseslərin deyil, həm də tarixi-siyasi proseslərin mərkəzində yer aldığına dair faktlar təqdim olunmuşdur. I Rusiya-Qacarlar müharibəsi dövründə Naxçıvan şəhərinin əhəmiyyətinin izah edildiyi mövzuda

qeyd edilir ki, indiyə qədər aparılan tədqiqatlarda obyektiv və subyektiv səbəblərdən müharibənin gedişatına daha çox çar Rusiyası mövqeyindən yanaşıldığı üçün birinci müharibədə Naxçıvan xanlığının və onun mərkəzi olan Naxçıvan şəhərinin elə də aktiv rol almadığı qənaətinə gəlinmişdir. Halbuki, müharibənin və hərbi proseslərin gedişlərinə Qacarlar dövlətinin nöqteyi-nəzərindən baxdığımız zaman aydın olur ki, Naxçıvan şəhəri bu dövlətin qoşunlarının əsas qərargahlarından birinin yerləşdiyi areala daxil olmuşdur. Həqiqətən də I Rusiya-Qacarlar müharibəsinə belə yanaşma obyektiv həqiqətin ortaya çıxarılması üçün vacib əhəmiyyət daşıyır.

Rusiya ilə Qacarlar arasındakı II müharibə dövründə (1826-1828) Naxçıvan şəhərinin vəziyyətinə dair də dərs vəsaitində ayrıca mövzu vardır. Mövzu çərçivəsində şəhər uğrunda mübarizə tarixi qaynaqların, memuarların, sənədlərin verdiyi məlumatlar əsasında mərhələ-mərhələ aydınlaşdırılmışdır.

Dərs vəsaitində XIX əsr Naxçıvan şəhərinin tarixi-coğrafiyası və şəhər quruluşuna dair mövzulara da yer verilmişdir. XIX əsr Naxçıvan şəhəri əhalisinin etnik və sosial strukturu, şəhərdə sosial münasibətlər məsələsinə verilən biliklər magistrantların gələcəkdə bu istiqamətdə tədqiqatlar aparması üçün onlara stimul verə, onlarda maraq yarada bilər. Dərs vəsaitində şəhərin idarəçiliyi və iqtisadi həyatı, mədəni həyatının axıcı dillə təsvir edilən mövzular hər biri gələcəyin tədqiqatçıları üçün yeni istiqamətlər açır.

Vəsaitdə mövzuların qoyuluşu, onlardan çıxan nəticələrin ümumiləşdirilməsi təhsilalanlarda tədris olunan fənnin mahiyyəti ilə bağlı müfəssəl təsəvvürün formalaşmasına xidmət edir. Hesab edirəm ki, çap olunan bu dərs vəsaitindən nəinki muxtar respublikamızın, ümumilikdə ölkəmizin ayrı-ayrı ali təhsil müəssisələrində tədris prosesində istifadə edilə bilər.

**Elnur Həşim oğlu Kəlbizadə**
*AMEA Qafqazşünaslıq İnstitutunun Ermənişünaslıq*
*şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*

# GİRİŞ

Şəhərsalma mədəniyyətinin beş min illik tarixi ilə şərəfli yol keçən qədim Naxçıvan inkişafın yeni mərhələsinə qədəm qoyub. Qürur hissi keçiririk ki, bütün bunlar Naxçıvanın böyük tarix yaradan və tarixə hökm edən zəfər yoludur. Bu gün özünün müasir dövrünü yaşayan muxtar respublikanın abadlığına, gözəlliyinə regionda həyata keçirilən tikinti-quruculuq tədbirləri hesabına hər gün yeni çalarlar qatılır. Ölkəmizdə cahanşümul iqtisadi nailiyyətlərin qazanılmasında Naxçıvanın özünəməxsus yeri və rolu var. Bu qədim yurd yerində sistemli şəkildə aparılan islahatlar ümumi iqtisadi fəallığı daha da gücləndirib, investisiya cəlb-ediciliyi əhəmiyyətli dərəcədə yüksəlib. Naxçıvan tarixin bütün dövrlərində olduğu kimi, bu gün də Azərbaycanın əsas istiqlal qapısıdır. Müstəqil dövlətçiliyin təməli Naxçıvanda qoyulub. Ona görə də sovet imperiya zəncirinin ilk dəfə məhz Naxçıvanda qırılması faktı təəccüblü deyil. Azərbaycanın üçrəngli bayrağı ikinci dəfə burada qaldırılıb. O ağır, o çətin anlarda xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda qəbul edilən qətiyyətli qərarlar həm Naxçıvanı qoruyub, həm də Azərbaycanın gələcək müstəqilliyini təmin edib.

Bu gün özünün intibah və çiçəklənmə dövrünü yaşayan, möhtəşəm şəkildə yenidən qurulan, gözəlləşən, gözlərimizin önündə günü-gündən dəyişən qədim Naxçıvan indi dünyanın tacı, dünyanın bəzəyidir. Doğma diyarımız uğurlu quruculuq və sosial-iqtisadi inkişaf yolu ilə inamla, qətiyyətlə addımlayır. Böyük öndər Heydər Əliyevlə başlayan bu yol Naxçıvanı daha böyük xoşbəxtliyə, daha işıqlı sabahlara aparır. Bu gün muxtar respublikamızda təmin olunmuş hərtərəfli tərəqqi, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən davamlı icrası istiqamətində muxtar

respublikada reallaşdırılan layihələr, məqsədyönlü və qətiyyətli mövqeyin, fədakar işin məntiqi nəticəsidir. Muxtar respublikada elə bir sahə yoxdur ki, diqqətdən kənarda qalsın, inkişafa nail olunmasın.

Muxtariyyət tarixinin ən şanlı və əlamətdar dövrünü yaşayan Naxçıvanın tarixi qədim, keçmişi parlaq, mədəniyyəti zəngin olduğu qədər, uğurlu gələcəyini təmin etmək üçün kifayət qədər güclü potensialı da vardır. Bu gün həm də ona sevinirik ki, həmin potensialdan yüksək səmərəliliklə istifadə olunur, Ona görə də qədim və günü-gündən cavanlaşan Naxçıvanımızla hər birimizin qürur hissi keçirməyə mənəvi haqqı var.

Bütün digər sahələrlə yanaşı, tarixi keçmişimizin hərtərəfli və obyektiv şəkildə araşdırılması istiqamətində böyük işlər də həyata keçirilmişdir. Naxçıvan tarixinin tədqiqi yeni mərhələyə qədəm qoyaraq bu sahədə bir çox fundamental əsərlər yazılmışdır. İndiki dövrdə ölkəmizin bölgələri kimi Naxçıvan tarixinin araşdırılmasına da diqqət getdikcə artmaqdadır. Bu çox sevindirici haldır. Çünki Azərbaycanımızın bu qədim diyarının ulu keçmişi ilə bağlı tarixi araşdırmaların elmə gətirdiyi hər bir yenilik təkcə Vətən tarixini deyil, ümumiyyətlə dünya tarixini də yeni faktlarla zənginləşdirir. Naxçıvan tarixi Azərbaycanın digər guşələri ilə birlikdə yer kürəsində həyatın başlandığı müqəddəs məkandır. Nuh tufanı ilə bağlıdır bu diyar. Yaşadığımız planetdə həyatın başlandığı dövrün yadigarları olan Gəmiqaya da bu diyardadır, Nəbi yurdu adlı çox qədim bir qəbristan da, Nuhun məzarı da! Qonşuluqda isə Ağrı dağımız şahidlik edir bu tarixə! Bütün bunlara görə Azərbaycan tarixçisi üçün Naxçıvan tarixini araşdırmaq vacib və şərəfli işdir. Heç də təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev bu barədə demişdir: *"Naxçıvanın əskidən, keçmişdən çox gözəl, özünəməxsus siması var. Onun memarlıq abidələri, ümumiyyətlə, şəhər quruluşu var. Əgər insanlar onları öyrənə bilsələr, görərlər ki, Naxçıvanda hələ*

*qədim zamanlardan şəhərin planlaşdırılması, küçələrin, evlərin, məhəllələrin yerləşdirilməsi xaotik olmayıb, çox əsaslı olubdur”* (37, s.9).

Azərbaycanın coğrafi cəhətdən strateji əhəmiyyətli hissəsində yerləşən, tarixin ən müxtəlif dövrlərində ölkənin əsas siyasi, ictimai və mədəni mərkəzlərindən biri olan Naxçıvan şəhəri Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Hazırda sahəsi 35,48 kvadrat-kilometr olan (103, s.2) Naxçıvan şəhəri ərazisində ilkin şəhər mədəniyyətinin tarixi ən az 5000 il öncədən başlayır (19, s.58; 50, s.20; 106, c.1, s.70-72; 126). Etimoloji olaraq şəhərin adı hələ antik dövr və orta əsr müəllifləri tərəfindən bəşəriyyətin ikinci atası sayılan Nuh peyğəmbərlə əlaqələndirilmişdir (63, s.70; 125; 184). XIX əsr müəllifi və Naxçıvan şəhər məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş K.Nikitin mifoloji mənbələrdə və xalq arasında yayılmış rəvayətlərdə Naxçıvan şəhərinin əsasının məhz Nuh peyğəmbər tərəfindən qoyulduğunun əksini tapdığını yazmışdır.

Arxeoloji tədqiqatlar da Naxçıvanda şəhər tipli yaşayış yerlərinin e.ə III minillikdə, yəni beş min il bundan əvvəl formalaşdığını təsdiq etmişdir.

Bir sıra antik və orta əsr yazılı qaynaqlarında şəhərin əsasının qoyulma tarixi eramızdan əvvəl 1539-cu il olaraq göstərilmişdir. E.ə. V əsrdə yaşamış Musa Xorenli e.ə. VI əsrdə baş vermiş hadisələrdən bəhs edərkən Naxçıvan şəhərinin adını çəkmişdir (228, s.68). F.Buzand da eramızdan əvvəl baş vermiş hadisələrdən danışarkən Naxçıvan şəhərinin adını xatırlamışdır.

Şəhərin adını “Naxsuana” formasında eramızın II əsrində yaşamış Klavdi Ptolomey də qeydə almışdır.

Siyasi tarixə və şəhərin tarixi-siyasi coğrafiyasına nəzər saldığımız zaman aydın olur ki, Naxçıvan şəhəri e.ə. IX-VI əsrlərdə Manna və Midiya dövlətlərinin tərkibində olmuşdur. Eramızdan əvvəl VI əsrin ortalarında isə Əhəmənilər imperiyasının hakimiyyəti

altına düşmüşdür. Eramızdan əvvəl IV-I əsrlərdə Naxçıvan Atropatena dövlətinin tərkibində olmuşdur. III əsrdən etibarən Naxçıvan şəhəri Sasanilərin sərhəd şəhərlərindən biri kimi ciddi strateji əhəmiyyət daşımışdır. Təsadüfi deyildir ki, bu şəhərin ələ keçirilməsi üçün Sasani və Bizans orduları arasında qanlı müharibələr getmiş, hətta 625-ci ildə Naxçıvan şəhərini ələ keçirən Bizans imperatoru İrakli şəhəri yerlə-yeksan etmişdir (89, s.100-102).

654-cü ildən etibarən Naxçıvan şəhəri qəti olaraq ərəblərin hakimiyyəti altına düşmüşdür. Xilafətin tərkibində olduğu dövrdə də Bizans və Xəzər dövlətləri ilə sərhəd xəttinə yaxın mövqedə yerləşməsi Naxçıvanın strateji əhəmiyyətini daha da artırmışdır. IX-X əsrlərdə Naxçıvan şəhəri Sacilər və Salarilər dövlətinin tərkibində xüsusi statusa malik olmuş, yarımmüstəqil Naxçıvanşahlıq feodal əmirliyinin paytaxtı statusunu daşımışdır. 1021-ci ildə şəhər Bizans imperatoru II Vasilinin qoşunları tərəfindən işğal edilsə də, 1064-cü ildə Səlcuqlu dövlətinin qoşunları tərəfindən tutulmuş, bundan sonrakı dövrdə tarixən bu ərazinin avtoxton və hegemon xalqı olan türkdilli tayfaların bölgənin həyatındakı rolu daha da artmışdır. XII əsrin 40-70-ci illərində Naxçıvan şəhəri Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuşdur (160, s.179). Bu dövr tədqiqatçılar tərəfindən Naxçıvan şəhərinin tarixinin "qızıl dövrü" kimi qiymətləndirilməkdədir. XIII əsrin 20-ci illərindən etibarən Naxçıvan şəhəri monqolların hücumlarına məruz qalmış, 1257-ci ildən etibarən isə şəhər Hülakülər dövlətinin idarəçiliyində olmuşdur. Naxçıvan şəhəri uğrunda XIV əsrdə Qızıl Orda xanı Toxtamışla Əmir Teymur arasında qanlı müharibələr olmuş, bu dövrdə Naxçıvan şəhəri müxtəlif feodal dövlətlərinin – Çobanilərin, Cəlairilərin, Qaraqoyunluların və Ağqoyunluların hakimiyyəti altında olmuşdur. XVI əsrdən etibarən Səfəvi imperiyasının hakimiyyətində olan Naxçıvan şəhəri XVI və XVII əsrlərdə qısamüddətli də olsa Osmanlı dövləti tərəfindən ələ keçirilmiş və idarə edilmişdir. Ümumilikdə isə Nax-

çıvan şəhərinin XVI-XVIII əsr tarixi əsasən Səfəvi dövləti ilə bağlı olmuşdur. Səfəvilər dövlətinin süqutundan sonra Naxçıvan şəhəri Nadir şah Əfşar imperiyasının tərkibinə qatılmış, XVIII əsrin ortalarında isə yeni yaranmış Naxçıvan xanlığının paytaxtına çevrilmişdir.

Azərbaycan tarixinin ən qanlı dövrlərindən biri olan XIX əsr Naxçıvanın tarixində ictimai-siyasi proseslərin zənginliyi və ağırlığı ilə xarakterizə olunur. Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi, araşdırılması müasir dövrdə bir neçə səbəbdən aktualdır:

– birincisi, bu dövrün başlanğıcında Naxçıvan şəhəri dövlət kimi fəaliyyət göstərmiş Naxçıvan xanlığının paytaxtı statusunu daşımış və ümumilikdə Qafqazın ictimai-siyasi və mədəni həyatında əhəmiyyətli rol oynamışdır;

– ikincisi, Naxçıvan tarixin bütün dövrlərində olduğu kimi bəhs olunan dövrdə də bölgədə marağı olan ölkələrin diqqətində olmuş, Qacarlar dövləti, Romanovlar açıq şəkildə, Fransa və İngiltərə kimi dövlətlər isə gizli şəkildə Naxçıvana və ümumilikdə bölgəyə təsir göstərməyə çalışmışlar;

– üçüncüsü, ümumilikdə Azərbaycan tarixində olduğu kimi, Naxçıvan şəhərinin tarixində də bu dövr, keçid dövrü olmuşdur. Bu baxımdan müstəqil xanlıq idarəçiliyindən müstəmləkə sisteminə, feodalizmdən kapitalizmə keçid mərhələsi kimi Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi aktuallıq kəsb edir.

– Məhz bu dövrdə Naxçıvan şəhərinin şəhər quruluşunda dəyişikliklər başlayır. Bu dövrə qədər Şərq şəhəri olan Naxçıvan Qərb və rus memarlığının, şəhərsalma mədəniyyətinin müsbət meyillərindən də bəhrələnməyə başlayır.

– Müstəmləkəçilik və köçürmə siyasəti ilə əlaqədar olaraq şəhərin etnik tərkibində dəyişikliklər baş verir, nisbətən daha aşağı mədəni-psixoloji səviyyəyə malik yad ünsürlərin şəhər həyatına daxil edilməsi nəticəsində şəhərdə qanlı qırğınların və toqquşma-

ların əsası qoyulur. Bu aspektdən də XIX əsr Naxçıvan şəhərinin tarixinin öyrənilməsi aktuallıq kəsb edir.

Azərbaycanın qədim bölgələrindən olan Naxçıvan şəhərinin tarixi tədqiqatın əsas obyektidir. Mövzu xronoloji baxımdan XIX əsri tamamilə əhatə edir. Adı çəkilən dövrdə Naxçıvan şəhərinin idarəçiliyi, ictimai-siyasi vəziyyəti, mədəni həyatı geniş şəkildə tədqiqata cəlb edildiyindən dərs vəsaitinin obyekti də əhatəli olmuşdur. Tədqiqatın predmetini isə Naxçıvan şəhərinin XIX əsr tarixi, müəyyən edilmiş xronoloji çərçivədə şəhərdəki hərbi-siyasi, ictimai-iqtisadi və mədəni inkişaf proseslərinin mahiyyəti təşkil edir.

Fənnin tədrisinin əsas məqsədi tələbələrdə Naxçıvan şəhərinin XIX əsr siyasi və hərb tarixinin, tarixi coğrafiyasının, demoqrafiyasının, iqtisadiyyatının və mədəniyyətinin tədqiqinə maraq oyatmaqdan, şəhərin tarixi təkamülünü və inkişaf səviyyəsini izləməkdən ibarətdir.

Fənnin adından da göründüyü kimi, Naxçıvan şəhərinin tarixinin ən keşməkeşli dövrlərindən biri sayılan XIX əsr xronoloji çərçivə olaraq müəyyənləşdirilmişdir. Bu xronoloji çərçivə əsasında Naxçıvan şəhərinin siyasi tarixi, tarixi coğrafiyası, demoqrafiyası, iqtisadi, mədəni həyatı, şəhərin strateji coğrafi mövqeyinin onun tarixi taleyinə təsiri məsələləri arxiv sənədləri, bəhs olunan dövrə aid qaynaqlar və tarixşünaslıq əsərləri əsasında kompleks şəkildə tədqiq edilmişdir. Qeyd etmək lazımdır ki, bu xronoloji çərçivənin başlanğıcında Naxçıvan şəhəri Qacarlar dövlətindən yarımasılı halda olan Naxçıvan xanlığının paytaxtı olmuş, I və II Rusiya-Qacarlar müharibələri zamanı Naxçıvan şəhəri uğrunda iki tərəf arasında amansız mübarizə getmişdir. 1828-ci ildən 1900-cü ilə qədərki dövrdə isə Naxçıvan şəhəri çar Rusiyasının tərkibində olmuş, qəza mərkəzi statusunu daşımışdır. Burada bir məqamı qeyd etmək yerinə düşər ki, XIX əsrin 40-cı illərinə qədər çar Rusiyası tərəfindən Naxçıvanın xanlıq statusunun formal olaraq saxlanılması səbəbindən bəzi

hallarda Naxçıvan şəhəri 40-cı illərə qədərki dövrdə Naxçıvan əyalətinin baş şəhəri olaraq da göstərilmişdir.

Bir sözlə XVIII əsrin sonu – XIX əsin əvəllərində Naxçıvanda ictimai-siyasi vəziyyət, I Rusiya - Qacar müharibəsi, Gülüstan müqaviləsi. II Rusiya - Qacar müharibəsi, Naxçıvanın Rusiya qoşunları tərəfindən işğalı, Türkmənçay müqaviləsi. Naxçıvan xanlığının çar Rusiyası tərəfindən işğalı. Ermənilərin Azərbaycan ərazisinə köçürülməsi və bunun nəticələri. İnzibati idarə sistemində dəyişikliklər. İlhaqdan sonra Naxçıvan bölgəsində sosial-siyasi vəziyyət. Naxçıvanın təsərrüfat həyatı. Naxçıvanda sənətkarlıq və sənaye. Kapitalist münasibətlərinin meydana gəlməsi, inkişafı və sairə bütün bunlar tədqiq olunan dövrün hərtərəfli tarixi mənzərəsini dolğun şəkildə yaratmağa xidmət edir.

# I HİSSƏ

## *Naxçıvan şəhəri XIX əsrin əvvəllərində*

### *1.1.Fənnin tarixşünaslığı və öyrənilməsi üçün başlıca qaynaqlar*

Qeyd etmək lazımdır ki, XX əsrin 90-cı illərinin ortalarından başlayaraq Naxçıvan şəhərinin tarixinin öyrənilməsi istiqamətində də xeyli işlər görülmüş, Naxçıvanın tarixinin müxtəlif dövrlərinə həsr edilmiş monoqrafiya və məqalələr çap olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının 75, 80, 85 və 90 illik yubileyləri ilə əlaqədar ulu öndər Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyev tərəfindən imzalanmış fərman və sərəncamları Naxçıvan tarixinin öyrənilməsinə yeni konseptual yanaşmanın hüquqi bazasını təmin edən sənədlər kimi tarixə düşmüşdür (54, s.1; 99; 100; 101; 102). Muxtar respublikanın yubileyləri ilə əlaqədar keçirilən elmi konfranslarda Naxçıvan tarixinin mühüm dövrləri ilə bağlı yeni istiqamətlər müəyyən edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin yaradılması Naxçıvanın tarixinin bütün sahələri ilə yanaşı, şəhər tarixinin tədqiqi istiqamətində müəyyən işlərin görülməsinə də təkan vermişdir. AMEA Naxçıvan Bölməsinin yaradılmasından ötən illər ərzində burada Naxçıvan şəhərinin tarixi, tarixi-coğrafiyası, etnoqrafiyası, epiqrafikası, mədəni həyatı ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır.

Ümumilikdə, ən yeni tariximizə nəzər salanda biz Naxçıvanın, o cümlədən Naxçıvan şəhərinin tarixinə yeni konseptual yanaşmanın əsasını 24 mart 1996-cı ildə "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsindən sonra qoyulduğunun şahidi oluruq (109; 136).

1996-cı ildən ötən illər ərzində Naxçıvan Muxtar Respublikasında keçirilən "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi", "Naxçıvan: ilkin şəhər və Duzdağ", "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na əsasən, 2014-cü il iyunun 4 və 5-də "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir", "Naxçıvan qalaları: tarixdə və günümüzdə" və başqa mövzularda keçirilən beynəlxalq konfrans və simpoziumlarda da Naxçıvan şəhərinin tarixi ilə bağlı edilən məruzə və çıxışlar şəhər tarixinin öyrənilməsində mühüm rol oynamışdır. Beynəlxalq simpozium və konfranslarda Naxçıvan şəhərinin tarixinin müxtəlif problemlərinə dair də çoxsaylı elmi məruzələr dinlənilmiş və onlar simpoziumun materiallarına daxil edilərək nəşr olunmuşdur. Naxçıvan şəhərinin XIX əsr tarixinə aid məlumatların verildiyi fundamental tədqiqat əsərlərindən biri və bəlkə də birincisi olan "Naxçıvan tarixi" çoxcildliyi də məhz görülən bu işlərin nəticəsi olaraq meydana çıxmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" Sərəncamı (106, c.1, s.6-7; 108) ilə 2013-2015-ci illərdə hazırlanaraq nəşr edilmiş "Naxçıvan tarixi" çoxcildliyinin II cildi, ümumilikdə Naxçıvan bölgəsinin tarixinə həsr edilsə də, burada bölgənin, o cümlədən Naxçıvan şəhərinin XIX əsr tarixi ilə bağlı əldə edilmiş ən son elmi nəticələr öz əksini tapmışdır (107). Məsələlərə milli tarixşünaslıq və azərbaycançılıq nöqteyi-nəzərindən yanaşıldığını nəzərə alsaq, bu fundamental əsər həm də bizim üçün metodoloji yol göstəricisi rolunu oynamışdır.

Qeyd etmək lazımdır ki, birbaşa olaraq Naxçıvan şəhərinin tarixinin öyrənilməsinə hələ XIX əsrin sonlarından maraq göstərilmişdir. Xüsusi olaraq Naxçıvan şəhərinin tarixinin öyrənilməsinə həsr olunmuş ilk əsərlərdən birini Naxçıvan şəhər məktəbinin

müəllimi olmuş K.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsini hesab etmək olar (198, s.109-142). Bu əsərdə ilk dəfə olaraq bilavasitə Naxçıvan şəhərinin tarixi, maddi-mədəniyyəti və abidələri ayrıca öyrənilmə obyekti kimi müəyyən edilmişdir.

Azərbaycan tarixşünaslığında Naxçıvan şəhərinin XIX əsr tarixinə həsr edilmiş kompleks xarakterli xüsusi monoqrafiya və tədqiqat işi olmasa da, indiyə qədər yazılmış bəzi əsərlərdə şəhər tarixi ilə bağlı ciddi təhlillər aparılmışdır. Naxçıvan şəhərinin XIX əsr tarixinin tədqiqi ilə bağlı hələ sovetlər dönəmində bir sıra addımlar atılmışdır. Məsələn, Ə.Ələkbərov hələ 1927-ci ildə nəşr etdirdiyi "Zəngəzur və Naxçıvan diyarına səyahət" adlı məqaləsində Naxçıvanın tarixi və etnoqrafiyasına dair təəssüratlarını da qeyd etmişdir (155). Q.Mədətovun 1958-ci ildə nəşr etdirdiyi "Naxçıvanda sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili" haqqında monoqrafiyasının birinci fəslində Naxçıvan şəhərinin XIX əsr tarixi ilə bağlı məlumatlara da yer verilmişdir (83; 84; 191). Naxçıvanın bəhs olunan dövrdə iqtisadi tarixinin və etnoqrafiyasının öyrənilməsində M.Nəsirlinin 1959-cu ildə nəşr etdirdiyi Naxçıvanın kənd əhalisi və kənd evlərinə aid tarixi-etnoqrafik kitabı mühüm əhəmiyyətə malik olmuşdur (195).

Mövzunun tarixşünaslığına aid mühüm əsərlərdən biri olan R.Məmmədovun "Naxçıvan şəhərinin tarixi oçerki" əsəri də Naxçıvan şəhərinin tarixinə həsr edilmişdir. Lakin bu əsərdə şəhərin XVII əsrə qədərki tarixindən bəhs edilmişdir (86).

Naxçıvan şəhərinin XIX əsr tarixinin iqtisadi həyatı ilə bağlı məsələlər Ə.Sumbatzadənin "XIX əsr Azərbaycan sənayesi" adlı monoqrafiyasında (226; 227), işğal dövrü tarixi ilə bağlı məqamlar M.Əliyevin "Naxçıvan xanlığı və onun Rusiyaya birləşməsi" mövzusunda yazdığı namizədlik dissertasiyasında (156) öz əksini tapmışdır.

AMEA-nın müxbir üzvü Z.Şahverdiyevin "Naxçıvan bölgəsi

XIX-XX əsrin əvvəllərində" (132), tarixçi H.M.İbrahimbəylinin "Rusiya və Azərbaycan XIX əsrin birinci yarsında (hərbi-siyasi tarixi)" (180), tarix üzrə fəlsəfə doktoru, dosent H.Həsənovun "Naxçıvanın çar Rusiyası tərəfindən işğalı" (53), tarix üzrə fəlsəfə doktoru, dosent S.Budaqovanın "Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin II yarısı-XIX əsrin I qərinəsi)" (23), tarix üzrə fəlsəfə doktoru, dosent Y.Rəhimovun "Naxçıvan XIX əsr rus mənbələrində" (120) adlı əsərlərində tədqiqat obyekti kimi bilavasitə Naxçıvan şəhəri seçilməsə də, şəhərin XIX əsr tarixindən xüsusi olaraq bəhs edilmişdir.

Nəinki Naxçıvan şəhərinin, ümumilikdə Naxçıvan bölgəsinin XIX əsr tarixinə həsr edilmiş ən mühüm tədqiqat əsərlərinin müəllifi professor Z.Şahverdiyev olmuşdur. O, elmi tədqiqatlarını birbaşa olaraq Naxçıvanın XIX əsr tarixinə həsr etmişdir. Hələ 1980-ci ildə Z.Şahverdiyev "XIX əsrin 70-90-cı illərində Azərbaycanda aqrar münasibətlər və kəndlilərin vəziyyəti (Naxçıvan və Şərur-Dərələyəz qəzalarının materialları üzrə)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, dissertasiyada ilk dəfə olaraq həmin məsələlər kompleks şəkildə tədqiq olunmuşdur (230). Müəllifin 2008-ci ildə nəşr edilmiş "Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində" adlı monoqrafiyasında Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı, bölgənin inzibati-ərazi quruluşunda dəyişikliklər və idarəçilik sistemi, sosial-iqtisadi və mədəni həyatı, ermənilərin Naxçıvana köçürülməsi və azərbaycanlılara qarşı soyqırımı, tarixşünaslığın müasir tələbləri, elmi dövriyyəyə yeni cəlb edilmiş sənəd və materiallar əsasında öyrənilmişdir (132). Z.Şahverdiyevin bu əsəri dissertasiya işinin yazılması zamanı bizə əsas istiqamətverici tədqiqat əsərlərindən biri olmuşdur.

M.Əliyevin F.Əliyevlə birlikdə nəşr etdirdiyi Naxçıvan xanlığının tarixinə dair əsərlərdə xanlıq idarəçiliyi dövründə və Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərinin tarixi ilə bağlı çox qiymətli

məlumatlar əksini tapmışdır (29; 30).

Eləcə də Naxçıvan xanlığının tarixinə dair yazılmış monoqrafiyalarda İrəvan xanlığı ilə bağlı xeyli məsələlərə də toxunulmuşdur. Akademik İ.Həbibbəylinin "İrəvan şəhəri necə varsa" adlı elmi məqaləsi tariximizdə mühüm hadisədir. Çünki müəllif bu məqaləsində İrəvan şəhərinin tarixinə aktual yanaşmış və saxtakar ermənişünaslara layiqli cavab vermişdir. (52)

Ermənilərin Naxçıvana iddialarının milli tarixşünaslıq baxımından araşdırılmasında akademik İ.Hacıyevin, tarix üzrə fəlsəfə doktorları E.Şıxəliyevin, E.Cəfərlinin mühüm tədqiqatları olmuşdur (38; 40; 41; 42; 43; 44; 137; 138). AMEA-nın müxbir üzvü H.Səfərlinin tədqiqatları isə XIX əsrdə Naxçıvan şəhərinin dini-mənəvi həyatının və bu dövrdə inşa edilmiş abidələrin epiqrafik kitabələrinin öyrənilməsi baxımından ciddi elmi əhəmiyyətə malik tarixşünaslıq əsərlərdir (122; 123; 124; 125; 126; 127; 128; 217). Naxçıvan xanlığının paytaxtı olan Naxçıvan şəhərinin XIX əsrdə Qafqazda dövlətlərarası münasibətlər sistemində yerinin müəyyənləşdirilməsi tarixçi M.Quliyevin adı ilə bağlıdır. Tədqiqatçı arxiv materialları əsasında XIX əsr Naxçıvan şəhərinə dair qiymətli məlumatlar vermişdir (78; 79). Tarixçi S. Budaqovanın əsərlərində isə bəhs olunan dövrdə bölgənin tarixi coğrafiyası tədqiq edilmiş, bu zaman bölgənin mərkəzi sayılan Naxçıvan şəhərinin tarixi coğrafiyası, iqtisadi həyatı, demoqrafiyası ilə bağlı bir sıra məsələlərə toxunulmuşdur (22; 23). İ.Kazımbəyli və N.Quliyev tədqiqat əsərlərində XIX əsrdə Naxçıvan şəhəri əhalisinin demoqrafik tərkibi ilə bağlı qiymətli tədqiqatlar aparmış və əsaslı elmi fikirlər irəli sürmüşlər (61; 80). C.Mustafayev (92) və S.Hacıyeva (45) kimi tarixçilərin tədqiqatlarında XIX əsr Naxçıvan şəhərinin iqtisadi həyatının öyrənilməsinə xüsusi diqqət yetirilmişdir.

Bəhs olunan dövrdə Naxçıvan şəhərində mədəni inkişaf proseslərinin öyrənilməsində akademik İ.Həbibbəylinin (46; 47; 48;

49; 50; 51), Ə.Quliyevin (Amanoğlu) (77), F.Cəfərovun, S.İbrahimovun, Ə.Qəhrəmanovun (74; 75) böyük xidmətləri olmuşdur. XIX əsrdə Naxçıvanda təhsilin tarixi və təhsil sahəsindəki inkişaf prosesləri barədə H.Əhmədovun "XIX əsr Azərbaycan məktəbi" adlı kitabında qiymətli məlumatlar verilmişdir (26). XIX əsr Naxçıvan təhsilinin bəzi məsələlərinə F.Xəlilovun əsərlərində də toxunulmuşdur (55; 56).

Bundan əlavə, İ.Petruşevski (209), N.Vəlixanlı (142; 143; 144), B.Budaqov, Q.Qeybullayev (21; 168), S.Babayev (13; 14), A.Bağırov (15), V.Baxşəliyev (19), Y.Mahmudov, K. Şükürov (81; 82; 139), V.Piriyev (117; 118), R.Məmmədov (86), E.İsayev (58), E.Kəlbizadə (62; 63; 64; 65), İ.Kəngərli (66), İ.Zeynalov (145) kimi tarixçi və tədqiqatçıların əsərlərində də Naxçıvan şəhərinin tarixi inkişafı, toponimikası, tarixi coğrafiyası ilə bağlı bir sıra məsələlərə toxunulmuşdur.

AMEA-nın həqiqi üzvü Çingiz Qacarın rus dilində nəşr edilən "Naxçıvan dünyanın ən qədim şəhərlərindən biri" kitabı daha çox tarixi fotoşəkil və illüstrativ materialları əks etdirməklə Naxçıvan şəhərinin tarixinə dair məlumatlandırıcı materialların toplanıldığı son illərdə dərc edilən ən maraqlı kitablardan biridir (183).

Xarici ölkə tədqiqatçılarından M.İvanov (181), R.İvanov (60; 182), Ə.Pakrəvan (116), E.Semenov (222) kimi müəlliflər Naxçıvan şəhərinin XIX əsr tarixi barədə bir sıra məsələlərə toxunmuşlar.

2008-ci ildə nəşr edilmiş "Naxçıvan abidələri ensiklopediyası" (95), "Naxçıvan ensiklopediyası"nın I və II cildlərindəki məqalələrdən də tədqiqat əsərinin yazılması zamanı istifadə olunmuşdur (96; 97).

Mövzunun tədqiqində Rusiya, Azərbaycan, Türkiyə arxivlərində saxlanılan müxtəlif arxiv sənədlərindən, Qafqaz Arxeoqrafiya Komissiyasının materiallarından (AKAK) və s. istifadə edilmişdir (154). Arxiv sənəd və materiallarının təhlili tarixşünaslığımızın bu

sahədə olan boşluqlarının qismən doldurulmasına xidmət etmişdir.

Naxçıvan şəhərinin rus işğalına qədərki dövr tarixinin öyrənilməsi üçün farsdilli sənədlər ciddi əhəmiyyətə malikdir. Qacarlar dövlətində tərtib olunan rəsmi sənədlər, o cümlədən yarımmüstəqil Naxçıvan xanlığında hazırlanmış sənədlərin və diplomatik yazışmaların əksəriyyəti məhz fars dilində həyata keçirilmişdir. Lakin təəssüf ki, bu cür sənədlərin bir qismi dövrün ağrılı-acılı şərtlərində məhv olmuş, digər çox az bir qismi isə xarici ölkələrin arxivlərində qorunmaqdadır. Bu tipli sənədlər içərisində 1936-cı ildə SSRİ Elmlər Akademiyasının Gürcüstan filialının nəşr etdirdiyi "Naxçıvan əlyazma sənədləri"ni xüsusi qeyd etmək lazımdır (196). Burada təqdim edilmiş sənədlər içərisində Naxçıvan xanlarının 7 əmri, Fətəli şah Qacarın 2 fərmanı, onun oğlu şahzadə, Qacarların Azərbaycan vilayətinin idarəçisi olmuş Abbas Mirzənin 6 əmri birbaşa olaraq tədqiq etdiyimiz dövrlə bağlıdır.

Rusdilli qaynaqlar və arxiv sənədləri Naxçıvan şəhərinin XIX əsr tarixinin öyrənilməsi üçün ən zəngin qaynaqlardır ki, kitabın yazılması zamanı da əksərən belə mənbə və arxiv sənədlərinə istinad edilmişdir. Şəhər tarixinin araşdırılması üçün arxiv sənədləri içərisində Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı dövründə rus məmurları, hərbiçiləri tərəfindən tərtib edilmiş kameral təsvirləri xüsusi əhəmiyyət kəsb edir. Materialların məzmunundan aydın olur ki, çar Rusiyası Azərbaycanın iqtisadi cəhətdən mənimsənilməsini başa çatdırmaq üçün onun ayrı-ayrı bölgələrinin sərvətləri, əhalinin milli və sosial tərkibi, kənd təsərrüfatının, sənətkarlığın, şəhərlərin vəziyyəti haqqında müfəssəl məlumat toplamağa çalışmışdır.

1831, 1843, 1848, 1859, 1873, 1886-cı illərdə tərtib olunmuş və Azərbaycan Dövlət Tarix Arxivində saxlanılan kameral təsvirlər və bir sıra digər arxiv sənədləri Naxçıvan şəhərinin həyatına dair iqtisadi, sosial xarakterli materiallarla zəngindir (236; 237;). Məhz

bu materiallar əsasında biz Naxçıvan şəhərinin quruluşu, sərhədləri, əhalisi, əhalinin milli və sosial tərkibi haqqında çox qiymətli və dəqiqləşdirici məlumatları aşkara çıxara bildik.

XIX əsr Naxçıvan şəhərinin təsərrüfat həyatı, iqtisadiyyatı, təbii resursları ilə bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin fondlarında zəngin materiallar saxlanılmaqdadır. Dərs vəsaitinin yazılması zamanı sözügedən arxivin fondlarında olan bu qiymətli materiallar da tədqiqata cəlb edilmişdir (238; 239).

1884-1913-cü illərdə Tiflisdə nəşr olunan İrəvan quberniyasının icmalları da XIX əsr Naxçıvanın təsərrüfat həyatı, iqtisadiyyatı, təbii resursları ilə bağlı özündə zəngin məlumatları saxlayan çox qiymətli mənbələrdi (200; 201; 202; 203; 204; 205; 206; 207).

Bundan əlavə, AMEA Əlyazmalar İnstitutunun Əlyazmalar Fondunda, Rusiya Dövlət Sosial-Siyasi Tarix Arxivində, Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində (235; 148) saxlanılan sənədlərdən də mövzunun əsas və yardımçı təfərrüatlarının öyrənilməsi, dəqiqləşdirilməsi və faktoloji materiallarla sübuta yetirilməsi üçün istifadə edilmişdir.

Tədqiqatların əhatəliliyi və faktoloji materiallarla zənginliyi baxımından hələ 1936-cı ildə SSRİ Elmlər Akademiyasının Leninqrad (Sankt-Peterburq) Bölməsi tərəfindən nəşr etdirilmiş Azərbaycan tarixinə dair materialların toplanıldığı "Rus çarizminin Azərbaycanda müstəmləkəçilik siyasəti" adlı çoxcildli kitabda istifadə etdiyimiz əhəmiyyətli qaynaqlardan biri olmuşdur. Çoxcildliyin birinci cildində Rusiya Dövlət Tarix Arxivinin Leninqrad Bölməsində saxlanılan sənədlər təqdim edilmişdir (187).

XIX əsrdə yaşamış Azərbaycan tarixçilərindən A.Bakıxanovun "Gülüstani İrəm" əsəri Naxçıvanın xanlıqlar dövrü tarixinin öyrənilməsi üçün bəzi məlumatları bizə çatdırır (20; 159). XIX əsrdə müxtəlif müəlliflər tərəfindən qələmə alınmış Qarabağ xanlığının tarixinə həsr olunmuş əsərlərdə – Qarabağnamələrdə Naxçıvan

xanlığının qonşu xanlıqlarla münasibətləri, Qacar şahlarının, Qarabağ xanlarının Naxçıvan şəhərini ələ keçirmək üçün yürütdükləri siyasət və yürüşləri haqqında maraqlı, bir çox hallarda isə polemika doğura biləcək məlumatlar verilmişdir (68, 69, 70).

Yuxarıda da qeyd etdiyimiz kimi, Naxçıvan şəhərinin XIX əsr tarixinin bir çox problemləri Azərbaycanın Rusiya tərəfindən işğal edildiyi və ondan bir qədər sonrakı dövrdə rus müəllifləri tərəfindən qələmə alınmış ilk mənbə xarakteri daşıyan əsərlərdə əks olunmuşdur. Dövrün məmur-müəllifləri üçün xarakterik olan əsas cəhət imperiya siyasəti təəssübkeşliyi olduğundan bu müəlliflərin əsərlərindəki bir sıra məsələlərə, xüsusən bölgənin "ermənilәşdirilməsi" ilə əlaqədar olan qabardılmış məsələlərə tənqidi yanaşmaq zəruridir. Burada vacib olan məsələ tədqiqatçının müəllifin yaşadığı dövrün, çalışdığı mühitin şərtlərini anlaması və verilən məlumatların hansı maraqlara xidmət etdiyini açıb göstərməsidir.

Vasili Nikiforoviç Qriqoryev tərəfindən 1833-cü ildə tərtib edilmiş "Naxçıvan əyalətinin statistik təsviri" kitabı Naxçıvan şəhərinin XIX əsr tarixinin tədqiqi üçün ən faydalı və əhəmiyyətli mənbələrdən biridir (173). Əsərdə tədqiq etdiyimiz dövrdə Naxçıvan şəhərinin tarixi coğrafiyası, iqlimi, ərazisi, məhəllələr üzrə bölgüsü, şəhər həyatı, sənətkarlıq, ticarət, əhalinin sayı, etnik və sosial tərkibi və s. sahələrlə bağlı olan məsələlər haqqında ətraflı məlumat verilmişdir.

Bəhs olunan dövrdə Naxçıvan qəzasında, o cümlədən Naxçıvan şəhərində əhalinin etnik və sosial tərkibinin öyrənilməsi üçün mühüm mənbələrdən biri fransız mənşəli rus tədqiqatçısı İ.Şopenin "Rusiya imperiyasına birləşdirilməsi dövründə erməni vilayətinin tarixi salnaməsi" əsəridir. İ. Şopenin müəllifi olduğu əsər xüsusi tapşırıqla yazılmış bəzi faktları təhrif edən əsər olsa belə, bu qaynaqda verilən qiymətli məlumatların dəyərini azaltmır (231). Qeyd edək ki, İ.Şopenin özü də əsəri qraf Paskeviçin tapşırığı ilə yazdığını

göstərmişdir. Əsərin "Rusiyaya birləşdirmə dövründə erməni vilayətinin vəziyyətinin tarixi abidəsi" adlanmasına baxmayaraq, əslində, burada Rusiya işğalları dövründə İrəvan və Naxçıvan xanlıqlarının vəziyyəti təsvir edilmişdir.

XIX əsrin ortalarında yaşamış digər rus tədqiqatçısı N. Engelqardt da Naxçıvan diyarına xüsusi məqalə həsr etmiş və məqalədə Naxçıvan şəhərindən də bəhs etmişdir (234, s.547-553).

Naxçıvan şəhərinin XIX əsr tarixi rus ordusunun polkovniki S.D.Burnaşevin 1793-cü ildə Kurskda nəşr olunmuş "İran Azərbaycanı vilayətlərinin təsviri və onların siyasi vəziyyəti" əsərində də əksini tapmışdır. Lakin unutmamaq lazımdır ki, dövrün bir sıra digər rus müəllifləri kimi polkovnik Burnaşev də məsələlərə tərəfli olaraq yanaşmışdır. Analoji hal akademik P.Q.Butkovun (1775-1857) əsərində də müşahidə edilməkdədir (161). P.Q.Butkov 1796-cı ildə rus ordusunun tərkibində Azərbaycana yürüşdə iştirak etmiş, müxtəlif diplomatik və hərbi-tarixi sənədlərlə tanış olmuş, yürüş zamanı topladığı əlyazmalar və sənədlər əsasında faktiki materiallarla zəngin olan qiymətli əsər yazmışdır (30, s.20).

Naxçıvan şəhərinin XIX əsr tarixinə dair mühüm mənbələrdən biri "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" (СМОМПК) məcmuəsidir. Bu məcmuə 1881-ci ildən 1929-cu ilə qədər Tiflisdə nəşr edilmişdir (218; 49, s.119; 25). Məcmuədə Naxçıvana dair getmiş materiallar sırasında 1881-ci ildə çap edilmiş S.P.Zelinskinin "İrandan köçürülmüş və Naxçıvan qəzasında yaşayan ermənilərin məişəti haqqında etnoqrafik oçerklər", 1882-ci ildə nəşr edilmiş K.N.Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan mahalı", "Naxçıvan mahalında xalq inamları", 1889-cu ildə nəşr edilmiş J.Pasxalovun "Naxçıvan qəzasının Kilit kəndi", 1898-ci ildə nəşr edilmiş V.Devitskinin "Naxçıvanda bağçılığa dair qısa oçerklər", K.İsmayılovun "Nehrəm kəndi" kimi mühüm məqalələrinin adlarını çəkmək mümkündür.

Yuxarıda da qeyd etdiyimiz kimi, bu məcmuədə yer verilən və birbaşa olaraq XIX əsr Naxçıvan şəhərinin tarixinə həsr olunmuş ən qiymətli əsərlərdən biri olan K.N.Nikitinin 1882-ci ildə yazılmış "Naxçıvan şəhəri və Naxçıvan qəzası" məqaləsində Naxçıvan xanlığı dövründə, eləcə də çar Rusiyasının idarəçiliyi dövründə Naxçıvan şəhərinin tarixinin müxtəlif məqamları işıqlandırılmışdır (198, s. 109-142). Qeyd etmək lazımdır ki, K.N.Nikitinin uzun müddət Naxçıvan şəhərində yaşaması, burda pedaqoji fəaliyyətlə məşğul olması onun bölgənin tarixi ilə daha yaxından tanış olmasına şərait yaratmışdır. S.P. Zelinskinin "Üç mahal" adlı məqaləsi də XIX əsrdə yazılmış Naxçıvan şəhərinin tarixinə dair bəzi məlumatların əks olunduğu dəyərli qaynaqlardan biridir (178). Məqalədə şəhərin iqliminin, əhalinin məşğuliyyətinin geniş təsviri verilmişdir. K.Smirnovun, V.Sısoyevin Naxçıvan diyarının tarixi və etnoqrafiyasına həsr olunmuş əsərlərində də Naxçıvan şəhərinin XIX əsr tarixi ilə bağlı müxtəlif məqamlara toxunulmuş, şəhərin çar Rusiyası tərəfindən işğalı və köçürmə prosesləri ilə bağlı bir sıra məqamlardan bəhs edilmişdir (223; 224; 225).

Avropalı müəlliflərdən Q.Druvil (174), E.Veydenbaum (162) və R.Porterin səyahətnamələrində, R.Uatsonun, P.Saykesin və b. əsərlərində Naxçıvan şəhərinin işğala qədərki və işğaldan sonrakı dövr hərbi və siyasi tarixindən bəhs edilmişdir.

### *1.2. XIX əsrin əvvəllərində hərbi-siyasi proseslər və Naxçıvan şəhəri xanlığın paytaxtı kimi*

Azərbaycan tarixinin ən keşməkeşli dövrlərindən biri sayılan XIX əsr Naxçıvan bölgəsinin və onun siyasi, iqtisadi və mədəni mərkəzi sayılan Naxçıvan şəhərinin tarixinin də sərt sınaqlarla keçən dövrlərindən biri olmuşdur. Məlum olduğu kimi, Nadir şah Əfşarın ölümündən sonra bütün Azərbaycan ərazisində feodal

pərakəndəliyi hökm sürməyə başlamışdır. Səfəvilər dövründən bəri Azərbaycan türklərinin idarə etdikləri əsas ərazisi Azərbaycan və Persiya vilayətlərindən ibarət olan imperiyada hakimiyyət uğrunda çəkişmələr güclənmişdi. Uzun dövr ərzində türklərin ən böyük iki imperiyasından biri olan Səfəvilərin, ardınca isə Əfşarların hökm etdikləri imperiyada mərkəzi hakimiyyətin zəifləməsinin, feodal pərakəndəliyinin meydana çıxmasının bir sıra səbəbləri mövcud idi. İlk növbədə qeyd etmək lazımdır ki, Osmanlı dövləti və Səfəvilərin, sonradan isə Nadir şah imperiyasının bir-birinə qarşı mübarizə apardığı dövrdə Avropa dövlətləri həm iqtisadi, həm də hərbi baxımdan xeyli güclənməyə nail ola bilmişdilər. Avropada yeni istehsal mədəniyyətinin yaranması, Şərq ölkələrində isə bir sıra obyektiv və subyektiv səbəblərdən bu prosesin ləngiməsi iqtisadi inkişaf baxımından da fərqləri ortaya çıxarmışdı. Həmçinin Avropa dövlətləri dünyanın ticarət yollarının qurudan dənizlərə transformasiyasına nail olmaqla Osmanlı və Səfəvilər kimi böyük Şərq dövlətlərini oyundankənar vəziyyətə sala bilmişdilər. Ticarət yollarının dəyişməsi nəticəsində qitələrarası ticarətdən yararlanmağın artıq mümkün olmaması, daxildə də feodal pərakəndəliyinin güclənməsinə şərait yaradırdı. Həmçinin, Səfəvilər xanədanının son dövrlərində, eləcə də Nadir şahın hakimiyyəti dövründə idarəedici elitanın xeyli dərəcədə marginallaşması, türk idarəçilik ənənələrinə yadlaşaraq Pers-İran şahlıq ənənələrinə daha çox istinad etməyə başlamaları da türk tayfalarının mövqelərinin güclü olduğu şəhər və bölgələrdə mərkəzdənqaçma meyillərini gücləndirmişdi. Tarixi prosesləri təhlil edərkən belə qənaətə gəlirik ki, Nadir şahın ölümü ilə Şimali Azərbaycanın dövlətçilik tarixində böyük imperiyaçılıq mərhələsi başa çatdı. Müstəqil xanlıqlar meydana çıxdı, daha sonra isə bu xanlıqlar yad və müstəmləkəçi Rusiya imperiyası tərəfindən bir-bir tutuldu. Cənubi Azərbaycan ərazisi üçün isə eyni fikirləri ifadə etmək olmaz. Tezliklə, Səfəvilər və Əfşarlar dövründəki imperiya

idarəçilik ənənələrini bərpa etməyə çalışan yeni qüvvə – Qacarlar bu ərazilərdə xeyli dərəcədə nüfuzlarını bərpa etmiş oldular. Doğrudur, Qacar türk sülaləsinin qurduğu və idarə etdiyi imperiya hər nə qədər İranmərkəzli olsa da, bu dövlət türk hökmdarlar tərəfindən idarə edilirdi. Azərbaycan Qacar imperiyasının qurucusu və ilk hökmdarı Ağaməhəmməd şah Məhəmmədhəsən xan oğlu Qacar (1742-1797) bütün hakimiyyəti boyunca məhz türk tayfalarını: əfşarları, xalacları, bayatları, qaragözlüləri və başqa tayfaları özünün hərbi-siyasi qüvvəsinin dayağına çevirmişdi (5,s.113). Lakin tarixin gedişatı göstərdi ki, bu türk sülaləsi də Səfəvi xanədanının son hökmdarlarının səhvlərini təkrarladı. Onlar da artıq imperiyanın "ürəyi" olan Azərbaycana mərkəz deyil, periferiya kimi baxmağa başladılar. Bu isə Qacarları da zaman keçdikcə ruhu milli olsa da, düşüncəsi və baxışı yad olan imperiyaya çevirdi. Qacarlar özlərinin ən böyük rəqibləri olan Rusiya ilə Azərbaycan xanlıqları uğrunda müharibələr apararkən artıq milli bir imperiya rolunda deyil, işğalçı xarakterində görünməyə başladılar. Bu isə bir zamanlar əl-ələ verərək Səfəvilər imperiyasını qurmuş tayfaların nümayəndələrinin rəhbərlik etdikləri Azərbaycan xanlıqlarının xeyli hissəsinin onlara qarşı mübarizə mövqeyinə keçməsi ilə nəticələndi. Kəngərli tayfalarının idarə etdiyi Naxçıvan xanlığının, Sarıcalı-Cavanşirlər sülaləsinin idarə etdiyi Qarabağ xanlığının (93, s.28-29), Səfəvi xanədanının bir qoluna mənsub olan xanlar tərəfindən idarə edilən Talış xanlığının (34, s.13-15), Qacarların öz qan qohumları tərəfindən idarə edilən Quba xanlığının (159, s.122) bir çox hallarda Qacarlar dövlətinə qarşı sərt mübarizəsini də məhz bununla izah etmək olar.

XVIII əsrin sonu XIX əsrin başlanğıcında Naxçıvan şəhəri Qacarlar dövlətindən asılı olan yarımmüstəqil Naxçıvan xanlığının paytaxtı, Cənubi Qafqaza sahiblənmək uğrunda özünəməxsus planları olan Romanovlar Rusiyası üçün isə ələ keçirilməsi vacib olan strateji nöqtələrdən biri idi. Bundan başqa, bölgə, eləcə də şəhərlə

bağlı bütün müsəlmanların xəlifəlik institutunu əlində saxlayan Osmanlı dövlətinin də özünəməxsus iddiaları var idi. Lakin bu mərhələdə Avropa dövlətləri və Rusiyanın ağır zərbələri və daxildə baş qaldıran problemlərin həllinə başı qarışmış Osmanlı imperiyası bu iddiaları əvvəlki kimi açıq ortaya qoya bilmirdi. Lakin Osmanlı dövləti ilə Azərbaycanın müxtəlif xanları arasında aparılan diplomatik yazışmalar da sübut edir ki, bu iddialar da yox deyildi (235; 148, s.66; s.81; s.82; s.87; s.93; s.95; s.97; s.100; s.111). Digər tərəfdən unutmamaq lazımdır ki, hələ XVII əsrin 20-ci illərində Naxçıvan qısa bir müddət də olsa Osmanlı idarəçiliyinə girmiş və Osmanlı dövləti sonradan bu əraziləri müəyyən şərtlər çərçivəsində tərk etmişdi (190, s.66; 64, s.131-142; 57, s.9; 104, s.11).

Qacarların Naxçıvan bölgəsi və onun əsas şəhəri olan Naxçıvan şəhərinə yanaşması yuxarıda da aydınlaşdırdığımız kimi daha çox tarixi keçmişlə bağlı idi. Məhz bu səbəbdən də Qacarların möhkəmləndiyi dönəmdə – 1797-ci ildə Naxçıvan xanlığı asılı xanlığa çevrilmiş və Naxçıvan xanlarının birbaşa Qacar şahlarının fərmanı ilə təyin olunmasına başlanmışdır. Lakin bəzi müəlliflərin bu fikri ilə də razılaşmaq olmaz ki, 1747-1797-ci illərdə müstəqil bir xanlıq olan Naxçıvan xanlığı həmin vaxtdan etibarən, 1828-ci ildə Rusiya tərəfindən işğal olana qədər, faktiki olaraq İran dövlətinin ucqar əyalətlərindən birinə çevrilmişdir (23, s.25). Bunu aşağıdakılarla əsaslandırmaq mümkündür:

– İlk növbədə Qacar şahları və ya xanədan mənsubu olan Azərbaycan vilayətinin idarəçisi olan vəliəhd xanlığın xanını istənilən tayfadan deyil, sırf xanlığın əzəli hakimləri olan Kəngərlilərdən təyin etmək məcburiyyətində idilər;

– Qacar hökmdarları bir çox hallarda xanlıqda nüfuz qazanmış xanların mövqeyini qəbul etmiş və öz istədiklərini deyil, xalq arasında daha nüfuzlu olan şəxsi xan təyin etməyə məcbur olmuşdular;

– Naxçıvan xanları xarici siyasi əlaqələr saxlamağa çalışır,

çox zaman buna nail olur və siyasi-diplomatik manevrlər edirdilər.

XIX əsrin əvvəllərində İranda və Cənubi Azərbaycanda hakimiyyətini kifayət qədər möhkəmləndirə bilmiş Fətəli şah Qacar bir sıra xanlıqları özündən asılı hala sala bilmişdi. Belə xanlıqlardan biri də Naxçıvan xanlığı idi. Bu xanlığın qüdrətli hökmdarlarından olmuş Kalbalı xan hələ Ağa Məhəmməd şah Qacar tərəfindən əsir alınaraq kor edilmiş, sonradan isə Fətəli şah Qacar tərəfindən onun Naxçıvan xanlığında deyil, İrəvan xanlığında yaşamasına icazə verilmişdi (173, s.50). Naxçıvan xanlığını isə bu zaman Naxçıvan şəhərindən Abbasqulu xan idarə edirdi (30, s.78).

Həbsdən azad olunduqdan sonra İrəvan xanlığına gələn Kalbalı xan tezliklə İrəvan xanının rəğbətini qazanmış və İrəvan xanlığı qoşunlarının komandanı funksiyasını yerinə yetirmişdir. Kalbalı xanın rəhbərlik etdiyi İrəvan xanlığı qoşunlarının 1802-ci ilin mart-aprel aylarında Qars paşalığı ərazisində rus ordusu ilə Qars paşalığının birləşmiş qüvvələrinə məğlub olmasından sonra (28, s.126-127) K.F.Knorrinqin rəhbərlik etdiyi Tiflisdəki rus qoşunları bölgə üçün ciddi təhlükəyə çevrilməyə başladı. Belə bir məqamda Qacarlar dövləti Rusiyanın bölgədə güclənməsi və ondan vassal asılılığında olan xanlıqların nəzarətdən çıxması ilə barışa bilməzdi. Bu səbəbdən də birləşmiş Naxçıvan və İrəvan qoşunları geri qayıtdıqdan sonra, Qacar ordusunun sərkərdələrindən biri olan Pirqulu xan 4000 nəfərlik hərbi qüvvə ilə Naxçıvana gəldi. Bu barədə P.Q.Butkov "Qafqazın yeni tarixinə dair materiallar (1722-ci ildən 1803-cü ilə qədər)" adlı əsərində yazır: *"İyun, iyul, avqust ayı ərzində baş verən hadisələrdən sonra Baba xan (Fətəli şah Qacarın əsl adı Baba xan olmuşdur – A.A.) Azərbaycan xanları üzərində hakimiyyətini gücləndirmək üçün onları təhdid etdi. Onun sərkərdəsi Pirqulu xan şahın fərmanı ilə Azərbaycanda oldu"* (161, s.527). Butkovun qeydlərindən aydın olur ki, o, İrəvan xanından Naxçıvan xanlığından İrəvana köçənlərin geri qaytarılmasını tələb

etməli, ya da İrəvan xanı bunun əvəzində yüz min rubl ödəməli idi (161, s.527).

Bəs Pirqulu xanın "Naxçıvan xanlığından köçənlərin geri qaytarılması" tələbi hansı köçənlərlə bağlı idi? Tədqiqatlarımız göstərir ki, bu köçənlər əsasən Ağa Məhəmməd şah Qacar tərəfindən kor edilmiş, Fətəli şah Qacar tərəfindən isə yalnız İrəvanda yaşamasına icazə verilmiş Kalbalı xanın tərəfdarları və təbəələri olmuşdur. Knyaz Yeqor Xubov 1811-ci ildə nəşr olunmuş əsərində Kalbalı xanın (Y.Xubov xanın adını Kelbalay xan kimi qeyd etmişdir – *A.A.*) İrəvanda məskunlaşmasından sonra onun təbəələrinin bu şəhərə köçdükləri haqqında məlumat vermişdir (229, s. 48-52).

P.Butkov da "Qafqazın yeni tarixinə dair materiallar" adlı əsərinin ikinci cildində bu fakta toxunmuşdur (161, s.514). Azərbaycan tarixçilərindən Fuad və Mirabdulla Əliyevlər "Naxçıvan xanlığı (1747-1828)" əsərlərində (29, s.67), E.Qarayev "İrəvan xanlığı (1747-1828)" monoqrafiyasında (71, s.92) Kalbalı xanın İrəvanda məskunlaşmasından sonra yaxın tərəfdarlarının xeyli hissəsinin Naxçıvandan İrəvana köçməsindən bəhs etmişlər. Naxçıvandan İrəvana köçənlər əsasən Kəngərli tayfalarına mənsub olan ailələr olmuşlar. M.İvanov hicrət edən Kəngərlilərin 200 ailədən ibarət olduqlarını qeyd etmişdir (181, s.162). Naxçıvan xanlığında Qacar xanədanının təyin etdiyi idarəçi olan Abbasqulu xan belə axının qarşısını ala bilmədiyi üçün tezliklə hakimiyyətdən uzaqlaşdırıldı. Belə bir vəziyyətdə mərkəzi Qacar hakimiyyətinin himayəsindən məhrum olan Abbasqulu xan da İrəvana Kalbalı xanın yanına getdi. Bu isə xanın mövqelərini daha da möhkəmləndirdi.

Lakin göstərmək lazımdır ki, K.F.Knorrinqin geri çəkilməsindən sonrakı dönəmdə Qacarların fəallaşması rusları o qədər də qorxutmamış, Rusiya Qacarların bu təhdidi qarşısında geri çəkilməmiş, əksinə fəallığını artırmağa başlamışdı. 1802-ci ildə Cənubi Qafqazda rus ordusunun baş komandanı K.F.Knorrinq P.D.Sisia-

novla əvəz olunduqdan sonra Fətəli şah Pirqulu xanı geri çağırdı. Yerli əhalinin rəğbətini qazanmaq məqsədilə Fətəli şah bu zamana qədər İrəvan xanlığında yaşayan Kalbalı xanı Naxçıvanın hakimi kimi tanıdı. Lakin Kalbalı xan Naxçıvana qayıtdıqdan sonra həm xərac verməkdən, həm də Fətəli şah Qacarın hakimiyyətini tanımaqdan imtina etdi. Platon Pavloviç Zubov 1835-1836-cı illərdə nəşr edilmiş "1800-1834-cü illərdə Qafqaz ölkələrində rus hərbiçilərinin istilaları" adlı kitabının birinci cildində yazır: *"Naxçıvan xanı nəinki xərac verməkdən imtina etdi. O həmçinin Fətəli şahı İranın hökmdarı kimi də tanımadı"* (179, s.72). Kalbalı xanın Fətəli şah Qacara (Baba xana) analoji münasibəti ilə bağlı E.Xubov da 1811-ci ildə nəşr olunmuş əsərində məlumat vermişdir (229, s.14). O yazır: *"O, (Kalbalı xan – A.A.) Baba xanı tanımaqdan və ona vergi verməkdən imtina etdi. Şah onu ələ keçirmək və itaət altına almaq üçün hərbi dəstə göndərsə də, Kalbalı xan İrəvan xanının yanına getdi"* (229, s.13-14). Fətəli şah onu ələ keçirmək üçün cəhdlər etsə də, Kalbalı xan bir müddət qaynı İrəvanlı Məhəmməd xana sığınmalı oldu (179, s.72).

Bu dövrdə İbrahimxəlil xanın başçılıq etdiyi Qarabağ xanlığı aktiv xarici siyasət yeridir və qonşu xanlıqları özünə tabe etməyə çalışırdı. İbrahimxəlil xan qayınatası Avar Ümmə xanla birlikdə Naxçıvan xanlığının ərazilərinin, o cümlədən xanlığın paytaxtının ələ keçirilməsinə çalışırdı. Qeyd edək ki, hələ XVIII əsrin sonunda Qarabağ xanı ilə Avar hakiminin Naxçıvan şəhərini ələ keçirməsinə qarşı İrəvan, Naxçıvan və Xoy xanları birlikdə mübarizə aparmışlar. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, bu dövrdə bölgədə Osmanlı dövləti ilə sıx əlaqələri olan Qarabağ xanlarının Naxçıvana qoşun göndərmələri heç də bütün hallarda işğal məqsədi daşımamış, bəzi hallarda Naxçıvan ərazisinin, o cümlədən Naxçıvan şəhərinin gürcü və rusların hücumlarından qorunmasına xidmət etmişdir. Türkiyə Cümhuriyyətinin Başbakanlık Osmanlı Arxivində "Xətti-

Humayun Təsnifi” fondunda saxlanılan 765 nömrəli sənəddə hələ XVIII əsrin sonlarında baş vermiş belə hadisələrdən biri barədə bəhs olunur (235). Sənəd hicri təqvimi ilə 9 Məhərrəm 1202-ci ilə aiddir. Bu tarixi miladi təqvimə çevirdiyimiz zaman sənədin 22 oktyabr 1787-ci ildə tərtib olunduğu aydınlaşır. Qarabağ xanı İbrahimxəlil xanın bölgədəki Osmanlı qoşunlarının sərkərdəsinin məktubu əsasında hazırlanmış məlumatda deyilir: *“Mesfûr İrakli Han küffâr-ı Gürciyyeden ve Rusyadan bir cem‘-i kesîr cünûd-ı merdûd İrvan semtine irsâl edüp, ahâlî-i İrvan küffâr-ı Gürcüye tâbi‘ olmak hasebiyle ana mütâba‘at edüp hulâsa-i kelâm sekiz bin nefer Gürciye ve Rusya ve İrvan'dan ictimâ‘ birle Nahçıvan beldesi üzerine hurûc edüp katl ü gâret-i İslâma kasd etdikde hân-ı mümâileyh, def‘leri içün kosun ta‘yîn edüp ve cengü cidâl-i sa‘b ve mukâbele-i sedîde vâkı‘ olup bi-hamdihî te‘âlâ asâkir-i İslâm mansûr ve küffârın kosun-ı mel‘ûnu maglûb ü münhezim ve kefere bünyâdı harâbü münhedim olup, bu kazıyye bu sene evâ’il-i tâbistânında vâkı‘ olmus oldugun”. (“Adını çəkdiyimiz İrakli xan kafir Gürcüstandan və Rusiyadan topladığı əsgərlərdən ibarət ordunu İrəvan istiqamətinə göndərib. İrəvan əhalisi kafir Gürcüstanına tabe olmaq hesabıyla ona itaət edib, sözün qısası, 8000 nəfərlik Gürcüstan, Rusiya və İrəvan qoşunu Naxçıvan şəhəri üzərinə hücum edib müsəlmanları qətl və qarət etmək istədikləri vaxt adı çəkilən xan (Qarabağ xanı İbrahimxəlil xan nəzərdə tutulur – A.A.) qoşun toplayaraq döyüşmək məqsədi ilə onların qarşısına çıxıb və Allaha həmd olsun ki, İslam qalib, kafirlərin qoşunu isə məğlub olub”)* (235).

Lakin Qarabağ xanının 1791-ci il yürüşü Naxçıvanı hansısa yadelli qüvvələrdən müdafiə etmək yox, sırf öz hakimiyyətini gücləndirmək məqsədi daşıyırdı. Belə ki, 1791-ci ilin dekabrın əvvəllərində Qarabağ xanı İbrahimxəlil xan Naxçıvan xanlığını özünə tabe etmək üçün qohumu Avar xanı Ümmə xanla ittifaqa girərək 11 minlik

qoşunla Naxçıvan qalasına yürüş etmişdi (71, s.82). Təhlükə qarşısında qalan Kəlbəli xan İrəvan xanı Məhəmməd xandan və Xoy xanından kömək istəmiş, nəticədə birləşmiş qoşunlar Naxçıvan qalasını mühasirəyə alan İbrahimxəlil xanın və Ümmə xanın qoşunlarını məğlub edərək onları xanlıqdan geri çəkilməyə məcbur etmişdilər (29, s.63). Bu barədə Mirzə Yusif Qarabaği yazır: *"O zamanlar Naxçıvan hakimi Kəlbəli xanla İbrahim xanın arasında ədavət törənmişdi. Buna görə də Dağıstan ləzgilərindən kömək istədi və Dağıstan hakimi Ümmə xanın köməyinə gəldi. İbrahim xan Qarabağın atlıları və könüllüləri ilə birlikdə hərəkət etdi. Kəlbəli xana cəza vermək qərarına gəldi və onun olduğu Qarababaya yetişərək dayandı. Qoşuna kəndləri və əkin yerlərini dağıtmaq əmrini verdi... Tiflis istiqamətində geri çəkilən Kəlbəli xanın köməyinə, onun xahişi ilə məşhur Zeylanları və Qarapapaqları göndərən İrəvan xanı çatdı. Ciddi müqavimətə rast gələn İbrahimxəlil xan geri – Qarabağa çəkilməyə məcbur oldu"* (68, k.2, s.82).

Yuxarıda da qeyd etdiyimiz kimi, XIX əsrin əvvəllərində Qarabağ xanlığının xarici siyasətinin yenidən aktivləşməsi müşahidə edilməyə başlanmışdır. 1803-cü ildə İbrahimxəlil xan Avar Əmmə xanı öz dəstələri ilə birlikdə Naxçıvan üzərinə göndərdi və Naxçıvan şəhəri ələ keçirildi. A.Bakıxanov buna baxmayaraq, Qarabağ və Avar hakimlərinin birləşmiş qüvvələrinin tez bir zamanda Naxçıvan xanı tərəfindən məğlub edilərək geriyə qaytarılması barədə məlumat vermişdir (20, s.139-140).

Beləliklə, XVIII əsrin sonu XIX əsrin əvvəllərində baş verən hərbi-siyasi proseslərin təhlili belə qənaətə gəlməyimizə imkan verir ki, bu dövrdə Naxçıvan xanlığı təkcə Rusiya və Qacarlar dövləti ilə deyil, həm də Kartli-Kaxetiya çarları, Avar üsmiliyi, Qarabağ, İrəvan, Xoy xanlıqları ilə aktiv hərbi, siyasi əlaqələrə malik olmuşdur. Xanlığın mərkəzi olan Naxçıvan şəhəri də strateji əhəmiyyətinə uyğun olaraq həm hərbi yürüşlərin, həm də aparılan diplomatik siyasi mübarizə və danışıqların şahidi olmuşdur.

### *1.3. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Naxçıvan şəhərinin idarəçiliyi, məhkəmə sistemi və əhalinin sosial strukturu*

XVIII əsrin sonu XIX əsrin əvvəllərində feodal pərakəndəliyi və ara müharibələr, natural təsərrüfatın hökm sürməsi təbii ki, Naxçıvan şəhərinin sosial-iqtisadi durumuna ciddi və mənfi təsir göstərmişdi.

Bu dövrdə Qacarlar imperiyasından formal olaraq asılı halda olan Naxçıvan xanlığında idarəçi xanlar xanlıqdakı bütün torpaqların sahibi sayılırdı. Naxçıvan xanları Kəngərli sülaləsinə mənsub idilər. Kəngərli tayfalarının başçısının həm də xanlığın hakimi olması onun hərbi hakimiyyətini gücləndirirdi. Bu isə xanın həm də qoşunların ali baş komandanı olması anlamına gəlirdi. Xan, ümumilikdə, xanlığın idarəçiliyini həyata keçirdiyindən Kəngərli tayfalarının daxili idarəçiliyini həyata keçirmək üçün xanın köməkçisi olan vəkil seçilirdi (209, s.69). Vəkil adətən tayfanın ən yaşlı üzvlərindən biri olurdu. Xanlığın paytaxtı Naxçıvan şəhəri olduğundan xanlığın idarəçiliyini həyata keçirən xan bu şəhərdə yaşayırdı. Elə bu səbəbdən də bəhs olunan dövrdə paytaxt şəhərlərinin idarəçiliyi çox mürəkkəb xarakter daşıyırdı.

Səfəvilər və Əfşarlar dövründən fərqli olaraq divan (dövlət) torpaqları ilə xanların xüsusi mülkiyyəti (xass) arasında fərq demək olar ki, tamamilə aradan qalxmışdı. Bu dövrdə bəy və ağa təbəqəsinə xanın yaxın qohumları, Kəngərli sülaləsinin tayfa başçıları, Səfəvilər və Əfşarlar zamanında feodal xidməti göstərmiş keçmiş maliklərin nəsilləri aid idi. Bəylərdən təyin edilən mahal naibləri xanların canişini və yerli hakimlər idilər, onlar xanlığa daxil olan mahalları idarə edirdilər. Yerlərdə darğalar və yüzbaşılar naiblərin tabeliyində fəaliyyət göstərirdilər.

Paytaxt şəhərində isə idarəçilik bir qədər fərqli idi. Tarixçi Musa Quliyev yazır ki, Naxçıvan şəhərinin qalası olduğuna görə

şəhəri idarə edənlər qalabəyi və kələntər adlandırılırdılar. Qalabəyilər qala divarları içərisində yerləşən xan sarayının və şəhər qapılarının açarları üçün məsuliyyət daşıyırdılar. Hətta hərbi məqsədlər üçün tikilən qalaların da qalabəyisi var idi (79, s.36).

Qala şəhərlərinin inzibati və hərbi idarəçiliyini həyata keçirən qalabəyi ilə yanaşı, şəhərlərin bir də iqtisadi idarəçiliyini həyata keçirən şəxslər var idi ki, onlar darğa adlanırdı. V.Qriqoryev XIX əsr Naxçıvan şəhərindən bəhs edərkən göstərir ki, əsrin başlanğıcında şəhər idarəçiliyində iki şəxs önəmli rol oynayırdı. Bunlardan biri darğa, digəri isə əsasbaşı idi. Darğa adlanan şəxs şəhərin, xüsusən bazarların fəaliyyətinə və təhlükəsizliyinə gündəlik nəzarət edirdi. O, ərzaq məhsullarının qiymətini müəyyənləşdirirdi (173, s.54). Digər xanlıqlardakı şəhərlərdə olduğu kimi, Naxçıvan şəhərinin darğası da iqtisadi sistemi idarə etməklə yanaşı, həm də şəhər polisi funksiyasını həyata keçirirdi. Darğalar həm də şəhərin ictimai və iqtisadi həyatında şəriət qaydalarının tətbiqinə nəzarət edirdilər. F.Əliyev, U.Əliyev kimi tarixçilər İrəvan şəhərinin, T.Mustafazadə isə Şuşa şəhərinin idarəçiliyindən bəhs edərkən də darğaların analoji funksiyasından bəhs etmişlər (31, s.58-59; 93, s.124).

Əsasbaşı isə gecələr şəhərdə sabitliyin təmin olunması ilə vəzifələndirilmişdi (173, s.54). Əsasbaşılar bəzən keşikçibaşı da adlandırılırdı. Həm darğa, həm də əsasbaşı dəzgah (piştaxta) başına 15 gümüş qəpik toplayırdılar (173, s.54). Şəhər həyatında mühüm rol oynayan şəxslərdən biri də mirablar idilər. Onlar şəhərdəki və şəhərətrafı ərazilərdəki əkin sahələri və bağlara suyun bölüşdürülməsi işinə nəzarət edirdilər (173, s.55). Nəzərə alsaq ki, Naxçıvan şəhəri yayı quraqlıq keçən sərt kontinental iqlimli ərazidə yerləşmişdi, o zaman bu vəzifənin həyata keçirilməsinin nə qədər mühüm olduğunu müəyyən etmək o qədər də çətin olmaz. Suvarma işində mirablara cuvarlar yardımçı olurdular. Cuvarlar sudan istifadəyə nəzarət etməli idilər (198, s.119). İcma daxilində su işlərinə xüsusi

seçilmiş vəkillər və ya dağbaşılar baxırdı (132, s.76).

Şəhərətrafı kəndlər kəndxudalar vasitəsilə idarə olunurdu. Şəhərdə ruhanilər, tacirlər, sənətkarlarla yanaşı, şəhərətrafı kəndlərdə, bostan və bağlarda kənd təsərrüfatı ilə məşğul olan az sayda kəndlilər də yaşayırdılar. İ.Petruşevski yazır ki, Naxçıvan xanlığında kəndlərin və ya böyük olmayan köçəri camaatların idarəçilərinə məlik deyilirdi (209, s.126).

XIX əsrin başlanğıcında Naxçıvan şəhərində məhkəmə hakimiyyəti funksiyasını ən mühüm məsələlər üzrə divan məhkəməsi həyata keçirirdi. Bu məhkəməyə birbaşa olaraq xanın özü rəhbərlik edirdi. Ən ağır və qərarın verilməsi çətin olan cinayət hadisələri zamanı xan baş axundla bu barədə məsləhətləşirdi (173, s.55-56). Divan məhkəməsi həm də müasir dildə ifadə etsək, ali məhkəmə funksiyasını həyata keçirirdi. Baş axundların və qazilərin çıxardıqları qərarlardan narazı qalan təbəələr mühüm məsələlər üzrə bu qərarlardan xana şikayət edə bilirdilər.

Mülki məsələlər üzrə məhkəmə funksiyasını şəriət məhkəmələri həyata keçirirdilər ki, bu məhkəmələrə də şeyxülislam, axundlar və qazılar hakimlik edirdilər. V.Qriqoryevin təsvirlərindən aydın olur ki, xanlıq dövründə məhkəmələrdə qərarların verilməsi üçün İslam hüququndan istifadə edilmiş, cəzalar Qurani-Kərim əsasında müəyyənləşdirilmişdir (173, s.57). F.Abbasovun “Qarabağ xanlığı” əsərinə istinad edən M.Quliyev Naxçıvan xanlığının məhkəmə sistemində daha bir məhkəmə növünün – əsnaf məhkəmələrinin olduğunu göstərmişdir (149, s.66; 79, s.38). Bu məhkəmələr xanlıqlar dövründə əsasən sənətkarların şikayətlərinin həlli məsələlərinə baxırdı. Bu dövr tariximiz üçün bir sıra məsələlər üzrə ayrı-ayrı xanlıqların tarixinə dair analogiya aparmaq mümkündür. Lakin əsnaf məhkəmələri analogiyasının Naxçıvan xanlığı və Naxçıvan şəhəri üçün doğru olub-olmaması fikri bir qədər mübahisə doğura bilər. Çünki bu barədə ilkin mənbələrdə faktlara rast gəlinmir. Lakin

Naxçıvan şəhərinin qədim dövrdən bəri sənətkarlıq və ticarət mərkəzi olmasını nəzərə alaraq, biz də şəhərdə əsnaf məhkəmələrinin fəaliyyət göstərdiyini ehtimal edirik.

XIX əsrin başlanğıcında Naxçıvan şəhərində 5000 nəfərdən çox əhali yaşayırdı. Bu barədə məlumat verən rus ordusunun zabiti mayor Matuşeviç öz raportunda həmçinin qeyd edirdi ki, qış vaxtı şəhərə daha 1000 nəfərə qədər köçəri ailəsi toplaşırdı (23, s. 37). Fikrimizcə, bunlar əsasən Kəngərli tayfa və tirələrinə mənsub olan əhali olmuşdur. Lakin Matuşeviçdən fərqli olaraq hesab edirik ki, bu əhalinin köçəri deyil, yarımköçəri adlandırılması daha düzgündür. Çünki, bu əhalinin hərəkət trayektoriyası birxətli deyil, təkrarlanan gediş-qayıdış tipli olmuşdur. Yəni bu yarımköçəri əhali qış aylarını Naxçıvan şəhərində, yay aylarını isə qoyunçuluq üçün xeyli əlverişli olan Dərələyəz mahalında və Zəngəzur dağlarında keçirirdi. Digər tərəfdən "Azərbaycan etnoqrafiyası"nın I cildində də qeyd edildiyi kimi, artıq XI-XIII əsrlərdə Azərbaycan ərazisində yarımköçəri həyat tərzi köçəri həyat tərzinə nisbətən xeyli geniş şəkil almış və sonrakı əsrlərdə öz mövqeyini xeyli gücləndirmişdir (8, c.1, s.277).

XIX əsrin başlanğıcında Naxçıvan şəhərinin əhalisini iki hissəyə ayırmaq mümkündür: Vergidən azad olanlar və vergi ödəyənlər qrupu. Birinci qrupa zadəgan nəsillərinin nümayəndələri (xanlar, bəylər, rütbəli şəxslər) və ruhani sinfi aid idi. Vergi ödəyənlər qrupuna isə tacirlər, sənayeçilər, sənətkarlar və əkinçilər aid edilirdilər (173, s. 29).

Naxçıvan şəhərinin feodal zadəganları sırasına böyük sərvət sahibləri olan – xanlar, bəylər, məliklər, ağalar, sultanlar, naiblər daxil idi. XIX əsrin başlanğıcında Qacarlardan yarımasılı xanlıq olan Naxçıvan xanlığında şəhərin bəzi əraziləri və şəhərətrafı bəzi yaşayış məntəqələri bir sıra şəxslərə tiyul olaraq verilmişdi. Mənbələrdən aydın olur ki, Abbas Mirzə tərəfindən şəhərətrafı yaşayış

məntəqələrindən Təzəkənd Ehsan xana, Tumbul, Əliabad, Nəzərabad kəndləri Nəzərəli xana, Qoşadizə Fərəc ağaya, Yamxana İbrahim xana, Badaşqan Cəfərqulu bəyə, Uzunoba Həsən ağaya tiyul olaraq verilmişdi (173, s.121-125).

Bu dövrdə Naxçıvan şəhərinin əhalisinin tərkibində maraq doğuran qruplardan biri də seyyidlər idi. Əhali arasında İslam peyğəmbərinin qızının övladları imam Həsən və imam Hüseynin soyundan gəldiklərinə inanılan şəxslərə seyyid deyilirdi (147, s.87-88). V.Qriqoryev göstərir ki, bu şəxslər yuxarı təbəqəyə aid edilməsələr də, İslam peyğəmbərinin soyuna bağlı olduqları üçün vergidən azad idilər (173, s.29-30). Rus işğalına qədərki dövrdə bölgədə yaşayan azsaylı qeyri-müsəlman əhalisi öz camaatları daxilində müəyyən imtiyazlı və imtiyazsız təbəqəyə bölünsələr də, ümumilikdə götürdükdə vergi verən qrupa aid edilirdilər (173, s.31). Müharibələr dövründə vergiverən təbəqədən orduya cəlb olunanlar da orduda xidmət etdikləri dövrdə vergidən azad olunurdular (173, s.60).

### *1.4. XIX əsrin əvvəllərində Naxçıvan şəhər əhalisinin iqtisadi həyatı və vergilər*

XIX əsrin başlanğıcında Naxçıvan şəhərində yaşayan şəhər əhalisinin verdiyi vergilər stabil olmamışdır. Bunun səbəbi xanlıq tarixinin bu dövründə hakimiyyətin müxtəlif səbəblərdən əldən-ələ keçməsi ilə bağlı olmuşdur. Vergilər pul ödəməsi və məhsulla verilirdi. Pulla ödənən vergilər il ərzində üç dəfə toplanılırdı. Vergilər yasavul adlanan məmurlar tərəfindən toplanılırdı. Yasavullar bu fəaliyyəti həyata keçirməyə görə xüsusi maaş almırdılar. Onlar sadəcə toplanılan verginin məbləğinin yüzdə on faizi miqdarında qulluq pulu tələb edə bilərdilər (173, s.61).

XIX əsrin başlanğıcında şəhər əhalisinin ödədiyi şəxsi

vergilər sırasında aşağıdakıları qeyd edə bilərik:

– başpulu – şəhərin 15 yaşı tamam olmuş hər bir kişi sakinindən alınırdı. V.Qriqoryevin qeydlərinə görə bu verginin məbləği 3 minaltunla (Dövrün rus valyutası ekvivalenti ilə 1 rubl 20 qəpiyə bərabər idi) 5 minaltun (Dövrün rus valyutası ekvivalenti ilə 2 rubla bərabər idi) arasında dəyişirdi.

– ev-pulu – hər bir təsərrüfat başına toplanan bu vergi 2 gümüş rubl miqdarında idi.

–bezi – bu vergi toxucular tərəfindən ödənilən vergi idi (173, s.103).

Dövrün mənbələrində torpaq və məhsul vergisi üzrə də şəhər əhalisinin ödədiyi vergilər barədə məlumatlar da vardır (173, s.105-107). Dövrün bütün şərtlərini nəzərdən keçirərək ümumilikdə belə qənaətə gəlirik ki, şəhər sakinləri xəzinəyə aşağıdakı ödənişləri etməli idilər: mancanaq pulu, toxucu pulu, bağpulu, bayramlıq, toyxərci, dəyirmanpulu. Bunlardan əlavə, hamamdan, karvansaradan və dükan binalarından istifadə etmək üçün də müəyyən vergilər ödənilirdi. Məsələn, "mancanaq pulu" ev şəraitində mancanaqdan, yəni toxucu dəzgahından istifadə edən toxuculardan alınırdı. "Dəyirman pulu" isə dəyirman sahiblərindən toplanırdı (22, s.55).

V.Qriqoryev 1822-ci ildə Abbas Mirzənin göstərişi ilə tərtib olunmuş məlumatlar əsasında xanlıq idarəçiliyi dövründə Naxçıvan şəhərindən toplanmış vergilər haqqında konkret məlumat vermişdir. Cədvəldən aydın olur ki, bu dövrdə Naxçıvan şəhərinin əhalisindən toplanılan başpulu vergisinin miqdarı 600 rubla,saman pulunun məbləği 178 rubl 45 qəpiyə bərabər olmuşdur. Ümumilikdə, bölgədən yığılan pul vergisinin miqdarı 1378 rubl 45 qəpiyə, taxıl məhsulları ilə ödənilmiş verginin miqdarı isə 178 rubl 45 qəpiyə bərabər idi (173, s.182-183). Qeyd edək ki, göstərilən məbləğ yalnız Naxçıvan şəhərinə aid olub, ətraf kəndləri əhatə etmirdi.

Artıq qeyd etdiyimiz kimi, XIX əsrin başlanğıcında xanlıqla-

rarası çəkişmələr, eləcə də baş verən I və II Rusiya-Qacarlar müharibələri səbəbindən Naxçıvan şəhəri dərin iqtisadi böhran içərisində idi. Şəhərin və şəhərətrafı yaşayış məntəqələrinin məhsuldar qüvvələri demək olar ki, baş verən müharibələr, daxili çəkişmələr nəticəsində dağıdılmışdı. Naxçıvan xanlığının paytaxtı, ümumilikdə, bölgənin iqtisadi və siyasi mərkəzlərindən olan Naxçıvan şəhəri təsərrüfat düşkünlüyü dövrünü keçirirdi. Hələ XVII əsrin sonlarından etibarən Şərq və Qərb ölkələri arasındakı ticarətdə dəniz yollarının əhəmiyyətinin artması da nəticə etibarı ilə keçmişdə mühüm ticarət yolları üzərində yerləşmiş şəhərlərin, o cümlədən Naxçıvan şəhərinin ticarət həyatına mənfi təsir göstərmişdir. Bu prosesdən bəhs edən tarixçi E.İsayev yazır: *"Artıq XVII yüzilliyin sonlarından başlayaraq bütün Şərq dövlətlərinin ticarət iqtisadi həyatında tənəzzül başlayır və bu proses getdikcə dərinləşir. Bu tənəzzül Azərbaycandan da yan keçməmiş, özünü ilk növbədə şəhərlərin həyatında göstərmişdir. Əvvəllər böyük ticarət-sənətkarlıq mərkəzi kimi şöhrət qazanmış iri şəhərlər öz qüdrətini itirmiş, zəifləmiş, hətta kiçilmişdilər"* (58, s.79). XIX əsrin başlanğıcında isə Azərbaycan ərazisində feodal pərakəndəliyinin güclənməsi, xanlıqların müstəqil siyasi vahidlər olaraq mövcud olması ticarət əlaqələrinin zəifləməsini şərtləndirən, dolayısı ilə də şəhərlərin sosial-iqtisadi tərəqqisini ləngidən əsas amillərdən biri idi. Hər bir xanlığın ərazisindən keçərkən ticarət karvanlarının gömrük vergisi ödəməyə məcbur olması ticarəti xeyli çətinləşdirirdi. Bunu nəzərdə tutaraq A.Milman rəhdari sistemini ticarətin inkişafı qarşısında başlıca əngəl kimi qiymətləndirmişdir (193, s.98; 192, s.114).

Beləliklə, əgər orta əsrlərdə Naxçıvan şəhəri Fransa, İtaliya şəhərləri ilə davamlı və güclü iqtisadi ticarət əlaqələrinə malik idisə, XIX əsrdə şəhərin ticarət əlaqələri xanlıq daxili, qonşu xanlıqlar və yaxın qonşu ölkələrlə məhdudlaşırdı. Professor Qabil Əliyev bəhs olunan dövrdə Şimali Azərbaycanda nəqliyyatın inkişafını tədqiq

edərkən Naxçıvan xanlığının mərkəzi olan Naxçıvan şəhərindən keçən ticarət yollarının istiqamətlərinə toxunaraq yazır: *"Naxçıvan xanlığından keçən başlıca karvan yolları İrana və Təbrizə doğru uzanırdı. Bu yollar tranzit ticarətində mühüm rol oynayırdı. Azərbaycanın şimal torpaqlarına İran malları, əsasən, Naxçıvan vasitəsilə daxil olurdu. Eyni zamanda xanlığın daxilində də Naxçıvanı və Ordubadı ayrı-ayrı yerlərlə birləşdirən karvan yolları mövcud idi"* (32, s.18-19). Naxçıvan xanlığından bir sıra xarici bazarlara qırmızı və ağ bez parçalar, düyü, şərab və s. məhsullar aparılırdı. Bez, əsasən, Qarabağa və İrəvan xanlıqlarına, düyü Mərənd, Xoy və Təbriz xanlıqlarına, pambıq parça Bayazid, Qars, Tiflis, Şuşa və digər şəhərlərə ixrac edilirdi (30, s.56). Naxçıvan xanlığının Qacarlardan asılı olduğu dövr barədə məlumat verən İ.Şopen və K.Smirnov göstərirlər ki, bu dövrdə Naxçıvan bazarının dövriyyəsi 80 min tümən idi (224, s.31).

Azərbaycanda, o cümlədən Naxçıvan diyarında qədim zamanlardan əhalinin ənənəvi məşğuliyyət sahələrindən biri də sənətkarlıq olmuşdur. Naxçıvan diyarında sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Başqa şəkildə desək, sənətkarlıq və onun ayrı-ayrı sahələri bir tərəfdən, cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, digər tərəfdən, ölkənin xarici iqtisadi əlaqələrinin göstəricisi kimi çıxış edirdi. Öyrəndiyimiz dövrdə Naxçıvan diyarının əsas şəhərləri olan istər Naxçıvan, istərsə də Ordubadda sənətkarlıq o qədər də yüksək səviyyədə olmamışdır (1, s.72). Bununla belə sənətkarlıq bir çox orta əsr şəhərlərində olduğu kimi, Naxçıvan və Ordubadın da sənayesinin özəyini təşkil edirdi. Yeri gəlmişkən onu da qeyd edək ki, sənətkarlığı təkcə şəhərlərə aid etmək səhv olardı. Çünki kənd yerlərində ilkin tələbatı kənd sənətkarları, xüsusilə dəmirçilər, nalbəndlər, dulusçular və bu kimi sənətkarlar təmin edirdilər (22, s.60). Az olan məhsulu yığdıqdan və

kiçik torpaq sahəsini əkdikdən sonra bekar qalan kəndlilər üçün sənətkarlıq istər-istəməz qış məşğuliyyətinə çevrilmiş olurdu. Belə hallar qışı sərt keçən Naxçıvan xanlığında daha çox gözə çarpırdı. Çox cəhətli təsərrüfatla məşğul olan kəndlilər ilk növbədə öz ailələrinin və təsərrüfatlarının ehtiyaclarını nəzərə alırdılar. Belə ki, kəndli ailələri çörək bişirir, ipək lifləri açır, yunu darayır, yun sapları əyirir, rəngləyir, geyim paltarları tikir, dəri aşılayır, çarıq tikir, xalça toxumaqla məşğul olur, əl dəyirmanlarında un üyüdür, yaşayış evi və tövlə inşa edir, əmək alətləri hazırlayır, dülgərlik və dəmirçiliklə də məşğul olurdular (22, s.60).

Sənətkarlıq şəhərlərdə, xüsusilə Naxçıvan xanlığının siyasi və iqtisadi mərkəzi olan Naxçıvan şəhərində mərkəzləşmişdi. XVIII əsrin sonunda Azərbaycan şəhərlərində, o cümlədən Naxçıvanda aşağıdakı sənət və peşələr mövcud idi: dərzi, papaqçı (börkçü), çəkməçi (başmaqçı), zərgər, sərrac, dəmirçi, misgər, toxucu, boyaqçı, qəssab, çörəkçi, bənna, xarrat, dülgər, şüşəsaz, keçəçi, palançı, dabbaq, bəzzaz, kababçı və s. (30, s.54). Sənətkarlıqda primitiv texnikadan istifadə edildiyindən hər bir sənətkardan yüksək ustalıq tələb olunurdu.

Yuxarıda sadalanan sənət növlərindən Naxçıvan xanlığında toxuculuq, xüsusilə pambıq parça toxumaq sənətinin daha geniş yayılmasını mübaliğəsiz qeyd etmək olar. Toxuculuqla məşğul olan hər bir ailədə, demək olar ki, primitiv da olsa əyirici və toxucu dəzgahı (mancanaq) var idi. Bu barədə İ.Şopenin əsərində oxuyuruq: *"Buradakı sənətkarların əksəriyyətini toxucular təşkil edirlər. Hər ailənin öz dəzgahı vardı ki, bu dəzgahlarda da qadınlar iplərdən bez toxuyur və pambıq parça hazırlayırlar"* (231, s.851). Mütəxəssislərin verdiyi məlumata görə, təkcə Naxçıvan şəhərində 40 ailədə bez parça toxunurdu. Toxuculuq məhsulları ilk növbədə hər bir ailənin öz təsərrüfat-məişət tələbatını ödəyirdi. Naxçıvan şəhərində pambıq parça istehsalını ifadə edən sənət növü bəzzazlıq və

ya culfaçılıq adlanırdı (96, c.1, s.87).

Naxçıvanda boyaqçılığın inkişafına da diqqət yetirilirdi. Yunun və müxtəlif ev əşyalarının boyanılmasında təbii bitkilərdən istifadə olunurdu (1, s.73).

Naxçıvan şəhərində şüşəsazlıq inkişaf etmiş sənət sahələrindən biri idi. Burada hasil olunan adi şüşələrlə yanaşı, şəbəkələrin hazırlanmasında istifadə olunan al-əlvan şüşələr də hazırlanırdı. Tədqiqatçılar Matenadaran arxivlərində saxlanılan sənədlərdən biri əsasında müəyyən etmişlər ki, İrəvan xanlığının hakimi Hüseyn Əli xan Naxçıvana məktub göndərərək Kalbalı xandan İrəvan şəhərində tikdirdiyi hamamın pəncərə şəbəkəsi üçün 400 ədəd müxtəlif rəngli şüşə göndərilməsini xahiş etmişdir (30, s.55). Beləliklə, elə qənaətə gəlmək olar ki, Naxçıvanın şüşə istehsal edən sənətkarları öz məhsullarını xaricə göndərmək iqtidarında idilər. Bu isə həmin sənətkarların yüksək iş qabiliyyətinə malik olmalarına işarədir.

Bu dövr Azərbaycan şəhərlərinin əksəriyyətində sənətkarın emalatxana-dükanları əsasən bazar meydanlarında cəmləşirdi. Bu isə başlıca olaraq yerli, xarici və tranzit ticarətlə bağlı idi. Naxçıvan bazarında irili-xırdalı 138 dükan vardı (227, s.9; 150, s.88). Naxçıvan bazarında dükansız fəaliyyət göstərən peşə sahibləri də var idi ki, onları peşələri üzrə bu və ya digər yerlərdə işləmək üçün dəvət edirdilər. Həmin peşə sahiblərinə daşyonan (daşkəsən), bənna, xarrat, dülgər və b. daxil idilər.

Naxçıvan diyarında maldarlığın inkişafı burada gön və dəri işləmə üzrə sənətkarlığın inkişafı üçün əlverişli zəmin yaratmışdı. Şəhərdə bu sahədə on dükan (emalatxana) fəaliyyət göstərirdi. Naxçıvan diyarında qoyunçuluğun inkişafı sayəsində əldə edilən yun xalçaları lazımi qədər xammalla təmin edirdi. Naxçıvan xalçaçılarının hazırladıqları gəbə, palaz, xalça, cecim, məfrəş evin otaqlarını bəzəmək üçün, xurcun və çuval yola çıxanlar üçün istifadə olunurdu. Naxçıvan diyarında toxunan və xarici bazarda ən çox

satılan parçalardan qırmızı rəngli bez parça olmuşdur. Bez parça çox zaman daha artıq ehtiyac duyulan Qarabağ və İrəvan xanlıqlarına satmağa aparılırdı.

XIX əsrin başlanğıcında – yəni Rusiya işğalına qədərki dövrdə Naxçıvan şəhərində sənayenin əsas sahələrindən biri duzçıxarma sənayesi olmuşdur. Daşduz Şıxmahmud, Cəhri və Sust kəndləri arasındakı dağlıq ərazidən çıxarılırdı. 1828-ci ilədək duz mədənləri Kalbalı xanın ixtiyarında olmuşdur (12, c.4, s.70). Naxçıvan şəhərində və göstərilən kəndlərdə yaşayan əhalinin bir hissəsi bu mədənlərdə duz çıxarılmasına təhkim olunmuşdu. Z.Şahverdiyev yazır ki, XVIII əsrin sonlarınadək Naxçıvanda duz istehsalı ilə istisnasız olaraq Cəhri kəndinin sakinləri məşğul olurdular. Lakin Kalbalı xanın vaxtında, XIX əsrin əvvəllərində cəhrililər bu işdən kənarlaşdırılmış, duz çıxarılması hüququ Şıxmahmud kəndinin sakinlərinə verilmişdi (132, s.84).

XVIII əsrin sonu XIX əsrin əvvəllərində Naxçıvan şəhəri dəfələrlə əldən-ələ keçmiş, müxtəlif müharibələr nəticəsində şəhərdə talanlar olmuşdur. XIX əsrin 20-ci illərində Naxçıvanda olmuş Robert Ker Porterin də yazdığı kimi XIX əsrdə şəhərin əvvəlki ehtişamı böyük ölçüdə azalmışdı.

Bütün bunlara baxmayaraq, şəhərin keçmiş ehtişamını əks etdirən memarlıq abidələrinin bir çoxu durmaqda idi. Robert Ker Porter öz səyahəti zamanı Naxçıvan şəhərinin içqalasında yerləşmiş qüllələri, məscidləri və bəzi dağılmış evlərin qalıqlarını görmüşdü.

Bu dövrdə şəhərdəki ən möhtəşəm binalardan biri Xan sarayı idi. Hələ XVIII əsrin sonlarında inşa edilmiş bina Şərq memarlıq üslubunda tikilmişdi. H.Səfərli yazır ki, sarayı Naxçıvan xanlığının ən qüdrətli xanlarından olan Kalbalı xan Kəngərli tikdirmişdir (127, s.162). Qədim Qala məhəlləsində yerləşən binanın yüksək təpə üzərində inşa edilməsi onun möhtəşəm görünüşünü daha da əzəmətli göstərirdi (96, c.1, s. 245). XIX əsrin 30-cu illərində Naxçıvanda

olmuş fransız səyyahı Dyuba de Monpere Xan sarayını "bir neçə həyət və çoxlu zəngin bəzədilmiş otaqdan ibarət saray" kimi dəyərləndirmişdir (121, s.217) (Əlavə № 1).

XIX əsrin II yarısında Naxçıvan şəhərində Xan sarayı (Köhnə xan evi) ilə yanaşı yeni bir Xan evi də inşa etdirilmişdir. Bu səbəbdən bəzi XIX əsr mənbələrində Naxçıvan xanlarının XVIII əsrin sonlarında inşa edilmiş sarayı üçün "Xan evi" ifadəsi işlədilsə də qarışıqlıq yaranmasın deyə biz kitabda o memarlıq abidəsindən yalnız "Xan sarayı" olaraq bəhs etməyi məqsədə müvafiq hesab etdik. XII əsrin memarlıq abidəsi olan Möminə Xatın Günbəzi ilə Xan sarayı arasında məsafə 50-60 metrdir. Qeyd edək ki, 1834-cü ildə Qafqaza gələn məşhur fransız səyyahı Dyubua de Monpere əsərində Möminə Xatın Günbəzindən Atabəy Günbəzi olaraq bəhs etmişdir (Əlavə № 1). Bu dövrdə günbəz bəzən Xan günbəzi kimi də mənbələrdə xatırlanmışdır (96, c.1, s.246). Naxçıvan Tətbiq və Tətəbbö Cəmiyyətinin 28 iyun 1926-cı il tarixli 24 nömrəli protokolunda da İ.Əzimbəyov türbədən "Xanlıq minarəsi" olaraq bəhs etmişdir (56, s.45).

Şotland səyyahı Robert Ker Porter səyahətnaməsində şəhərin keçmiş ehtişamını əks etdirən möhtəşəm memarlıq nümunəsi sayıla biləcək iki məscid haqqında məlumat vermişdir.

Araşdırmalarımız nəticəsində müəyyən edə bildik ki, Ker Porterin bəhs etdiyi məscidlərdən biri Zaviyə məscidi olmuş, bu məscidin fasad hissəsi yaşıl, mavi və qırmızı rəngli kaşılarla bəzədilmişdi. Qeyd edək ki, tədqiqatçıların fikrincə, Zaviyə məscidi XVII-XVIII əsrlərdə inşa edilmiş memarlıq abidəsidir (97, c.2, s.69). XIX əsrin II yarısında Zaviyə abidəsində əsaslı təmir aparılmışdır. H.Səfərli yazır ki, XIX əsrin axırlarında aparılan təmir işləri zamanı yeni tikintilər və formalar əlavə olunduğundan binanın memarlıq quruluşu xeyli dəyişdirilmiş, əvvəlki zamanların tikintisində istifadə olunan çatma tağlar və sferik günbəzlər əvəzinə, XIX əsrin

mürəkkəb xətli tağları və düz dam örtüyü ilə əvəz edilmişdir (127, s.67). Naxçıvandakı Zaviyə məscidinin fəaliyyəti 1924-cü ilədək olmuş, şəhərdəki Rus Şura hökuməti gələndən sonra burada təmir işləri aparılaraq yenidənqurma nəticəsində içəridə tamaşa zalı olan kiçik səhnə düzəldilmiş, 12 metrlik minarəsi isə yarıyadək sökülmüşdür (18, s.16). Qeyd edək ki, Zaviyə binası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı və dəstəyi ilə 2008-ci ildə əsaslı şəkildə təmir və bərpa olunmuşdur.

K.Nikitin isə şəhərdə XIX əsrin ortaları üçün 4 məscidin mövcudiyyətindən bəhs etmişdir (198, s.121). Lakin əsaslı tarixi faktlar və mənbələrdə saxlanılan məlumatlar sübut edir ki, bu dövrdə Naxçıvan şəhərində Came məscidi və Zaviyə məscidindən əlavə Pir-xamuş, Şahab və Əlixanlı məscidləri də fəaliyyət göstərmişdir. Ehtimal ki, bu məscidlərin binalarının məhəllələrdəki yaşayış evlərindən fərqlənməməsi, möhtəşəmliyi ilə diqqət çəkməməsi dövrün müəlliflərinin bu məscidlərin fəaliyyətindən bəhs etməməsinə səbəb olmuşdur.

Xanlıq dövründə təhsillə əsasən din xadimləri məşğul olurdular. Məscidlərin nəzdində böyük və yaxud kiçik molla məktəbləri və mədrəsələr fəaliyyət göstərirdi. 1831-ci ilə aid kameral sənədlərdə Naxçıvan şəhəri ilə bağlı verilmiş məlumatda şəhərdə fəaliyyət göstərən iki məsciddən bəhs edilmiş və bu məscidlərdən birinin nəzdində məktəbin fəaliyyət göstərdiyi qeyd olunmuşdur (236, v.10). Aşağı sinif müəllimlərini müdərris, yuxarı sinif müəllimlərini isə vaiz adlandırırdılar. Xanlıq dövründə mədrəsələrdən əlavə ruhani məhəllə məktəbləri və təkyələr də təhsil sisteminin ayrılmaz parçası hesab edilirdi. Burada ərəb və fars dilləri, dini və şəri hökmlər, qismən də riyaziyyat, həndəsə, tibb, ədəbiyyat kimi elmlərin əsasları öyrədilirdi. Məktəblər ibtidai təhsil verən, mollaxanalar orta təhsil verən, mədrəsələr isə ali təhsil verən tədris müəssisələri hesab olunurdu (120, s.131-132). Mənşəcə fransız olan İ. Şopenin məlu-

matlarından aydın olur ki, Naxçıvan ərazisi Rusiyaya ilhaq edildiyi dövrdə Naxçıvan şəhərində mədrəsə fəaliyyət göstərirdi (231, s.479).

Son tədqiqatlar sübut edir ki, Naxçıvanda xanlıq dövründə nəinki mükəmməl mədrəsə təhsili sistemi, eləcə də müxtəlif elmlərin əsaslarının öyrənildiyi elm mərkəzləri də fəaliyyət göstərmişdir. Belə elm mərkəzlərindən biri müdavimləri arasında Naxçıvan şəhərinin sakinlərinin də olduğu Ordubad şəhərində fəaliyyət göstərən "Əl-Həqiqət" adlı məşhur elm mərkəzi olmuşdur. Qeyd edək ki, bu elm mərkəzi haqqında qiymətli məlumat AMEA Naxçıvan Bölməsi Əlyazmalar fondunun əməkdaşı, Əlyazmaların toplanması şöbəsinin müdiri Fəxrəddin Eylazovun araşdırmaları zamanı ortaya çıxarılmış və elmi ictimaiyyətə təqdim edilmişdir. Tədqiqatçının fikrincə, həmin mərkəz bir neçə istiqamətdə elmi tədqiqatlarla yanaşı, həm də onun təlim və tədrisini həyata keçirirmiş. Elmi mərkəzin aparıcı simalarından biri olmuş Məhəmməd Həsən Ordubadinin 1860-cı ildə yazdığı əsərini təhlil edən tədqiqatçı belə bir qənaətə gəlmişdir ki, əsər mövzu baxımından dəqiq və humanitar elmləri əhatə edərək astronomiya, həndəsi fiqurların fəza nəzəriyyəsi, riyaziyyat və coğrafiyanın müxtəlif sahələrinə aiddir (115, s.4).

# II HİSSƏ

## *Rus işğalı və ondan sonrakı dövrdə Naxçıvan şəhəri*

### *2.1. Naxçıvan şəhəri Rusiya və Qacarlar dövləti arasındakı I və II müharibə dövründə*

1804-cü il iyun ayının 10-da başlayan I Rusiya-Qacarlar müharibəsi dövründə Naxçıvan şəhəri Cənubi Qafqazda ən nüfuzlu xanlıqlardan biri olan Naxçıvan xanlığının paytaxtı kimi təkcə hərbi proseslərin deyil, həm də tarixi-siyasi proseslərin mərkəzində yer almışdır. İndiyə qədər aparılan tədqiqatlarda obyektiv və subyektiv səbəblərdən müharibənin gedişatına daha çox çar Rusiyası mövqeyindən yanaşıldığı üçün birinci müharibədə Naxçıvan xanlığının və onun mərkəzi olan Naxçıvan şəhərinin elə də aktiv rol almadığı qənaətinə gəlinmişdir. Halbuki müharibənin və hərbi proseslərin gedişlərinə Qacarlar dövlətinin nöqteyi-nəzərindən baxdığımız zaman aydın olur ki, Naxçıvan şəhəri bu dövlətin qoşunlarının əsas qərargahlarından birinin yerləşdiyi areala daxil olmuşdur. Şimali Azərbaycanda rus qoşunları ilə mübarizə aparan Qacar dövlətinin qoşunlarının Araz çayından şimaldakı ərazidə əsas istinad nöqtələrindən biri məhz Naxçıvan şəhəri olmuşdur. Özlərini bir növ Səfəvilərin və Əfşarların idarə etdiyi torpaqların yeni hüquqi idarəçiləri hesab edən Qacarlar üçün də Naxçıvan şəhərinin ciddi əhəmiyyəti var idi. Robert Qrant Uatson 1865-ci ildə nəşr etdirdiyi "Persiya tarixi. XIX əsrin əvvəllərindən 1858-ci ilə qədər. Qacarlar Xanədanı" adlı əsərində İrəvan istiqamətinə hərəkət edən Qacar qoşunlarına rəhbərlik edən şahın şəxsən Naxçıvan şəhərindəki düşərgədə olması ilə bağlı məlumatlara rast gəlirik.

Lakin Kəngərli nəslindən olan Naxçıvan xanları, xüsusən Kalbalı xan Qacarların da Səfəvilər kimi qanuni hökm sahibi olduğunu qəbul etmirdi. Rus müəlliflərinin əksəriyyəti, eləcə də bu müəllif-

lərə istinad edən bir sıra tədqiqatçılar Kalbalı xanın Qacarlara qarşı belə sərt münasibətinin əsas səbəbi kimi şəxsi qisasçılıq hissini qabardırlar. Onun gözlərinin məhz Ağa Məhəmməd şah Qacar tərəfindən çıxartdırıldığı üçün Qacarlara qarşı aqressiv mövqe nümayiş etdirdiyini yazırlar. Lakin Kalbalı xan kimi vətənpərvər və diplomatik-siyasi prosesləri yaxşı dərk edən bir xanın sadəcə şəxsi qisasçılığa görə belə bir münasibət nümayiş etdirməsi məntiqli ola bilməz. İlk növbədə göstərmək lazımdır ki, Kalbalı xanın gözlərinin çıxarılmasının səbəbi onun Qacarlara itaətsizliyi idi. Bu itaətsizlik isə ondan doğurdu ki, Kəngərlilər də özlərini Qacarlar kimi Səfəvi dövlətinin qurucu sülalərindən biri hesab edir və eynihüquqlu olduqlarını irəli sürürdülər. Qarabağın otuzikilər və iyirmidördlər tayfaları kimi, bir zamanlar Ustaclılarla tayfa ittifaqında olmuş Kəngərlilər hələ Suqovuşan qurultayında (1736) Nadir şahın da Səfəvi xanədanına mənsub olmaması səbəbindən hakimiyyətinin leqallığını da qəbul etməmişdilər.

Digər tərəfdən Kalbalı xan anlayırdı ki, artıq Osmanlı dövləti də, Qacarlar dövləti də sürətlə güclənməkdə olan Rusiyanın Qafqaz siyasətinə mane ola bilməyəcəklər. Belə bir vəziyyətdə dövrünün ən tanınmış strateqlərindən və diplomatlarından biri kimi Kalbalı xan aparılan savaşların Naxçıvan şəhərinin taleyində ağrılı rol oynamaması üçün mühüm addımlar atırdı. Kalbalı xanın hələ Pəmbək və Şörəyel istiqamətində hərəkət edən rus qoşunlarının komandanlıqları ilə apardığı danışıqlarda onları bundan çəkindirmək istəməsinin özü də xanlığını və onun baş şəhəri olan Naxçıvan şəhərini qorumaq istəyindən irəli gəlirdi (151, sənəd 625; 107, c. 2, s.80-81).

1805-ci ildə, Qacar xanədanının vəliəhdi Abbas Mirzə Naibüssəltənə ləqəbi ilə Azərbaycan hakimi təyin edildi (20, s.141). Şahzadə Naxçıvan və İrəvanın əldə saxlanılmasına ciddi cəhdlər göstərirdi. Hələ 1807-ci ilin aprelində general Qudoviçin başçılığı ilə rus qoşunlarının Osmanlı əleyhinə Qars istiqamətində döyüşlər

apardığı dövrdə Qacar qoşunlarına rəhbərlik edən Abbas Mirzə öz qoşunları üçün əsas qərargah olaraq Naxçıvan şəhərini seçmişdi. Osmanlılara ruslara qarşı dəstək verən Abbas Mirzə 1807-ci ilin iyunun 18-də Arpa çayının sahilindəki Kiçik Qarakilsə kəndində rus qoşunlarının türkləri məğlub etməsindən sonra (153, c.3, sənəd 810) dərhal sərbazları ilə Naxçıvana çəkilmişdi.

Qeyd edək ki, bəhs edilən dövrdə P.D.Sisianovun simasında ruslar da Naxçıvan şəhərinin və ümumilikdə bölgənin ələ keçirilməsini strateji məqsədlərdən biri hesab edirdilər. Təsadüfi deyildir ki, Sisianov xanlıqdakı qüvvələri bir-birinə qarşı qoymağa çalışır, Sisyan qalasına çəkilmiş Abbasqulu xanı yenidən hakimiyyətə gətirməklə öz işğalçı siyasətlərini reallaşdırmaq istəyirdi. 1805-ci ilin avqustunda Sisianov Naxçıvan ağsaqqallarına, ruhanilərinə və bəylərinə məktubunda yazırdı: *"Persiya rəislərinin... etibarsız olduqlarını, hətta eyni dindən olmağınıza baxmayaraq, sizə əzab və əziyyət verdiklərini xatırlamağa ehtiyac yoxdur. Bu barədə misal gətirməyə də lüzum qalmır. Özünüz görürsünüz ki, məkrli persiyalılar Baba xanın oğlu Abbas Mirzənin göstərişi ilə Mustafa xanın qoşunları öz din qardaşlarını soyub qarət etdilər. Baba xanın xəyanətini irəvanlı Məhəmməd xanın başına gətirdiyi əhvalatdan gördünüz. O, məni satıb, onlara üz çevirdi. Nəticədə persiyalılara etibar etdiyinə görə xanlıq da əlindən çıxdı. Həbs edildi və qarət olundu. Mənim bu günlərdə aldığım dəqiq məlumata görə o, özünün ağsaqqalları və yaxın adamları ilə birlikdə Persiyaya sürgün ediləcək. Bax budur onların şərikli siyasətinin nəticəsi... Başqa cür desək, onlar əvvəlcə baş tumarlayır, sonra isə ata-babalarının ev tikdikləri yerlərdən, becərdiyi torpaqlardan adamları zorla ayırırlar. Əlbəttə, sizin üçün yaxşı olar ki, öz torpaqlarınızda qalıb ata-babalarınız tərəfindən əkilmiş ağaclara tamaşa edəsiniz və onların zorla sizi köçürüb başqa yerlərə aparmasına imkan verməyəsiniz. Siz orada da mal-dövlət sahibi olan kimi, hər şeyinizi əlinizdən*

*alacaqlar. Əksinə, siz yumşaq ürəkli və insanpərvər böyük bir dövlətin himayəsi altında olsanız, rəisi olduğum məğlubedilməz ordunun köməyi ilə günəş şüaları altında olanlar kimi qızına bilərsiniz. Mən, Ümumrusiya dövlətinin imperatoru tərəfindən müdafiə ediləcəyinizə, xalqa həqiqi xoşbəxtlik gətirəcəyimizə, əmin – amanlıq vəhüquqlarınızın qorunacağına zəmanət verirəm..."* (152, c.2, sənəd 1276).

Əlbəttə ki, Qacarlar dövləti kimi Romanovlar Rusiyasının da məqsədi eyni, hətta fikrimizcə, daha məkrli və daha qəddar idi. Çünki, Qacarların yanaşmasında ən azı dini və milli hisslər, tarixi keçmişlə əlaqəli məsələlər var idi. Rusların məqsədi isə sırf "isti dənizlər"ə çıxmaq, Osmanlı dövlətini daha çox sıxışdırmaq, ələ keçirdiyi yerləri istismar etmək idi. Kaxetiya knyazlarının nəslindən olan gürcü əsilli rus generalı Pavel Dmitriyeviç Sisianov (Pavle Dmitrisdze Çiçişvili) isə Şərq xalqlarının, xüsusən Qafqaz türklərinin qürurlu xarakterini yaxşı bilir və məktubunda məhz Qacarların bu qüruru qırmağa çalışdıqları məqamları qabardırdı.

Başqa bir yerdə isə o belə deyirdi: *"Məsləhətim budur ki, səxsən sizin xeyrinizə olaraq yüksək dərəcəli rəis Abbasqulu xanla birləşin, onunla birlikdə mənim vasitəmlə insanpərvər dövlətin simasında himayədar tapın. Kəlbəli xana gəldikdə isə, görürsünüz ki, o nə qədər dağıntılar yaradıb, sizin çörəyinizi əlinizdən alır. Sizi doğma torpaqlarınızdan köçürür"* (152, c.2, sənəd 1276; 67, s.78). Lakin Kalbalı xana qarşı Sisianovun bu təhdidləri və hərəkətləri effekt vermirdi. I Kalbalı xan Naxçıvan xanlığının müstəqilliyini hər şeydən üstün tutur, hələ ki, Rusiyanın da Qafqazda tam güclənmədiyi bir şəraitdə doğma vətənini yadelli tapdağından qorumağa çalışırdı.

Rus qoşunlarının 1808-ci ilin iyun ayında Zəngi çayı boyunca İrəvan istiqamətində hücuma keçməsi zamanı İrəvan xanının Qacarlar dövlətindən yardım istəməsindən sonra Fətəli şah Qacarın əsas

tapşırıqlarından biri İrəvan qalası ilə yanaşı, Naxçıvan qalasının da müdafiə edilməsi olmuşdur (107, c.2, s.83-84). Qacar qoşunlarının komandanı Abbas Mirzə I Kalbalı xana Naxçıvanı təslim etməsi üçün tələb göndərdi, lakin I Kalbalı xanın Qacarlara qarşı olan nifrəti və onları da ruslar qədər işğalçı kimi qiymətləndirməsi onun təslim olmasına imkan vermədi. Belə olan halda Abbas Mirzə qayınatası İrəvanlı Hüseynqulu xandan Naxçıvanı ələ keçirməsi üçün yardım istədi. Hüseynqulu xan 300 atlı və 200 piyada ilə Naxçıvana gəldi. Onun qalaya daxil olmasına icazə verildi. Naxçıvan qalası Hüseynqulu xanın xəyanətinin qurbanı oldu (29, s.106; 30, s.78). İrəvanlı Hüseynqulu xanı Qacarlar hakimiyyətinə bağlayan qohumluq əlaqələrinə toxunan tarixçi M.Quliyev yazır ki, Baba xanı, yəni Fətəli şahı hakimiyyətə gətirən fəal qüvvələrdən biri də Hüseynqulu xan olub. Buna görə də Fətəli şah Hüseynqulu xanı yüksək vəzifəyə təyin etmiş və onun bacısı ilə evlənmişdir. Fətəli şah oğlu Abbas Mirzəyə Hüseynqulu xanın qızını almış, onun oğluna isə özünün 29-cu qızını vermişdir (79, s.73).

Lakin Qacarların bütün müdafiə tədbirlərinə baxmayaraq, 1808-ci ilin oktyabr ayında qraf İ.V.Qudoviçdən xüsusi olaraq Naxçıvanı ələ keçirmək əmri almış rus hərbiçilərindən general-mayor Pyotr Fyodroviç Nebolsin İran şahının yanında əsirlikdə saxlanan Kalbalı xanın oğlu Şeyxəli bəyin bələdçiliyi ilə Qarabağ istiqamətindən yürüş edərək Naxçıvana daxil ola bilmişdi (175, s.215-216). Qraf Qudoviç yürüşdən əvvəl P.F.Nebolsinə təlimatında Naxçıvan şəhərinin xüsusi əhəmiyyətini nəzərdə tutaraq yazırdı: *"...tezliklə ora getmək və Naxçıvana qarşı hərbi əməliyyata başlamaq lazımdır. Əgər müqavimət göstərilsə, şəhəri tutun. Onlar könüllü şəkildə tabe olsalar, yerli əhalini narazı salmamaq və sıxışdırmamaq lazımdır"* (153, c.3, s. 496). "Qafqaz Akt"larının 3-cü cildinin 497-ci səhifəsində həmin təlimatın digər hissəsindən bəhs edilərək yazılırdı: *"Sizə tapşırıram ki, siz də Mehdiqulu xana*

*bildirəsiniz ki, yerli əhali tabe olduqda Naxçıvan kəndlərinin soyulub talanmasına imkan verməsin”* (153, c.3, s.497).

P.F.Nebolsinin Qarabağdan Naxçıvana yürüşü barədə Mirzə Adıgözəl bəy yazır: *“O (Qraf Qudoviç – A.A.), qışda çoxlu tədarük və hazırlıq görüb zəfər nişanəli bayraqları qaldıraraq İrəvan tərəfinə hərəkət etdi. General Nebolsini Qarabağ tərəfindən çoxlu zəfər nişanəli qoşun dəstələrilə Naxçıvan vilayətini almağa göndərdi. Naxçıvan alındı”* (69, k.1, s.84).

1901-ci ildə Qafqaz Hərbi Dairəsinin Qərargah rəisi, general-leytenant N.Belyavskinin rəhbərliyi, general-mayor Pottonun redaktorluğu ilə hazırlanmış “Rus hakimiyyətinin Qafqazda qəbul edilməsi” adlı hərbi tarix xarakterli əsərdə Nebolsinin rəhbərlik etdiyi qoşun hissələrinin sayı barədə məlumatlar saxlanılmışdır. Yuxarıda adını qeyd etdiyimiz mənbədə göstərilir ki, general-mayor Nebolsinin rəhbərliyi altında Naxçıvana hücum edən rus qoşunu 3000 əsgərdən ibarət doqquz batalyondan ibarət idi (211, c.1, s.299). Abbas Mirzənin rəhbərlik etdiyi və Qarababa ətrafında rusları qarşılayacaq Qacar ordusunun tərkibində isə 3000 piyada, 10.000 süvari, 12 top, 60 kiçikkalibrli silah olan falkonet var idi (211, c.1, s.299; 153, c.3, sənəd 895). N.Dubrovinin qeydlərində isə rus ordusunun sayı və təchizatı ilə bağlı rəqəmlər V.Pottonun verdiyi məlumatlardan daha fərqlidir. N.Dubrovin general J.L.Nebolsinin 78 zabit, 3062 əsgər və 4 topdan ibarət olan 9 batalyonla Qarabağdan hərəkətə başladığını yazmışdır (175, s.215). XIX əsr rus mənbələrində Naxçıvan mövzusunun tədqiqatçısı Y.Rəhimov da N.Dubrovinin verdiyi bu məlumatı əsas olaraq qəbul etmiş və əks etdirmişdir (120, s.24). Rəqəmlərin fərqli olması ilə bağlı məsələni iki cür izah etmək mümkündür. Böyük ehtimalla V.Potto əsərində hərbi qüvvənin sayı ilə bağlı rəqəmi yuvarlaqlaşdıraraq təqdim etmişdir. İkinci izah ondan ibarət ola bilər ki, N.Dubrovinin əks etdirdiyi rəqəmlər Qarabağdan Naxçıvana hərəkətə başlayan qoşunun

sayını, V.Pottonun təqdim etdiyi rəqəmlər isə yolboyu verilmiş cüzi itkilərdən sonra Naxçıvan şəhərinə gəlib çatan hərbi qüvvənin sayını əks etdirirdi. Bu ehtimalı istisna etməsək də, biz daha çox rəqəmlərin yuvarlaqlaşdırılması ehtimalı üzərində dayanırıq.

Rusların qələbəsi ilə başa çatan və qoşunların Naxçıvan şəhərinə girməsi üçün yolları açan Qarababa döyüşündə rus ordusundan 37 nəfər həlak olmuş, 6 nəfər itkin düşmüşdü. Zabit heyətindən 6, əsgərlərdən isə 66 nəfər yaralanmışdı (30, s.92).

Bu dövrdə baş verən hadisələri "Gülüstani-İrəm"də təsvir edən A.Bakıxanov yazır: *"Qraf Qudoviç həziranın (iyunun) 18-də sərəskər Yusif paşanı Arpa çayı kənarında məğlub etdi. Sonra hicri 1223-cü (1808) ildə İrəvanı almağa getdi. Ayrı bir dəstəni də Qarabağ yolu ilə Naxçıvan üzərinə göndərdi. Naibüssəltənə (Abbas Mirzə – A.A.) də gəldi. Bu ətrafda arası kəsilməyən müharibələr oldu"* (20, s.144).

1808-ci ilin oktyabrın 28-də polkovnik Lisaneviç və polkovnik Kotlyarevskinin komandanlığı altında olan rus qoşununun Qarababa döyüşündə Abbas Mirzənin rəhbərlik etdiyi Qacar ordusunu məğlub etmələrindən sonra (71, s. 137; 211, s. 299), 1808-ci il noyabr ayının 1-də Naxçıvan şəhəri rusların əlinə keçmişdir (107, c.2, s. 84). Qafqaz Arxeoqrafiya Komitəsinin Aktlarında təqdim olunmuş bir sənəddə general-mayor Nebolsinin heç bir müqavimətə rast gəlmədən Naxçıvanı tutmasından bəhs edilir (153, c.3, sənəd 895). Şəhər işğal edildikdən sonra qraf Qudoviç çara göndərdiyi raportunda da analoji faktı olduğu kimi əks etdirərək yazırdı ki, *"...Naxçıvan qalası müqavimətsiz olaraq Ümumrusiya ordusu tərəfindən tutuldu..."* (153, c.3, sənəd 458).

Naxçıvan şəhərinin rusların əlinə keçməsində Kəngərli hakimlərinin mövqeyi də müəyyən rol oynamışdı. Hətta Qacar qoşunlarının komandanı Abbas Mirzə 22 noyabr 1808-ci ildə qardaşına yazdığı məktubunda da bu məsələyə işarə vurmuşdu (180, s.55).

İ.Kazımbəyli, M.Quliyev, Y.Rəhimov kimi tarixçilər də Naxçıvan əhalisinin rus ordusuna müqavimət göstərməməsinin səbəbini qoşunların başında naxçıvanlı Şıxəli bəyin öz dəstəsi ilə gəlməsini göstərmişlər (120, s.24;79, s.105; 61, s. 81).

Pyotr Fyodroviç Nebolsin bütün Naxçıvan vilayətinin tarixində ilk dəfə olaraq Rusiya imperiyası himayəsinə keçdiyini elan etdi. Onun qraf Qudoviçin adından Naxçıvan əhalisinə müraciətində deyilirdi: *"Hörmətli ağsaqqallar, ali ruhanilər, bütün Naxçıvan əhalisi! Siz böyük şöhrətə malik ordunun Naxçıvan vilayətinə gəldiyini bilirsiniz. Mən sizdən tələb edirəm ki, həmişəlik olaraq Rusiya imperiyasının və mənim ordumun düşmənləri ilə hər cür əlaqəni kəsib sakit yaşayasınız. Əlahəzrət imperatorun ordusu həmişəlik olaraq Naxçıvan vilayətində qalacaqdır. Əgər siz qayda-qanunu sədaqətlə yerinə yetirsəniz, o halda mən imperator həzrətlərindən hər cür güzəşt etməyi xahiş edəcəyəm"* (98, s.62-63).

Əsrlər boyunca ayrı-ayrı imperiyaların uğrunda savaşdığı və müharibələr zamanı ciddi dağıntılara məruz qalan Naxçıvan şəhərində ruslar tərəfindən ciddi dağıntılar törədilməsi ilə bağlı qaynaqlarda məlumat yoxdur. Fikrimizcə, işğalçıların şəhərdə dağıntılar törətməməsi və Naxçıvanı tərk etmiş sakinlərin geri dönməsi üçün ruslar tərəfindən çağırış edilməsi (53, s.239) bir sıra səbəblərlə bağlı idi:

– ilk növbədə hələ ki, bölgədə kifayət qədər dəstəyə malik olmayan ruslar özlərini xoşməramlı göstərərək yerli əhalinin rəğbətini qazanmağa çalışırdılar. Romanovlar Rusiyası yaxşı başa düşürdü ki, siyasi-diplomatik hisslərdən daha çox dini və milli hisslərlə hərəkət edən Azərbaycan türkləri – naxçıvanlılar üçün müstəqilliyi qoruya bilmədikləri təqdirdə Qacarlar və ya xilafəti əlində saxlayan Osmanlılarla birlikdə hərəkət etmək daha realdır.

– ikincisi general-mayor Nebolsinin dəstəsində olan Kalbalı xanın oğlu Şeyxəli bəyin bu məsələdə mühüm rolunun olduğu

şəksizdir. Dövrünün ən böyük diplomatlarından biri olan I Kalbalı xanın övladı Şeyxəli bəyin ruslardan bu istiqamətdə təminat almadan onlara bələdçilik etməsi real görünmür. Deməli, proseslərin gələcəyini yaxşı görən və Cənubi Qafqazda Rusiyanın qarşısıalınmaz olduğunu sezən Naxçıvan xanlarının bu manevrinin özü əslində bu müharibələrdən doğma vətəni daha az itkilərlə çıxarmaq istəyindən irəli gəlirdi. Qeyd edək ki, Şeyxəli bəy hələ 1805-ci ildə Rusiyaya birləşdirilən Qarabağ xanlığına gedərək, Rusiya təbəəliyinə qəbul olunmasını xahiş etmişdir. O, Kəngərli nəslindən Rusiya hərbi rütbəsini alan ilk zabit olmuşdur (97, c.2, s.300). Şeyxəli bəyin ruslara Naxçıvan şəhərinin ələ keçirilməsində göstərdiyi xidməti qraf Qudoviç bəyə yazdığı 27 noyabr 1808-ci il tarixli məktubunda belə qiymətləndirirdi: *"Sizin Ümumrusiya imperiyasına olan xidmətiniz və sədaqətiniz haqqında xəbərim var. Sizi inandırıram ki, bu xidmətləriniz haqqında Əlahəzrət İmperatora məlumat verməklə yanaşı, sizin xeyrinizə olaraq, zəmanət verəcəyəm"* (98, s.63).

Naxçıvan şəhəri yalnız 30 gün rusların əlində qaldı. 1808-ci ilin noyabr ayının 17-də rusların İrəvan qalası ətrafındakı döyüşlərdə ciddi tələfat verib geri çəkilmələrindən sonra dekabrın 1-də general-mayor Nebolsin dəstələri ilə bərabər Naxçıvan şəhərini tərk etmək məcburiyyətində qalmışdır (107, c.2, s.85). Abbas Mirzə Naxçıvanı tutaraq çəkilməkdə olan rus qoşunlarını təqib etməyə başladı. Qarababa yaxınlığında baş verən toqquşmada Qudoviç məğlubiyyətə uğradı (12, c.4, s.32). Bu döyüşdə baş verən hadisələrin təhlili Naxçıvanın Qacarlar üçün, xüsusən Qacarlar xanədanının Azərbaycan vilayətinin idarəçisi şahzadə Abbas Mirzə üçün nə qədər əhəmiyyətli olmasını bir daha üzə çıxarır. Belə ki, döyüş zamanı şahzadə Abbas Mirzənin atı güllə ilə rus əsgərləri tərəfindən vurulmuş, at öldükdən sonra şahzadə piyadalarla bərabər döyüşü davam etdirmişdir. Döyüşün ən qızğın çağında Abbas Mirzəyə Qacarlar ordusunun topxanasına rəhbərlik edən sərkərdənin öldürüldüyü

xəbəri gəlir. Qacar ordusunun toplarının susması rusların üstünlüyünü artırmağa başlayır. Bu vəziyyəti görən Abbas Mirzə özü topxanaya keçir və topçulara komandanlığı öz üzərinə götürür və düşmən səngərlərini atəşə tutur (116, s.93-94).

Qeyd edək ki, 1808-ci ilin uğursuz döyüşlərindən sonra qraf Qudoviç istefaya çıxmaq məcburiyyətində qalmış, onun yerinə general Aleksanr Petroviç Tormasovu baş komandan olaraq təyin etmişdir (10, c.2, s.46). Aleksandr Petroviç Tormasov Qafqaza gəldiyi ilk dövrlərdə əsasən Gürcüstanın qərb vilayətlərinin Osmanlı təhdidindən qorunmasına və Osmanlılara qarşı mübarizəyə diqqət yetirməyə başladı.

Qacarlar dövləti Rusiyanın Qafqazdakı qüvvələrinin Osmanlı ilə mübarizəsindən və Qərbdə Rusiyaya qarşı artan Napoleon təhlükəsindən istifadə etməyə və mövqelərini yenidən möhkəmləndirməyə çalışırdılar. Belə bir vəziyyətdə Rusiya ilə müəyyən qədər əlaqələrə malik olduğu artıq dəqiqləşən Kalbalı xan İrana aparıldı, əvəzində Qacarlar özlərinə nisbətən sadiq hesab etdikləri Abbasqulu xan Kəngərlini Naxçıvan hakimi elan etdilər və Naxçıvan şəhəri də Abbasqulu xanın nəzarətinə keçmiş oldu.

Rusiyanın Qafqazda başının qarışmasında maraqlı olan Fransa da bu dövrdə Qacarlara istədikləri hərbi və hərbi-mühəndis dəstəyini verməklə Rusiyanı daha çox gücdən salmağa çalışırdı. Bu baxımdan Naxçıvan şəhərinin və ümumilikdə bölgənin əhəmiyyətini göstərən məsələlərdən biri də Naxçıvan şəhəri yaxınlığında hərbi əhəmiyyətli Abbasabad qalasının inşası ilə bağlı olmuşdur. Belə ki, Abbasabad qalası Fransa mühəndislərinin layihəsi və bilavasitə rəhbərliyi ilə yenidən qurulmuş, yeni texnika əsasında silahlandırılıb möhkəmləndirilmişdi (107, c.2, s.86). Qalanın bölgənin və Naxçıvan şəhərinin qorunmasında mühüm strateji əhəmiyyəti bölgəyə gələn səyyahların və dövrün müəlliflərinin də diqqətini cəlb etmişdir. Tarix üzrə elmlər doktoru, professor Tofiq Mustafazadə

yazır ki, rus səyyahı və tarixçisi N.Nefedov qalanı görmüş və onun əhəmiyyətindən bəhs etmişdir (94, s.110). "Zaqafqaziya diyarının statistik təsviri" adlı hesabat xarakterli əsərində Orest Eveçkiy də Naxçıvan şəhəri yaxınlığındakı Abbasabad qalasından bəhs etmişdir. O yazır: *"Abbasabad qalası beşbucaqlı formada olub, fransız və ingilis zabitləri tərəfindən möhkəmləndirilmişdir. Rus qoşunları tərəfindən sonuncu Persiya əməliyyatları zamanı ələ keçirilmişdir"* (233, s.200). Qalanın 3 böyük dəmir darvazasından biri Naxçıvan şəhərinə, ikincisi Nehrəm kəndinə, üçüncüsü isə Araz çayına tərəf açılırdı. Bundan başqa, qalanın tam qarşısında Arazdan Çors mahalına körpü salınmışdı (107, c.2, s.90). "Naxçıvan əyalətinin statistik təsviri"ndə V.Qriqoryev yazır ki, Naxçıvan şəhərindən cənubda Araz çayının sahilində yerləşən bu qala 20 il bundan öncə Abbas Mirzə tərəfindən tikdirilmişdir. Abbasabad qalası keçmiş səfir general Qordonun vaxtında fransız hərbi mühəndislərinin planı əsasında tikilmişdir. Qalanın xarici görünüşü düzgün tikilmiş beş bucaqdan ibarət idi. Ərazinin tarixinə də toxunan V.Qriqoryev qalanın yerləşdiyi ərazinin tarixi adının Ardaxta olduğunu göstərmişdir. Qeydlərdən o da aydın olur ki, əvvəllər mühüm yaşayış məntəqələrindən biri olmuş bu kənd Nadir şahın hücumu zamanı Naxçıvan şəhəri ilə birlikdə dağılmışdı (173, s. 72). 1834-1835-ci illərdə Naxçıvanda olmuş rus səyyahı Feodor Korf da qaladan bəhs etmiş, qalanın Abbas Mirzənin yanında xidmət edən fransız mühəndisinin planı əsasında tikildiyini yazmışdır (188, s.77).

1810-cu ildə Naxçıvana gələn Abbas Mirzə şəxsən bu qalada olmuşdur. 1810-cu il avqustun sonlarında isə 15 topa malik 15 minlik qoşunla Naxçıvandan İrəvana hərəkət etmişdir (214, s.736).

Tezliklə Naxçıvanı ələ keçirmək üçün təkcə hərbi istehkamların və qalaların möhkəmləndirilməsinin yetərli olmadığını görən Qacarlar dövləti bu dəfə yerli əhalinin dəstəyini əldə etmək üçün çalışmağa başladı. Tezliklə Naxçıvan və İrəvan xanlıqlarında I

Kalbalı xanın nüfuzunun fərqinə varan Qacar hakimiyyəti onu Naxçıvana qaytardı. Bu isə Naxçıvan şəhərinin hələlik rusların əlinə keçməməsini təmin etdi desək, yəqin ki, yanılmarıq.

Çar Rusiyası ilə Qacarlar dövləti arasında müharibənin gedişində rus qoşunları Talış xanlığının mərkəzi sayılan Lənkəran şəhərinin ələ keçirilməsi zamanı qələbə qazansalar da, ciddi itkilərə məruz qaldılar. Daha artıq itkilər vermədən ələ keçirdiyi əraziləri qoruyub saxlamağa və gücünü digər cəbhələrə yönəltməyə çalışan çar Rusiyası nəhayət ki, Qacarlar ilə danışıqlara razılaşdı. Gərgin danışıqlardan sonra 1813-cü il oktyabrın 12-də Rusiya ilə Qacarlar arasında imzalanmış Gülüstan sülh müqaviləsinə əsasən Qacarlar digər Şimali Azərbaycan xanlıqlarından əl çəkdiklərini rəsmən təsdiqləsələr də, Naxçıvan və İrəvan xanlıqları onların tabeçiliyində qaldı.

I Rusiya-Qacarlar müharibəsi Naxçıvan şəhərinə ciddi ziyan vurdu. İqtisadi cəhətdən tənəzzül etməkdə olan şəhər, hərbi münaqişələrin təsirini də öz tarixi taleyində ən ağır formada hiss etmiş oldu. 1813-cü ildə Naxçıvanda olmuş məşhur səyyah Qaspar Druvil müharibədən sonrakı Naxçıvan şəhəri haqqında yazırdı: *"Naxçıvan acınacaqlı bir vəziyyətdədir. Burada ancaq bir-birinə sıxılmış xarabalıqlar gözə dəyir; belə güman etmək olar ki, o, bir daha özünün əzəmətini bərpa edə bilməyəcək"* (174, c.1, s.48). Şəhərin bu vəziyyəti 1816-cı ildə Rusiyadan Naxçıvan vasitəsi ilə İrana gedən rus generalı A.P.Yermolovla Kəlbəli xanın görüşündə də müzakirə mövzusuna çevrilmişdi. Bu barədə A.P.Yermolov sonralar xatirələrində yazacaqdı: *"Kəlbəli xan pəncərə qarşısına gələrək mənə dedi, vaxtı ilə Araz çayı vadisinin gözəlliyi və zənginliyinə heyrətlə baxardım; gözəl bağları və meşəlikləri olan vadini çoxsaylı əhali canlandırırdı. İndi mənə deyirlər ki, boş səhralığa çevrilib, onun keçmiş zənginliyindən əsər belə qalmayıb. Yaxşı ki, tale mənim gözlərimi bağladı, vadinin belə bədbəxt gününü, tar-mar olmasını görmürəm. Bu vadini üç əsr mənim nəslim idarə etmişdir. Ara müha-*

*ribələri və şahın ordusu bu bədbəxt torpağı boşluğa çevirdi, işğalçıların hər bir addımı xalqın bədbəxtliyinə səbəb oldu”* (22, s. 77; 177, s.180-181).

Lakin ədalət naminə qeyd etmək lazımdır ki, müharibədən sonrakı dövrdə Qacarlar dövləti Naxçıvan şəhəri və Naxçıvan qalasının müdafiə qabiliyyəti üçün bir sıra tədbirlərin həyata keçirilməsinə başladı. Bunu sübut edən faktlardan biri də Qacar şahının 1816-cı ilə aid fərmanıdır. Bu fərmanda Naxçıvan xanı Kəlbəli xan Kəngərliyə Naxçıvan qalasının təmiri vəzifəsi tapşırılırdı (66, s.233). Yermolovla Kəlbəli xanın apardığı danışıqlarla, şahın fərmanının eyni ildə olması təsadüfdürmü? Ola bilsin ki, Qacarlar xanın və dolayısı ilə desək yerli əhalinin narazılığı barədə məlumatları aldıqdan sonra, bu narazılığı qismən də olsa aradan qaldırmaq üçün belə bir addım atmışdı.

I müharibə zamanı strateji əhəmiyyətli İrəvan və Naxçıvanı ələ keçirə bilməyən Rusiyanın Osmanlı sərhədlərindəki bu strateji bölgələrdən əl çəkməyəcəyi məlum idi. Rusiyanın Şərq siyasətində də əsas hədəf daha çox Osmanlı dövləti idi, desək yəqin ki, yanılmarıq. Təbii ki, Rusiya üçün “isti dənizlərə çıxmaq” mühüm əhəmiyyət kəsb edirdi və Qacarlar ilə aparılan müharibədə də bu məqsəd güdülürdü. Lakin əsas məqsədi Osmanlı dövlətini daha çox əhatələmək, daha çox gücdən salmaq və son nəticədə isə ortodoksal xristianlıq – rus provaslığı üçün mühüm əhəmiyyət kəsb edən Konstantinapolun – İstanbulun ələ keçirilməsi idi. Qacarlar dövləti də birinci müharibə nəticəsində imzalanmış müqavilədən razı qalmamışdı və faktiki olaraq itirdiyi torpaqların geriyə qaytarılmasına çalışırdı. Qacarlar dövlətinin bu istiqamətdə yenidən fəallaşmasında İngiltərənin də mühüm təsiri vardı. Çünki, Rusiyanı ingilis müstəmləkəsi olan Hindistana çatmadan, hərbi güc sərf etmədən başqa bir Şərq dövləti vasitəsi ilə dayandırmaq ən çox İngiltərənin maraqlarına uyğun gəlirdi.

Çar Rusiyası üçün Naxçıvanın və İrəvanın əhəmiyyətini göstərən əsas faktlardan biri çar I Aleksandrın Qacarlar dövlətinin paytaxtına göndərdiyi nümayəndə heyətinin rəhbəri A.P.Yermolova təlimatında qeyd olunanlardır. Təlimatda deyilirdi ki, Qarabağ və Şimali Talışın İrəvan və Naxçıvan xanlıqlarına dəyişdirilimləsi pis olmazdı (29, s.89). İrəvana gedən nümayəndə heyətinin səfər xəttini məhz İrəvan və Naxçıvan şəhərlərindən salması da bu mənada heç də təsadüfi hesab edilə bilməz. Yolüstü Rusiya nümayəndə heyəti Naxçıvan şəhərində də olmuş, Naxçıvan xanı Kalbalı xanla görüşərək danışıqlar aparmışdır (29, s.90; 139). Artıq XIX əsrin 20-ci illərinin əvvəllərində hər iki tərəf maraqlarının təmin edilməsi üçün müharibənin qaçılmaz olduğunun fərqində idi.

Dövrün tarixi qaynaqlarında və arxiv sənədlərində verilən məlumatları təhlil edən tədqiqatçılar belə bir qənaətə gəlirlər ki, Qacar qoşunlarının komandanı Abbas Mirzə də, Qafqazdakı rus qoşunlarının komandanı İvan Fyodroviç Paskeviç də Naxçıvan düzənliyinə xüsusi əhəmiyyət verirdilər (107, c.2, s.89). Hələ 1825-ci ilin yazında Abbas Mirzənin oğlu Cahangir Mirzə ilə bərabər mümkün bir müharibə təhlükəsinə qarşı tədbir görmək üçün Abbasabad qalasının, Naxçıvan şəhərinin və Ordubadın müdafiə imkanlarını bir daha yoxlaması Naxçıvan şəhərinə Qacarların verdiyi əhəmiyyətin daha bir göstəricisi idi. Sonralar Abbas Mirzənin oğlu Cahangir Mirzənin qeydlərindən aydın olur ki, bu yoxlamada şahzadənin böyük oğulları və çox güvəndiyi bir neçə yaxını iştirak etmişdir (116, s.152).

Müharibə 1826-cı il iyul ayının 16-da Qacar ordusunun savaş elan etmədən Şimali Azərbaycan ərazisinə daxil olması ilə başladı. Bunu görən A.P.Yermolov I Nikolaya 1826-cı il iyulun 30-da göndərdiyi məlumatda yazırdı: *“Persiya qoşunları Araz çayını keçib Qarabağa daxil olurlar”* (165, s.545). Birinci Rusiya-Qacar müharibəsindən fərqli olaraq İkinci Rusiya-Qacar savaşı birbaşa olaraq

İrəvanın və Naxçıvanın ələ keçirilməsi uğrunda gedirdi. Bu isə Naxçıvan şəhərinin infrastrukturuna, inkişafına, şəhər əhalisinin demoqrafik tərkibinə birbaşa olaraq təsir göstərirdi. Hələ 1827-ci ilin iyun ayında rus ordusunun Naxçıvan şəhərinə doğru hərəkət etdiyi barədə məlumat alan Qacar qoşunları Naxçıvanı tərk edən zaman şəhərin bir sıra görkəmli binalarını yandırıb dağıtmışdılar (107, c.2, s.90).

Paskeviçin rəhbərlik etdiyi rus qoşunları 1827-ci ilin iyun ayının 25-də Naxçıvan şəhərinə yaxınlaşdığı vaxt Qacar qoşunları artıq şəhəri tərk edərək Naxçıvan şəhərindən 8 verst aralıda yerləşən Abbasabad qalasına sığınmışdılar.

Knyaz Şerbatovun sənədlər əsasında hazırladığı və 1890-cı ildə nəşr etdirdiyi "General-feldmarşal Knyaz Paskeviç: həyatı və fəaliyyəti" adlı qaynaqda rus qoşunlarının Naxçıvan şəhərini ələ keçirməsi və şəhərin tutulmasına Paskeviçin verdiyi əhəmiyyət xüsusi olaraq təsvir edilmişdir (232, s.266). Əsərdən aydın olur ki, Paskeviçin rəhbərlik etdiyi rus ordusunun əsas hissələri 1827-ci il iyun ayının 19-da Naxçıvana doğru hərəkətə başlamışdılar (232, s.273). Yay aylarının bölgədə çox isti keçməsi, hətta bəzən 40 dərəcəyə çatan istilər rus ordu hissələrinin hərəkətini çətinləşdirən əsas amillərdən biri idi. İyunun 22-də Sədərəyə çatan rus ordu hissələri gecələmək və ola biləcək hər hansı ciddi döyüş öncəsi güc toplamaq üçün məhz bu kənddə düşərgə saldı (232, s.274). Rus ordusu kəndə girərkən, bunu gözləməyən mülki əhali kəndi tərk etməyə başladı. Lakin Paskeviç əhalinin geri qaytarılması ilə bağlı göstəriş verdi və əhali arasından çıxan rəhbərlərlə şəxsən görüşməyi məqsədəuyğun hesab etdi (232, s.274). Burada əsas məqsəd yerli əhali ilə Qacar qoşunları arasında məsafəni daha da artırmaq, yerli əhalinin rəğbətini qazanmaqdan ibarət idi. İyun ayının 23-də rus ordusu Sədərəkdən Arpaçaya doğru hərəkət etməyə başladı. Dövrün qaynaqları xəbər verir ki, həmin gün havanın temperaturu 43 dərəcə,

kölgədə isə 33 dərəcə idi (232, s.275). Belə sərt iqlim şəraitinə alışmamış rus ordusunda 700-dən artıq əsgərin xəstələnməsi vəziyyəti ağırlaşdırırdı, lakin Paskeviç üçün Naxçıvanın ələ keçirilməsi ən vacib olan məsələ idi və o, Naxçıvana doğru yürüşün inadla davam etdirilməsində israrçı idi. Naxçıvana doğru hərəkət edən Georgi Yevseyeviç Eristovun qoşunları Xok kəndi yaxınlığında Qacar ordusu ilə üz-üzə gəldi (120, s.34). Qanlı toqquşma Qacar hərbi dəstələrinin məğlubiyyəti və geriyə çəkilməsi ilə nəticələndi. Kiçik toqquşmaları nəzərə almasaq, yerli əhali ruslara ciddi bir müqavimət göstərmirdi. 25 iyun 1827-ci ildə artıq rus qoşunları Naxçıvan şəhərindən 25 kilometr aralıda Xok kəndi ərazisində düşərgə salmışdılar (232, s. 275).

Şəhər iyunun 26-da ruslar tərəfindən demək olar ki, müqavimətsiz tutuldu (71, s. 176; 210, s.342; 29, s.97). Rus ordu hissələri şəhərə axşam saatlarında daxil oldu (232, s.275). Bu zaman şəhərdə hərbi qüvvə olaraq Kəngərli qəbiləsindən olan atlı və piyada dəstələri var idi ki, onların da böyük bir hissəsi rusların tərəfdarı kimi çıxış edirdilər. Şəhərdəki Kəngərli qüvvələrinə rəhbərlik edən Kərim xan Naxçıvan şəhərinin ruslar tərəfindən ələ keçirilməsinə hər hansı müqavimət göstərmədi (157, s. 183). Paskeviçin qoşunları Naxçıvan şəhərinə daxil olarkən şəhərdə o qədər də çox insan qalmamış, əhalinin böyük bir qismi Arazın digər sahilinə çəkilmişdi (232, s.276). Kəngərli dəstələrinin bir qismi isə Ehsan xanın rəhbərliyi altında Qacarların qoşunları ilə birgə Abbasabad qalasında idi.

Naxçıvan şəhəri və ətraf kəndlərin əhalisinin rus ordusuna münasibəti barədə tarixçi F.Əliyev və U.Həsənov "İrəvan xanlığı" kitabında yazırlar: *"...Rus komandanlığı ilk vaxtlarda yerlərdə soyğunçuluğa və dağıntıya yol vermədilər. Təkcə bu faktı göstərmək kifayətdir ki, qələbə zəfəri ilə Naxçıvana daxil olmuş rus ordusunun komandanlığı 1000 başa qədər iribuynuzlu heyvanı əhalidən pul ilə*

*aldı. Bundan sonra əhali də qalaya gələrək ehtiyat etmədən soldatlara pul ilə ərzaq məhsulları satdılar. Halbuki İran sərbazları yalnız yerli əhalini qarət etmək hesabına dolanırdılar"* (28, s.144). Şerbatov da qoşunların şəhərə daxil olduğu ilk günlərdə Paskeviç tərəfindən orduya xüsusi göstəriş verildiyini yazmışdır. Göstərişə əsasən əsgərlər şəhəri tərk etmiş əhalinin evlərini qorumalı, bağlardakı məhsula toxunmamalı və qarşılığını ödəmədən heç bir şey götürməməli idilər (232, s.276).

Lakin Paskeviçin rəhbərlik etdiyi rus qoşunlarının qərargah kimi Naxçıvan şəhəri ətrafını seçməsi təbii ki, şəhər həyatının nizamının pozulmasına təsirsiz ötüşməmişdi. İ.Yenikolopov rus ordusunun Naxçıvan şəhəri və ətraf ərazilərdə yerləşdiyi mövqelər haqqında bəhs edərkən yazır ki, qoşunun bir hissəsi Paskeviçin əmri ilə şəhərdə yerləşdirilmiş, əsas hərbi qüvvə isə şəhərdən 8 verst aralıda yerləşən Abbasabad qalasına doğru istiqamətləndirilmişdi (176, s.67).

R.G.Uatson Naxçıvan şəhərindən Abbasabad qalasını almaq üçün hərəkət edən rus qoşunlarının sayını 18.000 nəfər olaraq göstərmişdi. Yerli iqlim şəraitinə uyğunlaşa bilməyən rus əsgərləri məhrumiyyətlər ucbatından ciddi xəstəliklərlə qarşılaşmaqda idi. Tədqiqatlar göstərir ki, təkcə rus ordusunun Naxçıvan şəhərinə daxil olduğu ilk günlərdə qoşundan 1000 nəfəri xəstə idi (232, s.276), sonrakı günlərdə isə Abbasabad qalası ətrafında dayanan qoşunda xəstələrin sayı 1700 nəfərə çatmışdı (107, c.2, s.92).

Ruslar tezliklə şəhərətrafı yaşayış məntəqələri olan Sust, Çalxanqala, Xıncov, Şıxmahmud, Əliabad, Qaraxanbəyli və digər kəndləri də ələ keçirmişdilər. Paskeviç yaxşı başa düşürdü ki, Naxçıvan şəhərinin ələ keçirilməsi, hələ burada tamamilə möhkəmlənmək demək deyildir. Yalnız Araz sahilində, Naxçıvan şəhərindən 10 kilometr aralıda yerləşən möhkəmləndirilmiş Abbasabad qalasının tutulması Naxçıvan şəhərinin əldə saxlanılmasına təminat verə

bilərdi. İyunun 29-da Abbasabad qalasının ələ keçirilməsinə qəti olaraq qərar verən Paskeviç qalada kəşfiyyatın aparılmasına birbaşa olaraq şəxsən rəhbərlik etmişdir (232, s.278). Kəşfiyyat nəticəsində qalanın ətrafında 500-ə qədər düşmən qüvvənin fəaliyyəti müəyyənləşdirildi. Paskeviç general-adyutant A.Berkendorfa Nijeqorod Draqun alayı, Serpuxov polku və 5-ci Kazak dəstəsi ilə Araz sahilinə getməsi və ərazini düşmən qüvvədən təmizləməsi üçün göstəriş verdi (232, s.278).

Qaladakı Qacar qoşunlarına şahın kürəkəni Məhəmməd Əmin xan rəhbərlik edirdi. M.Şerbatov qaladakı qoşunun sayının 3000 ilə 4000 arasında dəyişdiyini göstərmişdir (232, s.278). İngilis müəllifi R.Uatson isə qalanın 3000 nəfərlik bir müdafiə qalası olduğunu yazmışdır. Rus qoşunları qalanın ətrafında müdafiə məqsədi ilə çəkilmiş su kanallarının suyunu digər istiqamətə yönəltməyə çalışırdı. Kəşfiyyatçılar Araz çayı sahilindəki yüksəkliklərdən qalanı müşahidə etməyə çalışırdılar. Qalanın təslim edilməsi ilə bağlı ilk tələbi Məhəmməd Əmin xan qəti olaraq rədd etdi (232, s.279).

İyulun 1-də rus qoşunu artıq qaladan 2,5 verst aralıda düşərgə salmışdı. İyulun 4-də Çorsda olan Abbas Mirzənin qoşunlarından iki bölük hərəkətə başladı və Araz çayının sağ sahilindən 20 verst aralıda düşərgə saldı (232, s.281). İyul ayının 6-da Abbasabad qarnizonunun müqavimət göstərən hissəsi zərərsizləşdirildi və ayın 7-də səhər Abbasabad qalasının qapıları açıldı (176, s.68). Ruslar iyulun 8-də səhər saat 7-də qalanı təslim aldılar (232, s.287). Qeyd edək ki, qalanın mühasirəsinə 18 min əsgərlə yanaşı, 30 top da cəlb edilmişdi. İngilis hərbiçisi və diplomatı Persi Molesvörs Sykes "Persiya tarixi" əsərində Abbasabad qalasının rusların əlinə keçməsini "iranlıları ruhdan salan zərbə" adlandıraraq yazır: *"Qısa müddət sonra Araz çayı sahilindəki çox möhkəm istehkam olan Abbasabad qalası xəyanət nəticəsində ələ keçirildi. Bu iranlıları ruhdan salan zərbə oldu və onlar sülh üçün səmərəsiz cəhdlər göstərməyə baş-*

*ladılar”.*

Naxçıvan şəhərinin və Abbasabad qalasının tutulmasının necə fövqəladə bir hadisə olmasına dair biz S.N.Qlinkanın “Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri” adlı əsərində də sətirlərə rast gəlirik. Paskeviçin qələbələrini böyük bir şövqlə təsvir edən S.N.Qlinka yazır: *“İranlıların izi Rusiya dövlətinin Asiya torpaqlarında itib getdi. Paskeviç müdafiə artilleriyasını qoruya-qoruya Araza tərəf irəlilədi. Qorxu və heyrət iranlıları məğlub etdi. Paskeviç öz düşmənlərinin gözündə iki parlaq qəhrəmanlıq göstərdi: o, Naxçıvana, Şərq ticarətinin bu qədim mərkəzinə daxil oldu və Abbasabad qalasını mühasirəyə aldı”* (76, s.7). Bəli, rus müəllifinin fikrincə düşmənlərinin – Qacarlar dövlətinin və ona yardım edən İngiltərənin, eləcə də Osmanlı dövlətinin gözündə bu dövrə qədər Paskeviçin ən böyük iki qəhrəmanlığının ikisi də qədim Naxçıvan torpağı və birbaşa Naxçıvan şəhəri ilə bağlı idi. Doğrudur, sonralar Paskeviç daha böyük bir qələbə qazandı, o İrəvanı fəth edərək “Erivanski” titulunu aldı, lakin Naxçıvan şəhərinin ələ keçirilməsi mümkün olmasa idi və Abbasabad qalası Abbas Mirzə qoşunlarından alınmasa idi, yəqin ki, Paskeviç “Erivanski” də ola bilməyəcəkdi. Deməli, tarix boyu Qərbi Azərbaycanın iki mərkəzi sayılan İrəvanın və Naxçıvanın taleyi bir-birinə bağlı olub və İrəvana gedən yol, məhz Naxçıvandan keçib. Naxçıvan kimin əlində olubsa, əvvəl axır o, İrəvanın da sahibi olub.

Müharibə ilə bağlı diqqət çəkən məqamlardan biri xüsusən ingilis və fransız mənbələrində qalanın “xəyanət nəticəsində” təslim edilməsi ilə bağlı fikirlərdir. Qeyd etmək lazımdır ki, bu fikri qeyd edərkən qaladakı Kəngərli süvarilərinin sərkərdəsi Ehsan xanın ruslarla apardığı danışıqları və Məhəmməd Əmin xanın qalanın açarlarını ruslara təslim etməsini nəzərdə tuturlar. İlk növbədə qeyd etmək lazımdır ki, Rusiyaya qarşı savaşı Qacarlar vasitəsi ilə aparan ingilislərin və fransızların bu mövqeyi təəccüb doğurmamalıdır.

Digər tərəfdən Naxçıvan xanları hələ I Kalbalı xanın dövründən etibarən Qacarlara olan münasibətlərini ortaya qoymuşdular. Bu heç də gözlənilməz bir məqam deyildi. Üçüncü tərəfdən qalanın açarlarını Ehsan xanın deyil, Məhəmməd Əminin təslim etməsi ilə bağlı məsələ artıq tarixşünaslıqda sənədlər əsasında sübuta yetirilmiş faktdır (79, s.123-124; 78). Naxçıvan xanları dünyada gedən hərbi-siyasi prosesləri uzaqgörənliklə müşahidə edir və proseslərin ruhuna uyğun Naxçıvanı qorumaq üçün diplomatik manevrlər edirdilər ki, bundan da təbii heç nə ola bilməzdi.

Rusların Naxçıvan şəhərini və Abbasabad qalasını tutması ilə bağlı maraq doğuran digər məqamlardan biri isə bu prosesdə məşhur Azərbaycan tarixçisi Abbasqulu ağa Bakıxanovun və dahi rus şairi Aleksandr Sergeyeviç Puşkinin iştirakı məsələsidir. Azərbaycan Dövlət Tarix Arxivinin və Gürcüstan Dövlət Tarix Arxivinin sənədlərinə əsaslanan tarixçi Hacı Murad İbrahimbəyli A.S.Puşkinin rus ordusunun sıravi əsgəri kimi Abbasabad döyüşlərində iştirak etməsindən, hətta onun Paskeviç tərəfindən korpusun mühəndisi kimi qiymətləndirilməsindən bəhs etmişdir (180, s.116-117). Abbasqulu ağa Bakıxanov isə Abbasabad qalasının ələ keçirilməsində daha böyük rol oynamış və məhz bu səbəbdən döyüşdən sonra ştabs-kapitan rütbəsinə layiq görülmüşdür (180, s.117). Ehtimal ki, o, qaladakı rütbəlilərlə, xüsusən Ehsan xanla danışıqların aparılmasında mühüm xidmətlər göstərmişdir (62, s.3).

Naxçıvan şəhərinin və Abbasabad qalasının tutulmasından sonra Paskeviç tərəfindən general-mayor Baron Saken qalanın komendantı və vilayətin rəisi təyin edilmişdir (232, s.293; 71, s.176). Bölgə rusların nəzarətinə keçdikdən sonra savaşların gətirdiyi məhrumiyyətlər və digər səbəblər ucbatından bölgəni tərk etmiş əhalinin bir qismi geriyə qayıtmağa başladı. Tədqiqata cəlb etdiyimiz Naxçıvan Muxtar Respublikası Dövlət Tarix Arxivində saxlanılan bir sıra arxiv sənədlərində də bu barədə məlumatlar əksini

tapmışdır. Arxiv sənədlərindən bəlli olur ki, vilayətin Xok kəndinə 600, Naxçıvana 2000 ailə qayıtmışdı.

Naxçıvan şəhərinin və Abbasabad qalasının ruslar tərəfindən işğalı Abbas Mirzəni və Qacarların dəstəkçisi rolunda çıxış edən ingilisləri ruslarla sülh danışıqları aparmaq üçün addımlar atmağa məcbur etdi. Hətta sülh təklifini vermək üçün Tiflisə şəxsi nümayəndə də göndərildi. Lakin bu təklif qarşısında rusların irəli sürdüyü istəklər o qədər çox və alçaldıcı idi ki, Abbas Mirzə müharibəni davam etdirmək məcburiyyətində qaldı.

Müharibənin gedişatını izlədiyimiz zaman görürük ki, rus qoşunları tərəfindən Naxçıvan şəhəri ələ keçirildikdən sonra Paskeviç rus qoşunlarının komandanı olaraq əksər hərbi planları bu şəhərdən idarə etmiş, Qacarlar, rus qoşunları nümayəndələri və müharibənin arbitrajı roluna iddialı olan ingilis nümayəndələri arasında bəzi danışıqlar belə məhz bu şəhərdə aparılmışdır. Məsələn, 1827-ci ilin oktyabrında rus qoşunlarının komandanı Paskeviçlə görüşmək üçün İngiltərə konsulluğunun katibi Kambel və Təbriz qubernatoru Fətəli xan məhz bu şəhərdə rus qoşunlarının hücumunu dayandırması xahişini etmişdilər (107, c.2, s.95). Qeyd edək ki, Paskeviç Abbas Mirzənin diqqətini İrəvandan yayındırmaq məqsədilə general Eristova Qarababadakı əsas qüvvələri Naxçıvanda yerləşdirməyi təklif etmiş, bundan sonra heç bir müqavimətə rast gəlməyən Eristov tezliklə Təbrizə aparan yola çıxmışdı. Qərargahın rəisi vəzifəsini icra edən Muravyov da Təbrizə hücum etmək məqsədilə Naxçıvana gəlmişdi. Artıq oktyabr ayının 13-də Təbriz şəhəri də rusların əlində idi (176, s.91).

1828-ci ildə Rusiya ilə Qacarlar arasında bağlanmış Türkmənçay müqaviləsi Naxçıvanın Rusiya tərəfindən işğalını rəsmiləşdirdi (107, c.2, s.81). Müqavilənin III maddəsində qeyd olunurdu: *"İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə İrəvan xanlığını və Naxçıvan xanlığını*

*Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırkı müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə vəd edir"* (139, s.135;  10, c.2, s.73).

Bu isə nəinki Azərbaycanın, ümumilikdə Qafqazın və Yaxın Şərqin tarixi və mədəni mərkəzlərindən biri olan, Qafqaz və ətraf bölgələrin nəzarətdə saxlanılması üçün mühüm strateji nöqtə sayılan Naxçıvan şəhərinin də işğalının rəsmiləşməsi demək idi. Naxçıvan xanlığının Arazdan şimaldakı ərazilərinin, o cümlədən Naxçıvan şəhərinin Rusiya imperiyasının nəzarətinə keçməsi ilə Naxçıvan şəhərinin tarixində də yeni dövr başlamışdır.

## *2.2. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin tarixi coğrafiyası*

Naxçıvan şəhərinin XIX əsr tarixindən bəhs edərkən tədqiqi vacib olan məsələlərdən biri də bu dövrdə şəhərin tarixi coğrafiyasının və şəhər quruluşunun öyrənilməsidir. Qeyd etmək lazımdır ki, Naxçıvanın tarixi coğrafiyasının öyrənilməsi ilə məşğul olan tədqiqatçıların əksəriyyəti, ümumilikdə, bölgənin tarixi coğrafiyasının öyrənilməsinə diqqət yetirmişlər. Naxçıvan şəhərinin tarixi coğrafiyasına həsr edilmiş xüsusi tədqiqat əsəri olmasa da, müxtəlif tədqiqatçıların, ümumilikdə, Naxçıvan bölgəsinin tarixi coğrafiyasının öyrənilməsinə həsr etdikləri əsərlərdə Naxçıvan şəhərinin tarixi coğrafiyası ilə bağlı məsələlərə də toxunmuşlar. Əsərlərində Naxçıvan şəhərinin tarixi coğrafiyası ilə bağlı məlumatlar vermiş tədqiqatçılar sırasında V.Piriyev (117; 118), N.Vəlixanlı (142; 143; 144), S.Babayev (13; 14), İ.Hacıyev (42), F.Səfərli (124), S.Budaqova (23) və E.Kəlbizadənin (63; 64) adlarını çəkmək mümkündür. Naxçıvanın tarixi coğrafiyası mövzusunda xüsusi dissertasiya mü-

dafiə etmiş adı çəkilən son iki müəllifin əsərlərində Naxçıvan şəhərinin tarixi coğrafiyasına xüsusi olaraq diqqət yetirilmişdir. Diyarın XII-XVIII əsrlərdə tarixi coğrafiyasının tədqiqi ilə məşğul olmuş E.Kəlbizadə bəhs olunan xronoloji çərçivədə hər bir əsrdə Naxçıvan şəhərinin tarixi-coğrafiyası ilə bağlı məlumatlar vermişdir ki, bu da şəhərin XIX əsrə qədərki inkişaf tarixinin və genişlənmə arealının müəyyənləşdirilməsi üçün çox mühümdür. S.Budaqovanın Naxçıvan diyarının XVIII əsrin II yarısı XIX əsr tarixi coğrafiyasına həsr olunmuş dissertasiyası və monoqrafiyalarında isə Naxçıvan şəhərinin birbaşa olaraq rus işğalından sonrakı dövrdə tarixi coğrafiyası ilə bağlı qiymətli məlumatlar öz əksini tapmışdır. Lakin bu tədqiqatlarda məqsəd olaraq qarşıya şəhərin tarixi coğrafiyasının öyrənilməsi qoyulmadığından Naxçıvan şəhərinin yerləşdiyi arealın hansı dəyişikliklərə uğraması, şəhərin sxeminin necə dəyişməsi, əhalisinin məhəllə və şəhərətrafı yaşayış məntəqələri üzrə necə yerləşməsi barədə kompleks tədqiqi aparılmamışdır. Bu səbəbdən də bu yarımfəsildə Naxçıvan şəhərinin XIX əsrdə tarixi coğrafiyasının tədqiqi qarşımızda məqsəd olaraq müəyyənləşdirilmişdir.

Naxçıvan şəhərinin tarixi coğrafiyasından bəhs edərkən aydınlaşdırılması vacib olan məqamlardan biri şəhərin və bölgənin adının eyniliyi ilə bağlıdır. Başqa sözlə desək, XIX əsrdə Naxçıvan şəhəri Naxçıvan xanlığının, sonrakı dövrdə isə Naxçıvan qəzasının mərkəzi olmuşdur. Bəs Naxçıvan adının özü əslində tarixən şəhərinmi adı olmuşdur, yoxsa bölgəninmi? Apardığımız təhlillər və komporativ qarşılaşdırmalar sübut edir ki, "Naxçıvan" sözü xatırlandığı ilk tarixi qaynaqlarda bölgənin deyil, birbaşa olaraq şəhərin adını ifadə etmişdir. Bizim eramızın II əsrində Klavdi Ptolomeyin əsərində xatırlanan "Naxsuana" da (97, c.2, s.62) ümumilikdə bölgəni deyil, Naxçıvan şəhərini ifadə etmişdir. Qədim yunan alimi, dünyanın geosentrik sisteminin banisi Klavdi Ptolomey (təqr. 87-165) "Coğrafi təlimnamə" əsərində dünyanın 7 məşhur şəhərlərin-

dən birinin Naxsuana olduğunu göstərir (173, s.65; 13, s.203).

İlk orta əsrlər dövründə də mənbələrdə qeyd olunan "Naxçıvan", "Nəşəva" və "Naqcuvan" sözləri birbaşa olaraq şəhərin adını ifadə etmiş, Naxçıvanın yerləşdiyi bölgə isə bu dövrün qaynaqlarında Basfurracan vilayəti (mahalı) olaraq qeydə alınmışdır. V.Piriyev "Azərbaycanın tarixi coğrafiyası" əsərində də IX-XI əsr ərəb müəlliflərinin "Nəşəva" adı ilə şəhəri yad etdiklərini göstərmişdir (118, s.46). "Naxçıvan" sözünün şəhər adı ilə yanaşı, vilayət adı kimi qeyd olunmasına isə XII əsrin 40-cı illərindən etibarən – Eldənizlərin Naxçıvanı xass vilayətinə çevirmələrindən sonrakı dövrdə rast gəlinir. Bu dövrdən etibarən Naxçıvan mənbələrdə həm şəhər, həm də bölgə adını ifadə etməyə başlamışdır.

XIX əsrin başlanğıcında Naxçıvan şəhəri Qacarlar dövlətindən yarımasılı xanlıq olan Naxçıvan xanlığının paytaxtı idi. Məlum olduğu kimi, bu dövrdə xanlıq Qacarlar dövləti tərkibində Azərbaycan (Cənubi Azərbaycan) əyalətinə daxil olub, vəliəhd Abbas Mirzəyə tabe idi (231, s.446-448). Bu dövrdə şəhər təkcə xanlığın deyil, həm də Naxçıvan xanlığının eyni adlı mahalının mərkəzi sayılırdı.

1827-ci ilin oktyabrında İrəvan xanlığının da süquta uğramasından sonra Naxçıvan şəhəri hər iki xanlığa daxil olan digər torpaqlar kimi yaradılmış müvəqqəti idarənin tabeçiliyinə verildi. 1828-ci il martın 21-də çar I Nikolayın fərmanı ilə əslən erməni olan X.Y.Lazerevin hələ xeyli əvvəllər təqdim etdiyi layihəsi əsasında "erməni vilayəti" yaradıldı (107, c.2, s.106; 82, s.25). Fərmanda deyilirdi: *"İranda bağlanan traktata uyğun olaraq İrandan Rusiyaya birləşdirilmiş İrəvan və Naxçıvan xanlıqları bundan sonra bütün işlərdə "erməni vilayəti" adlandırılsın və o, bizim titula daxil edilsin. Bu vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında hökumət öz vaxtında lazımi göstərişlər alacaqdır"* (11, s.299). Tarixi Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlı-

ğına daxil olan ərazilərdə yaradılmış bu vilayətdə İrandan və Türkiyədən köçürülən ermənilərin məskunlaşdırılması nəzərdə tutulurdu.

Beləliklə, 1828-ci ilin mart ayının 21-dən etibarən Naxçıvan şəhəri də "erməni vilayəti"nin tərkibinə daxil edilmiş oldu. Vilayət 26,9 min km$^2$ ərazini əhatə edirdi (40, s.5). "Erməni vilayəti" yarandığı ilk dövrlərdə inzibati planda iki qəza və bir dairədən ibarət idi. İrəvan qəzası, Naxçıvan qəzası və Ordubad dairəsi (38, s. 30; 44, s. 17). Qəzalar (dairələr) isə, öz növbəsində, rayonlara (mahallara) bölünürdü. Naxçıvan qəzasının tərkibinə 5 mahal – Əlincəçay, Naxçıvan, Məvazixatun, Xok və Dərələyəz daxil idi (231, s.599-634). Bu dövrdə Naxçıvan şəhərində yerləşən Şəhər İdarə Orqanı birbaşa Naxçıvan şəhərinin idarəçiliyini həyata keçirirdi (133, s.111).

"Erməni vilayəti"nin idarəsinin quruluşu haqqında 1833-cü il əsasnaməsinə görə İrəvan vilayətinin inzibati-ərazi bölgüsündə dəyişiklik edildi. N.N.Şavrov "Cənubi Qafqazda Rusiyaya qarşı yeni bir təhlükə" əsərində inzibati quruluşda edilən dəyişiklikləri belə təsvir edir. İrəvan əyaləti dörd dairəyə – İrəvan, Şərur, Sürməli və Sərdarabada bölündü. Dairələr də mahallardan ibarət idi. Naxçıvan əyaləti və Ordubad dairəsi əvvəlki inzibati-ərazi bölgüsündə qalırdı (231, s.448). Paskeviçin tapşırığı ilə "Cənubi Qafqaz diyarının statistik təsviri"ni yazmış O.Eveçkiy isə Naxçıvan və Ordubad dairələrinin birlikdə Naxçıvan əyalətini meydana gətirdiyini yazmışdır (233, s.103, 178). V.Qriqoryev də "Naxçıvan əyalətinin statistik təsviri"ndə Naxçıvan vilayətinin sərhədlərini təsvir edərkən Naxçıvan və Ordubad dairələrini Naxçıvan əyalətinin tərkibində göstərmişdir (173, s.2). Həm V.Qriqoryevin, həm də O.Eveçkinin qeydlərindən aydın olur ki, dairələr, öz növbəsində, mahallara bölünmüşdü (173, s. 64; 233, s.103). V.Qriqoryev Naxçıvan dairəsinə daxil olan mahallar sırasında Naxçıvan, Əlincə,

Xok və Dərələyəz mahallarının adını çəkmişdir (173, s.64). XIX əsrin 30- cu illərindən sonrakı dövrdə Naxçıvan əyalətinin inzibati ərazi quruluşundan bəhs edən Z.Şahverdiyev Naxçıvan əyalətində altı mahalın (Xok, Naxçıvan, Əlincəçay, Yaycı, Dərələyəz, Məvazi-Xatun) olduğunu yazmışdır (131, s.100).

Həm müvəqqəti idarənin, həm də vilayət idarəsinin İrəvan şəhərində yerləşməsinə baxmayaraq, bu dövrdə Naxçıvan şəhəri bölgənin ikinci böyük şəhəri kimi ciddi ictimai və iqtisadi rola, hərbi və strateji əhəmiyyətə malik idi. Bu şəhər inzibati olaraq Naxçıvan əyalətinin, Naxçıvan dairəsinin və Naxçıvan mahalının mərkəzi hesab edilirdi. Naxçıvan şəhəri ətrafdakı 47 kəndlə birlikdə Naxçıvan mahalını meydana gətirirdi (173, s.64).

Çar hökuməti bir müddət sonra, 1840-cı ildə "erməni vilayəti"ni ləğv etdi (135, s.43-51). Ümumilikdə, Cənubi Qafqazın işğalından sonra yaradılmış süni inzibati-ərazi idarəçiliyi, xüsusən süni "erməni vilayəti"nin varlığı yerli əhalinin ciddi hiddəti və narazılığı ilə qarşılaşırdı. Bütün bunları nəzərə alan çar hakimiyyəti 1840-cı il aprelin 10-da "Zaqafqaziya diyarının idarəsi üçün təsisatlar" adlı sənədi imzaladı (107, c.2, s.107). Bütün Cənubi Qafqaz ərazisi Gürcü-İmeretiya quberniyasına və Xəzər vilayətinə bölündü. İnzibati baxımdan quberniya qəzalara, qəzalar isə sahələrə bölünürdü. Yeni bölgüyə əsasən Naxçıvan şəhəri Gürcü-İmeretiya quberniyasına daxil olan Naxçıvan qəzasının mərkəzinə çevrilmiş oldu. Bu qəzanın ərazisi 4378 km$^2$ olmuşdur.

Qafqaz canişinliyinin yaradılmasından sonra burada inzibati ərazi bölgüsündə yeni dəyişikliklərin labüdlüyü ortaya çıxdı. Bu səbəbdən də çar I Nikolayın 1846-cı il 14 dekabr fərmanı ilə Zaqafqaziyanın inzibati-idarə sistemində dəyişikliklər edildi (107, c.2, s.109). Bu dəyişiklikdən sonra Naxçıvan şəhəri Naxçıvan qəzasının digər torpaqları ilə birlikdə Tiflis quberniyasının tabeçiliyinə verildi. Lakin həm məsafə, həm yerli etno-psixoloji durum,

eləcə də tarixi-coğrafi ənənələr Tiflisdən Naxçıvanın və İrəvanın idarə edilməsini çətinləşdirirdi. Bu səbəbdən də 1849-cu il iyunun 9-da İrəvan quberniyası yaradıldı. Bir qisim tarixçilər İrəvan quberniyasının yaradılmasının əsl məqsədinin idarəçiliyin asanlaşdırılması ilə deyil, daha çox ermənilər üçün dövlət yaradılması yolunda yeni addım olduğunu yazırlar (81, s.26). Yeni quberniya və quberniya orqanları 1850-ci il yanvarın 1-dən fəaliyyətə başladı (193). Quberniya beş qəzaya bölündü. Naxçıvan qəzası yeni yaradılmış İrəvan quberniyasının tərkibinə daxil edildi (217, s.14). Naxçıvan şəhəri İrəvan quberniyasının Naxçıvan qəzasının mərkəzi kimi əvvəlki statusunu qoruyub saxladı. S.P.Zelinskinin məlumatına görə, bu dövrdə Naxçıvan qəzasının tərkibində üç sahə – Naxçıvan, Ordubad və Dərələyəz sahələri yaradılmışdı (178, c.7, s.209-258). Z.Şahverdiyev də dövrün mənbələri və arxiv sənədlərini təhlil etməklə belə bir qənaətə gəlmişdir ki, bəhs olunan dövrdə Ordubad qəzası ləğv edilərək sahə kimi Naxçıvan qəzasına qatılmışdır (131, s.101). O yazır: *“1862-ci ildə yeni təyin olunmuş canişin Mixail Nikolayeviçin təqdimatı ilə çar II Aleksandr 1867-ci il dekabrın 9-da Qafqaz və Zaqafqaziya diyarının idarəsinin dəyişdirilməsi haqqında fərman verdi. Bu fərman üzrə Ordubad qəzası on yeddi ilədək mövcud olduqdan sonra ləğv edilərək, Naxçıvan qəzası ilə birləşdirildi”* (132, s.58). Arxiv sənədləri sübut edir ki, Naxçıvan şəhəri həm də Naxçıvan sahəsinin mərkəzi kimi müəyyənləşdirilmişdi.

Qeyd etmək lazımdır ki, tarix boyunca olduğu kimi, XIX əsrdə də Naxçıvan şəhəri uğrunda aparılan mübarizələr şəhərin ciddi dağıntılara məruz qalmasına səbəb olmuşdu. Naxçıvan şəhərinin tarixindəki bu acınacaqlı spirialvari təkrarlanan gedişatı tarixçi V.M.Sısoyev belə ifadə etmişdi: *“Təbii ki, Naxçıvan çox qədim şəhərdir. Şəhər X əsrə qədərki dövrdə salınmışdır. Bəlkə də daha qədimdir. Onun sonrakı tarixini qısa sözlə xarakterizə etmək*

*olar. Hər 200-300 ildən bir şəhər özülünə qədər dağıdılırdı. Ancaq hər dəfə yenidən bərpa edilirdi"* (30, s.47).

XIX əsrə aid arxiv sənədlərində şəhərin 39° ilə 40° arası şimal enliyində, 63° ilə 64° arası şərq uzunluğunda yerləşdiyi göstərilmişdir (236, v.2). K.Nikitin isə şəhərin koordinatlarını daha da dəqiqləşdirərək yazır ki, XIX əsr Naxçıvan şəhəri 39° 12´ şimal enliyində, 63° 5´ şərq uzunluğunda yerləşmişdi.

Şəhərin təbii-coğrafi şəraitinə gəlincə mənbələrdə qeyd edilir ki, şəhər Kiçik Qafqazın silsilələrinin bitdiyi yerdə Arazboyu düzənlikdə yerləşmişdi. Şəhərin cənub hissəsi şəhərətrafı kəndlərlə əhatələnmişdi. Araz çayı bu yaşayış məntəqələrinin cənub hissəsindən keçirdi (173, s.10). Şəhər Araz çayından 8 verst şimal məsafədə idi (198, s.118). Başlanğıcını Dərələyəz və Zəngəzur dağlarından götürən Naxçıvançay isə şəhəri şərq və cənub tərəfdən əhatələyir, sonra bir neçə qola bölünərək Abbasabad qalası ilə Bulqan kəndləri arasındakı ərazidən keçərək Araz çayına qovuşurdu (64, s. 154; 173, s.10). Şəhərin əsas hissəsi ilə Qarababa çayı (Naxçıvançay) arasında olan məsafə isə XIX əsrin 30-cu illərində 2 verst idi (236, v.2). Sərt şaxtalı qış aylarında Naxçıvançay buz bağlayırdı. Nikitin Naxçıvançayın donma dövrünün yanvarın başlanğıcı ilə martın əvvəlləri arasında olduğunu göstərmişdir (198, s.119). Naxçıvan şəhəri Naxçıvan əyalətinin sərt kontinental iqlimə malik hissəsində yerləşmişdi. May ayında artıq günəşin yandırıcı şüaları burada hiss olunurdu, iyunda isə istidən ağacların yarpaqları belə qurumağa başlayırdı (173, s.25). Şəhərdə əsən küləklərin istiqamətindən asılı olaraq iqlim dəyişmələrini müşahidə edən K.Nikitin yazır ki, şərq və şimal-şərq küləkləri şəhərə yağıntı gətirir. Cənubdan əsən küləklər isə əsasən quraqlığın xəbərçisi olur (198, s.121).

Naxçıvandan quberniya mərkəzi olmuş İrəvana qədər olan məsafə 139 verst, Tiflisə qədər olan məsafə isə 444 verst idi (236,

v.2). XIX əsrin 30-cu illərində Naxçıvan şəhərinin əsas hissəsi 6 verstlik ərazidə yerləşirdi (173, s.69). Bu isə şəhərin ərazisinin təqribən 10 kvadratkilometri əhatə etdiyini söyləməmizə imkan verir. V.Qriqoryev ətrafdakı əkin sahələri ilə birlikdə götürdükdə şəhərin ərazisini 17 verst (173, s.69) və yaxud 28,39 kvadratkilometr göstərmişdir. Kameral siyahıların şəhər haqqında məlumatları əks etdirən hissəsində isə bu rəqəm 20 verst olaraq qeyd edilmişdir (236, v.3).

1831-ci ilə aid arxiv sənədlərində şəhərin sərhədləri aşağıdakı kimi göstərilmişdir: şimaldan Şeyx Mahmud, şərqdən Şəkərabad, cənubdan Tumbul və Yamxana, qərbdən isə Əliabad və Xok mahalı (236, v.2-3). V.Qriqoryev Naxçıvan şəhərinin Şıxmahmud, Əliabad, Qaraçuq, Bulqan, Tumbul, Qoşadizə kəndləri və şərq istiqamətində Naxçvançayla həmsərhəd olduğunu yazmışdır (173, s.69, 130).

## *2.3. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin quruluşu və məhəllələri*

Mənbələrin təhlili belə bir qənaətə gəlməyimizə imkan verir ki, XIX əsrin 70-ci illərinə qədər belə şəhər əsrin əvvəllərindəki simasını o qədər də dəyişməmişdir. Şəhərin ruslar tərəfindən işğalından 50 il sonra K.Nikitinin qeydləri də bunu sübut edir (198, s.120). V.Qriqoryev yazır ki, şəhərin ortasından Naxçıvançaydan çəkilmiş xəndəklər (su kanalları) keçirdi ki, bunlar da şəhərdəki bağların və əkin sahələrinin suvarılmasına xidmət edirdi (173, s.70). K.N.Nikitin də şəhərin mərkəzindən axan və suvarmada istifadə edilən çay qolları və arxlardan bəhs etmişdir. O yazır: *"Naxçıvanın ortasından arx keçir. Bu arx şəhər əkinlərini və bağlarını su ilə təchiz edir. Lakin bu arxın suyu şəhər təsərrüfatına kifayət etmirdi. Çünki Naxçıvan çayı boyunca yerləşən kəndlərin əhalisi əkinlərin becərilməsi üçün bu sudan istifadə edirdi. Digər tərəfdən yaz və yay*

*vaxtları çayın suyu azalır, bəzən büsbütün quruyurdu. Bu da şəhər təsərrüfatında su çatışmazlığına gətirib çıxarırdı. Su çatışmazlığı çox zaman şəhər əhalisinin narazılığına səbəb olurdu*” (198, s.118-119). 1831-ci ilə aid bir arxiv sənədində də Naxçıvançaydan çəkilmiş və şəhəri iki hissəyə ayıran bu kanaldan bəhs edilmişdir (236, v.5). Qeyd edək ki, şəhərin ortasından keçən Bazar çayı XX əsrin 60-cı illərinə qədər Naxçıvan şəhərinin içərisindən axırdı. Əsrin 60-cı illərində çayın üstü beton plitələrlə örtülmüşdür (95, s.52; 127, s.57).

XIX əsrin 70-ci illərində Naxçıvan şəhəri Bakı, Şamaxı, Quba, Lənkəran, Yelizavetpol, Şuşa, Nuxa, Zaqatala, Ordubadla birlikdə Şimali Azərbaycanda şəhər statusuna malik olan 10 şəhərdən biri idi. Bu dövrdə Şimali Azərbaycanda rus şəhərsalma mədəniyyətinin təcrübəsi yayılırdı. Tədqiqatçılar bu qənaətdədirlər ki, ən iri şəhərlər olan Bakının, Şamaxının, Naxçıvanın, Gəncənin rus hərbi mühəndisləri tərəfindən tərtib edilmiş planları bu şəhərlərin gələcəkdə hazırlanacaq baş planlarının başlanğıcı olmuşdur (12, c.4, s.171).

Şəhərin XIX əsrin 20-ci illərindəki vəziyyətini öyrənmək üçün ən mühüm mənbələrdən biri onun 30 iyun 1827-ci ildə çəkilmiş planıdır (Əlavə № 5). Planın təsvirini Rusiya Dövlət Hərbi Tarix Arxivinin Hərbi Bilik Fondundan əldə edən Ə.Salamzadə və K.Məmmədzadə “Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri” kitabında planı təqdim etmişlər (121, s.69). Qeyd edək ki, plan dövrün I dərəcəli topoqrafları Qupel və Kolokov tərəfindən çəkilmişdir (121, s.265). Plandan da göründüyü kimi müharibələr Naxçıvan şəhərinin həyatında ağır izlər qoymuş, şəhərin tənəzzül etməsinə və dağıntılara səbəb olmuşdur.

XIX əsrə aid qaynaqlar Naxçıvan şəhərinin məhəllələr üzrə təsvirini vermiş və şəhərin quruluşu ilə bağlı zəngin məlumatları saxlamışlar. Bir məsələni də qeyd etmək lazımdır ki, XIX əsr

Naxçıvan şəhərinin məhəllələrindən bəhs edən tədqiqatçıların əksəriyyəti V.Qriqoryevin məlumatlarına istinad edərək şəhərdə yalnız dörd məhəllənin olduğunu qeyd etmişlər (30, s.49; 13, s.197). Tədqiqatçılardan S.Budaqova əsərində Naxçıvan şəhərinin məhəllələri ilə bağlı say dəyişikliklərinə diqqət yetirmişdir (22, s.79). Məsələnin aktuallığını nəzərə alaraq arxiv materialları, ilkin qaynaqlar və etnoqrafik materiallar əsasında bəhs olunan dövrdə Naxçıvan şəhərinin quruluşunu və məhəllələr üzrə bölgüsünü aydınlaşdırmağı vacib hesab edirik.

İlk növbədə qeyd etmək lazımdır ki, Naxçıvan şəhəri qala şəhəri olmuş və şəhərin əsas hissəsi qala divarları ilə əhatələnmişdi. Rus ordusunun mayoru Matuşeviçin qeydlərindən aydın olur ki, 1803-cü ildə Naxçıvan qalasının 6 qülləsi mövcud olmuş, şəhərin qala hissəsinin mühafizəsi üçün 4 topdan istifadə olunurmuş (212, c.1, s.371). Naxçıvan şəhərinin 1827-ci ildə hazırlanmış planında da şəhərin qala hissəsi sxematik olaraq təsvir olunmuşdur (127, s.144; 121, s.69). Plandan aydın olur ki, qala iki hissədən Kiçik Qala (Narınqala) və böyük qaladan ibarət olmuşdur. Baş verən müharibələr nəticəsində böyük qala Narınqala hissəsinə nisbətən daha çox dağıntılara məruz qalmışdır. Planın tədqiqi nəticəsində belə bir qənaətə gəlirik ki, şəhərin mərkəzi Möminə Xatın türbəsinin yerləşdiyi ərazi – Qala məhəlləsi olmuşdur. Şəhərin bu hissəsində düzgün formada olmayan şəhər meydanının ətrafında bir sıra komplekslər cəmləşmişdir. Ə.Salamzadə və K.Məmmədzadə yazırlar ki, Naxçıvan şəhərinin mərkəzi meydan ansamblına Xan sarayı ilə birlikdə İçqala da daxil olmuşdur (121, s.70). Bu isə Naxçıvan şəhərini o dövrdə Cənubi Qafqazda və Cənubi Azərbaycanda mövcud olan bir çox digər şəhərlərdən fərqləndirən əsas xüsusiyyətlərdən biri idi. Belə ki, dövrün digər şəhərlərində əsasən iki mərkəzlilik müşahidə olunur. Belə şəhərlərdə İçqala və şəhər meydanı fərqli ərazilərdə yerləşirdi. İçqala siyasi mərkəz funksiyasını, şəhər

meydanı isə dini və iqtisadi mərkəz funksiyasını yerinə yetirirdi. Naxçıvan şəhərində isə İçqalanın və şəhər meydanının eyni ərazidə yerləşməsi şəhərin vahidmərkəzli olmasını sübut edən başlıca amildir. Naxçıvanın Köhnə qala hissəsi isə şəhərin cənub-şərq istiqamətində yerləşmişdir. Hazırda Naxçıvan şəhərində bərpa olunmuş Naxçıvanqala memarlıq abidəsi məhz bu qalanın ərazisidir. Bu qala XVIII əsrdə fəaliyyətini İçqala kimi dayandırmışdı. 1827-ci ildə çəkilmiş planda sxematik olaraq təsviri verilən bu qalanın quruluşuna gəlincə qala İçqaladan və onu əhatə edən divarlardan ibarət olmuşdur (121, s.92). (Əlavə № 6). Köhnəqalanı tədqiq edən V.Kərimovun yazdığına görə qala darvazası onun qərb küncündəki qüllə ilə yanaşı olmuşdur (186, s.111-118).

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda Beynəlxalq Simpoziumun keçirilməsi haqqında" 2011-ci il 7 iyun tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən, Naxçıvan şəhər mədəniyyətinin günümüzə qədər gəlib çatan mühüm tarixi abidələrindən olan qalada əsaslı bərpa və yenidənqurma işləri aparılmış, ərazisi 12 min $m^2$-dən artıq olan qalanın 600 metr uzunluğunda divarları, bürclər yenidən qurulmuşdur. 2013-cü ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır (111; 122, s.9). Təbii ki, Naxçıvanın tarixinin öyrənilməsi, tədqiqi və təbliği haqqında danışarkən, ilk növbədə, Naxçıvan şəhərinin, indiyə qədər qorunub saxlanılmış, xalq arasında "Köhnəqala" adlandırılan Naxçıvanqalanın tarixinin öyrənilməsi, maddi mədəniyyətimizin şah əsərlərindən biri olan bu qalanın qorunması və təbliği xüsusi əhəmiyyət kəsb edir. Bu mənada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 5 iyun 2013-cü il tarixli Sərəncamı təkcə tariximizin qorunması və

təbliğinə deyil, həm də gələcəkdə milli kimliyimizin, bir millət kimi bu torpaqların əzəli və əbədi sakinləri olduğumuzun elmi dəlillərlə sübutuna xidmət edən mühüm dövlət sənədi olmuşdur (65, s.3).

Əsrlər boyunca vahid Azərbaycanın mərkəzi sayılan Təbriz şəhərindən gələn yol birbaşa olaraq şəhər meydanına daxil olurdu. Şəhərin mərkəzində dördkünc bazar var idi (236, v.10). Bu bazarda üç karvansara yerləşirdi. Dükanların hamısı, demək olar ki, bazarda mərkəzləşmişdi (30, s.49). 1827-ci ildə çəkilmiş plana əsasən deyə bilərik ki, bu dövrdə yaşayış evlərinin tikintisində pərakəndəlik müşahidə edilirdi. Yaşayış evləri şəhərin cənub-qərb hissəsində daha sıx idi (121, s.70).

V.Qriqoryev "Naxçıvan əyalətinin statistik təsviri"ndə Əlixan, Şahab, Sarvanlar və Qurdlar məhəllələrinin adlarını çəkir (173, s.68). Bəhs olunan dövrdə bu dörd məhəllədə 700 ev var idi ki, bu təsərrüfatlardan da 260-nın sakinləri vergi verən təbəqəyə aid idilər (173, s.68). V.Qriqoryevin bu məlumatını əsas götürsək və bir ailədə o dövrün şərtlərinə görə ən azı 5 nəfər olduğunu nəzərə alsaq, bu dörd məhəllədə ən az 3500 sakinin yaşadığını söyləyə bilərik. Bu sakinlərdən ən azı 1300 nəfəri vergi ödəyicisi idi. İ.Şopen isə rus işğalının ilk dövrlərinə aid məlumatlarında Sarbanlar, Oruc məhəlləsi, Köhnəqala, Xoşulu, Çaparxana, Ziyilarx, Bilici, Şahab, Qala və Təzəkənd məhəllələrinin adını çəkmişdir (231, s.477).

V.Qriqoryevin və İ.Şopenin Naxçıvan şəhərinin məhəllələrinin sayı ilə bağlı verdikləri bu fərqli məlumatlar yuxarıda da qeyd etdiyimiz kimi tədqiqatçıların əksəriyyəti arasında fikir ayrılığına səbəb olmuş və tarixşünaslıq əsərlərində məhəllələrlə bağlı müxtəlif rəqəmlər əksini tapmışdır. Bu məsələyə aydınlıq gətirən məlumatlar isə 1831-ci ilə aid kameral siyahılardadır. Bu sənədlərin təhlilindən aydın olur ki, Naxçıvan şəhərinin rus işğalına qədərki dövründə bu şəhərdə 4 məhəllə mövcud idi, işğaldan sonrakı dövrdə isə müharibənin dayanması, əhali yerdəyişmələri, köçürmələr nə-

ticəsində şəhərin məhəllələrinin sayı da artmışdır. Arxiv sənədlərində də, XIX əsrin əvvəllərində Naxçıvan şəhərində 13 məhəllənin adı çəkilir: Sarbanlar, Oruc məhəlləsi, Köhnəqala, Xoşulu, Əlixanlı, Çaparxanlı, Ziyilarx, Bilici, Şahab, Xoy, Qala, Təzəkənd (və yaxud Uzundivar) və s. (236, v.4).

XIX əsrin 70-80-ci illərində isə şəhərdə aşağıdakı məhəllələr olmuşdur: Xoşulu məhəlləsi, Sarvanlar, Əlixan məhəlləsi, Cağataylı, Qayibqulu, Nadirxan-Sultan məhəlləsi, Şahab, Xoylu məhəlləsi, Qala, Çuxur. Bunlardan əlavə, Təzəkənd və Hacıvar da şəhərin izibati bölgüsünə daxil idi (178, c.7, s.257).

Məhəllələrin adlandırılması bəzən o məhəllələrdə məskunlaşmış tayfa və tirələrin adları ilə bağlı olur, ya da müəyyən sənət və peşə adamlarına görə müəyyən edilirdi. Mənbələrdən də məlumdur ki, Naxçıvan şəhəri ərazisində məskunlaşmış Kəngərlilərin Cığataylı, Sarvanlar, Əlixanlı kimi tirələrinin məskunlaşdıqları məhəllələr məhz onların adları ilə adlandırılmışdır (173, s.32).

Məhəllələrin idarəçiliyi hələ Səfəvilər dövründən başlayaraq məhəllə başçılarına və sənətkarların ağsaqqallarına başçılıq edən – kələntər tərəfindən həyata keçirilirdi (91, s.39). Tarixçi M.Quliyev apardığı tədqiqatlar nəticəsində XVIII əsrin sonlarında Naxçıvan şəhərinin kələntəri olmuş iki şəxsin – Mirzə Məhəmməd Kələntər və Mirzə Rəhimin adını müəyyən edə bilmişdir (79, s.36).

Qala məhəlləsi: Bu məhəllə Əcəmi seyrəngahının ərazisindən başlamış, hal-hazırda Heydər Əliyev Sarayının yerləşdiyi əraziyə qədər uzanırdı. Xoylu məhəlləsi ilə qonşuluqda yerləşirdi (96, c.1, s.311). Vaxtilə Qala məhəlləsinin bir hissəsi Kəngərli məhəlləsi adlanmışdır (96, c.1, s.311). Sonralar isə bu məhəllə adı unudulmuşdur. XIX əsrdə Rusiyanın mərkəzi vilayətlərindən köçürülmüş malakanların bir qismi məhz bu məhəllədə məskunlaşdırılmışdılar (17, s.56).

Əlixanlı məhəlləsi: Şəhərin şimal hissəsində yerləşən bu mə-

həllənin adı artıq qeyd etdiyimiz kimi, Kəngərlilərin Əlixanlı tirəsinin adı ilə bağlı olmuş və burada Kəngərlilərin bu tirəsinə mənsub əhali məskunlaşmışdı. XVIII əsrin sonlarına doğru Qazax mahalından bir neçə nəsil köçərək Əlixan məhəlləsində məskunlaşmışlar. Tarixçi Ə.Əliyevin yazdığına görə məhz bu köçənlər tədricən öz malikanələrini genişləndirib Qazax-Dilican-Naxçıvan yolunun sol tərəfində mülk salmış və həmin yeri Əliabad adlandırmışlar (27, s.48). Sonralar gəlmələrin böyük bir hissəsi Dərələyəz mahalına köçmüşlər. Məhəllənin ərazisi indiki Bəhruz Kəngərli Parkının ərazisindən başlayır, İ.Əliyev adına Olimpiya İdman Kompleksinin yerləşdiyi əraziyə qədər uzanırdı. XIX əsrdə bu məhəllə Naxçıvan şəhərinin əsas sənətkarlıq məhəllələrindən biri olmuşdur. XIX əsrin ortalarında bu məhəllədə 97 nəfər sənətkar məskunlaşmışdı (132, s.82).

Şahab məhəlləsi: Sənətkarların sıx məskunlaşdıqları məhəllələrdən digər biri isə Şahab məhəlləsi idi. Bu məhəllədə XIX əsrin 30-40-cı illərində 91 nəfər sənətkar yaşayırdı (132, s.82). Məhəllənin adı ilə bağlı bir neçə versiya mövcuddur. Naxçıvan şəhərinin arxitekturasından bəhs edən R.Salayeva “şahab” sözünün mənasını “axanulduz”, “meteroit” kimi izah etmişdir (216, s.43). Müəlliflərdən biri Şahab sözünün mənşəyini “leysan yağmurunda göydən düşən adam”la əlaqələndirmişdir. XVIII əsrdə İslam dini bərqərar olduqdan sonra güclü yağmurlar zamanı göydən düşmüş səma cisminin – meteoritin tapılması nəticəsində yaranmışdır (18, s.101). Digər izahlardan birinə görə ərazinin gursulu olması ilə əlaqədar əhali məhəlləni fars dilində “şah-ab” (gur-su) adlandırmışdır. Məhəllənin adını Kəngərlilərin bir qolu olan Şahbanuların adı ilə bağlayanlar da vardır (97, c.2, s.284). Bizim qənaətimizə görə də məhəllənin adı Kəngərli tayfaları ilə bağlıdır. XIX əsrdə Naxçıvan şəhərinin əsas məhəllələrindən olmuş bu məhəllə Yusif Küseyir oğlu türbəsinin ətrafındakı əraziləri əhatə edirdi. İ.Əzimbəyov da

1926-cı ildə hazırladığı bir məruzəsində Yusif Küseyir oğlu türbəsinin (İ.Əzimbəyov bu türbəni "Atababa günbəzi" kimi qeyd etmişdir –A.A.) məhz Şahab məhəlləsində yerləşdiyini yazmışdır (56, s.45; s.78).

Sarvanlar məhəlləsi: Bu məhəllənin adı Kəngərlilərin bir qolu olan Sarvanlar türk tayfasının adı ilə bağlıdır. XIX əsrdə bu məhəllədə əsasən Kəngərlilərin bu qolunun nümayəndələri yaşayırdılar. Məhəllə Möminə Xatın türbəsinin şimal-qərb istiqamətindəki ərazini əhatə edirdi (97, c.2, s.247). Məhəllə şimaldan Sallaqxana məhəlləsi ilə həmsərhəd idi. Hazırda Naxçıvan şəhərində Heydər məscidi (Həzrəti Zəhra Məscidinin) yerləşdiyi ərazi də Sarvanlar məhəlləsinə aid idi. Bu məhəllədə əsasən faytonçuluq, dəvəçilik və arabaçılıqla məşğul olan əhali məskunlaşmışdı. Məhəllədə məskunlaşan sənətkarların sayı 56 nəfər olmuşdur (132, s.82).

Qurdlar məhəlləsi: "Naxçıvan Ensiklopediyası"nın I cildində bu məhəllənin adı qədim türklərdə müqəddəs hesab edilən Boz Qurd totemi ilə əlaqələndirilir (96, c.1, s. 353). Qeyd edək ki, bu məhəllə Naxçıvan şəhərinin ən qədim məhəllələrindən biri hesab edilir. Şimal-qərbdən Şahab, şimal-şərqdən isə Qoçüstü məhəllələri ilə həmsərhəd idi. XIX əsrdə məhəllədəki əkin yerlərinin suvarılmasında "Bəktaş arxı"nın sularından istifadə edilmişdir (16, s.69).

Bilici məhəlləsi: XIX əsrin əvvəllərində Naxçıvan şəhəri ərazisində mövcud olmuş Bilici məhəlləsinin adı XIX əsrin 30-cu illərindən sonrakı dövrə aid qaynaqlarda çəkilmir. Məhəllənin adı yuxarıda da qeyd etdiyimiz kimi, Kəngərlilərin Bilici qolunun adı ilə bağlıdır. Bilicilərin əsas məskunlaşma arealı Naxçıvan xanlığının Arazdan cənubdakı torpaqları və Azadciran ərazisi olsa da, görünür XIX əsrin birinci yarısında Naxçıvan şəhərində də Bilicilər məskun olmuşlar. Tədqiqatlar göstərir ki, 1813-cü ildə Qacar şahzadəsi Abbas Mirzənin fərmanı ilə Məhəmməd bəy Kəngərli kəcli və bilici qolları da daxil olmaqla Kəngərli tayfasının ağsaqqalı və

kəndxudası vəzifəsinə təyin edilmişdi (96, c.1, s.89).

Çaparxana məhəlləsi: İ.Şopenin adını qeydə aldığı məhəllələrdən biri də məhz bu məhəllə olmuşdur. Bəzi qaynaqlarda isə məhəllənin adı Çaparxanlı olaraq qeyd olunmuşdur. Mülahizələrə görə, Çaparxanlı məhəlləsinin adı "çapar", "qasid" sözləri ilə əlaqədardır. Bu mülahizə tərəfdarlarının fikrincə, keçmişdə çaparların, "poçt atları" saxlayanların çoxu bu məhəllədə yaşadığından məhəllə belə adlandırılıb (96, c.1, s. 118). Məhəllə Bazarçayın üst tərəfində, indiki Naxçıvan şəhər 12 nömrəli orta məktəbin yerləşdiyi ərazidən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının yerləşdiyi əraziyə qədər uzanırdı (17, s.54). Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin qarşısından keçən küçə də bu məhəlləyə aid idi. XX əsrin 20-ci illərindən 60-cı illərinin ortalarına qədər Çaparxana məhəlləsi "Oktyabr" küçəsi adlandırılmışdır. Bəzi müəlliflərə görə, məhəllədə ingilis poçt-teleqrafxana binası olmuşdur ki, London-Kəraçi (Bombey) teleqraf xəttinin Naxçıvan dayaq stansiyası da məhz burda yerləşmişdir (17, s.54).

Xoşulu məhəlləsi: İ.Şopenin XIX əsr aid adını çəkdiyi məhəllələrdən biri Xoşulu məhəlləsi olmuşdur. R.Salayeva bu məhəllənin adını Dərbənd şəhərinin cənub-qərbində yerləşən Xoşnu adlı kəndin adı ilə bağlamış və bu kənddən köçənlərin məhz bu məhəlləni kəndlərinin adı ilə adlandırması fikrini irəli sürmüşdür (216, s.44). Lakin tarixi mənbələrdə hələlik belə bir miqrasiya ilə bağlı fakta rast gəlmədiyimizdən və bunun üçün məntiqi əsas da olmadığından biz məhəllə adının bu cür izahını inandırıcı hesab etmirik. Naxçıvan diyarı ərazisində bənzər daha iki toponim mövcud olmuşdur. Belə ki, "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə Naxçıvan əyalətinin Qarabağ nahiyəsində Xoşulu qışlağı adlı kənd qeydə alınmışdır (104, s.29). "İrəvan əyalətinin icmal dəftəri"ndə isə eyni kəndin adı Köçəri Xoşluyer qışlağı kimi göstərilmişdir (57, s.145). Digər bir toponim isə B.Budaqov və Q.Qeybullayev tərəfindən qeydə alınmış

Ordubad rayonu ərazisində yerləşən Xoşludağdır (21, s.71). B.Budaqov və Q.Qeybullayev yazırlar ki, qədim türk dillərində "xoş" sözü "kəcəbə yeri", "maldar elin yaylaq yerində yaşayış yeri" mənalarındadır. Xoşulu məhəlləsinin yerləşdiyi mövqeyi nəzərə aldığımız zaman ehtimal etmək olar ki, şəhərətrafı ərazidə yarımköçəri həyat tərzi keçirən əhali qrupunun əsas məskunlaşma arealı məhz bura olmuşdur.

R.Salayeva Xoşulu məhəlləsinin Əlixan və Xıncab məhəllələri arasında yerləşdiyini göstərmişdir. Lakin bizim tədqiqatlarımız göstərir ki, Əlixan məhəlləsi ilə Xıncab məhəlləsi arasında bir deyil, üç məhəllə yerləşmişdir. Xoşuludan əlavə Cıdıllı, Qarağac məhəllələri də məhz bu arealda idi. Məhəllənin dəqiq sərhədi isə belədir. Məhəllə şərq tərəfdən Qarağac məhəlləsi, qərb tərəfdən isə Xıncov məhəlləsi ilə həmsərhəd idi. Məhəllə cənubdan Sarvanlar məhəlləsinə qovuşurdu.

Xoylu məhəlləsi: Bir sıra tədqiqatçılar Xoşulu və Xoylu məhəllələrinin ad bənzərliyinə görə bu məhəllələri eyniləşdirmişlər. İ.Şopen və V.Qriqoryevin adını çəkmədiyi, lakin hələ XVIII əsrdən etibarən Naxçıvan şəhəri ərazisində mövcud olan məhəllələrdən biri Xoylu olmuşdur. Bu məhəllədə hələ XVIII əsrin sonlarında Cənubi Azərbaycanın Xoy şəhərindən köçüb gələn əhali məskunlaşmışdı (96, c.1,s.255). Məhəllə indiki Qızlar bulağının yerləşdiyi ərazidən aşağıya doğru uzanırdı. XIX əsrin sonlarında yazdığı əsərində Xoşulu və Xoylu məhəllələrinin hər ikisinin adını çəkən S.Zelinskinin məlumatları da göstərir ki, bu məhəllələr fərqli məhəllələr olmuşlar.

Ziyilarx məhəlləsi: Tarixçi S.Budaqova bu məhəllənin də Türkmənçay müqaviləsinə əsasən Naxçıvana ermənilər köçürüldükdən sonra əmələ gəldiyini yazmışdır (22, s.79). Lakin belə bir qənaətə niyə gəldiyini göstərməmişdir.

Dabbaqxana məhəlləsi: Məhəllə Naxçıvan şəhərindəki indiki Şəhidlər Xiyabanının və Şəhidlər Muzeyinin yerləşdiyi ərazidən

başlayır, cənuba doğru uzanırdı. Bu günə qədər qalmaqda olan Buzxana məhz bu məhəllənin ərazisinə düşürdü (17, s.55). Məhəllədə əsasən dabbaqlıq peşəsi ilə məşğul olan sənətkarlar yaşayırdı.

Sallaqxana məhəlləsi: Bu məhəllə də Naxçıvan şəhərində sənət və peşə ilə əlaqədar formalaşmış məhəllələrdən biri olmuşdur. Ərəbcə "sallaq" (qəssab) və farsca "xanə" (ev) sözləri əsasında yaranmışdır. Şəhərdə arabaçı, faytonçu işləyənlərin, qəssablıqla məşğul olanların əksəriyyəti bu məhəllədə yaşamışdır (97, c.2, s. 243). Şərqdən Sarvanlar, şimaldan Xıncov məhəllələri ilə həmsərhəd olan bu məhəllənin indiki adı Çuxur məhəlləsidir (16, s.70). Çuxur məhəlləsi adı məhəllənin yerləşdiyi coğrafi ərazinin relyefi ilə əlaqədar olaraq formalaşmışdır.

Qoçüstü məhəlləsi: XVIII əsrin sonunda şəhərin əsas məhəllələrindən biri Naxçıvançayın sağ sahilində yerləşən Qoçüstü məhəlləsi olmuşdur. Ola bilsin ki, əvvəllər bu məhəllə Naxçıvan şəhərinin əsas hissəsinə aid olmayan müstəqil yaşayış yeri olmuş, sonralar isə şəhərin böyüməsi ilə əlaqədar Naxçıvan şəhərinin məhəllələrindən birinə çevrilmişdir. Çünki arxeoloqlar apardıqları ilkin kəşfiyyat işləri nəticəsində buranı XI-XVIII əsrlərə aid yaşayış yeri kimi qiymətləndirmişlər (96, c.1, s.344-345). Bundan başqa göstərmək lazımdır ki, Naxçıvan şəhərində Qoçaltı adlı məhəllə də mövcud olmuşdur (96, c.1, s.344). Bəzi müəlliflər məhəllənin adının hələ IX əsrdən etibarən burada yerləşən meydanda guya qoç heykəlinin qoyulması ilə bağlı olduğunu yazmışlar (16, s.69). Fikrimizcə, məhəllənin adının formalaşması erkək qoyun – qoç adı ilə bağlı deyildir. Toponimin izahı ilə bağlı iki fikir irəli sürmək mümkündür. Bunlardan biri məhəllənin Kəngərlilərin bir qolu olan Qəcoların və ya Kəclilərin adı ilə bağlı olmasıdır. Qəcoların yaşadığı yuxarı məhəllə "Qəco-üst" və yaxud "Qoç üstü", aşağı məhəllə isə "Qəco-altı" və yaxud "Qoçaltı" adlandırılmışdır. İkinci versiya isə bundan ibarətdir ki, Naxçıvançayın bu ərazinin yaxınlığından keçən hissə-

sində karvan keçidi mövcud olmuşdur. Məhəllələrdən biri "Keç(id)üstü", digəri isə "Keç(id)altı" adlandırılmış, sonralar isə xalq dilində fonetik dəyişikliklərə uğrayaraq "Qoçüstü" və "Qoçaltı" şəklinə düşmüşdür.

Pirqəmiş məhəlləsi: Şəhərin məhəllələrindən biri də Pirqəmiş və yaxud Pirxamuş məhəlləsi olmuşdur. Bu məhəllə şəhərin ən qədim məhəllələrindən sayıla bilər. Məhəllənin adı dini etiqadla bağlı olaraq formalaşmış (97, c.2, s.224) və Pirxamuş xanəgahı və yaxud Pirqəmiş məscidi bu məhəllədə yerləşmişdir.

Beləliklə, XIX əsr Naxçıvan şəhərinin tarixi-coğrafi yerləşməsini, quruluşunu təhlil etdikdən sonra belə bir qənaətə gəlirik ki, yüzilliyin birinci yarısında Naxçıvan şəhəri orta əsr Şərq şəhərləri üçün xarakterik olan dörd əsas xüsusiyyəti birləşdirən tipik orta əsr şəhəri quruluşunu əsasən qoruyub saxlamışdı. Bu mənada XIX əsr Naxçıvan şəhərinin dörd əsas xarakterik xüsusiyyəti bunlar idi:

– Şəhər əhəmiyyətinə görə həftənin bəlli günlərində bazar yeri olaraq da istifadə edilən meydana malik idi. Meydanlar bir sıra orta əsr Şərq şəhərlərində birdən artıq fəaliyyətin eyni vaxtda həyata keçirildiyi mərkəzlər olmuşdur (146, s. 88). Şəhərin idarəçiliyi, iqtisadi, sosial və mədəni funksiyalarının böyük bir qismi buradan həyata keçirilirdi. Naxçıvan şəhərinin mərkəzi meydanı bir çox komplekslərlə əhatələnmişdi ki, bu da orta əsr şəhərləri üçün xarakterik olan hal idi.

– Orta əsr şəhərləri üçün xarakterik olan və XIX əsr Naxçıvan şəhərinin simasında da əksini tapan digər bir xüsusiyyət ondan ibarət idi ki, Came məscidi deyilən mərkəzi bir məscidi var idi. XIX əsrin 20-ci illərindən sonrakı dövrdə rus imperializmi hər nə qədər məscidlərin əhali üzərində təsirini azaltmağa çalışsa da, buna tam mənası ilə nail ola bilməmişdi.

– Orta əsr şəhərlərinin ən vacib elementlərindən biri şəhər meydanının yaxınlığında bazar və ya çarşı meydanının olması idi.

Naxçıvan şəhərinin bazarı da məhz şəhərin meydanının yaxınlığında Bazarçayın sahilində yerləşmişdi.

– Nəhayət şəhərin məhəllə və küçə sistemləri üzrə bölgüsü xüsusiyyəti də Naxçıvan şəhərinin simasında öz əksini tapmışdır. Bu məqamda şəhərin məhəllələri ilə bağlı çox mühüm məsələlərdən birini qeyd etmək yerinə düşər. Şəhərin müxtəlif dövrlərə aid planlarını təhlil edərkən aşkara çıxardığımız maraqlı elementlərdən biri odur ki, müsəlman-türk şəhəri olan Naxçıvanda işğaldan sonrakı dövrdə belə "Məhəllə məhrəmiyyəti" anlayışına çox ciddi önəm verilmişdir. Məhəllə məhrəmiyyəti anlayışının mahiyyəti ondan ibarət idi ki, eyni məhəllədə sakin olan qonşular bir-birinin taleyi üçün cavabdehlik daşıyır, məhəlləyə "yadların" daxil olmaması vacib məsələ hesab edilirdi. Məhəllələrdə yadların hərəkətini məhdudlaşdıran maraqlı üsul isə birbaşa olaraq Naxçıvan şəhərinin quruluşunda öz əksini tapmışdır. Belə ki, bəzi məhəllələrin və küçələrin girişi olur, lakin məhəllənin digər yan məhəllə və küçəyə qovuşan hissəsində tam yolun üzərində də ev inşa edilirdi. Beləliklə, məhəllə girişi və çıxışı eyni istiqamətdən olan qapalı əraziyə çevrilir və məhəlləyə daxil olan "yad ünsür"ün müəyyənləşdirilməsini asanlaşdırırdı.

Şəhərə ən yaxın yaşayış məntəqələrinə gəldikdə isə Bulqan kəndi tam Araz çayının kənarında yerləşirdi və Naxçıvan şəhəri, Qaraçuq və Yamxana kəndləri ilə həmsərhəd idi. XIX əsrin 30-cu illərində kəndin bütün əhalisi Kəngərlilərdən ibarət idi. Kənddə 29 ailə məskunlaşmışdı. Yamxana kəndi Bulqandan şərq tərəfdə Naxçıvançayın sağ sahilində idi. Abbasabad qalası, Bulqan və Tumbul kəndləri ilə həmsərhəd idi. Kənddə 17 azərbaycanlı ailəsi məskunlaşmışdı (173, s.130-131). Abbasabad qalasının yaxınlığında yerləşən Təzəkənd Nehrəm, Qoşadizə və Yamxana ilə həmsərhəd idi. Rusiya-Qacar müharibələri zamanı bu kəndin yerli sakinləri olan azərbaycanlılardan 25 ailə Arazın o tayına köçmüşdü. Bundan

istifadə edən ruslar köçürmə zamanı bu kənddə erməniləri yerləşdirməyə çalışmışdılar. XIX əsrin 30-cu illərində kənddə 110 ailə yaşayırdı. Nehrəm kəndi Təzəkənd, Güznüt və Qoşadizə kəndləri ilə həmsərhəd idi. Müharibə dövründən bu kəndin yerli azərbaycanlı sakinlərindən isə 80 ailə Arazın o biri tayına köçmüşdü. XIX əsrin 30-cu illərində kənddə 324 ailə məskunlaşmışdı. Əliabad kəndinin ərazisi isə bu dövrdə 7 verst idi (224, s.61). Kənd Nəzər Əli xanın oğlu Nəcəf Qulu bəyə məxsus idi. Qoşadizə kəndi Naxçıvançay, Nehrəm və Alqa ilə həmsərhəd olmuşdur. Ərazisi 8 verst idi. Kəngərli Fərəc ağaya məxsus olan kənddə əsrin 30-cu illərində cəmi 11 ailə yaşayırdı. Kənddə türkdilli Kəngərli və Pənahlı tayfaları məskunlaşmışdılar (224, s.58).

Nəzərəli xana tiyul olaraq verilmiş Tumbul Naxçıvançayla Yamxana arasında yerləşmişdi. 1831-ci ilə aid məlumatlarda kəndin ərazisi ətraf torpaqlarla birlikdə 17 verst göstərilmişdir (224, s.57). Torpaqları xeyli dərəcədə məhsuldar olan kənddə XIX əsrin 20-ci illərində 76 ailə yaşayırdı, sonradan 10 ailə hansısa səbəblərdən kəndi tərk etmiş və artıq əsrin 30-cu illərində bu kənddə 66 ailə yaşamışdır. Qaraxanbəyli, Badaşqan, Hacıabad kəndləri də şəhərətrafı kəndlər idi (173, s.132-133).

## *2.4. Rus işğalından sonrakı dövrdə Naxçıvan şəhərinin əhalisinin etnik və sosial tərkibində dəyişikliklər*

XIX əsrdə Naxçıvan şəhərində sosial münasibətlər bütövlükdə Azərbaycan şəhərlərində mövcud olan sosial münasibətlər sisteminin tərkib hissəsi idi. Çar Rusiyası tərəfindən Naxçıvan şəhərinin işğalından və Türkmənçay müqaviləsinin imzalanmasından sonra ən ciddi dəyişikliklərdən biri əhalinin etnodemoqrafik və sosial strukturunda baş vermişdi. Rus işğalından sonrakı dövrdə əhalinin sosial strukturundakı dəyişikliklər – müəyyən yeni siniflərin

yaranması, burjuaziyanın formalaşmağa başlaması, kəndli qruplarının yeni sosial-iqtisadi sistemə görə strukturlaşması təbii ictimai-iqtisadi proseslərin uzunmüddətli dövrdə meydana çıxan nəticəsi idi. Əhalinin etnodemoqrafik strukturunda baş verən dəyişikliklər isə sırf Rusiya imperiyasının işğalçılıq siyasətinə xidmət edən, dayaq yaratmaq məqsədi güdən köçürmə və xristianlaşdırma siyasətinin nəticəsi olaraq meydana çıxmışdır. Rusiya Osmanlı dövləti ilə Qafqazın və Orta Asiyanın türk xalqları arasında tampon xristian xəttini formalaşdırmağa çalışır, eyni zamanda Osmanlı dövlətinin şərq vilayətlərinə olan iddialarını gələcəkdə təmin etmək üçün baza hazırlayırdı. Akademik İsmayıl Hacıyev məhz bu məqam üzərində xüsusi dayanaraq yazır: *"Osmanlı imperiyasını bölüşdürməyə çalışan çar Rusiyası onun ərazisində "erməni dövləti" yaratmaqda maraqlı idi. Təsadüfi deyildir ki, çar II Nikolay söhbətlərinin birində qeyd etmişdi ki, Anadoluda, təbii, ermənilərlə məşğul olacağam, onlara müstəqil bir rejim quracağam"* (40, s.5).

10 fevral 1828-ci ildə Rusiya imperiyası ilə Qacarlar dövləti arasında bağlanan Türkmənçay sülh müqaviləsi Rusiyaya bir sıra çətin və mürəkkəb dövlət məsələlərini həll etməyə kömək etdi (176, s.110). Müqavilənin XV maddəsinə əsasən ermənilərin əzəli və əbədi Azərbaycan torpaqları olan İrəvana, Naxçıvana, Qarabağa, eləcə də digər bölgələrə köçürülməsinə rəvac verildi. Müqavilənin imzalanmasından cəmi bircə gün sonra ruslar onlara güvənən yerli xanların güvənini sarsıdacaq addımı atdılar. General Paskeviç 1828-ci il fevralın 29-da göstəriş verdi ki, ermənilər başlıca olaraq Naxçıvan və İrəvan vilayətlərində, qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin (171, s.103). V.Veliçko yazır ki, bu göstərişin verilməsi Cənubi Qafqazın müstəmləkələşdirilməsinin başlanğıcı idi (163, s.123). Paskeviçin başqa bir direktivində göstərilmişdir ki, xristianları Naxçıvan və İrəvan

vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır (171, s.103).

Beləliklə çar Rusiyası işğal etdiyi torpaqlarda bu zamana qədər kompakt şəkildə məskunlaşmamış, tarixin heç bir dönəmində bu ərazilərdə avtoxton və müəyyənedici faktor olmamış erməniləri bölgəyə köçürərək məskunlaşdırmağa çalışır, Şərq ölkələrinin, xüsusən də türk imperiyalarının xarakterinə ruslardan daha yaxşı bələd olan ermənilərdən yararlanmaq istəyirdi. Bəhs olunan dövrdə bölgə əhalisinin tarixi-demoqrafik tədqiqini həyata keçirmiş tarixçi Nuru Quliyev rus-erməni münasibətlərinin mahiyyətini doğru olaraq xarakterizə edərək qeyd edir ki, bu siyasətin mahiyyətini Şimali Azərbaycan torpaqlarının işğalı təşkil edirdi. Bu məqsədin ideoloji təminatı üçün tarixi həqiqət təhrif edilir, Şimali Azərbaycan ərazisinin bir hissəsi erməni torpağı kimi qələmə verilirdi (80, s.72). O zaman Naxçıvan ərazisinin təsvirini verən rus məmurları və müəllifləri belə qeydlərində xristian təəssübkeşliyini, "erməni sevgisi"ni gizlətmir, erməniləri yerli xalq kimi qələmə verməyə çalışırdılar. Mənbələrdəki "yerli" və "gəlmə" ermənilər məsələsinə toxunan Z.Şahverdiyev yazır ki, Naxçıvan torpaqları tarixi Azərbaycan ərazisi olmaqla, onun yerli əhalisini azərbaycanlılar (türklər) təşkil edirdi. Naxçıvan bölgəsi əhalisinin tərkibindəki ermənilər gəlmə idi. Gəlmə erməniləri də iki yerə bölmək olar: 1) Rusiya işğalınadək bu bölgəyə gələnlər (Rus qafqazşünaslığında onlar səhvən "yerlilər", yaxud "köhnədən yaşayanlar" adlandırılır.); 2) İşğal zamanı və sonra gələnlər (131, s.106).

Bəzi hallarda isə mənbələrdə gerçəkliklərin təhrifə uğraması və ermənilərin bu bölgənin "köklü xalqı" kimi göstərilməsini erməni kilsə xadimlərinin və bələdçilərin hiyləgərliyi və təəssübkeşliyi kimi qiymətləndirmək olar. Bir qrup müəlliflər üçün bölgədə bələdçiliyi daha çox eyni inanca mənsub olan erməni kilsə xadimləri etdiyindən onlardan toplanılmış məlumatlar da bir çox hallarda

təhrifə uğramış olurdu. Hələ orta əsrlərdə Şərqə gələn avropalı səyyahlara bələdçilik edən xristian erməni təbəələrin bu fürsətləri dəyərləndirməsindən bəhs edən tarix üzrə fəlsəfə doktoru E.Kəlbizadə yazır: *“...İslamın güclü olduğu və bir az da xürafatın geniş hökm sürdüyü o dövrlərdə gələn əksər xristian avropalı səyyahları məhz ermənilərin müşayiət etməsi təbiidir. Çünki, bir İslam ölkəsində bir müsəlman üçün xristianla ünsiyyətdə olmaq, onunla eyni qabdan çörək yemək aşağılıq sayılırdı. Bu səbəbdən də müsəlman-türk əhalisinin nəzərində aşağı iş sayılan xristian səyyahlarına bələdçilik işini ermənilər həyata keçirmiş, onlar isə öz məqsədlərinə və dini təəssübkeşliklərinə uyğun olaraq səyyahlara bölgədəki əhalini erməni kimi təqdim etmişdilər. Məlumdur ki, məqsədləri şah sarayına yetişmək olan elçilər və səfirlər hər yerdə dayanıb söylənilənləri şəxsən dəqiqləşdirə bilməzdilər. Məhz bu səbəbdən də onlar erməni müşayiətçilərinin dediklərini öz əsərlərində əks etdirmişdilər”* (64, s. 101-102). Bütün bunları nəzərə alaraq dövrün mənbələrində demoqrafik məsələlərlə bağlı qeydlərə tənqidi yanaşmaq zəruridir.

İşğaldan sonrakı dövrdə hərbi əməliyyatların dayandırılması, stabilliyin davamlı xarakter alması savaşlar zamanı bölgəni tərk etmiş yerli əhalinin yenidən geri qayıtmasına səbəb olmuşdur. Bundan başqa, rusların və ermənilərin bölgəyə köçürülməsi də əhalinin sayının çoxalmasına səbəb olmuşdur.

V.Qriqoryevin “Naxçıvan əyalətinin statistik təsviri” əsərində təqdim etdiyi cədvəllərdə XIX əsrin 20-ci illərinin sonu – 30-cu illərinin əvvəllərində köçürülən əhali ilə birlikdə Naxçıvan şəhərində 922 ailənin olduğu göstərilir (173, s.130). Hər ailənin orta hesabla 5-7 nəfərdən ibarət olduğunu nəzərə alsaq, XIX əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində təqribən 4600-5000 nəfərin yaşadığı qənaətinə gəlmək olar. V.Qriqoryev yazır ki, bu dövrdə şəhərdə yaşayan Kəngərli ailələrinin sayı 254

olmuşdur (173, s.130). Ə.Sumbatzadə isə hesablamalar nəticəsində Naxçıvan şəhərində yaşayan əhalinin sayını XIX əsrin 30-cu illəri üçün 2870 nəfər göstərmişdir (227, s.48). İ.Şopenin təqdim etdiyi statistik məlumatların təhlilindən belə bir qənaətə gəlirik ki, bu dövrdə Naxçıvan şəhərində 1330 ailə və yaxud 5470 nəfər əhali məskunlaşmışdı (231, s.635-638). Şəhər əhalisinin 2871 nəfərini kişilər, 2599 nəfərini qadınlar təşkil edirdi (231, s.638; 107, s.112). Naxçıvan şəhərinin 1831-ci ildə quberniya katibi Zolotnitski tərəfindən tərtib olunmuş kameral təsvirində isə Türkmənçay müqaviləsi bağlanan dövrdə şəhərdə 873 evin olduğu, bu evlərdə 1330 ailənin yaşadığı və əhalinin ümumi sayının 5470 nəfərə yaxın olduğu göstərilmişdir (236, v.8). Yuxarıda qeyd etdiyimiz rəqəmlərin arasında ciddi fərqlərin ortaya çıxdığını nəzərə alaraq məsələni təhlil etmək istərdik. İlk növbədə qeyd etmək lazımdır ki, Ə.Sumbatzadənin təqdim etdiyi rəqəmlərlə dövrün rus müəlliflərinin verdiyi rəqəmlər arasında ciddi fərqin ortaya çıxması başadüşülən deyil. Ehtimal ki, V.Qriqoryevin təqdim etdiyi Naxçıvan şəhərində 962 ailənin məskunlaşması ilə əlaqədar faktı tədqiqata cəlb edən Ə.Sumbatzadə bir ailənin orta hesabla 3 nəfərdən ibarət olduğunu düşünmüş və beləliklə də ortaya çıxan rəqəm 2880-ə yaxın olmuşdur. Lakin nəzərə almaq lazımdır ki,  XIX əsr Azərbaycan ailəsi üçün ən azı 3 övladın olması xarakterikdir. Əksər azərbaycanlı ailələrində uşaqların sayı 5-7 arasında dəyişmişdir. Belə olan halda, XIX əsrin 20-ci illərinin sonunda Naxçıvan şəhəri əhalisinin sayının 4610 nəfər, əsrin 30-cu illərinin sonuna doğru isə əhalinin sayının 5470 nəfər olduğunu söyləyə bilərik.

1831-ci ilə aid kameral təsvirlər əhalinin sayı ilə yanaşı, milli tərkibini də əks etdirir. Sənəddən aydın olur ki, bu dövrdə Naxçıvan şəhərində 411 kəngərli ailəsi və yaxud 1694 nəfər kəngərli tayfalarına mənsub əhali məskunlaşmışdı. Bunlardan 879 nəfəri kişilər, 815 nəfəri isə qadınlar idi. Digər türk tayfalarına mənsub olan azər-

baycanlı əhalinin sayına gəlincə sənəddə onların sayı 1930 nəfər (494 ailə) göstərilmişdir. Bunlardan 1004 nəfəri kişilər, 925 nəfəri qadınlar idi. Şəhərdə 4 boşa (qaraçı) ailəsi – 17 nəfər qaraçı da məskunlaşmışdı. Bu qaraçılar dini baxımdan İslam dini mənsubları idilər. Bu 17 nəfərdən 9-u kişi, 8-i qadın cinsindən idi. Şəhərdə 1825 nəfər (265 ailə) erməni məskunlaşdırılmışdı ki, onların 977 nəfəri kişilər, 848 nəfəri isə qadınlar idi. Bu dövrdə Naxçıvan şəhərində 1 gürcü ailəsi (4 nəfər) də məskunlaşmışdı (236, v.8).

V.Qriqoryevin əsərindəki məlumatlara əsaslansaq, bu dövrdə Naxçıvan şəhərində hər kvadratverstə 8 nəfərdən artıq insan düşürdü (173, s.29). Bu dövrdə şəhərdəki 4 təsərrüfat (ev) xan ailəsinə, 47 təsərrüfat (sultanlara və bəylərə), 3 təsərrüfat axundlara, 10 təsərrüfat mollalara, 18 təsərrüfat seyidlərə, 34 təsərrüfat xan nökərlərinə, 386 təsərrüfat isə vergi ödəyənlərə (tacirlər, sənətkarlar və s.) məxsus idi (173, s.69). 1831-ci ilin kameral təsvirlərində isə 2 xan ailəsinin, 45 bəy və sultan ailəsinin, 11 hərbi rütbəli məmur ailəsinin məskun olduğu göstərilmişdir (236, v.8). Şəhərdə 2 yüksək ruhani sinfinə daxil olan ruhani, 36 axund və molla, 22 seyid, 3 dərviş, 6 mirzə ailəsi yaşayırdı (236, v.9). Qeyd edək ki, XIX əsrin əvvəllərində olduğu kimi, işğaldan sonrakı dövrdə də müsəlman ruhaniləri cəmiyyətin ictimai-siyasi həyatında öz rollarını qoruyub saxlamışdılar (189, s.26). Onların sadəcə olaraq dövlət idarəçilik sistemindəki rolu məhdudlaşdırılmışdı. Bu dövrdə İrəvan, Üçmüədzin, Yeni Bəyazid qəzaları ilə yanaşı, Naxçıvan qəzasının da öz qazisi var idi və bu qazinin iqamət etdiyi məkan məhz Naxçıvan şəhəri idi (189, s.43).

Ə.Sumbatzadə XIX əsrin 40-cı illərinin sonlarında Naxçıvan şəhərinin əhalisi ilə bağlı apardığı hesablamalar əsasında bu dövrdə əhalinin sayını 5157 nəfər olaraq göstərmişdir (132, s.86; 227, s.48).

Azərbaycan Respublikası Dövlət Tarix Arxivində saxlanılan siyahılarda verilən məlumatlar göstərir ki, 1850-ci ildə Naxçıvan

şəhərində məskunlaşmış əhalinin sayı 4410 nəfər olmuşdur. Bu isə XIX əsrin 20-30-cu illərində köçürmə ilə əlaqədar olaraq əhalinin sürətli artımının, XIX əsrin 50-cı illərinə doğru azalma ilə əvəzləndiyini göstərir. Ehtimal ki, xanlığın ləğvi, bölgədə möhkəmlənən rus müstəmləkəçi idarəçiliyinin zülmü ilə əlaqədar olaraq yerli müsəlman əhalinin Arazın cənubuna doğru miqrasiyası baş vermişdir.

Ə.Sumbatzadə XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində 5966 nəfərin yaşadığını göstərmişdir (227, s.48). Z.Şahverdiyev də Ə.Sumbatzadəyə istinadla XIX əsrin 60-cı illəri üçün analoji rəqəmi təqdim etmişdir (132, s.86).

Rus müəllifi S.P.Zelinskinin Naxçıvan şəhərinin əhalisi ilə bağlı verdiyi məlumatlar şəhər əhalisinin XIX əsrin 70-ci illərinin əvvəllərindəki say tərkibini müəyyənləşdirməyimizə imkan verir. Zelinski 1873-cü ildə bu rəqəmin 6877 nəfər olduğunu qeyd etmişdir (178, c.7, s.248). K.Nikitinin 1882-ci ildə nəşr edilmiş məqaləsində də bu dövrdə şəhərdə yaşayan əhalinin sayını 6877 nəfər olaraq göstərmişdir (198, s.125). Şərq ailə ənənələrinin möhkəm olduğu Naxçıvan şəhərində əhalinin tərkibində yenə də kişilər qadınlara nisbətən say çoxluğuna malik idilər. 1873-cü ildə əhalinin 3723 nəfərini kişilər, 3154 nəfərini isə qadınlar təşkil edirdilər (178, c.7, s.248). K.Nikitinin təqdim etdiyi cədvəldə kişilərin sayı 3720 nəfər, qadınların sayı isə 3157 nəfər göstərilmişdir (198, s.125). 1873-cü ildə Şimali Azərbaycanda şəhər statusuna malik 10 şəhər (Bakı, Şamaxı, Quba, Şuşa, Yelizavetpol, Lənkəran, Naxçıvan, Ordubad, Nuxa və Zaqatala) içərisində Naxçıvan şəhəri əhalisinin sayına görə o dövrün statistikasına əsaslansaq, 7-ci yerdə idi. Statistikada bu zaman Bakıda 15 min 105 nəfər, Şamaxıda 25 min 87 nəfər, Qubada 11 min 324 nəfər, Şuşada 24 min 552 nəfər, Yelizavetpolda 18 min 505 nəfər, Lənkəranda 4779 nəfər, Ordubadda 3489 nəfər, Nuxada 20 min 917 nəfər və Zaqatalada 1079 nəfər əhalinin yaşadığı göstərilmişdir (10, c.2, s.117). Lakin burada dəqiqləşdirmələrin

aparılmasına ehtiyac vardır. Qeyd etmək lazımdır ki, bizə qədərki tədqiqatçıların əksəriyyəti bu rəqəmləri olduğu kimi təqdim etmiş və məsələnin mahiyyətini izah etməyə maraq göstərməmişlər. Məsələ ondan ibarətdir ki, Şamaxı, Nuxa, Şuşa kimi kiçik şəhərlərin əhalisi statistikada Bakı kimi sənaye şəhərindən artıq, Quba şəhərinin əhalisi isə ona yaxın miqdarda göstərilmişdir. Lakin o dövrün ictimai-siyasi, iqtisadi və demoqrafik durumunu nəzərə aldıqda bu şəhərlərin əhalisinin sayının bu qədər və Bakı şəhərindəkindən artıq olması məntiqli deyildir. Fikrimizcə, mənbələrdə Bakı, Naxçıvan, Lənkəran, Zaqatala, Ordubad kimi şəhərlərin yalnız şəhərdə yaşayan əhalisinin say tərkibi göstərilsə də, Şamaxı, Nuxa, Quba, Şuşanın əhalisi ətraf kəndlərlə birlikdə göstərilmişdir. K.Nikitin də göstərir ki, rəsmi mənbələrdə şəhərin əhalisinin sayı 6877 nəfər qeydə alınsa da, təbii ki, Naxçıvan şəhərində yaşayan əhalinin sayı bundan daha artıq idi (198, s.126). O, bunu belə izah edir: *"Bu şəhərin sinfi tərkibi barədə rəqəmlərində də özünü göstərir: məmur və zadəganlar 409 nəfər, ruhanilər 198 nəfər, sənətkarlar və digərləri 7177 nəfər, hamısı birlikdə isə 7784 nəfər. Bunun üzərinə 200 nəfərə yaxın aşağırütbəli hərbiçiləri də əlavə etsək, şəksiz ki, şəhər əhalisinin sayı ilə bağlı rəqəm 8000-ə çatacaqdır"* (198, s.126).

XIX əsrin 70-ci illərinin sonları üçün Ə.Sumbatzadənin Naxçıvan şəhərinin əhalisinin say tərkibi ilə göstərdiyi rəqəm 8802 nəfərdir (227, s.48).

1888-ci ildə nəşr etdirdiyi kitabında E.Veydenbaum XIX əsrin 80-ci illərinin başlanğıcı üçün olan rəqəmi əks etdirmişdir. O göstərirdi ki, qəza mərkəzi olan Naxçıvan şəhərində bu dövrdə 6911 nəfər sakin yaşayırdı (162, s.414). 1886-cı il ailə siyahısına görə, Naxçıvan şəhərinin əhalisinin sayı 6939 nəfərə çatmışdı (132, s.123-124) (221). Tədqiqata cəlb etdiyimiz E.Kondratenkonun redaktorluğu ilə 1902-ci ildə nəşr edilmiş və 1886-cı ilin göstəricilərini əks etdirən İrəvan quberniyasının xəritəsində verilən bilgi əsa-

sında Naxçıvan şəhərinin əhalisinin sayını müəyyənləşdirərkən nisbətən cüzi fərqli bir rəqəm ortaya çıxır. Belə ki, xəritənin sol küncündə şəhərlərin əhalisinin etnik tərkibi ilə bağlı verilən məlumatda Naxçıvan şəhərində 4836 nəfər tatarın (Azərbaycan türkünün), 2051 nəfər erməninin, 82 nəfər isə digər xalqların nümayəndələrinin yaşadığı göstərilmişdir (185). (Əlavə №3). Bu isə 6969 nəfər deməkdir ki, bu rəqəm yuxarıda göstərilən rəqəmdən 30 nəfər artıqdır. Qeyd edək ki, dövrün müəllifi M.Vladkinin verdiyi məlumata görə, bu dövrdə Naxçıvan şəhərinin də tərkibinə daxil olduğu İrəvan quberniyasında 453 min 597 nəfər əhali yaşayırdı (164, s.13). Bu dövrdə İrəvan quberniyasının ərazisinin 472 kvadrat mil olduğunu yazan müəllif qeyd edir ki, orta hesabla hər kvadratverstdə 18 nəfər yaşayırdı (164, s.13).

Statistik rəqəmlərin təhlili belə bir qənaətə gəlməyimizə imkan verir ki, XIX əsrin sonunda Naxçıvan şəhərində əhalinin artım dinamikası daha da yüksəlmişdir. Rusiyada ilk dəfə keçirilən 1897-ci il əhali siyahıya almasının nəticələrinə görə, Naxçıvan şəhərinin əhalisi 8790 nəfərə çatmışdır (208, s.8). Ümumilikdə götürdükdə XIX əsrin 30-cu illəri ilə 90-cı illəri arasındakı dövrdə Naxçıvan şəhərinin əhalisinin sayı 3320 nəfər artmışdır. Əhalinin sayında azalma yalnız 1829-1850-ci illər arasındaki dövrdə müşahidə edilməkdədir.

Köçürmə prosesinə baxmayaraq, XIX əsrdə də Naxçıvan şəhəri əhalisinin böyük hissəsi azərbaycanlılardan ibarət idi. XIX əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərinə aid məlumatlarda şəhər əhalisinin 4697 nəfərinin türk, 2157 nəfərinin erməni, 23 nəfərinin isə rus olduğu qeyd edilir (198, s.125). Tədqiqatçılardan biri yazır ki, bu dövrdən bəhs edən bəzi rusdilli mənbələrdə Rusiya imperiyasının, sonrakı dövrdə isə sovetlərin məqsədyönlü siyasətinin nəticəsi olaraq yerli azərbaycanlı türk əhalisi ümumi ad altında adlandırılmır və regiondakı türkdilli əhali müxtəlif tayfalar şəklində təqdim edilirdi. O dövr üçün bu daha çox regionda əhalinin say

tərkibində sonradan köçürülən ermənilərin çoxluğunu göstərmək məqsədi daşıyırdısa, hazırda bu mənbələr Naxçıvanın etnik mənzərəsinin öyrənilməsi üçün ciddi əhəmiyyət daşıyır. Beləliklə, biz nəinki region əhalisinin böyük əksəriyyətinin türkdilli olduğunu, həm də türkdilli əhalinin tərkibinin hansı tayfalardan formalaşdığını da müəyyənləşdirə bilirik (64, s.156).

Naxçıvan şəhəri ərazisində məskunlaşmış azərbaycanlı əhalinin tərkibində Kəngərlilərə məxsus tayfa və tirələr xüsusilə seçilir və bəzi hallarda məskunlaşdıqları məhəllələr belə onların adları ilə adlandırılırdı. V.Qriqoryev Naxçıvan şəhəri ərazisində məskunlaşmış Kəngərli tirələri arasında Ağabəyli, Cığataylı, Qaracalı, Bilici, Qaradolaği, Qəcolar, Sarvanlar, Şahbanlular, Əlixanlılar və Saleyqələrin adını çəkmişdir (173, s.32). "Naxçıvan əlyazma sənədləri"ndən aydın olur ki, Kəngərli tayfalarının hər birinin tayfadaxili iyerarxik quruluşu da olmuşdur. Tayfa üzvləri xan, vəkil, sultan, bəy, ağsaqqal və sıravi tayfa üzvlərinə (ilatlara və yaxud elatlara) bölünürdülər (196, sənəd 1-7; 202, s.18).

Ağabəylilər nəsli hələ Nadir şah Əfşarın dönəmindən öz aralarından çıxmış vəkil və ağsaqqallar tərəfindən idarə olunurdular (96, c.1, s.15). Bu tayfanın əsas məskunlaşma areallarında Naxçıvan şəhəri ilə yanaşı, Dərələyəz mahalının bir sıra kəndləri də daxil olmuşdur. XIX əsrə aid mənbələrdə rast gəlinməsə də, Naxçıvan şəhərinin əsas məhəllələrindən biri uzun müddət Ağabəyli məhəlləsi adlanmışdır və bu ad yerli şəhər əhalisi arasında indi də qalmaqdadır (96, c.1, s.15).

Cığataylı tayfaları ilə əlaqədar məlumat verən İ.Şopen yazır ki, bu tayfa 1268 və 1272-ci illərdə Naxçıvan ərazisində iki axın nəticəsində məskunlaşmışdır. Hələ XIV əsr müəllifi Klavixo Naxçıvanda yaşayan Cağatay tayfaları haqqında məlumat vermişdir (213, s.51; 168, s.56). K.Smirnov bu tayfanın əvvəllər çox güclü bir tayfa olduğunu, sonradan isə Kəngərlilərlə tayfa ittifaqında birləşdiyini

yazmışdır (224, s.17). Başqa sözlə desək o, cığatayları saf qanlı Kəngərlilərdən saymamışdır. Bir sıra tədqiqatçılar da Naxçıvan şəhəri ərazisindəki Cığatay urboniminin də məhz XIII əsrdə bölgəyə monqolların yürüşləri ilə bağlı olduğunu qeyd etmişlər (15, s.30; 64, s.56; 66, s.61; 168, s.56).

Kəngərlilərin ən döyüşkən tirələrindən biri Qəcolar olmuşdur. Bəzi mənbələrdə onlar Kəcli kimi də göstərilir. Bir qrup müəllif isə Kəclilərin və Qəcoların ayrı-ayrı tirələr olduğu qənaətindədirlər. "Naxçıvan Ensiklopediyası"nda qeyd edilir ki, Kəngərli tayfalarının bir qoluna mənsub olan Kəcli nəsli əsasən Arazın cənubundakı Naxçıvan ərazilərində məskun olmuşdur (96, c.1, s.283). Tarixçi E.Kəlbizadə yazır ki, Səfəvilər dövründə elatlar sırasına daxil olan Kəclər və yaxud Köclər Kəngərlilərin Biləci qolunun tərkibinə daxil idilər (64, s.148). K.N.Smirnov Osmanlılarla müharibə ərəfəsində Nadir şahın onların bir qismini Nisaya köçürməsi barədə məlumat vermişdir (225, s.39). Lakin o göstərir ki, bu qrupun nümayəndələrinin digər bir qismi Naxçıvanda qalmış və hətta Nadir şahdan sonra hakimiyyətə gələn Azad xan Əfqanlı onların döyüşçülük məharətindən yararlanaraq Kəcoğlularını özünün müşayiətçi dəstələrinə daxil etmişdir.

Qaracalı və ya Qaracalar da Kəngərli tayfalarının bir qolu olub hələ V əsrdən Naxçıvan ərazisində yaşamışlar (96, c.1, s.316).

Qaradolaği və ya Qaradolaqların bir qismi də Naxçıvan şəhəri ərazisində məskunlaşmışdılar. Lakin bu tirəyə aid olan qruplar hələ XX əsrin əvvəllərinədək əsasən yarımköçəri həyat tərzi keçirmişlər (96, c.1, s.318). Q.Qeybullayev yazır ki, qaradolağilər mehrablı, qulamlı, canqan, səfərlilər, divlər, imamqulubəylilər, imarlılar, abişbəylilər, məşədiismayıllı, əmirarxlı, məşədiabbaslı, əmirxanlı və daylara bölünürdülər (168, s.63). Ehtimal ki, rus ordusunun zabiti mayor Matuşeviçin qış vaxtı Naxçıvan şəhərinin əhalisinin 1000 nəfərə qədər artması ilə bağlı verdiyi məlumatlar da (23, s. 37) məhz

Qaradolağilər kimi yarımköçəri həyat tərzi keçirən tayfaların həyat tərzi ilə bağlı olmuşdur.

Kəngərlilərin digər bir qolu olan Qaraxanbəylilər əsasən şəhərətrafı ərazilərdə, xüsusən Naxçıvan şəhəri yaxınlığında yerləşən Qaraxanbəyli kəndində məskunlaşmışdılar. Q.Qeybullayev Qaraxanbəyliləri aşağıdaki qollara ayırmışdır: qacarlı, məmmədli, eynəddinli, məşədi-əhmədli, qaradağlı, evoğlu (168, s.62). Qaraxanbəylilər də əsasən maldarlıqla məşğul olmuş və köçəri həyat tərzi keçirmişlər (96, c.1, s.318). Ehtimal ki, bundan istifadə edən çar Rusiyası köçürmə zamanı erməniləri məhz bu kəndə yerləşdirmişdir. XX əsrin əvvəllərində də ermənilərin Naxçıvanda törətdikləri soyqırımlar zamanı ermənilər bu kənddən müsəlmanların məskun olduqları Xoylu və Qala məhəllələrini top atəşinə tutmuşlar (33, s.14).

Köçürmədən sonrakı dövrdə şəhər əhalisinin tərkibində ermənilər saylarına görə ikinci yerdə idilər. Bu dövrdə Naxçıvan əyalətinin Naxçıvan mahalında isə 2070 ailə və yaxud 9477 nəfər yaşayırdı. İ.Şopen qeyd edir ki, mahalda yaşayan 941 erməni ailəsi, yəni 4507 nəfər İrandan köçürülmüşdür (231, s. 635-638; 107, c.2, s.100). Məlumat üçün qeyd edək ki, Şopen Naxçıvan əyalətinin tərkibində 5 mahalın – Əlincəçay, Naxçıvan, Məvaziyi-Xatın, Xok və Dərələyəz mahallarının adını çəkmişdir (231, s.635-638).

Şəhər əhalisinin tərkibində ermənilərlə bağlı rəqəmləri daim şişirtməyə meyilli olan İ.Şopen verdiyi məlumatlarda şəhərdəki yalnız 265 ailənin – erməni olduğunu qeyd etmiş və onlardan 126 ailənin – yəni 1110 nəfərin İrandan köçürüldüyünü göstərmişdir (231, s.635-638). Ermənilərin köçürülməsi ilə bağlı məlumat verən V.Qriqoryev isə Naxçıvan şəhərində məskunlaşdırılan erməni ailələrinin sayını 416 ailə olaraq göstərmişdir (173, s.84). Qeyd etmək lazımdır ki, köçürülənlər əsasən əvvəllər İranın Xoy, Təbriz, Marağa, Salmas, Dehqaraqan və Urmiya şəhərlərində yaşayan ermənilər idi (173, s.123-127).

Şəhərətrafı kəndlərə köçürülən ermənilərin sayı ilə bağlı da mənbələrdə məlumatlar saxlanılmışdır. K.N.Smirnovun "Naxçıvan diyarının tarixinə və etnoqrafiyasına aid materiallar" kitabında Əli-abad kəndinə Xoydan 136 nəfər, Şıxmahmud kəndinə Xoy və Sal-masdan 430 nəfər, Qaraxanbəyli kəndinə Salmasdan 440 nəfər, yerli əhalisi 47 nəfər azərbaycanlıdan ibarət olan Hacıvar kəndinə Sal-masdan 102 nəfər, Aşağı Uzunobaya Xoydan 65 nəfər, Kültəpə kən-dinə Salmasdan 330 nəfər, Didivar kəndinə Salmasdan 15 nəfər, yerli əhalisi azərbaycanlılar olan Nəzərabad kəndinə isə Xoy və Sal-masdan 198 nəfər erməni köçürülmüşdür (225, s.123-137).

Köçürmə prosesinin həyata keçirildiyi ilk dövrlərdə Naxçı-vana daha çox ermənilərin köçürülməsi onsuz da iqtisadi durumu çox acınacaqlı olan diyarın durumunu bir az da pisləşdirirdi. Təsa-düfi deyildir ki, müəyyən vaxtdan sonra artıq Naxçıvan vilayətində həddindən artıq erməni köçkününün məskunlaşdığını bilən Qafqaz canişini Paskeviç 1828-ci il aprelin 24-də bilavasitə köçkünlərin işi ilə məşğul olan Lazarevə İrandan köçürülən ermənilərin Qarabağda yerləşdirilməsi barədə göstəriş vermişdir (85, s.71).

Qəza mərkəzi olan Naxçıvan şəhərinə işğaldan sonrakı dövrdə təkcə erməni ailələri deyil, rus ailələri də yerləşmişdi. Naxçıvan bölgəsinə köçürülən rus ailələri əsasən Karmalinovka kəndində məskunlaşdırılmışdılar. Naxçıvan şəhərində məskunlaşmış rus əha-lisi əsasən məmur və hərbiçilərdən ibarət idi. XIX əsrin 80-ci illərində Naxçıvan şəhərində yaşayan azərbaycanlı əhali ilə yanaşı, rusların da adı kameral siyahılarda əksini tapmışdır (237, v.334-335). 1886-cı ildə rus millətindən olan 22 nəfər qeydə alınmışdı (222, s.81).

Əhalinin etnik tərkibinə uyğun olaraq dini tərkibində də Rusiya işğalı və köçürmədən sonra belə birinci yeri müsəlmanlar tuturdular. Maraqlıdır ki, Azərbaycan Dövlət Tarix Arxivində apar-dığımız tədqiqatlar zamanı 1886-cı ildə kameral siyahıyaalmalarda

əhali millət və məzhəb fərqləndirməsinə görə də təsnif edilmişdir. Belə ki, rusca ilə yanaşı, əski əlifbalı Azərbaycan dilində də yazılan qrafalarda. "Nə millətdəndir?" qrafasında şəhərin türk əhalisi üçün "Müsəlman", "Məzhəbi nədir" qrafasında isə "məhəmmədi şiə" sözləri qeyd edilmişdir. Dil qrafasında isə "tatar dili" göstərilmişdir. K.Nikitin XIX əsrin 70-80-ci illərində şəhər əhalisinin 4697 nəfərinin, başqa sözlə desək, şəhərin bütün türk-azərbaycanlı əhalisinin müsəlman, 2157 nəfərinin xristian-qriqoryan, 23 nəfərinin isə xristian-provaslav olduğunu qeyd etmişdir (198, s.125).

Müsəlman əhalinin dini inanc sistemindən bəhs edən K.Smirnov göstərirdi ki, müsəlman əhali İslamın şərtləri ilə yanaşı, bir sıra əski dini ayinlərin qalıqlarını da qoruyub saxlamışdır. Lakin bəzi hallarda müəllifin yanaşmasını birtərəfli hesab etmək üçün əldə əsaslar vardır. Novruz bayramını zərdüştiliklə və atəşpərəstliklə bağlayan K.Smirnov Novruz bayramı ərəfəsində əhalinin od yandırdığını, bunun zərdüştilik və ya atəşpərəstlik adətləri ilə bağlı olduğunu, lakin yerli şiə üləmalarının bunu Kərbəlada İmam Hüseynin şəhadətindən sonra Kufədə yandırılan odlarla əlaqələndirildiyini yazır (224, s.32). Qeyd etmək istərdik ki, Novruz bayramının və ilaxır çərşənbədə qalanan odun atəşpərəstliklə bağlanması kökündən yanlış yanaşmadır. Novruz bayramının tarixi atəşpərəstliyin və zərdüştiliyin tarixindən çox-çox qədimlərə gedib çıxır. Digər tərəfdən insanların od qalamasını və od üzərindən tullanmasını atəşpərəst ibadət şəkli kimi qəbul etməyin yanlışlığı ondan ibarətdir ki, heç bir dində insan müqəddəs elan etdiyi, Tanrı hesab etdiyi bir nəsnənin üzərindən tullanmaz, ağırlığım-uğurluğum Tanrıma getsin deməz və bunun tanrılarının qəzəbinə səbəb olacağını düşünər. Halbuki Novruzda qalanan odun üzərindən insanlar tullanır, "ağırlığım-uğurluğum odlara" deyirdilər. Yerli İslam din adamlarının Novruz bayramını Həzrəti Əlinin taxta çıxdığı günlə bağlamaları ilə bağlı fikirlər də var.

Bayramlardan öncə vəfat etmiş üzvü olan ailələrdə “qara bayram” qeyd edilirdi. Bu zaman Qurani-Kərimin “Fatihə” və "İxlas" surələri oxunurdu (224, s.32). Bölgədəki müsəlman dini abidələrində və məscidlərdə qorunub saxlanılarn meteroid parçalarını (qara daşları) isə K.Smirnov əhalinin qədim daş kultu ilə izah edirdi. Müxtəlif pirlər, Qurani-Kərimdə adı çəkilən “Əshabi-Kəhf” ziyarətgahı bu dövrdə yerli əhalinin inanc sistemində əhəmiyyətli yerə malik olmuşdur.

Bu dövrdə Naxçıvan şəhərində İslamın şiə-cəfərilik qolu ilə yanaşı, nöqtəvi, şeyxi, bektaşi, heydəri, nemətullahi təriqətləri tərəfdarlarının, babizm cərəyanı mənsublarının olması barədə də mənbələrdə məlumatlar saxlanılmışdır (225).

Türk dili bütün tarix boyu olduğu kimi yenə də bölgədə və Naxçıvan şəhərində yaşayan bütün əhalinin ortaq ünsiyyət vasitəsi idi. Əhalinin yüksək təbəqələri Rusiya işğalına qədərki dövrdə fars dilindən, Rusiya işğalından sonrakı dövrdə isə rus dilindən istifadə edirdilər (173, s.33).

Yuxarıda da qeyd etdiyimiz kimi, işğaldan və köçürmədən sonra əhalinin tərkibində ciddi dəyişikliklər baş verdi. Şəhərə köçürülən əhalinin sosial strukturunun müəyyənləşdirilməsi üçün ən zəngin mənbələrdən biri V.Qriqoryevin “Naxçıvan əyalətinin statistik təsviri” əsəridir. Rəqəmlərin müqayisəli təhlili göstərir ki, Naxçıvan şəhərində məskunlaşdırılanlar içərisində 158 tacir ailəsi, 158 sənətkar ailəsi, 100 əkinçi ailəsi olmuşdur. Şəhərə köçürülənlərin 1050 nəfərini kişilər 850 nəfərini isə qadınlar təşkil edirdi (173, s.123-127).

XIX əsrdə Naxçıvan şəhərində kapitalist münasibətlərinin formalaşması ilə əlaqədar sosial münasibətlər yeni mərhələyə qədəm qoymaqda idi. Kapitalist münasibətlərinin meydana çıxması və sənayenin inkişafı ilə əlaqədar olaraq proletariat təşəkkül tapmağa başlamışdı. Tarixçi Z.Şahverdiyev “XIX əsrin ikinci yarısında

Naxçıvanda pambıqçılıq və ipəkçilikdə əmtəə-pul münasibətləri" adlı məqaləsində haqlı olaraq göstərir ki, Naxçıvanda mövcud olan sənaye sahələri (ipək emalı, pambıqtəmizləmə, duz istehsalı və s.) elə istehsal sahələri idi ki, onlar müəyyən əmək vərdişi və bacarığı tələb edirdi (134, s.24-31). Elə bu səbəbdən də Şimali Azərbaycanın kapitalist münasibətlərinin meydana çıxdığı digər bölgələrindən fərqli olaraq Naxçıvanda proletariatın təşəkkülünün əsas mənbəyi yerli sənətkarlar olmuşdur. Bundan başqa, Naxçıvan şəhəri və şəhərətrafı kəndlərdə sələmçi-kapitalist sinfinin meydana çıxması da məhz bu dövrə təsadüf edir.

XIX əsrin sonlarında Naxçıvan bölgəsi əhalisinin sosial tərkibində xeyli dəyişiklik olduğu müşahidə edilməkdədir. Dövrün rus müəllifi K. Nikitin XIX əsrin sonlarında Naxçıvan şəhərində yaşayan əhalinin sosial tərkibinin əsasən məmurlar, dini rütbəlilər və tacirlərdən ibarət olduğunu göstərir. Şəhərdə yaşayan məmurların sayı 409 nəfər, dini rütbəlilərin – ruhanilərin sayı 198 nəfər, tacirlər və digərlərinin sayı isə 7177 nəfər idi. Bunlardan 3744 nəfəri kişilər, 3433 nəfəri qadınlar idi (198, s. 125). Bu dövrdə bölgə əhalisinin varlı təbəqəsi ilə kasıb təbəqəsi arasında olan fərqlər özünü qabarıq şəkildə göstərirdi.

## *2.5. Rus işğalından sonra Naxçıvan şəhərinin idarəçiliyi və kənd təsərrüfatı*

XIX əsrin 20-ci illərinin sonunda Naxçıvan xanlığının Rusiya imperiyası tərəfindən işğal edilməsi ilə həm də şəhər idarəçiliyində bir sıra struktur dəyişikliklər baş verdi. 1828-ci ilin martında "erməni vilayəti"nin yaradılmasından sonra Naxçıvan şəhərində Şəhər İdarəçiliyi (Qorodovoy Upravlenie) yaradıldı (173, s.63). Şəhər Administrasiyası funksional olaraq iki hissəyə ayrılırdı:

1) Şəhər (Polis) administrasiyası;
2) Məhkəmə administrasiyası.

Şəhər (polis) administrasiyası sahəsində daxili idarəçilik Naxçıvanın naibi Ehsan xana verilmişdi. O təkcə Naxçıvan şəhərində deyil, ümumilikdə Naxçıvan dairəsində bu funksiyanı həyata keçirirdi. Ona rus zabitlərindən biri pristav olaraq köməkçi təyin edilmişdi (173, s.63). Məsələn, XIX əsrin 30-cu illərində Ehsan xanın köməkçi pristavı Kirillov soyadlı rus zabiti olmuşdur. Müstəmləkəçilərin belə vəzifələrə qoyduqları rus zabitləri adətən yerli əhali arasında güclü nüfuza malik olan xanın fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirir, bir sıra hallarda xanların xalq arasındaki nüfuzunun sarsıdılması üçün addımlar atırdılar. İ.Petruşevski 1933-cü ildə çapdan çıxmış bir əsərində o zamankı Mərkəzi Tarix Arxivinin Leninqrad Bölməsində Qafqaz Komitəsinin Fondunda, iş 45-də saxlanılan bir arxiv sənədindən bəhs etmişdir. 1837-ci ilə aid sənəd "Əhali və idarəçiliyə münasibətdə Naxçıvan əyalətinin quruluşunun ümumi təsviri" adlanır. Məhz bu sənəddən aydın olur ki: pristav Kirillov Naxçıvan şəhərinin idarəçisi Ehsan xanın səlahiyyətlərinin qeyri-məhdudluğundan şikayətlənmiş və guya xanın əhalidən bütün vəsaitlərini vergi olaraq topladığını mərkəzə xəbər vermişdir (187, s.15; s.334). Qeyd edək ki, İ.Petruşevski "XIX əsrin I yarısında Azərbaycanda Rusiyanın kolonial idarəçilik sistemi" adlı məqaləsində arxiv sənədindəki məlumatları sanki keçmişdəki müstəmləkə istismarçılığını tənqidi nöqteyi-nəzərindən qabartsa da, əslində yenə də müstəmləkəçi rus məmurlarından daha çox yerli zadəgan təbəqələrini hədəf almışdır (187, s.14-15). Qeyd edək ki, sənəd təftişçi çar məmuru Nefedyev tərəfindən tərtib olunmuşdur (187, s.334). Nefedyevin qeydlərindən o da aydın olur ki, şəhərin rəisi olan Ehsan xanın nüfuzdan salınması üçün Persiyadan (İrandan) köçürülmüş Yamxana kəndinin erməni sakinləri xüsusilə canfəşanlıq etmiş və rus məmuruna xan tərəfindən toplanılan vergilərin çoxluğundan

şikayətlənmişdilər (187, s.337). Lakin elə həmin şikayətlərin özündə toplanılan vəsaitin Ehsan xanın şəxsi işlərinə deyil, Çar Rusiyasının bölgədəki məmurlarının təminatı üçün xərclədiyi də əksini tapıb. Məsələn, əhalidən adambaşına 50 qəpik gümüş pulun toplanmasında məqsəd Kirillovun yaşaması üçün Naxçıvan şəhərində ev tikmək olmuşdur (187, s.337). "Şikayətçi"lərdən toplanılan digər qisim vəsait isə şəhərdə poçt məntəqəsinin tikilməsinə xərclənmişdi (187, s.337).

Şəhər məhkəməsi naibin sədrliyi altında keçirilirdi. Məhkəmə naibdən, prsitavdan, xəzinədardan və seçilmiş iki müstəqil üzvdən ibarət idi. Bu üzvlərdən biri müsəlmanlardan (azərbaycanlılardan), digəri isə ermənilərdən seçilirdi (173, s.63).

Artıq bu dövrdən etibarən dövrün qaynaqlarında Naxçıvan şəhərindən toplanılan vergilərin miqdarı barədə ardıcıl məlumatlara rast gəlmək mümkündür. XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində yaşayan əhali 1378 rubl 45 qəpik pul vergisi, 178 xalvar və 48 Təbriz batmanı miqdarında məhsul vergisi ödəyirdilər (173, s.131).

XIX əsr Naxçıvan şəhərinin tarixində həm də kapitalist münasibətlərinin yaranması dövrü kimi qiymətləndirilə bilər. Bu dövrdə kənd təsərrüfatı və sənayedə kapitalist istehsal üsulunun ilkin rüşeymləri meydana gəlmiş, əsrin sonlarına doğru isə xeyli dərəcədə inkişaf etmişdi. Çar Rusiyası dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına diqqət yetirilirdi. Burada əsas məqsəd heç də yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsindən ibarət olmamışdır. Əksinə müstəmləkəçilik məqsədlərinin həyata keçirilməsi, təbii sərvətlərin daha çox istismarı çarizmin regiondakı iqtisadi siyasətinin əsasını təşkil edirdi. Arxiv sənədlərində əksini tapmış müxtəlif faktlar da sübut edir ki, Naxçıvan diyarının təbii zənginlikləri daim buranı istismar etməyə çalışan Çar Rusiyasının diqqət mərkəzində olmuşdur. Bunu müxtəlif dövrlərdə çar məmurlarının

və XIX əsrdə çar Rusiyası tərəfindən buraya köçürülən ermənilərin dövlət idarələrinə ünvanladıqları məlumatlar da sübut edir. Məsələn, əsli bir zamanlar Ermənistan SSR Mərkəzi Dövlət Arxivində, surəti isə hal-hazırda Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan 1868-ci ilə aid bir sənəd dediklərimizi təsdiq edir (238, v.19).

Bəhs olunan dövrdə Naxçıvan şəhərinin iqtisadi həyatından bəhs edərkən göstərmək lazımdır ki, XIX əsrdə aqrar bir regionun mərkəzi olan Naxçıvan şəhərinin ətrafındakı kəndlərdə və şəhərin müxtəlif məhəllələrində yaşayan əhali əkinçilik və maldarlıqla məşğul olmuşdur. V.Qriqoryev yazır ki, Naxçıvan şəhəri tamamilə əkin sahələri ilə əhatələnmişdir (173, s.27). Göstərmək lazımdır ki, hələ inkişaf etmiş orta əsrlər dövründə, eləcə də XVI-XVIII əsrlərdə də Azərbaycan şəhərlərinin əhalisi şəhər üçün xarakterik olan ticarət və sənətkarlığın müxtəlif sahələri ilə yanaşı, əkinçilik və xüsusilə bağçılıqla da məşğul olmuşdur. XVI-XVII əsrlərdə Azərbaycan şəhərlərinin təsərrüfat həyatından bəhs edən M.Heydərov müxtəlif xarici ölkə səyyahlarının bu barədə verdiyi məlumatları təhlil edərək bu qənaətə gəlmişdir (169, s.190-110).

XIX əsr Naxçıvan şəhərinin kənd təsərrüfatında taxılçılıq, meyvəçilik, üzümçülük, pambıqçılıq və bağçılıq mühüm yer tuturdu (173, s.27). İqlimin sərtliyindən və çaylardakı suyun miqdarından asılı olaraq bu əkin sahələrindən əldə edilən məhsulun miqdarı dəyişə bilirdi. XIX əsrin 30-cu illərində şəhər və şəhərətrafı əkin sahələrindən, ümumilikdə, 600 xalvar (1 xalvar 400 kiloqrama bərabərdir) məhsul becərilirdi. Becərilən buğda, arpa kimi taxıl məhsullarının miqdarı 300 xalvar, pambığın miqdarı 20 xalvar, çəltiyin miqdarı 10 xalvar, bostan məhsullarının miqdarı 20 xalvar idi. Naxçıvan şəhəri ətrafındakı torpaqlar taxıl əkinləri üçün çox əlverişli iqlimə və münbitliyə malik idilər. XIX əsrdə Naxçıvan şəhərinin təsərrüfat həyatına toxunan Z.Şahverdiyev də hələ 1984-cü ildə müdafiə etdiyi

namizədlik dissertasiyasında şəhər əhalisinin bir qisminin əkinçiliklə məşğul olması faktını göstərmişdir (230, s.28).

Bu ərazilərdə bol taxıl məhsulunun yetişməsi ilə bağlı məlumatlar hətta 1826-1828-ci illər müharibəsini təsvir edən bir sıra müəlliflər tərəfindən də qeydə alınmışdır. General Paskeviçin yaxın dostu knyaz Şerbatov generalın həyatına və fəaliyyətinə həsr etdiyi kitabında Qacar və rus qoşunları arasında baş vermiş Xok döyüşündən sonra rus ordusunun Naxçıvana doğru çəkilərkən keçdiyi hərəkət trayektoriyasını təsvir edir. O yazır ki, Naxçıvanın ətrafındakı geniş düzənliklərdə bol taxıl yetişmişdi. Paskeviç elan etdi ki, bir çərək döyülmüş dən üçün o, biçinçilərə kömək məqsədilə 1 manat gümüş pul verəcək (232, s.276). Məsələyə toxunan tarixçilər Paskeviçin bu addımının yerli əhalinin rəğbətini qazanmağa hesablandığını və hətta Qacar ordusunun komandanı vəliəhd Abbas Mirzənin də diqqətini çəkdiyini yazırlar (79, s.128; 172, s.559).

Naxçıvan şəhəri  və şəhər ətrafındakı taxıl zəmiləri sentyabr ayında şumlanır və səpin işi həyata keçirilir, iyun ayının birinci yarısında isə məhsul toplanılırdı. İ.Şopen əsərində Naxçıvan şəhərinin daxilindəki bəzi ərazilərdə də taxıl becərilməsi ilə bağlı məlumat vermişdir (231, s.479). F.Əliyev və M.Əliyev qaynaqlarda verilən məlumatları təhlil edərək, çox maraqlı və əsaslı bir fikir irəli sürürlər: *"Mənbələrdə şəhərdə daha çox taxıl əkilməsi onunla izah olunur ki, xarici işğalçıların hücumları zamanı şəhər uzun müddət mühasirədə qaldığından taxıl şəhər əhalisinin ehtiyaclarını müəyyən qədər ödəyirdi"* (30, s.53).

Taxıl məhsulları içərisində buğda xüsusi rola malik idi. XIX əsrin sonlarında bütövlükdə Naxçıvan qəzasında taxılçılığın inkişafı ilə bağlı tədqiqatlar aparmış tarixçi Z.Şahverdiyevin namizədlik dissertasiyasında təqdim etdiyi rəqəmlər əsrin sonlarında Naxçıvanda bir sıra taxıl məhsullarının becərilməsi vəziyyətini öyrənməyə və təhlil etməyə imkan verir. Cədvəllərdən aydın olur ki, 1883-1890-cı

illərdə Naxçıvan qəzasında 385 min 704 pud yazlıq taxıl istehsal edilmişdisə, 1891-1895-ci illəri əhatə edən beşillik müddətdə bundan iki dəfədən çox artıq məhsul əldə edilmişdi. Belə ki, qeyd olunan beşillikdə Naxçıvan qəzasında 823 min 424 pud yazlıq taxıl məhsulu əldə edilmişdi. 1896-1900-cü illərdə istehsal olunan taxılın miqdarı daha da artmış və bu rəqəm 1 milyon 240 min pud olmuşdur. İqlimin qışda sərtliyi ilə əlaqədar olaraq qışlıq buğdanın istehsalı çox geniş yayılmasa da, XIX əsrin sonunda bu rəqəm də sürətlə yüksəlməkdə idi. Belə ki, 1883-1890-cı illərdə 158 min 80 pud, 1891-1895-ci illərdə 260 min 752 pud, 1896-1900-cü illərdə 572 min pud qışlıq buğda istehsal edilmişdi (230, s.27). Buğda ilə yanaşı, arpa və çəltik də əkilirdi (236, v.13; 132, s.60). XIX əsrin 80-ci illərinə nisbətən 90-cı illərinin əvvəllərində Naxçıvan qəzasında arpa istehsalı artsa da əsrin son beş illiyində bu sahədə azalma müşahidə edilirdi. Belə ki, 1883-1890-cı illərdə Naxçıvan qəzasında 201 min 840 pud, 1891-1895-ci illərdə 425 min 968, 1896-1900-cü illərdə isə 310 min 400 pud olmuşdur (223, s.27).

Dövrün mənbələrində şəhər ərazisində bəzi hallarda çəltiyin becərilməsi ilə bağlı qeydlərə belə rast gəlmək olur (173, s.28). Məlumdur ki, çəltik əsasən aran və çox su tələb edən yerlərdə əkilirdi. Z.Şahverdiyev yazır ki, çəltik may ayında əkilir, oktyabr və noyabr aylarında məhsul toplanırdı (132, s.60). V.Qriqoryev Naxçıvan mahalının çəltik becərilən yaşayış məntəqələri sırasında Naxçıvan şəhəri ilə yanaşı, Şıxmahmud, Xəlilli, Kültəpə, Uzunoba, Həsənağa Dizəsi, Didivar, Nəzərabad kimi şəhərətrafı kəndlərin adlarını da qeyd etmişdir (173, s.88). Tarixçi S.Budaqova çəltiyin Naxçıvan şəhəri və eyniadlı mahalın 13 kəndində becərildiyini yazmışdır (22, s.53). V.Qriqoryevin verdiyi məlumata görə, 1828-ci ildə Naxçıvan dairəsində 500 xalvara yaxın və ya 10 min pud çəltik yığılmışdı (173, s.88). Düyü və çəltik ticarəti əsasən iri şəhərlərdə, ayrı-ayrı qəza mərkəzlərində, habelə həftəbazarlarda da olurdu (8,

c.1, s.111). Qəza mərkəzi olan Naxçıvan şəhərindəki bazar və yarmarkalarda da yerli düyü məhsulları satışa çıxarılmaqda idi.

XIX əsrin ortalarında şəhər sakinləri həyətyanı təsərrüfatlarında pərinc, darı, vələmir, noxud, kartof da becərirdilər. Müharibə dövründə buğdanın ən qədim növlərindən sayılan və gecyetişən növ olan pərinc xüsusi əhəmiyyətə malik idi. Pərinc mədədə gec həzm olunur və gün ərzində insanı tox saxlayırdı. Bu məqsədlə bu taxıl növündən orduda daha çox istifadə olunurdu.

Naxçıvan mahalına daxil olan bağçılıq təsərrüfatında başlıca yerlərdən birini Ordubadla yanaşı, Naxçıvan şəhəri tuturdu. Z.Şahverdiyev də yazır ki, XIX əsrdə Naxçıvan şəhəri və ətrafında bağçılıq xeyli inkişaf etmişdi (132, s.64). Şəhər əhalisinin yarıdan çoxu bu sahə ilə məşğul idi (107, c.2, s.129). Naxçıvan şəhərindəki meyvəçilik təsərrüfatları əsasən Naxçıvançay boyunca yerləşmişdi və onunla suvarılırdı. Naxçıvan şəhərinin iqlimi erkən yaz meyvəçiliyi üçün çox əlverişli idi. Naxçıvan əyalətində iki tip iqlimi fərqləndirən V.Qriqoryev yazırdı ki, Dərələyəz və digər dağlıq ərazilərdə mart ayında qar yeni-yeni əriməyə başlayanda, Naxçıvanda, demək olar ki, bütün meyvə ağacları: ərik, şaftalı, armud, gavalı çiçəkləmiş olurdu (173, s.25).

Dövrün mənbələrinin məlumatlarından aydın olur ki, Naxçıvan şəhərində yerləşən ən böyük bağçılıq təsərrüfatları üç sahibkarın – İsmayıl xan, Şahbaz xan və Hacı Mirzəlinin əlində cəmləşmişdi. Bu sahibkarların hər biri il ərzində orta hesabla 1700 manata yaxın gəlir götürürdülər. Bu cür iri sahibkarlar bağ sahələrində işlərə kəndliləri cəlb edir, hətta daimi bağbanlar saxlayırdılar. Ümumilikdə isə XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində 21 meyvə və üzüm bağı var idi (173, s.71).

Naxçıvan şəhəri ətrafındakı bağçılıq təsərrüfatlarında yetişdirilən əsas məhsullardan biri də ərik idi. Doğrudur, bu cəhətdən Ordubad və ətraf kəndlərdə yetişdirilən ərik meyvəsi daha məşhur

və ticarət əhəmiyyətli idi. Tarixi sənədlərdə bu dövrdə Naxçıvan və Ordubad bölgəsində yetişdirilən 40-a yaxın ərik növünün adı çəkilir ki, bu növlərin də əksəriyyəti Naxçıvan şəhəri və ətraf kəndlərdə də yetişdirilirdi. Ordubad əyaləti ilə Naxçıvan rayonunda yazın əvvəli və yay aylarının müxtəlif vaxtlarında yetişən, öz dadı və ətri ilə seçilən "Abutalıbı", "Haxverdi", "Şalaş", "Göy cənabad", "Ağcanabad", "Badam-ərik", "Kər-kəri", "Növrəstə", "Toxum-şeme", "Ağayi", "Bal-yarım", "Həbalı", "Hədci", "Kababı", "Xosrov şahı", "Ağıərik", "Gilərik" kimi ərik növləri geniş yayılmışdı (215, s.73-85).

Süni suvarma üçün əlverişli düzənlikdə yerləşmiş Naxçıvan şəhəri və çevrəsindəki torpaqlar üzümçülük təsərrüfatlarının yaradılması üçün xeyli əlverişli iqlimə malik idi. Mənbələrdə Arazboyu düzənlikdən başlamış Qarababa kəndinə qədər olan ərazilər bölgədə əsas üzümçülük rayonlarından biri kimi fərqləndirilir (220, s.13-14). Naxçıvan şəhəri və ətraf ərazilərdə salınmış üzümlüklər Naxçıvançaydan çəkilmiş arxlar vasitəsi ilə suvarılırdı. Şəhərdəki Kalba Musa kəhrizlərinin də üzüm sahələrinin suvarılmasında ciddi əhəmiyyəti var idi. Bu kəhrizlər vasitəsi ilə yay aylarında üzüm bağları 4-5 dəfə suvarılırdı (107, c.2, s.132). İqlim şəraiti ilə əlaqədar olaraq payızın axırı və qış aylarında, eləcə də yazın əvvəllərində sərt soyuqların düşməsi nəticəsində üzüm kolları məhv olmasın deyə, onlar torpağa basdırılırdı.

Arxiv sənədlərində Naxçıvan şəhərində XIX əsrin 30-cu illərində 11 üzüm bağının mövcud olduğu ilə bağlı qeydlər vardır (236, v.13). M.Qersevanov 1872-ci ildə yazdığı məqaləsində göstərirdi ki, Naxçıvan şəhəri və onun 16 kəndində 535 üzüm bağı qeydə alınmışdı ki, bunlar da 281 desyatindən artıq torpaq sahəsini əhatə edirdi (219, c.2, s.27).

Tarixçi Zəhmət Şahverdiyevin ümumilikdə Naxçıvan qəzasında üzümçülüklə bağlı tədqiqatlarında təqdim etdiyi statistik

cədvəllər XIX əsrin sonunda üzümçülüyün qəzada inkişafını ardıcıl olaraq izləməyimizə və müqayisələr aparmağımıza imkan verir. Aydın olur ki, 1870-1875-ci illərdə ümumilikdə Naxçıvan qəzasında 1741 desyatin sahədən 353 min 336 pud məhsul toplanmışdı. 1879-1880-ci illərdə 2505 destyatin sahədə üzüm becərilmişdi ki, toplanan məhsul 554 min 883 pud olmuşdu. 1885-1890-cı illərdə üzüm becərilməsi xeyli dərəcədə azalmışdı. Rəqəmlərdən aydın olur ki, bu beşillikdə cəmi 598 desyatin sahədə üzüm becərilmiş, toplanılan məhsul isə 63 min 447 pud olmuşdu. 1891-1895-ci illərdə üzüm sahələrinin həcmi artaraq 1043 desyatinə çatsa da məhsuldarlıqda nəinki irəliləmə olmamış, hətta geriləmə müşahidə edilmişdir (cəmi 44 min 40 pud). Əsrin son beşilliyində Naxçıvan qəzasında 1812 desyatin sahədə üzüm becərilmiş, toplanan məhsulun miqdarı 143 min 41 pud olmuşdur (230, s.50).

Naxçıvan şəhərinin bölgənin XIX əsrdə əsas üzümçülük rayonu olduğunu statistik rəqəmlər də əks etdirir.

| **№** | **İl** | **Üzüm becərilən sahə** |
|---|---|---|
| 1. | 1840-cı ildə | 50 desyatin |
| 2. | 1850-ci ildə | 84 desyatin |
| 3. | 1866-cı ildə | 400 desyatin |
| 4. | XX əsrin başlanğıcında | 1000 desyatindən çox |

(132, s.63).

Z.Şahverdiyevin hələ 1984-cü ildə nəşr etdirdiyi namizədlik dissertasiyasında XIX əsrin II yarısı XX əsrin başlanğıcda ümumilikdə qəza üzrə becərilən üzüm sahələrinin miqdarını şəhərə aid statistik rəqəmlərlə müqayisə etdikdə bir daha Naxçıvan şəhərinin əsas üzümçülük rayonu olması fikri öz təsdiqini tapır. Məsələn, dissertasiya işində 1896-1900-cü illərdə Naxçıvan qəzasında becə-

rilən üzüm sahələrinin miqdarı 1812 desyatin göstərilmişdir. Bizim arxiv sənədlərindən əldə etdiyimiz rəqəmlər isə XX əsrin başlanğıcında şəhərdəki üzüm sahələrinin miqdarının 1000 desyatindən artıq olduğunu göstərir. Deməli, bu dövrdə bölgədə becərilən üzüm plantasiyalarının yarıdan çoxu Naxçıvan şəhərinin payına düşmüşdür. Ümumilikdə isə, Z.Şahverdiyevin təqdim etdiyi cədvəldə XX əsrin II yarısında qəzada becərilən üzüm sahələrinin miqdarı aşağıdakı kimi göstərilmişdir:

| № | İl | Üzüm becərilən sahə |
|---|---|---|
| 1. | 1870-1875-ci illər | 1741 desyatin |
| 2. | 1879-1880-ci illər | 2505 desyatin |
| 3. | 1885-1890-cı illər | 598 desyatin |
| 4. | 1891-1895-ci illər | 1043 desyatin |
| 5. | 1896-1900-cü illər | 1812 desyatin |

(132, s.64).

Şəhər ərazisindəki əsas üzüm bağlarından biri Nuh peyğəmbərin məzarüstü türbəsinin yerləşdiyi yüksəkliyin ətrafında idi. Bu barədə XIX əsrdə Naxçıvan şəhərində yaşamış K.Nikitin də öz əsərində məlumat vermişdir (198, s.113). "Naxçıvan əyalətinin statistik təsviri"nə istinad edən AMEA-nın müxbir üzvü Z.Şahverdiyev qeyd edir ki, təkcə Naxçıvan şəhərində 12 min batmana yaxın üzüm yığılmışdı (132, s.65). 1925-ci ilə aid arxiv sənədlərində XIX əsrdə Naxçıvan şəhərində üzümçülüyün inkişafı ilə bağlı aşağıdakı qeydlərə rast gəlirik: *"Bərəkətli iqlim və üzüm dövrü üçün əlverişli torpaq burada ən qiymətli üzüm növlərini yetişdirməyə imkan verir, lakin üzümçülük yalnız keçmiş Naxçıvan qəzasında daha çox yayılmış, keçən əsrin ikinci yarısında, özü də əsasən Naxçıvan şəhərində*

*inkişaf etmişdir. Bu inkişaf təxminən aşağıdakı tempdə getmişdir: 1840-cı ildə Naxçıvan şəhərində üzüm bağlarının sahəsi 50 desyatin, 1850-ci ildə 84 desyatin, 1866-cı ildə artıq 400 desyatin olmuşdur. İnqilabın başladığı anda isə bu rəqəm 1000 desyatindən çox olmuşdur”* (60, s.228; 182, s.222).

Geniş üzüm plantasiyalarının mövcud olduğu şəhərətrafı kəndlər sırasında Cəhri, Xalxal, Nəzərabad, Yuxarı Uzunoba, Xəlilli, Şıxmahmud, Hacıvar, Qaraxanbəyli, Tumbul, Yamxana, Əliabad və b. kəndlərin adı çəkilir (107, c.2, s.133). XIX əsrin əvvəllərinə nisbətən XIX əsrin sonlarına doğru təkcə Naxçıvan şəhərində deyil, ümumilikdə Naxçıvan qəzasında üzüm sahələri daha da genişlənmiş, bazarın artan tələbatının ödənilməsi üçün daha artıq məhsul istehsal olunmağa başlanmışdır. Bəhs olunan dövrə aid qubernator hesabatlarından birində yazılır: “Naxçıvan qəzasında toplanmış üzüm quberniyada birinci yeri tutur. Bu qəzanın üzümçülüyündə isə Naxçıvan şəhəri, Şəkərabad, Tumbul, Qaraçuq, Qaraxanbəyli, Qazançı, Şıxmahmud, Uzunoba, Kültəpə, Hacıvar və Nəzərabad kəndləri xüsusi ilə fərqlənir”. Üzüm istehsalının artmasına becərilən üzüm növlərinin tərkibinin zənginləşdirilməsi, yerli şəraitə uyğun sortların müəyyənləşdirilməsi də təsir göstərmişdi.

“Naxçıvan tarixi” çoxcildliyinin II cildində bu barədə qeyd edilir: *“Qafqaz filokseri komitəsinin hesabatında göstərilirdi ki, 1874-1898-ci illərdə Naxçıvan qəzasının 450-466 desyatin üzüm sahələrinə 885 yeni, daha məhsuldar, cavan üzüm növü salınmışdı. Bunlar başlıca olaraq Naxçıvan şəhərində, Təzəkənddə, Güznütdə, Yuxarı Əylisdə, Zeynəddində, Yarımcada basdırılmışdı”* (107, c.2, s.134).

K.Nikitin “Naxçıvan şəhəri və Naxçıvan qəzası” (1882) adlı məqaləsində Naxçıvanda üzümçülüklə bağlı yazırdı: *“Naxçıvan qəzasında üzüm bağları daha geniş sahələri əhatə edir. Qafqazda çox az yer olar ki, Naxçıvanda olduğu qədər çoxlu və bol üzüm*

*olsun. Burada özünün rənginə, böyüklüyünə, forma və keyfiyyətinə görə 60 növdə üzüm vardır"* (198, s.134). Zelinski bölgədə yetişdirilən üzüm növlərindən bəhs edərkən "Sev-Xəlili", "Mələyi", "Aldərə", "Qaraca", "Əsgəri", "Hüseyni", "Kürdaştı" "Kişmişi", "Ordubadi", "Şahtaxtı", "Qomşumama", "Rişibaba", "Təbərzə", "Şafeyi", "Gülabi" kimi üzüm növlərinin adını çəkmişdir (178, c.7, s.225-226). Naxçıvan şəhərində və şəhərətrafı kəndlərdə becərilən ən yaxşı üzüm növü "Şafeyi" sayılırdı. Bu növdən olan üzüm məhsulu 8 ay müddətində saxlandıqda belə öz əvvəlki təravətini və keyfiyyətini itirmirdi (107, c.2, s.133). "Şafeyi" növlü üzüm ağ və qara üzüm növləri sırasına deyil, qırmızı və albalı rəngli üzüm sortları sırasına aid edilirdi (178, c.7, s.226). Naxçıvan şəhərinin yaxınlığında yerləşən Əliabad kəndində "Mələyi", "Şirin", "Qara-sırma" növləri daha çox becərilirdi. Keyfiyyətli üzüm həm də şəhərdə ixrac məqsədli şərabın keyfiyyətli istehsalı demək idi. S.Zelinski ən yaxşı çaxırın (şərabın) Naxçıvan şəhəri və Yarımca kəndində istehsal edildiyini göstərmişdir (178, c.7, s.226).

Tarixi-etnoqrafik araşdırmalar sübut edir ki, XIX əsrdə Azərbaycanda bostan məhsullarının satışından əhali xeyli gəlir əldə edirdi. Ona görə də düzən kəndlərdə məskunlaşan hər bir ailə öz həyətində bostan əkirdi (8, c.1, s.126).

Bostançılıq məhsullarından Naxçıvan şəhəri və ətraf kəndlərdə ən çox qovun və qarpız becərilirdi. Bostançılıq məhsulları Naxçıvan şəhərində, Yarımca, Şıxmahmud, Xəlilli, Qulubəy-Dizəsi, Kültəpə, Oruc-Dizəsi, Uzunoba, Həsənağa-Dizəsi, Sirab, Didivar, Nəzərabad, Məzrə, Cəhri, Qoşadizə, Tumbul, Yamxana, Təzəkənd, Nehrəm kəndlərində becərilirdi (173, s.90).

Naxçıvan bostançıları öz keyfiyyəti, şirin dadı, həmçinin məhsuldarlığı ilə fərqlənən tutma qovun da yetişdirirdilər. Bunun üçün onlar yemişin kəlik növünün gülündən sonra onun baramasını öz yarpağına büküb torpağa basdırırdılar. Kəlik böyüdükcə onun

üstü torpaqla örtülürdü. Yetişənə yaxın ona hava və günəş dəysin deyə, üstü açılırdı. Beləliklə də bir neçə gündən sonra qovun öz rəngini alır və yetişirdi. Xalq arasında bu üsula tutma, yetişdirilən yemişə isə tutma qovun adı verilmişdir. Naxçıvanda yetişdirilən tutma qovun nəinki Azərbaycanın bazarlarına, hətta Rusiya bazarlarına da göndərilirdi. Əgər adi qayda ilə becərilən yemiş bostanının hər hektarından 200 sentner məhsul alınırdısa, tutma üsulu ilə yetişdirilən qovun sahəsində məhsuldarlıq 250 sentnerə çatırdı (35, s.19-20).

Qarpız növlərinə gəlincə Naxçıvan şəhərində və Nehrəm kəndində becərilən ən məşhur qarpız növləri sırasında Xunu qarpızı, Mədəti, Ələmdarı, tutma, dilbərçin, qaraçıraq, sineybaz, Uluxanlı, Şahtaxtı, Həsənbəyli növlərinin adı çəkilir.

XIX əsrdə pambıqçılıq da kənd təsərrüfatı sahələri içərisində artan rola malik olan sahələrdən biri idi. Hələ Naxçıvan xanlığının mövcud olduğu dövrdə Naxçıvan şəhəri ətrafındakı kəndlərdə – Yarımca, Şıxmahmud, Xəlilli, Kültəpə, Uzunoba, Həsənağa, Didivar, Nəzərabad, Çalxanqala, Sust, Bulqan, Qaraxanbəyli, Qoşadizə, Tumbul, Yamxana, Təzəkənd, Qızılburun və Nehrəmdə pambıq becərilirdi (29, s. 34). V.Qriqoryevin bölgədə pambıqçılığa dair verdiyi məlumatların təhlilindən isə belə bir nəticəyə gəlirik ki, Rusiya işğalından sonrakı dövrdə pambıq becərilməsi sahəsində Naxçıvan şəhəri ilə yanaşı, Yarımca, Şıxmahmud, Xəlilli, Kültəpə, Oruc-dizə, Uzunoba, Həsənağa-dizəsi, Əznəbürd, Sust, Bulqan, Qahab, Qoşadizə, Tumbul (173, s.89), Qaraçuq, Yamxana, Didivar, Nəzərabad, Təzəkənd, Nehrəm və Cəhri kəndləri xüsusilə seçilmişdir (173, s.97). Pambıq may ayında əkilir, məhsul isə oktyabr ayında toplanılırdı (173, s. 89).

Qeyd etmək lazımdır ki, Naxçıvan şəhəri və ətraf kəndlərdə həyata keçirilən bəzi aqrotexniki tədbirlər də kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmişdi. Belə aqrotexniki tədbirlərdən biri də 1863 və 1864-cü illərdə Naxçıvan şəhəri ilə Şıxmahmud

kəndi arasındakı ərazidə “Şan Girey gölü” və yaxud “Naçalnik gölü” adlanan gölün yaradılması olmuşdur. Göl bir müddət Naxçıvanda qəza rəisi işləmiş Şahin Gireyin rəhbərliyi ilə tikilmiş və gölün sahəsi 12 desyatin olmuşdur. Tarixçi Fəxrəddin Səfərli “Qanlıgöl su anbarı bəndinin tikdirilməsi haqqında kitabə”adlı məqaləsində bu dövrdə susuz torpaqları suvarmaq üçün üç kanalın çəkdirilməsi ilə bağlı məlumat vermiş və görülən tədbirlərin davamı olaraq Kalbalı xan Kəngərlinin himayəsi ilə qəza rəisi Şan Girey (Şahin Girey) tərəfindən 1865-ci ildə “Qanlıgöl” su anbarının yaradıldığını yazmışdır (128, s.118).

Qeyd etmək lazımdır ki, XIX əsrin sonları Naxçıvan şəhərinin tarixində, ümumilikdə, su təminatı və suvarma işinin yaxşılaşdırılması dövrü kimi yaddaqalan olmuşdur. K.Nikitinin şəhər əhalisinin içməli su ilə təchizatı haqqındakı məsələlərlə bağlı verdiyi məlumatlardan aydın olur ki, Naxçıvan qəza məktəbinin nəzarətçisi olan bir əylislinin 1860-cı ildə öz xərci hesabına çəkdirdiyi su boruları vasitəsilə şəhər əhalisinin içməli suya olan tələbatı ödənilirmiş. Suyun mənbəyi isə həmin şəxsin özü tərəfindən qazdırılmış su quyuları olmuşdur (120, s.87).

S.Zelinski XIX əsrin 70-80-ci illərində şəhərdə 10-dan artıq bulağın adını çəkir. Bu bulaqlar aşağıdakılar idi: Ağamalı, Sarvanlar, Qızlar çeşməsi, Dabbaqxana çeşməsi, Köylü baba çeşməsi, Qələndər xan çeşməsi, Qara çeşmə, İsmayılxan çeşməsi və Kərbəlayi xan çeşməsi (178, c.7, s.258). Bu bulaqlar içərisində tərkibinə görə ən keyfiyyətli və təmiz su Köylü baba çeşməsi və Qızlar çeşməsindən çıxırdı.

Bu bulaqlar içərisində ən çox maraq doğuranlardan biri Köylü baba çeşməsi və onun yerləşdiyi ərazi olmuşdur. S.Zelinskinin verdiyi məlumatları tutuşdurduğumuz zaman görürük ki, Naxçıvan şəhəri ilə Əliabad kəndinin qovuşduğu nöqtədə, hazırda Bayraq Meydanının yerləşdiyi ərazi ilə Naxçıvan Dövlət Universitetinin

Konservatoriya binasının arasında qalan ərazidə Köylü baba adlı bir pir mövcud olmuş və ərazi şəhərin azərbaycanlı əhalisi tərəfindən çox müqqəddəs hesab edilmişdir (178, c.7, s.259).

Şəhərin su təminatının yaxşılaşdırılması işində xalq arasında "Kalba Musa" kimi tanınan Musa Məşədi İsmayıl oğlu Musayevin böyük xidmətləri olmuşdur. O, XIX əsrin sonlarında icarəyə götürdüyü torpaqlarda böyük bir pambıqçılıq təsərrüfatı yaratmış, Naxçıvan şəhərinin suyla təminatının yaxşılaşdırılması üçün Şıxmahmud kəndi yaxınlığındakı dağlardan Naxçıvan şəhərinə su çəkilməsi ideyasını irəli sürmüş və XX əsrin əvvəllərində buna nail olmuşdur. Belə ki, şəhərə çeşmə çəkmək məqsədi ilə o, İrandan mütəxəssislər dəvət etmiş, 1901-ci ildə Şıxmahmud kəndindən Naxçıvan şəhərinə su xəttinin çəkilməsinə başlanılmış, bu iş 1909-cu ildə başa çatmışdır (107, c.2, s.279). Naxçıvan şəhərinin tarixi ilə bağlı yaşlı şəhər sakinləri arasında material toplayarkən çeşmənin çəkilməsi ilə bağlı bir əhvalat xüsusi ilə diqqətimizi çəkdi. 1927-cı il Naxçıvan şəhər sakini Tükəzban Abdullayeva atası Qurban Abdullayevin çeşmə haqqında dediklərini belə xatırlayır: *"Kifayət qədər sərmayə toplayan Kalba Musa su sarıdan xeyli əziyyət çəkirdi. Uzun zaman düşünəndən sonra o, Şıxmahmuddan şəhərə su çəkdirmək fikrinə düşdü"* (105). Kalba Musa Naxçıvan şəhərindən 3 kilometr yuxarıda, Şıxmahmud kəndinin yanında, Naxçıvançayın sağ yatağında quyular qazdırıb şəhərin əsaslı su təminatını yaratmaq üçün ən təcrübəli, bacarıqlı kankanları ətrafına toplayır. Belə qənaətə gəlir ki, burada azı 130-140 quyu qazılmalıdır. Dərinliyi 30-35 metrə çatacaq bu quyuları yeraltı lağım atıb onları bənd eləməklə şirin suyu öz axarı ilə şəhərə gətirmək lazımdır. Bu işdə ən çətin məsələ o dövrdə lazımi alət və texniki vasitələr olmadan bir-birindən 60-80 metr aralı quyuların yeraltı xətlərlə birləşdirilməsi idi. 135-dək quyu qazılır, lağım vasitəsilə birləşdirilir. Əsas çətinlik 35 metr dərinlikdəki axırıncı quyunun qazılmasında olur. Həmin quyuda sərt sal

qayalara rast gəlinir. Lakin Kalba Musanın iradə və inadı sərt qayalara da qalib gəlir. Belə ki, sonuncu quyu 35 metr dərinliyə çatanda ən təcrübəli kankan quyudan çıxıb deyir: – Kalba Musa, özün düş quyuya qulaq ver, gör sal qayaların altında dəhşətli, vahiməli, dəniz uğultusu necə gəlir. Hər an fəlakət baş verə bilər. Kalba Musa özü quyuya düşür. Qulaq verib görür ki, elə bil, daş altında bir dərya təlatümə gəlib uğuldayır. O, quyudan çıxır, işə fasilə vermək qərarına gəlir, üç gün keçməmiş bir gecə Naxçıvan şəhərini vahimə basır. Sən demə, sonuncu quyunun qazıla-qazıla naziklәşmiş sal qaya qatı yer altında zəngin yatağı olan suyun zərbəsinə tab gətirə bilmir, partlayaraq 35 metrlik quyudan fəvvarə verib gecəynən küçələri, ətrafdakı əkin sahələrini cənginə alır. Bir həftədən sonra quyunun gur suyu sakitləşir. Təsadüfi deyil ki, onun çəkdirdiyi su çeşməsi bu gün də xalq arasında məhz onun adı ilə "Kalba Musa çeşməsi" olaraq tanınır.

Bundan əlavə, şəhər əhalisi içmək üçün şəhər ərazisində mövcud olan iki bulağın və bir quyunun suyundan da istifadə edirdi (231, s.487). Mənbələrdə verilən məlumatlardan aydın olur ki, Naxçıvan şəhərinin qərb hissəsində yerləşən bu quyuların suyu çox təmiz və keyfiyyətli olmuşdur (199, c.6, s.332).

**Heyvandarlıq.** Daha çox kənd yaşayış məskənləri üçün xarakterik olsa da, XIX əsrdə Naxçıvan şəhərində yaşayan əhalinin bir qismi oturaq maldarlıqla da məşğul olmuşdur. Bölgənin kənd yaşayış məntəqələrində yaşayan əhali yarımköçəri xırdabuynuzlu heyvandarlıqla məşğul olduğu halda, şəhər əhalisi daha çox iribuynuzlu heyvanların bəslənilməsinə üstünlük vermişdir. XIX əsrin 30-cu illərinə aid arxiv sənədlərində bu dövrdə Naxçıvan şəhərində 259 öküz, 263 kəl, 258 inək, 164 buzov, 766 qoyun, 866 keçi, 444 at, 856 eşşək, 87 qatır saxlanılması barədə məlumatlara rast gəlirik (236, v.14). Beləliklə, ümumilikdə şəhərdə olan heyvanların sayı 3956 baş olmuşdur. Öküz və kəllər əsasən təsərrüfat

işlərində (yer şumlanması və xırmanlarda), at, eşşək və qatırlar nəqliyyat və yük daşınması işində istifadə edilirdi. İnək, qoyun, keçilər isə şəhər əhalisinin həm ağartı məhsullarına, həm də ət məhsullarına olan təminatı üçün saxlanılırdı. Bundan əlavə, bu heyvanların yunu və dərisi müxtəlif geyim və məişət əşyalarının istehsalında da istifadə edilirdi.

# III HİSSƏ

## *Sənətkarlıq, ticarət və mədəni həyat*

### *3.1. Naxçıvan şəhərində sənətkarlıq*

XIX əsrdə Naxçıvan şəhərinin təsərrüfat həyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Məsələ ilə bağlı tarixşünaslığımızda müxtəlif fikirlər mövcuddur. Məsələn, tarixçi S.Budaqovaya görə, xanlıq dövründə Naxçıvan şəhərlərində sənətkarlıq sahələri o qədər də yüksək səviyyədə inkişaf etməmişdi. O yazır ki, bu dövrdə Naxçıvan diyarının əsas şəhərləri olan istər Naxçıvan, istərsə də Ordubadda sənətkarlıq o qədər də yüksək səviyyədə olmamışdır (23, s.49). Xanlıqlar dövründə Azərbaycanda sənətkarlığın inkişafından bəhs edən digər bir tədqiqatçı C.Mustafayev isə bəhs olunan dövrdə Naxçıvanın iqtisadi həyatında sənətkarlığın həlledici rola malik olduğunu göstərmişdir (92, s.51).“Naxçıvan tarixi” çoxcildliyinin II cildində isə Naxçıvanda xanlıq dövründə sənətkarlığın inkişafı ilə bağlı ziddiyyətli fikirlərə münasibət bildirilərkən bəhs olunan dövrdə kənd təsərrüfatının inkişafının bölgədə vəhdət təşkil etməsi fikri irəli sürülmüşdür (107, c.2, s.149). Bizim fikrimizcə, Naxçıvan xanlığının mövcud olduğu dövrdə sənətkarlığın yüksək səviyyədə inkişaf etməməsi ilə bağlı fikirlərə ciddi yanaşmaq olmaz. Bu gün Naxçıvan Dövlət Tarix Muzeyində, o cümlədən Naxçıvan Muxtar Respublikasındakı digər muzeylərdə saxlanılan və nümayiş etdirilən xanlıq dövrünə XVIII-XIX əsrin əvvəllərinə aid bir sıra sənətkarlıq nümunələri də sübut edir ki, xanlıq dövründə, o cümlədən XIX əsrin əvvəllərində Naxçıvan şəhərində sənətkarlıq inkişaf etmiş əsas təsərrüfat sahələrindən biri olmuşdur. Dövrün mənbələrinə də diqqət yetirdikdə bu fikrin əsaslı olması qənaətinə varmaq mümkündür. Məsələn işğaldan sonrakı ilk dövrlərə aid kameral təsvirlərdə təkcə Naxçıvan şəhərində 50-yə yaxın sənət sahəsinin qeydə alınması, bu şəhərdə 126 nəfər toxucunun, 56 nəfər başmaqçının, 38 nəfər

xarratın, 35 nəfər papaqçının yaşaması göstərilir (236). Bu məlumatlar Naxçıvan şəhərinin işğalından cəmi 4 il sonraya – 1831-ci ilə aiddir. Təbii ki, bir sənətkarın yetişməsi üçün 4 il çox qısa müddətdir və deməli, bu sənətkarların böyük bir qismi işğaldan öncəki dönəmdə də Naxçıvan şəhərində yaşayırdılar. Belə olan halda Naxçıvan şəhərində işğaldan öncəki xanlıq dövründə sənətkarlığın şəhər təsərrüfatında əhəmiyyətli yerinin olmaması ilə bağlı fikirlərin əsassızlığı bir daha ortaya çıxır.

İşğaldan sonrakı dönəmdə Naxçıvanda sənətkarlıq və ticarətlə məşğul olanların sayı 715 nəfər olmuşdur. Onlardan 400 nəfərdən çoxu bilavasitə sənətkarlıqla məşğul idi (231, s.343-344).

Naxçıvan şəhərində bəhs etdiyimiz dövrdə sənətkarlıq emalatxanaları ilə bağlı tədqiqatlar aparan C.Mustafayev əsasən karvansara və bazarlarda yerləşən sənətkarlıq emalatxanalarının sayının 279-a çatdığını göstərmişdir (92, s.51). Sənətkarlıq emalatxanalarının karvansara və bazarlarda, eləcə də onlara yaxın ərazilərdə yerləşməsinin əsas səbəbi məhsul istehsalı ilə məşğul olan sənətkarların həm də məhsullarının bilavasitə satışı ilə məşğul olması idi.

Naxçıvan şəhərinin tarixi-coğrafi xüsusiyyətlərinə uyğun olaraq sənətkarların böyük əksəriyyəti Əlixan, Şahab və Sarvanlar məhəllələrində məskunlaşmışdılar. Əlixan məhəlləsində 97, Şahab məhəlləsində 91, Sarvanlar məhəlləsində 56 nəfər sənətkar yaşayırdı (92, s.51-52).

Naxçıvan şəhərində və şəhərətrafı kəndlərdə toxuculuğun inkişafı ilə bağlı dövrün mənbələrində məlumatlar qorunub saxlanılmışdır. Türkmənçay müqaviləsinin imzalanmasından sonra hərbi-siyasi sabitliyin yaranması və müxtəlif sahələrin inkişafına müstəmləkəçi çar məmurlarının xüsusi diqqət yetirməsi toxuculuğun inkişafına da təsirini göstərmişdi. 1831-ci ildə Naxçıvan şəhərində məskunlaşmış sırf toxuculuqla məşğul olan peşəkar sənətkarların sayı 126, 1848, 1859, 1864-cü illərdə 3, 1865-ci ildə 8 nəfər olmuşdur (227, s.58). Bəs toxu-

cuların sayındakı azalmanı nə ilə izah etmək olar? Bu böyük bir ehtimalla yerli müsəlman əhalinin yad və naməhrəm rus məmurlarına münasibəti ilə bağlı idi. Toxuculuq əsasən qadın işi olduğundan, məmurların toxucuların sayını dəqiq müəyyənləşdirməsi mühafizəkar ailə ənənələrinə malik XIX əsrin Naxçıvan şəhərində, demək olar ki, mümkün deyildi. Hətta XIX əsrin sonu XX əsrin əvvəllərinə aid bir sıra arxiv sənədlərində də bu işlə məşğul olanların əsasən qızlar və qadınlar olduğu göstərilmişdir (238, v.37). AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə isə bölgədə toxuculuqla bağlı yazır ki, Naxçıvanda toxuculuq qadın peşəsi hesab edilməklə onların çöl-tarla işləri bitdikdən sonra, daha çox havanın soyuq vaxtlarında, ev şəraitində əsas məşğuliyyət sahəsi olmuşdur (73, s.97). Tədqiqatçı S.Hacıyeva da yazır ki, burada toxuculuğun inkişafı əsasən qadın əməyinə əsaslanmışdır (45, s.45). C.Mustafayev bunun səbəbini dini amillərlə bağlayaraq yazır ki, İslam dininin irəli sürdüyü qadağalara görə əməklərini evdən kənarda tətbiq etmək imkanı olmayan qadınlar vaxtlarının çoxunu ev işləri görməyə, eyni zamanda toxuculuğun müxtəlif sahələri ilə məşğul olmağa sərf edirdilər (92, s.92).

XIX əsrdə təkcə Naxçıvan şəhərində 40-a yaxın pambıq parça toxuyan və xalça istehsalı ilə məşğul olan sənətkar emalatxanası mövcud idi (92, s.51; 107, c.2, s.149; 173, s.94). Məlumatlardan aydın olur ki, Naxçıvandakı sənətkarlar sırasında toxucular say tərkibinə görə birinci yerdə dayanırdılar (231, s.851). Palaz, gəbə, xurcun, sicim, məfrəş, çatı kimi ev, məişət əşyaları toxunur, yerli bazarlarda satışa çıxarılırdı. Arxiv sənədlərindən aydın olur ki, yerli əhali xalça, xalı, cecim, çuval, xurcun və məfrəşlərin istehsalına daha çox üstünlük vermişdir (238, v.31). Gəbə toxuma işi xüsusən şəhər ətrafındakı Tumbul, Qaracuq, Qaraxanbəyli kəndlərində geniş yayılmışdı (239, v.21-23). Arxiv sənədlərində əksini tapmış məlumatlardan o da aydın olur ki, bu dövrdə kustar istehsal daha geniş yayılmışdı və toxucular tərəfindən istifadə edilən toxuculuq dəz-

gahları Moskva fabriklərindəki dəzgahlarla müqayisədə daha aşağı səviyyəli idi (239, v.21-23). Sənədlərdə qeyd edilir ki, qonşu ölkələrin toxucularının toxuduqları xalçalar daha baha qiymətə satıldığı halda, Naxçıvan xalçaçılarının toxuduqları xalçalar təqribən 4-5 dəfə ucuz satılırdı (238, v.32).

Naxçıvan Dövlət Arxivində saxlanılan başqa bir sənəd isə Naxçıvan şəhəri və ətraf kəndlərdə xalça toxuculuğu işi barədə məlumat verir. Sənəddə qeyd olunur ki, Naxçıvan şəhərindən 6 verst aralıda yerləşən Təzəkənddə XIX əsrin sonlarından etibarən xalça toxuculuğunu öyrədən xüsusi kurslar fəaliyyət göstərmişdir. Çar məmurlarının qeydlərindən o da aydın olur ki, burada xalça toxuculuğunu öyrənənlər arasında kəndli ailələrindən çıxmış qızlar xüsusilə üstünlük təşkil etmişdir (238, v.37). Sənəddə verilən məlumatlardan aydın olur ki, Təzəkənd toxuculuğun inkişaf etdiyi Naxçıvan şəhəri ətrafında yerləşən əsas kənd olsa da, bu sahə Nehrəm, Yamxana, Dizə, Qaracuq və Tumbul kəndlərində də inkişaf etməkdədir (238, v.37). Xalçaçılığı öyrənənlərin yaş statistikası ilə bağlı rəqəmlərin müqayisəsi bu işi öyrənənlər arasında 10-15 yaşlı gənc qızların üstünlük təşkil etdiyini göstərir (239, v.37-38).

Bu dövrlə bağlı geniş tədqiqat aparan Vidadi Muradov yazır: *"Özlərinin yüksək keyfiyyətli toxunuşu, naxışlarının dəqiqliyi və rənglərinin şuxluğu ilə seçilən Naxçıvan xovlu və xovsuz xalça məmulatları hələ XIX əsrin II yarsından başlayaraq Rusiya imperiyası daxilində və bir sıra xarici ölkələrdə təşkil edilən sərgilərdə dəfələrlə nümaiş etdirilmişdir"* (90, s.128).

Toxuculuqda yun parça istehsalı xüsusi yer tuturdu (107, c.2, s.123). Yundan hazırlanan toxunma paltar, corab və sairəyə tələbatın çoxluğu, ümumilikdə, Naxçıvan qəzasında qoyunçuluğun inkişafına təsir göstərən əsas amillərdən biri olmuşdur. Görünür məhz bu səbəbdəndir ki, 1870-1900-cü illərdə Naxçıvan qəzasının mal-qara təsərrüfatında əsas yeri xırdabuynuzlu heyvanlar tuturdu.

Onların illik sayı orta hesabla 72 min 904 baş olmaqla ümumi heyvanların 68 faizini təşkil edirdi (107, c.2, s. 126).

Toxuculuğun inkişafı digər bir sənət sahəsi olan baftaçılığın inkişafını da şərtləndirirdi. XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində 6 nəfər bafta ustası yaşayırdı (227, s.58). 1831-ci ildə Naxçıvan şəhərində 11 nəfər, 1848-ci ildə 20 nəfər, 1859-cu ildə 8 nəfər, 1864-cü ildə 35 nəfər, 1865-ci ildə isə 26 nəfər dərziliklə məşğul idi.

Naxçıvan şəhərində inkişaf etmiş sənətkarlıq sahələrindən biri papaqçılıq idi. Ümumilikdə götürdükdə XIX əsrin 40-cı illərində Azərbaycanın 8 şəhərində 700-ə qədər papaqçı çalışırdı (12, c.4, s.75; 227, s.58). Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan sənədlərdən birinə əsasən müəyyən edə bildik ki, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində yaşayan papaqçıların sayı 35 nəfərə yaxın olmuşdur (236). Ə.Sumbatzadə də 1831-ci ildə Naxçıvan şəhərində 35 nəfər papaqçı sənətkarın yaşadığını qeyd etmişdir. 1848-ci ildə papaqçıların sayı 28, 1859-cu ildə 13, 1864-cü ildə 24, 1865-ci ildə 21 nəfər olmuşdur (227, s.58).

XIX əsrin 30-40-cı illərində Naxçıvan şəhəri Bakı, Quba, Şamaxı və Ordubad şəhərləri ilə birlikdə ən çox başmaqçının yaşadığı beş şəhərdən biri idi. 1830-cu ildə Bakı, Quba, Şamaxı, Naxçıvan və Ordubad şəhərlərində 350 nəfər başmaqçı olmuşdusa, 1848-ci ildə onların sayı 600 nəfərə çatmışdı (12, c.4, s.75). Arxiv sənədlərində bu dövrdə Naxçıvan şəhərində 56 nəfər başmaqçının yaşadığı göstərilir (236). Ə.Sumbatzadənin Naxçıvan şəhərində yaşayan sənətkarların say dinamikası ilə bağlı təqdim etdiyi rəqəmlər isə belədir: 1831-ci ildə 46 nəfər, 1848-ci ildə 13 nəfər, 1859-cu ildə 14 nəfər, 1864-cü ildə 50 nəfər, 1865-ci ildə 98 nəfər (227, s.58). Bundan əlavə, S.Zelinskinin əsərində verdiyi məlumatlar əsasında müəyyənləşdirə bildik ki, XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 25 nəfər başmaqçı yaşamışdır (178, c.7, s.236).

Dulusçuluq və daşyonma sənəti ilə məşğul olan sənətkarlar da xüsusi fərqlənirdilər. Naxçıvanda dulusçuluğun inkişafı üçün lazımi təbii şəraitin mövcud olması bu sənət növünün inkişafını şərtləndirən əsas amillərdən biri idi. Xanlıq dövründə Naxçıvanda da yerli əhalinin məişətində saxsı qablar mühüm yer tuturdu. Digər tərəfdən saxsı qabların metal qablara nisbətən daha ucuz olması onların geniş kütlə tərəfindən əldə edilməsini və istifadəsini asanlaşdırırdı. Məişətdə işlədilən saxsı məmulatı arasında irihəcmli su qablarının, ilk növbədə, səhəng və küplərin istehsalı mühüm yer tuturdu. Lakin şəhərdəki sənətkarların say tərkibinə dair məlumatları müqayisə etdiyimiz zaman görürük ki, XIX əsrin başlanğıcından sonuna doğru belə sənətkarların sayında azalma müşahidə olunmaqdadır. Məsələn, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində 6 nəfər dulusçu yaşayırdısa, əsrin 60-cı illərinin ortalarında bu rəqəm 1 nəfər olmuşdur (132, s. 88). Bəs bu proses nə ilə əlaqədar idi? S.Hacıyeva yazır ki, hələ XVII əsrin sonlarından başlayan və xanlıqlar dövründə də davam edən ümumi iqtisadi tənəzzül dulusçuluğa da mənfi təsir göstərmişdir. Mülki tikinti işlərinin azalması, tikililərdə bəzək materialı kimi kaşı və digər dekorativ bəzək vasitələrindən az istifadə edilməsi tikinti keramikasının istehsal həcminin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu (45, s.36). Digər tərəfdən XIX əsrin ortalarından etibarən imperiyanın müxtəlif şəhərlərində manufakturalarda və fabriklərdə istehsal edilən çini və mis qabların idxalı, yerli əhalinin məişətinə yol tapması da, fikrimizcə, dulusçuluğa olan tələbatı əvvəlki əsrlərlə müqayisədə xeyli azaltmışdır.

Tədqiqatlar göstərir ki, dulusçu sənətkarlar Naxçıvan şəhəri ilə yanaşı, həm də xammalın olduğu şəhərətrafı kəndlərdə də məskunlaşmışdılar. C.Mustafayev yazır ki, hələ xanlıq dövründə Təzəkənd adlı yaşayış məntəqəsində Naxçıvan xanı Ehsan xana məxsus saxsı səhəng istehsal edən emalatxana fəaliyyət göstərirdi (92, s.132-133).

Naxçıvanda qədim tarixə malik olan daşyonma sənəti XIX

əsrdə də inkişaf etməkdə idi. Zəngin daş yataqlarına malik olan Naxçıvan bölgəsinin sakinləri bir sıra yaşayış məskənlərində daş üzərində işləmə, bədii daşyonma mərkəzləri yaratmış və bu mərkəzlərdə fəaliyyət göstərmişlər (45, s.23). 1831-ci ildə Naxçıvan şəhərində 7 nəfər, 1848-ci ildə 9 nəfər, 1864-cü ildə 39 nəfər, 1865-ci ildə isə 35 nəfər daşyonan usta var idi. XIX əsrin 70-80-ci illərində isə Naxçıvan şəhərində yaşayan 14 nəfər daşyonan usta qeydə alınmışdır. Naxçıvan şəhərində yaşayan daşyonan ustalar əhalinin daş əmək alətlərinə, tikinti daşlarına, sütun altlıqlarına, qəbirüstü xatirə abidələrinin hazırlanmasına olan tələbatını yerinə yetirirdilər.

Naxçıvanda dülgərlik peşəsi ilə məşğul olanların say dinamikası barədə məlumat verən Ə.Sumbatzadə göstərir ki, XIX əsrin 60-cı illərinin ortalarında Naxçıvan şəhərində 21 nəfər dülgər yaşayırdı. Bu dövrdə şəhərdə yaşayan xarratların sayı 30, ağacyonanların sayı isə 2 olmuşdur (227, s.58). Naxçıvan bölgəsində XVIII-XIX əsrlərdə ağac qabıqlarından əngərək (teşt, tabaq), dədədurğuzan (çömçə) əhalinin geniş istifadəsində olmuşdur. Naxçıvanlı sənətkarlar ağac üzərində oyma, şəbəkəişləmə sahəsində də bir sıra nailiyyətlər əldə etmişdilər. Naxçıvan şəhərindəki Came məscidində, İmamzadə kompleksində qalmış taxta şəbəkəbəndlər də fikirlərimizi bir daha təsdiqləyir.

Naxçıvan şəhərində dəri istehsalı və dabbaqlıq sənəti də sənətkarlıqda mühüm yer tuturdu. Hətta Naxçıvan şəhərində dabbaqların yaşadığı xüsusi məhəllə – Dabbaqxana məhəlləsi mövcud olmuşdur. Hazırda mövcud olmayan məhəllənin yerində eyniadlı bulaq – çeşmə vardır (96,c.1, s.121). Lakin istehsal xüsusiyyətinə görə dabbaqxanalar ətraf mühitin, xüsusən çayların çirklənməsinə səbəb olurdu. Bu barədə rus müəlliflərindən İ.Şopen məlumat vermişdir (231, s.857). O, Naxçıvan şəhərində gön-dəri "zavodunun" olmasını diqqətə çatdırır. Müəllifin yazdığına görə, "zavod" elə yerdə qurulmuşdu ki, şəhərdən axan kanal Qaraxanbəyli kəndinə

yönəlmişdi. Dərinin yuyulmasında istifadə olunan suyun ümumi kənd kanalına daxil olmaması üçün belə bir variant seçilmişdi (231, s.857).

Qeyd etmək lazımdır ki, 1831-1832-ci illərdə Azərbaycanın 5 şəhərində 136 dabbaqxana vardı. Bu dövrdə Naxçıvan şəhərində 22 nəfər dəriaşılayan usta yaşayırdı (132, s.88). Əsrin 40-cı illərində, ümumilikdə, Azərbaycan üzrə dabbaqxanaların sayı iki dəfədən çox artmış, yəni 324 olmuşdu ki, bunlardan da 9-u Naxçıvanda cəmləşmişdi (12, c.7, s.74; 227, s.94). Bu dövrdə şəhərdə məskunlaşmış dabbaqların sayı da 9 nəfər olmuşdur (227, s.58). 1864-cü ildə şəhərdə 24, 1865-ci ildə isə 30 dabbaq yaşayırdı (132, s.88). S.Zelinskinin verdiyi məlumatlardan aydın olur ki, XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 3 dəri zavodu və ya dabbaqxana olmuşdur (178, c.7, s.234).

Mühüm peşə sahələrindən biri də keçəçilik idi. Keçədən alaçıqların və pəyələrin üstünün və yanlarının örtülməsində, yaşayış evlərinin döşənməsində, bəzədilməsində, yapıncı, papaq, dolaq, uzunboğaz çəkmə, corab, əba, qapılıq, heybə, çul, çuval, yük heyvanı üçün tərlik, palan, yəhər örtüyü, yük keçəsi hazırlanmasında və digər məişət ehtiyacları üçün geniş istifadə edilməkdə idi. XIX əsrin 30-40-cı illərində Naxçıvan şəhərində 2 nəfər peşəkar keçəçi yaşayırdı. 1864-cü ildə şəhərdəki keçəçilərin sayı 8 nəfər, 1865-ci ildə isə 12 nəfər olmuşdur (227, s.58).

Toxuculuğun, ipəkçiliyin və xalçaçılığın inkişafı birbaşa olaraq boyaqçılığın inkişafını da şərtləndirirdi. Çünki, əldə olunan ip və parça məmulatının boyanması, bununla da istehsal olunan məhsulun rəngarəngliyinin təmin olunması mühüm idi. Naxçıvanda zəngin xammal – boyaqotu (marena) və qırmızı böcək çox olduğu üçün

boyaqçılığın inkişafına münbit şərait yaranmışdı. Rusiya işğalı ərəfəsində Naxçıvan şəhərində üç boyaqxana mövcud olmuşdur

(173, s.19). 1848-ci ildə Naxçıvan şəhərində 2 nəfər, 1859-cu ildə 1 nəfər, 1864-cü ildə 8 nəfər, 1865-ci ildə isə 7 nəfər boyaqçı yaşayırdı (227, s.58). Naxçıvanlı boyaqçılar ipin boyanması ilə əsasən yazda və payızda məşğul olurdular. Bu işin yay aylarında həyata keçirilməməsinin səbəbi, fikrimizcə, sərt və yandırıcı istiləri ilə seçilən Naxçıvan şəhərində yandırıcı günəş şüalarının boyama işinin keyfiyyətinə göstərə biləcəyi təsirlə əlaqədar olmuşdur. İpboyama ilə boyaqçıların məşğul olduqları növbəti mövsüm isə payızın son ayları idi. Bu zaman təbii boyaq otlarının və meyvələrinin hamısı toplanırdı. Bunun başqa bir səbəbi onunla bağlı idi ki, toxuculuq sənətində aparıcı rola malik olan qadınlar yayda əkinçiliklə məşğul olurdular. Yalnız əkin-biçin sovuşduqdan sonra onlar toxuculuqla məşğul olmaq imkanı əldə edirdilər (140, s.7).

Bəhs olunan dövrdə Naxçıvan şəhərində misgərlik də inkişaf edən sənətkarlıq sahələrindən biri idi. Təsadüfi deyil ki, ən çox mis əşyaların istehsal edildiyi şəhərlər sırasında Bakı, Şamaxı, Nuxa, Gəncə, Şuşa, Lənkəran, Quba ilə yanaşı, Naxçıvanın da adı çəkilir (12, c.4, s.74). 1864-cü ildə Naxçıvan şəhərində 5 misgər, 1865-ci ildə isə 19 misgər yaşamışdır. Buradakı misgər dükanlarında müxtəlif ev avadanlıqları və təsərrüfat əşyaları hazırlanmaqda idi. Naxçıvan şəhərində misgərliyin inkişafı üçün hələ orta əsrlərdə şəhərin yaxınlığındakı mis mədənləri geniş imkan yaratmışdır (86, s.101). Buna əsasən söyləmək olar ki, Naxçıvan sənətkarları XIX əsrdə də tarixin dərinliklərindən keçib gələn misgərlik sənəti ənənələrini yaşatmaqda idilər. Misgərlər tərəfindən sini, kasa, sərpuş, ləyən, məcmeyi, qazan, piyalə, dolça, nimçə və s. məişət əşyaları istehsal edilirdi. Təsadüfi deyildir ki, XIX əsrdə Naxçıvan misgərlərin istehsal etdikləri bəzi məhsullar bu gün yüksək səviyyəli sənət nümunəsi kimi muzeylərimizi bəzəyir. XIX əsrdə naxçıvanlı misgərlər tərəfindən istehsal edilmiş belə əşyalar hazırda Naxçıvan şəhərindəki Dövlət Tarix Muzeyinin ekspozisiyasında daha çoxdur. Belə sənət əsərlərindən

biri mis kəşküldür (45, s.85). Mis kəşkülün üzərindəki medalyonların ərəb dilində mətnini oxumuş görkəmli epiqrafist Məşədixanım Nemət burada qeyd edilən 1272 hicri tarixinin miladi 1855-1856-cı illərə uyğun gəldiyini göstərmişdir (197, s.117).

Bilavasitə misgərliklə əlaqəli olan sənət sahələrindən biri qalayçılıq idi. Bu sənət sahiblərini digərlərindən fərqləndirən xüsusiyyətlərdən biri də emalatxanalarla yanaşı, səyyari formada fəaliyyət göstərmələri olmuşdur. Orta əsrlər Naxçıvanda qalayçı sənətkarların fəaliyyətindən bəhs edən S.Hacıyeva yazır ki, qalayçılıq xüsusi sahə kimi fəaliyyət göstərir, onlar şəhər misgərxanalarında çalışır və yaxud kəndlərə gedib əhalinin mis qablarını qalaylamaqla məşğul olurdular (45, s.19). 1831-ci ildə şəhərdə 4, 1848-ci ildə 3, 1864-cü ildə 5, 1865-ci ildə isə 9 qalayçı yaşayırdı (227, s. 58).

XIX əsrdə Naxçıvan şəhərində silah ustaları da fəaliyyət göstərirdilər (12, c.4, s.74). 1831-ci ildə Naxçıvan şəhərində 3 nəfər, 1848-ci ildə 2 nəfər, 1859-cu ildə isə 1 nəfər silahsaz-sənətkar qeydə alınmışdır (227, s.58).

Şəhər sənətkarları içərisində toxucu və başmaqçılardan sonra ən çox saylı qruplardan biri dəmirçilər idi. 1831-ci ildə Naxçıvan şəhərində 40, 1848-ci ildə 20, 1859-cu ildə 28, 1864-cü ildə 31, 1865-ci ildə 21 nəfər dəmirçi qeydə alınmışdır (132, s.88). Naxçıvan şəhərində yaşayan dəmirçi ustalar müxtəlif kənd təsərrüfatı alətləri – maşa, daraq, iynə, biz, çuvaldız, sac, qəndqıran, dəstər, çörək şişi, xakəndas, qarqara, fırlanquş və s. istehsal edirdilər.

Bütün əsrlər boyunca Naxçıvanın Kəngərli süvariləri hərb aləmində ən cəsur döyüşçülər hesab edilmişlər. Döyüş atlarının bəslənməsi və onların nallanması süvarilərin döyüşə hazırlıqlarında mühüm mərhələ olmuşdur. XIX əsr Naxçıvan sənətkarları içərisində peşəkar nalbəndlərin olması da bununla izah edilə bilər. XIX əsrin 50-ci illərində şəhərdə yaşayan peşəkar nalbəndlərin sayı 13 nəfər, 60-cı illərin ortalarında isə 20 olmuşdur (227, s.58).

Zərgərlik inkişaf etmiş sahələrdən biri olmuş və Naxçıvan şəhərində bacarıqlı zərgərlər yaşamaqda idilər. Naxçıvan zərgərləri tərəfindən hazırlanmış çəçik adlanan boyun bəzəklərinin şöhrəti geniş yayılmışdı. XIX əsrdə Naxçıvan zərgərlərinin hazırladıqları çəçiklər bir çox muzeylərdə, o cümlədən Milli Azərbaycan Tarixi Muzeyində də saxlanılır (96, c.1, s.119). Naxçıvan bölgəsinin bəzi kəndlərində çəçik bəzək əşyası çəmbərə də adlandırılırdı (96, c.1, s.119). Qadınların başlarına bağladıqları bəzək əşyası olan çəngəl adlanan bəzək əşyası da Naxçıvan bölgəsində geniş yayılmışdı. Qızıldan və gümüşdən hazırlanan çəngəllərdən daha çox yaşlı qadınlar baş örtülərini saxlamaq üçün istifadə edirdilər (96, c.1, s.119). Hazırda Naxçıvan şəhərindəki Dövlət Tarix Muzeyində, o cümlədən də bir sıra digər muzeylərdə XIX əsrdə Naxçıvan zərgərləri tərəfindən düzəldilmiş çoxlu sayda kişi və qadın gümüş kəmərləri, gümüş toqqalar, gümüş boyunbağılar, sırğalar, qadın zinət əşyası olan qızıl çəngəl, qızıl boğazaltı çəçik və s. zərgərlik sənəti nümunələri mühafizə olunur və nümayiş etdirilir.

XIX əsr Naxçıvanında şüşəsazlıq işi və rəngli şüşə şəbəkələrinin qurulması işi ilə məşğul olan sənətkarlar da olmuşdur. Tarixçi R.Məmmədov yazır ki, hələ X-XIII əsrlərdə Naxçıvan şəhərinin məişətində bəzəkli və zərif şüşə məmulatları geniş yer tutmuşdur (86, s.51). Naxçıvan şəhərində bu sənət sahəsinin inkişafı ilə bağlı Naxçıvan diyarının XVIII-XIX əsr tarixi coğrafiyasına həsr olunmuş əsərində Sahibə Budaqova məlumat vermişdir (23, s.51).

Naxçıvan şəhərində həkkaklıqla məşğul olan sənətkarların sayı barədə isə yalnız XIX əsrin 30-cu illərinə aid məlumat mövcuddur. Məlumatdan aydın olur ki, bu zaman Naxçıvan şəhərində 1 nəfər həkkak var imiş (227, s.58).

Naxçıvanla yanaşı, digər iri yaşayış məntəqələrində dəmirçilər, tənəkəçilər, metal əşyalarından əmək alətləri, o cümlədən dəryaz, oraq, balta, nal, bıçaq, mismar və başqa şeylər hazırlanırdı (30, s.55).

Ümumilikdə, götürdükdə XIX əsr Naxçıvan şəhərində bəzi sənətkarlıq sahələrinin inkişaf və tənəzzül dinamikasını aşağıdakı cədvəldən də aydın görmək olar:

**XIX əsrdə Naxçıvan şəhərində sənətkarların sənətkarlıq sahələri və illər üzrə say tərkibini göstərən statistik cədvəl**

| Sənətkarlıq sahəsinin adı | İllər (nəfərlə) | | | | |
|---|---|---|---|---|---|
| | 1831 | 1848 | 1859 | 1864 | 1865 |
| *Toxucu* | 126 | 3 | 3 | 3 | 8 |
| *Başmaqçı* | 46-56 | 13 | 14 | 50 | 98 |
| *Xarrat* | 38 | | | | |
| *Papaqçı* | 35 | 28 | 13 | 24 | 21 |
| *Dərzi* | 11 | 20 | 8 | 35 | 26 |
| *Daşyonan* | 7 | 9 | - | 39 | 35 |
| *Dabbaq* | 22 | 9 | - | 24 | 30 |
| *Keçəçi* | 2 | 2 | - | 8 | 12 |
| *Boyaqçı* | - | 2 | 1 | 8 | 7 |
| *Misgər* | - | - | - | 5 | 19 |
| *Qalayçı* | 4 | 3 | - | 5 | 9 |
| *Silahsaz* | 3 | 2 | 1 | - | - |
| *Dəmirçi* | 40 | 20 | 28 | 31 | 21 |

### *3.2. XIX əsr Naxçıvan şəhərində sənaye və ticarət*

XIX əsrin 80-90-cı illərində Naxçıvan qəzasında meyvələrin texniki emalı ilə bağlı sənaye müəssisələrinin sayı əsrin əvvəllərinə nisbətən xeyli artmışdı. Naxçıvan qəzasında olan bu cür ibtidai şərab və meyvə zavodlarının bir hissəsi Naxçıvan şəhərində yerləşdirilmişdi (107, c.2, s.134-135).

Üzümçülüyün inkişafı şərabçılıq sənayesinin inkişafına ciddi təsir göstərirdi. Naxçıvan qəzasında şərab istehsalının əsas mərkəzlərindən biri Naxçıvan şəhəri idi. Şəhərin ətrafında yerləşən yaşayış məntəqələrindən biri olan Əliabadda şərabçılıq xeyli dərəcədə intişar tapmışdı. Burada hazırlanan şərab Qafqazda ən keyfiyyətli şərab növlərindən biri idi. Bəzi müəlliflər XIX əsr mənbələrinə əsaslanaraq göstərirlər ki, XIX əsrdə Əliabadda istehsal edilən çaxır (şərab) keyfiyyətinə görə bu sahədə Qafqazda tarixi ənənələrə malik olan Kaxetiyada (Gürcüstanda – A.A.) istehsal olunan şərabla müqayisə ediləcək səviyyədə idi (230, s.49). Burada əsasən iki növ çaxır istehsal edilirdi: qırmızı və ağ çaxır. Lakin daha çox qırmızı çaxırın istehsalına üstünlük verilirdi. Üç pud üzümdən 1 vedrə şərab hazırlanırdı (107, c.2, s.132). Lakin üzüm məhsulundan Naxçıvan şəhərində təkcə şərab deyil, həm də tibbi əhəmiyyətinə görə çox faydalı olan üzüm bəkməzi hazırlanırdı (60, s.229).

Naxçıvan şəhərində sənaye sahələri içərisində ipəkçiliyin xüsusi yeri var idi. Məlumdur ki, bölgədə ipəkçilik çox qədim tarixi köklərə malik olmuşdur. Naxçıvan şəhərinin İpək yolunun əsas marşrutlarından biri üzərində yerləşməsi də bunu deməyə əsas verir. Böyük İpək yolu və Naxçıvan mövzusunun tədqiqatçısı olan E.İsayev bu barədə yazır: *“Böyük İpək yolunda ən mühüm məntəqələrdən biri də qədim Azərbaycan torpağı olan, ancaq tarixin dolaylarında Azərbaycanın əsas hissəsindən ayrı salınan Naxçıvan ərazisidir”* (58, s.11).

XIX əsrdə bölgədə ipək emalı sahəsində Naxçıvan şəhəri və şəhərətrafı yaşayış məntəqələri olan Təzəkənd, Yamxana, Tumbul, Cəhri, Şıxmahmud, Kültəpə, Yarımca kəndləri fərqlənirdi (107, c.2. s.135). XIX əsrin ortalarında Qərbi Avropada ipək istehsalı sahəsində durğunluğun yaranması Rusiyaya gətirilən xam ipək məhsullarının miqdarını xeyli azaltmış, nəticədə sənaye müəssisələrinin tələbatının ödənilməsi üçün ipək istehsalına diqqət gücləndirilmişdi.

Bununla əlaqədar XIX əsrin 50-ci illərində Naxçıvan şəhərində də ipəkçilik yüksələn xətt üzrə inkişaf etmişdir.

Qeyd etmək lazımdır ki, ipəkçiliyin inkişaf etdirilməsi ilə əlaqədar olaraq, ilk növbədə, tut plantasiyalarının genişləndirilməsi zəruri məsələlərdən biri idi. İkinci mərhələdə barama istehsalı gerçəkləşdirilirdi. Barama qurdlarının hələ kiçik vaxtlarında, yəni onların birinci və ikinci yuxu keçirmə mərhələsində qurdların yalnız xırda və zərif yarpaqlarla qidalandırılması tələb olunurdu. İpək alınmasında son mərhələ isə ipəkəyirmə mərhələsi idi. Lakin ipəyin istehsalında çətinliklər sadəcə olaraq yuxarıda sadalanan üç mərhələ ilə bitmirdi. Baramaçılıq təsərrüfatlarının lazımi aqrotexniki imkanlara malik olmaması, kəskin soyuqlar, yaz və yay mövsümündə isə çəyirtkə hücumları ipəkçiliyin inkişafına mane olan əsas amillər sırasında idi. XIX əsrin 60-cı illərində xarici firma agentləri tərəfindən Naxçıvan qəzasına gətirilən barama qurdlarında olan xəstəlik yerli təsərrüfatlara yoluxmuş və nəticədə 1862-1867-ci illər ərzində qəzada barama istehsalı 7 dəfə azalmışdı (107, c.2, s. 137). İpəkçilik sənayesində əvvəlki vəziyyətin bərpası və ipəkçiliyin yenidən inkişafına yalnız XIX əsrin 70-ci illərindən etibarən müyəssər olunmuşdu.

XIX əsrin son dekadasına aid məlumatlardan isə aydın olur ki, bu dövrdə Yamxana, Təzəkənd kimi şəhərətrafı kəndlərdə çəyirtkə hücumları nəticəsində 500 desyatin tut plantasiyası məhv olmuşdu.

1889-cu ildə Tiflisdə "Qafqaz ipəkçilik stansiyası" yaradılmış və bu stansiya Qafqaz regionunda, o cümlədən Azərbaycan bölgələrində ipəkçiliyin inkişafı və ipəkçiliklə məşğul olanların bilgiləndirilməsi sahəsində ciddi işlər aparmışdır. XX əsrin əvvəllərində Azərbaycanda kənd təsərrüfatının inkişafı məsələlərini araşdıran tarixçi Mahmud İsmayılov qeyd edir ki, 1899-cu il dekabrın 21-də Stansiyanın xətti ilə Naxçıvan şəhərində də ipəkçiliklə bağlı müşavirə keçirilmişdir (59, s.101).

Sənayenin əsas sahələrindən biri duz sənayesi idi. XIX əsrdə Naxçıvan Şimali Azərbaycanın duz istehsalı üzrə ixtisaslaşmış iki regionundan biri idi. E.Veydenbaum XIX əsrin 80-ci illərində nəşr etdirdiyi Qafqaza aid bələdçilik xarakterli kitabında Naxçıvanın məhz daşduzu ilə tanındığını göstərmişdir (162, s.414). Naxçıvan şəhərindən 15 kilometr aralıda yerləşən Duzdağ mədənlərində duz istehsalı ilə bağlı İ.Şopen xeyli qiymətli məlumatlar vermişdir (231, s.835). V.Qriqoryev göstərir ki, XIX əsrin 30-cu illərində Duzdağ ərazisində iki duzçıxarılan mağara olmuşdur (173, s.16). Yolun yaxınlığında yerləşən mağarada duz çıxarılması işi bu dövrdə dayanmışdı. Təpəliklərin arasında yerləşən ikinci mədəndə isə duzçıxarma işi davam etməkdə idi. V.Qriqoryev bu mağaranın genişliyinin 8 sajen, uzunluğunun isə 23 sajen olduğunu və burada hələ emal üçün çoxlu duz olduğunu qeyd etmişdir (173, s. 17). Nəzərə alsaq ki, 1 sajen 2,13 metrə bərabərdir. Deməli, o dövrdə bu mağaranın eni 17,4 metr, uzunluğu və ya dərinliyi isə 48,99 metr olmuşdur. Duz çıxarılan bu mağaralardan K.Nikitin də bəhs etmişdir: *"Yolun lap kənarında yerləşən birinci mağaranın yarısı dağıldığı üçün o quylanmışdır. Dağların mərkəzində yerləşən indi duz çıxarılan ikinci mağara isə çox dərində olduğu üçün orada işıqsız işləmək mümkün deyil. Heç bir işçidən duzun müəyyən edilmiş həcmdə və miqdarda çıxarılması tələb edilmir..."* (198, s.138).

Naxçıvan xanlığının Rusiyaya ilhaqı ilə əlaqədar olaraq xanlığın duz mədənləri xəzinənin ixtiyarına keçmiş, duz istehsalında xəzinə idarəsi ilə birgə iltizam sistemi də tətbiq edilməyə başlamışdı (107, c.2, s.158). İltizam sistemi Naxçıvan şəhərinin yaxınlığındakı duz mədənlərində XIX əsrin sonlarınadək mövcud olmuşdur (107, c.2, s. 160). Artıq XIX əsrin 40-cı illərinin sonlarında Naxçıvan duz mədənlərində orta illik hasilat 126 min 406 pud təşkil edirdi (227, s.236). Duz istehsalı ən yüksək səviyyəyə isə 1854-1855-ci illərdə çatmışdı. 1855-ci ildə 428 min 261 pud duz istehsal olunmuşdu

(227, s. 237-238). Bunun səbəblərinə toxunan Ə.Sumbatzadə məsələni çar hökuməti tərəfindən 1852-ci il avqustun 26-da bütün Cənubi Qafqaz və Qara dəniz limanları üzrə xaricdən duz gətirilməsinin qadağan edilməsi haqqında əsasnamənin nəşri və Krım müharibəsi dövründə (1853-1856) faktik olaraq onun həyata keçirilməsi ilə əlaqələndirmişdir (227, s.237-238). Naxçıvan şəhərindən duz hələ XIX əsrin 30-cu illərində duz karvanları vasitəsi ilə Qarabağa, Şərura, Yelizavetpol dairəsinə aparılırdı (173, s.17). Yuxarıda qeyd etdiyimiz əsasnamənin qəbulundan sonra isə Naxçıvan duzunun daşınma miqyası daha da genişlənmişdir. "İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" kitabının müəllifləri qeyd edirlər ki, Naxçıvandakı duz mədənləri İrəvan şəhəri yaxınlığında yerləşən Goğb mədəni ilə birlikdə bütün Cənubi Qafqazı duzla təmin edirdi (81, s.108). V.Qriqoryev kitabında Naxçıvan duzunun özünəməxsus tamından və şöhrətindən bəhs edir. O yazır: *"Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir"* (173, s.17).

Əhalinin zəruri ərzaq məhsullarına, xüsusən un və düyüyə olan tələbatının ödənilməsində dəyirmanlar əhəmiyyətli rol oynayırdılar. XIX əsrin ortalarında Naxçıvan şəhəri ən çox dəyirmanın mövcud olduğu beş Şimali Azərbaycan şəhərindən biri olmuşdur. Tədqiqatçılar bu beş şəhər sırasında Naxçıvan şəhərindən əlavə Bakı, Şamaxı, Lənkəran, Nuxa şəhərlərinin də adlarını qeyd edirlər (107, c.2, s. 160). XIX əsrin 30-cu illərində şəhərdə olan dəyirmanların sayı 11 idi (236, v.14). Arxiv sənədlərindən məlum olur ki, XIX əsrin ortalarında Naxçıvan şəhərindəki dəyirmanların sayı 10-a yaxın olmuşdur. XIX əsrin 70-ci illərinə aid məlumatlarda isə Naxçıvan şəhəri ərazisində əsas fəaliyyət göstərən 2-3 böyük də-

yirman qeydə alınmışdır (107, c.2, s.160). 1831-ci ildə Naxçıvan şəhərində 6, 1848-ci ildə 2, 1859-cu ildə 1, 1864-cü ildə 12 nəfər dəyirmançı yaşayırdı (132, s.88).

Naxçıvan şəhərində sabun bişirilməsi, piyəritmə-şam istehsalı kimi sənaye sahələri xanlıq dövründəki kimi varlığını davam etdirirdi. XIX əsrin 70-ci illərində Bakıda və digər sənaye şəhərlərində parafin şamlardan və neft lampalarından istifadə edildiyi halda, Naxçıvanda piydən hazırlanan şam istehsalı hələ də qalmaqda idi. 1871-ci ildə Naxçıvan qəzasında 6 belə müəssisə olmuşdur (132, s.88). Doğrudur, Naxçıvan Dövlət Tarix Arxivində saxlanılan bəzi arxiv sənədlərində Naxçıvan qəzası ərazisində – Ordubadın Üstüpü kəndi yaxınlığında Yağlıdərə adlanan ərazidə neftli sahənin aşkara çıxarılması ilə bağlı məlumatlar əksini tapmışdır (238, v.15; v.16; v.19). (Əlavələr № 8, 9, 10, 11). Lakin bu dövrdə Naxçıvanda neftin hasilatı ilə bağlı hər hansı məlumat yoxdur və ehtimal ki, kəşf edilən sahədə neftlə bağlı hər hansı fəaliyyət həyata keçirilməmişdir.

S.Zelinskinin məlumatlarından aydın olur ki, XIX əsrin 70-80-ci illərində, ümumilikdə, bölgədə iki sabunbişirmə müəssisəsi – zavodu olmuşdur ki, onlardan da biri məhz Naxçıvan şəhərində yerləşirdi (178, c.7, s.235). Burada istehsal olunan sabunlar boz rəngli idi və sabun istehsalında xüsusi gil növündən istifadə edilirdi. Dövrün müəllifləri yazırlar ki, bu dövrdə əhali sabun tapmadığı hallarda gilin xüsusi növündən saçları yumaq üçün təmizləyici məhlul kimi istifadə etmişdir (178, c.7, s.235).

Evlərin memarlıq quruluşunda və inşaat texnikasında baş verən dəyişikliklər və yeniliklər tikinti sənayesinin inkişafını şərtləndirirdi. Artıq bu dövrdə evlərin çiy kərpicdən deyil, bişmiş kərpicdən inşası ənənəsi geniş yayılmağa başlamışdı. Kərpic istehsalı, tikinti daşlarının hazırlanması mühüm əhəmiyyət kəsb edirdi. XIX əsrin sonları XX əsrin əvvəllərində Naxçıvanda 5 kərpic zavodu fəaliyyət göstərirdi. Ə.Sumbatzadə yazır ki, XIX əsrin sonlarında

Naxçıvan qəzasında 4 əhəng istehsalı müəssisəsi olmuşdur (227, s.204-206).

Yuxarıda apardığımız təhlillərdən belə bir qənaətə gəlirik ki, Naxçıvanın çar Rusiyası tərəfindən işğalından sonrakı dövrdə Naxçıvan şəhərində müstəmləkəçilik siyasətinə uyğun olaraq sənayenin inkişafında müsbət artım meyilləri müşahidə olunmuşdur. Daha çox xammalın əldə olunması və istehsal edilməsi həm də imperiyanın mərkəzinə daha çox məhsulun göndərilməsi demək idi ki, çarizm müstəmləkə sistemi də məhz buna çalışırdı. Digər tərəfdən çar Rusiyası bu bölgələrdə inkişafı təmin etməklə həm Osmanlı dövlətinin həmsərhəd şərq əyalətləri üçün, həm də Qacarlar dövlətinin tərkibində qalmış Azərbaycan əyalətləri üçün çar Rusiyasının cəlbediciliyini artırmağa çalışırdı.

**Ticarət.** İşğaldan sonrakı dövrdə Naxçıvan şəhərinin Şərq ölkələri ilə ticarət əlaqələri nisbətən zəifləsə də, Şimali Qafqaz və Rusiya şəhərləri ilə iqtisadi-ticarət əlaqələri güclənməkdə idi. Naxçıvandan Rusiyanın mərkəzi şəhərlərinə əsasən ipəkçilik və meyvəçilik məhsulları aparılırdı. Bu dövrdə Qacarlar ilə sərhəddə yerləşən Naxçıvan şəhərinin ticarət əlaqələrində yerləşdiyi mövqe əhəmiyyətli rol oynayırdı. V.Qriqoryev Naxçıvanı Tiflisdən Təbrizə gedən böyük ticarət yolunun üzərində yerləşən əhəmiyyətli nöqtə kimi qiymətləndirmişdir (173, s.94-95). Arxiv sənədlərindən aydın olur ki, XIX əsrin sonlarına doğru bölgədə istehsal olunan məhsullar təkcə bölgə əhalisinin tələbatını ödəmir, bəzi hallarda sıx mədəni və iqtisadi əlaqələrin olduğu Cənubi Azərbaycan, Xəzərsahili vilayətlərə və Dağıstana da göndərilirdi (238, v.32).

Naxçıvandan İrana aparılan əsas əmtəələrdən biri duz idi, İrandan isə Naxçıvan bazarlarına müxtəlif kustar istehsal məhsulları gətirilirdi. Müharibənin bitməsindən sonra çar Rusiyasının İranla ticarətin inkişafına xüsusi əhəmiyyət verməsi nəzərə çarpırdı. Azərbaycanın İranla ticarətinin həyata keçirildiyi əsas gömrük məntəqə-

lərindən biri Naxçıvanda, digəri isə Ordubadda idi (12, c.4, s.83). Naxçıvan şəhərinin əsas meydanlarından olan və bu gün "Təbriz" otelinin yerləşdiyi "Dədə Qorqud" meydanının XX əsrin əvvəllərinə qədər Gömrükxana adı ilə tanınması (97, c.2, s.326) sübut edir ki, Naxçıvan Gömrükxanası məhz burada yerləşmiş və xarici ticarətdə mühüm rola malik olmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan  və tədqiqata cəlb etdiyimiz bir sıra sənədlər də sübut edir ki, XIX əsrin 40-60-cı illərində Naxçıvan qəzasındakı gömrüklər, o cümlədən Naxçıvan Gömrükxanası xarici ticarətdə mühüm rol oynamışdır.

XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində yaşayan tacirlərin illik ticarət dövriyyəsi 160 min gümüş rubla bərabər idi (236, v.18). V.Qriqoryevin qeydlərinə görə, XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin əvvəllərində Naxçıvan şəhərində yerləşən bazarda 176 mağaza mövcud idi (173, s. 96). Naxçıvan şəhər bazarı üstü qamışla örtülmüş kiçik daş dükanlardan ibarət olmuşdur. Rus işğalına qədər şəhər bazarı çox kiçik, sadə formalı idi (199, c.6, s. 332). Arxiv sənədlərində isə bu dövrdə, ümumilikdə, Naxçıvan şəhərində 279 dükanın olduğu, onların 223-nün fəaliyyət göstərdiyi, bazardakı 25 dükanın, karvansaralarda yerləşən 31 dükanın isə boş olduğu barədə qeydlər vardır (236, v.11).

XIX əsrin 40-cı illərindən başlayaraq digər Azərbaycan şəhərlərində olduğu kimi, Naxçıvanda da ticarət müəssisələrinin sayı çoxalmağa, dövriyyəsi isə artmağa başlamışdır. XIX əsrin 40-cı illərinin əvvəllərində Naxçıvanda 310 ticarət müəssisəsi var idi (12, c.4, s.80). XIX əsrin 60-cı illərində isə artıq Naxçıvan qəzasında fəaliyyət göstərən ticarət müəssisələrinin sayı 955-ə çatmışdı (12, c.4, s.267).

XIX əsrin I yarısında bazarda ticarət əsasən Qacarlar və Osmanlı dövlətinə məxsus pullarla aparılırdı (173, s.98). V.Qriqoryev

göstərir ki, İran pullarından tümən və yarımtümən qızıldan, sahibqıran, pənahabadi və yarımpənahabadi gümüşdən, Təbriz və Xoy xanlıqlarına məxsus yarımşay və para adlanan pullar misdən idi (173, s.98). Səfəvilər dövrlərindən qalma pul vahidi olan tümən 10 sahibqırana bərabər idi (81, s.124). Səfəvi dövlətindən qalma sikkə olan şahı 2 gümüş qəpiyə bərabər idi. Mahmudi və bisti də Səfəvilər dövründən qalmış sikkə idi. Sahibqıran və ya minaltun 35 gümüş qəpiyə bərabər olmuşdur. Bu, Qacarlar dövlətinin pul vahidi idi (81, s.124). Lakin rus müəllif yanlış olaraq pənahabad və yarımpənahabad adlandırdığı pulları Qarabağ xanlığına deyil, Qacarlar dövlətinə aid etmişdir (173, s.98). Qarabağ xanlığının pul vahidi olan pənahabad 10 şahı və ya 500 dinar idi. Osmanlı dövlətinə məxsus olan pullardan səksənlik, yüzlük, ikilik, quruş-sanciralu, quruş gümüşdən olmuşdur (173, s.98). Rus sikkələrindən burada gümüş rubllar və mis quruşlar geniş yayılmışdı.

Çəkini müəyyən etmək üçün metal tərəzilərdən və daşlardan istifadə edilirdi. Bazar darğası bazarda satıcılar tərəfindən istifadə edilən çəki vahidlərinə nəzarət edirdi. Bazarlarda çörək, meyvə, şərab kimi məhsullar da məhz çəki ilə satılırdı. Naxçıvan şəhərindəki bazarlarda ən ağır çəkini ifadə edən vahid xalvar idi. V.Qriqoryev yazır ki, 1 xalvar 25 batmana, 1 batman isə 32 rus funtuna bərabər idi. Yarımbatman 16 funt, çərek 8 funt, hokka 4 funt, bista 2 funt, təqə bir funt idi (173, s.100-101). Toxuculuq məhsullarının – parçaların ölçülməsi üçün arşın ölçü vahidindən istifadə edilirdi. Naxçıvan arşını o dövrün rus arşınından 4 dəfə artıq olmuşdur (173, s.101). Bu yerdə bir haşiyə çıxaraq qeyd etmək lazımdır ki, orta əsrlərdə, xüsusən xanlıqlar dövründə ayrı-ayrı ərazilərdə istifadə edilən ölçü vahidləri arasında bərabərliyin pozulması, məsələn, Naxçıvan arşını ilə rus arşınının fərqli olması ilə əlaqədar xalq arasında el məsəlləri belə yayılmışdı. Naxçıvan şəhərinin yaşlı sakinlərindən şəhərin XIX əsr tarixinə dair materiallar toplayarkən eşit-

diyimiz "Sən hər şeyi öz arşınınla ölçürsən" ifadəsi də böyük ehtimalla bununla bağlı meydana çıxmışdır. Naxçıvan arşını 16 kirəyə, 8 siya, 4 çərekə bərabər idi (173, s. 101). Torpağı ölçmək üçün isə əsas ölçü vahidi tanap idi ki, bir tanap da 20 rus arşınına bərabər hesab edilirdi.

Dövrün mənbələrində ümumi kateqoriya olaraq ticarətlə məşğul olan şəxslər iki başlıca qrupa – tacirlərə və sövdəgərlərə ayrılırdı (178, c.7, s.237). Satdığı məhsula görə tacir qrupları bir-birindən fərqləndirilirdi. S.Zelinski Naxçıvan bazarlarında əttarları, əllafları, anbarçıları, bəzzazları, baqqalları, dəllaları, çarvadarları fərqləndirmişdir (178, c.7, s.238).

Naxçıvanın toxuculuq məhsulları xarici bazarlara çıxarılır və rəqabətqabiliyyətliliyinə görə seçilirdi. Bu məqam Naxçıvan qəza rəisinin qubernatora hesabatında da öz əksini tapmışdı. Hesabatda yazılırdı: *"Düzdür, bura da işlədilən dəzgahlar Moskvadakı toxuculuq dəzgahları ilə rəqabətə girə bilməsə də, məhsullar xarici bazarda da diqqətəlayiq yer tutur"* (239, v.21-23).

Naxçıvan və Şərur-Dərələyəz qəzasında istehsal olunan müxtəlif kənd təsərrüfatı və maldarlıq məhsulları, eləcə də toplanılmış və təzə qurudulmuş meyvələr, bağçılıq məhsulları Naxçıvan şəhərindəki bazarlarda satılır, eləcə də kənardan gələn tacirlər tərəfindən alınaraq başqa şəhərlərə və yaxın qonşu ölkələrə də aparılırdı. Naxçıvan şəhərindəki bazarlarda tədarük edilən bağçılıq və meyvə məhsullarının böyük bir hissəsi Ordubad şəhəri və ətraf kəndlərdə yetişdirilən məhsullar hesabına təmin edilirdi.

Naxçıvan şəhərində istehsal edilən şərab məhsullarının şöhrəti də bu dövrdə geniş yayılmışdı. Məhsuldarlığın yüksək olduğu illərdə Naxçıvan çaxırının pudu 50-60 qəpiyə, aşağı olduğu illərdə isə 1 manat 20 qəpiyə satılırdı (107, c.2, s.132).

Naxçıvan şəhərindəki bazarlarda hətta bölgədə istehsal olunan pambığın satılması ilə bağlı mənbələrdə məlumatlar saxlanılmışdır.

Bu məsələyə toxunan tədqiqatçı M.Gülmalıyev göstərir ki, XIX əsrdə Naxçıvan bazarında pambığın bir batmanının qiyməti 4 man. 50 qəpik olmuşdur (36, s.101-102).

Naxçıvan şəhərinin yaxınlığındakı duz mədənlərinin yanında aktiv duz ticarəti həyata keçirilirdi. Dövrün mənbələrində hətta duz mədənlərində satılan duzun qiyməti ilə bağlı da məlumatlar saxlanılmışdır. V.Qriqoryev yazır ki, yerində duzun bir batmanı üçün 1 Naxçıvan abazı və yaxud 8 gümüş qəpik ödənilirdi (173, s.18). 1 batmanın 7 kiloqram 697 qram olduğunu nəzərə alsaq, deməli, duzun 1 kiloqramı 1 gümüş qəpikdən bir az baha idi.

V.Qriqoryev “Naxçıvan əyalətinin statistik təsviri” əsərində ayrı-ayrı məhsulların Naxçıvan bazarlarındakı qiymətinə aid cədvəl təqdim etmişdir (173, s. 97). Cədvəldən aydın olur ki, XIX əsrin 20-ci illərinin sonu 30-cu illərinin başlanğıcı ərəfəsində Naxçıvan şəhərindəki bazarlarda 1 batman və yaxud 32 funt buğda 40 gümüş qəpiyə satılırdı. Arpanın 1 batmanı 30 qəpiyə, çəltiyin bir batmanı 40 qəpiyə, mal əti 1 rubla, qoyun əti isə 1 rubl 30 qəpiyə satılırdı (173, s.97).

Avropa bazarlarından Naxçıvan bazarlarına geyimlər, parçalar, müxtəlif kağız məhsulları, çay, şəkər, rom, mis və polad əşyalar gətirilirdi. İran bazarlarından isə ipəkçilik məhsulları və dərman bitkiləri gətirilirdi (173, s.95). Taxılçılıq məhsulları ticarətində Mərənd, Xoy və Təbrizlə, pambıqçılıq məhsulları ticarətində Bəyazid, Qars, Tiflis, Qarabağ, şərabçılıq məhsulları ticarətində isə Bəyazidlə sıx əlaqələr qurulmuşdu (173, s.96).

Bəhs etdiyimiz dövrdə bölgədə rabitə və nəqliyyatın inkişafı da diqqət çəkən məqamlardan idi. Mühüm ticarət yollarının üzərində yerləşən Naxçıvan şəhərinin nəqliyyat infrastrukturunun inkişafına da diqqət yetirilirdi. XIX əsrin başlanğıcında Naxçıvan şəhəri ilə digər şəhərlər, kənd və qəsəbələr arasında əsas nəqliyyat vasitələri öküz arabası, fayton, furqon və minik heyvanlarından ibarət idi.

Bölgənin çar Rusiyasının nəzarətinə keçməsindən sonra, ilk növbədə, Naxçıvan şəhərini Cənubi Qafqazın digər mərkəzi şəhərləri ilə birləşdirən yolların təhlükəsizliyinin təmin olunması üçün tədbirlər həyata keçirilirdi.

Naxçıvan şəhəri ərazisindən keçən əsas yollardan biri Şuragöl (Gümrü)-Ordubad yolu idi. Bu yol baş poçt yolu hesab edilirdi. Yol Talin mahalının Məsdərə kəndindən başlayaraq Sərdarabad qalası, Eçmiədzin monastrı, İrəvan və Naxçıvan şəhərlərindən keçərək Ordubad şəhərində qurtarırdı (231, s.718-721). Digər mühüm yollardan biri Naxçıvandan başlayıb Culfa keçidi vasitəsilə İrana gedən yol idi. Bu yolun uzunluğu 12 verstə bərabər olmuşdur. Başqa bir yol Naxçıvan şəhərindən başlayır, Qarababa istehkamı boyunca davam edir, buradan Bərgüşad çayına istiqamətlənməklə Qarabağ əyalətinə gedirdi. Bu yol barədə məlumat verən V.Qriqoryev yazır ki, sonuncu Rusiya-Persiya müharibəsi (1826-1828) zamanı ruslar burada çox yaxşı bir araba yolu düzəltmişdilər (173, s.22). Qersavonov da Qarababa istehkamından Bərgüşad çayınadək olan yolun 1826-1828-ci illər müharibəsi zamanı işləndiyini yazmışdır (170, s.11). Bəzi mənbələrdə Şuşa-Gorus və Naxçıvan yolu adlandırılan (70, k.3, s.218) bu yol hələ xanlıq dövründə ciddi əhəmiyyətə malik olmuşdu. Doğrudur, qış aylarında bu yolda hərəkət xeyli çətin olsa da, yayda ən aktiv istifadə edilən yollardan biri olmuşdur.

Naxçıvan şəhərini Şəmşəddil və Qazax distansiyaları, o cümlədən Tiflislə birləşdirən yol Dərələyəz mahalından keçirdi. Z.Şahverdiyev yazır ki, bu yol Cəhri, Gərməçataq, Martiros, Çaykənd kəndləri və Güllüdüz vadisindən keçirdi. O yalnız at üçün əlverişli olub, 113 verst idi (132, s.100).

1828-ci ildən sonra Naxçıvan-İrəvan, Culfa, Ordubad və Sisiyan arasında şose yolu çəkilməyə başladı. 1865-ci ildən "Çar yolu" adlandırılan İrəvan-Culfa şose yolunun inşasına başlanılıb onun istifadəyə verilməsi (107, c.2, s.128) sonralar Naxçıvan şəhərinin digər

Cənubi Qafqazın mərkəzi şəhərləri ilə və Rusiyanın ayrı-ayrı rayonları ilə ticarət əlaqələrini daha da gücləndirmişdir.

Qacarlar dövləti ilə sərhəddə yerləşən Naxçıvan şəhərindən Cənubi Qafqazın, Rusiyanın mərkəzi şəhərlərinə müxtəlif informasiyaların ötürülməsi üçün rabitə əlaqələrinin inkişafı da mühüm əhəmiyyət kəsb edirdi.

1936-cı ildə nəşr edilmiş Rusiya Dövlət Arxivinin Leninqrad Bölməsində saxlanılan 1837-ci il tarixli bir arxiv sənədində hələ XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində poçt binasının inşa etdirilməsi ilə bağlı məlumatlara rast gəlirik. Sənəddən aydın olur ki, bu məqsədlə Ehsan xanın göstərişi ilə İsa Sultan tərəfindən əhalidən vəsait toplanılmışdır (187, s.337). 1864-cü il yanvarın 21-də Naxçıvan şəhərini İran sərhədindəki Culfa ilə birləşdirən və Tiflis-İrəvan-Naxçıvan-Culfa teleqraf xəttinin bir hissəsi olan ilk teleqraf xətti istifadəyə verilmişdir (12, c.4, s.254). 1870-ci ildə isə Naxçıvan-Şuşa poçt yolu çəkilmişdir (13, s.214).

Yuxarıdakı təhlillər nəticəsində belə bir qənaətə gəlirik ki, müstəmləkəçilik siyasətindən irəli gəlsə belə, XIX əsrin II yarısından etibarən Naxçıvan şəhərinin iqtisadi həyatında müəyyən dirçəliş baş vermiş, sənayedə yeni texnikanın tətbiqinə başlanılmışdır. Yolların çəkilməsi və yeni rabitə vasitələrinin tətbiqi həm ticarət əlaqələrinin, həm də ictimai-mədəni əlaqələrin inkişafına müsbət təsir göstərmişdir.

### *3.3. XIX əsrd Naxçıvan şəhərində təhsil və xalq maarifi*

XIX əsr Azərbaycanın tarixi taleyində qanlı-qadalı hadisələrlə yanaşı, həm də bir sıra dəyişikliklərlə yaddaqalan olmuşdur. Rus işğalına qədərki dövrdə xanlıq ərazisində mövcud olan məktəblər, rus işğalından sonra imperiyanın tələblərinə uyğun olaraq dəyişdirilməyə başlamışdır. İmperiya idarəçiliyinin yeni tipli məktəbləri yarat-

maqda məqsədi daha çox müstəmləkəçilik maraqlarına xidmət etmiş, xalqın öz tarixi köklərindən qoparılmasına istiqamətlənmişdir. Sovet dövründə yazılmış tarixi ədəbiyyatlarda, o cümlədən müasir dövrdə yazılmış bəzi əsərlərdə guya rus işğalına qədərki dövrdə Azərbaycanda təhsilin səviyyəsinin çox aşağı olması ilə bağlı fikirlər irəli sürülür, məktəb və mədrəsələrin geriliyin və cəhalətin qalıqları kimi təqdim edilməsinə cəhdlər göstərilir. Halbuki əsrlər boyunca məhz bu məktəb və mədrəsələrdə yetişmiş görkəmli alimlər böyük kəşflərə imza atmış, bu kəşf və ixtiralardan təkcə Şərq dünyası deyil, Qərb ölkələri də faydalanmışdır.

Rus müstəmləkəçiliyinin yeni məktəblər yaratmaqda, rusdilli ziyalıları formalaşdırmaqda əsas məqsədləri onlara yad olan Şərq dillərində danışan xalqın ziyalılarını “özününküləşdirmək”dən ibarət idi. Bu siyasətin mahiyyəti “Naxçıvan tarixi” çoxcildliyində belə açıqlanır: *“...Çarizm Azərbaycanda məktəb təsis etməklə xalqın yuxarı təbəqəsini, imtiyazlı sinifləri öz tərəfinə çəkməyə, onları qulluğa cəlb etməyə, bu yol ilə milli adət-ənənələrdən yayındırmağa cəhd edirdi”* (107, c.2, s.175). Məlum idi ki, milli və mənəvi hisslərdən qoparılmış şəxsiyyət hər nə qədər bilgi və savad sahibi olsa da, onun milli hisslərdən məhrum olması gerçək ziyalıya çevrilməsinə imkan verə bilməz. Çar Rusiyasının bu məqsədi hətta o dövrə aid bəzi arxiv sənədlərində də əks olunmuşdur. Məsələn, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivində saxlanılan bir sənəddə yazılırdı: *“Şübhə yoxdur ki, yuxarıda göstərilən tədbir müsəlman bəylərinin uşaqlarını məktəbə göndərməyə vadar edəcək, müsəlman uşaqları rus, gürcü və digər xristian uşaqları ilə birlikdə 3-4 il bir yerdə olmaqla rus dilini öyrənəcək və beləliklə də öz dini fanatizmini itirəcək və necə deyərlər ruslaşacaq: hökumətin bu ölkəyə münasibətində başlıca mənafe də bundan ibarətdir”*. Lakin rus müstəmləkəçiliyi hər nə qədər çalışsa da, Azərbaycan ziyalısını tarixi köklərə bağlılıqdan qopara bilmədi, beləliklə də Şərq müdrikliyi ilə

Qərb maarifçilik ənənələrini öz simasında cəmləşdirə bilən yeni tipli Azərbaycan ziyalıları yetişdi. Bu prosesin başlaması və inkişafı isə məhz bizim araşdırdığımız xronoloji çərçivədə baş verdi.

Qeyd etdiyimiz kimi, xanlıq dövründə Naxçıvanda əsas təhsil və maarif müəssisələri məhəllə məscidlərinin nəzdində fəaliyyət göstərən ibtidai məktəblər və mədrəsələr hesab olunurdu. Şəhərdəki mədrəsələrdən biri Zaviyə Mədrəsə Kompleksində fəaliyyət göstərmişdir. Qeyd edək ki, tarixi XVII-XVIII əsrlərə aid edilən Zaviyə binası yarandığı dövrdə əsasən sufi təriqət tərəfdarlarının toplaşdığı məkan olmuşdur. H.Səfərli yazır ki, orta əsrlərdə hürufi təriqətçilərinin toplandığı zikr yerləri xanəgah, bəktaşi və nəqşibəndilərin toplaşdığı yerlər isə zaviyə adlandırılırdı (127, s.66). Ehtimal ki, yarandığı dövrdən etibarən bu Zaviyə mədrəsəsi Naxçıvanda köklü sufi cərəyanlarından hesab edilən bektaşi cərəyanı mənsublarına aid olmuşdur.

Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra, ilk növbədə, rus dilində təhsil verən məktəblərin açılması zərurəti irəliyə sürüldü. Yuxarıda da vurğuladığımız kimi, bu daha çox çarizmin özünə sadiq yerli məmur sinfini formalaşdırmaq istəyindən irəli gəlirdi. 1827-ci ildə Tiflisin hərbi qubernatoru Sipyagin Cənubi Qafqazın bir sıra şəhərləri ilə yanaşı, Nuxa (Şəki), Qazax, Şamaxı, Şuşa, Bakı və Qubada qəza məktəbləri açmaq fikrini irəli sürmüşdü ki, az sonra bu siyahıya Naxçıvan və Ordubad da əlavə olundu (107, c.2, s.173). 1829-cu il avqustun 2-də təsdiq edilmiş Cənubi Qafqaz məktəblərinin birinci Nizamnaməsində Naxçıvan və Ordubad şəhərlərində də yeni tipli qəza məktəblərinin açılması göstərilsə də, bu məktəblərin yaradılması üçün bir sıra problemlər ortaya çıxmışdı. Naxçıvan şəhərində məktəb yaradılması ehtiyacı Cənubi Qafqaz məktəbləri direktorunun təhlillərində qeyd olunsa da, məktəblərin açılmasının ləngidilmə səbəbi kimi yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyətli olan adamın olmaması göstərilirdi. Tədqiqatçı

H.Əhmədov "XIX əsr Azərbaycan məktəbi" adlı tədqiqat əsərində direktorun fikirlərini aşağıdaki kimi təqdim etmişdir: *"Naxçıvan əhalisi çox olan şəhərdir və əlbəttə, burada məktəbə ehtiyac vardır. Lakin yerli sakinlərdən müəllimlik vəzifəsinə qabiliyyətli olan adamın olmaması burada məktəb açılmasını ləngitdi"* (26, s.11).

Bu yerdə məsələnin mahiyyətinin dərindən təhlilinə ehtiyac var. Yuxarıda da qeyd etdiyimiz kimi, xanlıq dövründə, eləcə də ondan əvvəlki dövrlərdə bölgədə fəaliyyət göstərən məktəb və mədrəsələr maarif işini yüksək səviyyədə həyata keçirmiş, müxtəlif naxçıvanlı alim və tədqiqatçılar ilk təhsillərini doğma vətəndə aldıqdan sonra Şərqin müxtəlif ölkələrinə gedərək yüksək səviyyəli təhsil görmüş və müxtəlif elmlərin əsaslarına yiyələnmişdilər. Lakin Çar Rusiyasının işğalı ilə həm də dini təhsil görmüş belə ruhani ziyalıların əksəriyyəti doğma yurdu tərk edərək Osmanlı və Qacarlar dövlətləri başda olmaqla Şərqin müxtəlif müsəlman məmləkətlərinə üz tutmuş, burda fəaliyyətlərini davam etdirmişlər. Yəqin ki, elə buna görə Naxçıvanda açılması nəzərdə tutulan yeni tipli məktəblərdə tədris planına daxil edilən şəriət, qiraət, hüsnxət, hesab, rus dili və ana dilindən dərs deyə biləcək ixtisaslı müəllim kadrlarının olmaması problemi üzə çıxmışdı (88, s.28).

Lakin yerli əhali və Naxçıvan xanlarının varisləri olan Ehsan xan kimi yüksək təbəqə yaxşı başa düşürdü ki, tarixi siyasi proseslərin çar Rusiyasının xeyrinə inkişaf etdiyi şəraitdə yerli şəraitə nabələd yadelli məmurların zülmündən qurtarmaq, idarəçilik prosesinə daxil olmaq, eləcə də Rusiya vasitəsi ilə Avropanın və yeni dünyanın mədəni nailiyyətləri ilə tanış olmaq üçün rus dilinin öyrənilməsi mühüm şərtdir. Yerli əhalinin rus dilinə meyilli olması məsələsini imperiya maraqlarına uyğun olaraq daha da qabardan V.Qriqoryev əhalinin rusdilli məktəblərin açılmasına münasibətini öz əsərində belə əks etdirmişdi: *"Yerli əhalidə rus dilini öyrənməyə böyük həvəs vardır. Bir çox vəzifəli şəxslər artıq rus dilini öyrən-*

*məyə başlamışlar və böyük müvəffəqiyyətlər əldə etmişlər. Ümumiyyətlə, bütün əhali onların uşaqlarına həm rus dili, həm də ictimai həyatda zəruri olan ibtidai bilik öyrətmək üçün şəhərdə rus məktəbi təsis etməyi ürəkdən arzu edir, hətta yerli başçılardan xahiş edirlər. Naxçıvan əyalətini idarə edən Ehsan xanın dediyinə görə, belə məktəbə şəhərdən və yaxın kəndlərdən 200-ə qədər şagird yığılar"* (87, s.7).

Nəhayət ki, 1837-ci ilin mart ayının 15-də Cənubi Qafqaz məktəblərinin ikinci Nizamnaməsinə uyğun olaraq Naxçıvanda ilk qəza məktəbi fəaliyyətə başladı (26, s.12). Qeyd edək ki, "Azərbaycan tarixi" çoxcildliyinin IV cildində yanlış olaraq məktəbin 1938-ci ildə fəaliyyətə başladığı göstərilmişdir (12, c.4, s.139). F.Cəfərov və R.Quliyev isə bəzi arxiv sənədlərinə istinad edərək Naxçıvanda ilk qəza məktəbinin 1837-ci il martın 25-də açıldığını yazmışlar (24, s.3) Naxçıvan şəhərindəki bu ilk qəza məktəbi Naxçıvanın hakimi, general-mayor Ehsan xanın oğlanları İsmayıl və Kalbalı xanın xüsusi evində fəaliyyətə başlamışdı (110). Tədqiqatçı Vahid Rzayev də "Naxçıvanda məktəb və pedaqoji fikir (XIX əsr və XX əsrin əvvəlləri)" monoqrafiyasında Naxçıvan qəza məktəbinin Ehsan xanın oğlanları İsmayıl və Kalbalı xanın təşəbbüsü və himayəsi ilə, onların şəxsi evində (indiki Cəmşid Naxçıvanskinin ev muzeyi – A.A.) açıldığını və binanın məktəbə 12 il müddətində pulsuz verildiyi haqqında da ətraflı bəhs olunur (119, s.82). Məktəb ilk fəaliyyətə başladığı dövrlərdə burada 20-yə yaxın şagird təhsilə cəlb edilmişdi. İşğal dövründə belə, Kəngərli tayfasından olan Naxçıvan xanlarının varislərinin qəza məktəbi üçün öz şəxsi mülklərinin qapılarını açmaları, hətta bu məktəbə ildə gümüş pulla 200 manat ianə ayırmaları, məktəbi xüsusi himayələrinə götürmələri Naxçıvan xanlarının maarifin inkişafına münasibətini əks etdirir və ola bilməzdi ki, işğal dövründə təhsilə bu dərəcədə diqqət yetirdikləri halda, işğaldan əvvəl – müstəqil Naxçıvan xanlığının mövcud olduğu dövrlərdə

maarif işini diqqətdən kənarda qoysunlar.

Naxçıvan şəhərində yaradılmış ilk qəza məktəbi üçsinifli idi. Yarandığı ilk dövrlərdə öz tədris rəhbərliyi olmadığından bu məktəb də digər qəza məktəbləri kimi tədris işləri ilə əlaqədar Tiflis gimnaziyasının direktoru vasitəsilə xalq maarif nazirliyi ilə ünsiyyətdə olan Gürcüstan baş hakiminə tabe olmuşdur. 1840-cı ildən etibarən Naxçıvan şəhər qəza məktəbi Cənubi Qafqaz məktəbləri Baş müfəttişinin, 1849-cu ildən isə Qafqaz təhsil dairəsinin sərəncamına keçmişdir. Məktəbin birinci sinfi hazırlıq sinfi olaraq nəzərdə tutulmuşdu. İki yuxarı siniflərdə aşağıdakı fənlərin tədrisi təsdiq edilmişdir: şəriət, rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab və həndəsədən başlanğıc kurs, hüsnxət, rəsm və rəsmxət, ana dili. Tədris fənləri rus dilində keçirilirdi. Ana dili ikinci və üçüncü siniflərdə tədris edilirdi. Azərbaycan dili rus mənşəli şagirdlər üçün də məcburi fənn idi (120, s.133).

XIX əsrin 30-cu illərində yaradılan məktəblərin ilk dövrlərdə xalqın rəğbətini qazanması üçün sırf yenilikçi və maarifçi mövqedən çıxış etməsi, yerli müsəlman türk əhalisinin maarif ənənələrinə hörmətlə yanaşdığını nümayiş etdirməsi heç də təsadüfi deyildi. Lakin XIX əsrin 50-ci illərində Çar Rusiyasının Qafqazdakı təhsil siyasətində etdiyi redaktələr çarizmin müstəmləkəçilik siyasətini tam çılpaqlığı ilə üzə çıxarırdı. XIX əsrin ortalarında Azərbaycanda yeni tipli məktəblər meydana gəldi ki, bunlar da ilk dəfə Qafqaz məktəblərinin 1853-cü il Nizamnaməsi ilə təsis edildi (107, c.2, s.175).

XIX əsrin 60-cı illərinin əvvəllərində Rusiya imperiyasında reallaşdırılan təhsil islahatları Naxçıvandan da yan keçməmişdir. Qeyd edək ki, 1864-cü il iyulun 14-də "İbtidai xalq məktəbləri haqqında əsasnamə", həmin il noyabrın 19-da isə "Gimnaziya və progimnaziyaların nizamnaməsi" təsdiq edilmişdir (107, c.2, s.176). XIX əsrin 30-60-cı illəri ərzində müxtəlif təhsil ocaqlarını bitirmiş müəllim və ziyalılar Naxçıvanda da təhsil prosesinin müxtəlif

mərhələlərinə cəlb olunmağa başladılar. Bu ziyalılar içərisində azərbaycanlılarla yanaşı, Tiflis Aleksandrovsk Müəllimlər İnstitutunun, Kutaisi və İrəvan gimnaziyalarının məzunları olan qeyri-azərbaycanlı maarifçi şəxslər də var idi.

Akademik İsa Həbibbəyli bu barədə yazır: *"Qısa vaxtda Naxçıvan və Ordubad məktəblərində müxtəlif təhsil ocaqlarını bitirmiş qabaqcıl müəllimlər pedaqoji fəaliyyətə qədəm qoymuşdular. Şagirdlərin sayı artmış, məktəb kitabxanaları yaradılmış, rəsm, gimnastika, kənd təsərrüfatı və sənət dərslərinin, hətta latın dili məşğələlərinin keçirilməsinə başlanılmışdı"* (47, s.32).

Bu dövrdə Naxçıvan şəhərindəki qəza məktəbində İ.Kuzanov, K.Çərkəzov, G.Balçevski, İ.Boqolyubov, C.Bodridze və başqa qeyri-azərbaycanlı ziyalılar uzun müddət rus dili, tarix, həndəsə, hesab, hüsnxət, şəriət, rəsmxət fənlərini tədris etmişdilər (88, s.30).

1868-ci ildə Naxçıvanda təhsilin struktur islahatları çərçivəsində daha bir addım atıldı. Belə ki, mövcud qəza məktəbləri ilə yanaşı, Naxçıvan qəza məktəbi də üç əsas sinifli məktəbə çevrildi. Həmin ildə məktəbin tədris planına latın dili və Avropa dilləri (alman, fransız) daxil edildi. Təhsil müddəti hər sinifdə 2 il olmaqla 6 il davam edirdi. Məktəbə 7-14 yaşlı uşaqlar qəbul olunurdu. Bu cür məktəblərdə şəriət, ana dilindən oxu və yazı, rus dili, hesab, rəsmxət, nəğmə, gimnastika, coğrafiya, tarix və təbiətşünaslıq kimi fənlər tədris edilirdi (107, c.2, s.176).

Rusiya Xalq Maarif Nazirliyi 1874-cü il may ayının 24-də "İbtidai xalq məktəbləri haqqında" nizamnaməni təsdiq etdi. Bu nizamnaməyə əsasən şəhər və kəndlərdə ibtidai təhsilin genişlənməsi nəzərdə tutulurdu. Nizamnamənin təsdiqindən sonra 1879-cu il mart ayının 10-da Qafqaz Təhsil Dairəsinin xüsusi sərəncamı oldu (136, s.56). Elə həmin il iyul ayının 1-də üçsinifli Naxçıvan qəza məktəbi Naxçıvan şəhər məktəbinə çevrildi (26, s.74). Rusiya maarif mühitində kifayət qədər tanınmış pedaqoqlardan olan alim Konstantin

Andreyeviç Nikitin (1832-1894) Naxçıvan şəhər məktəbinin direktoru təyin edildi (107, c.2, s.177). XIX əsrin 80-ci illərindən başlayaraq şəhər məktəblərinin Nizamnaməsinə görə maliyyə vəsaitindən və tələbatlarından asılı olaraq məktəbdə oxuyan şagirdlərə müəyyən peşə öyrədilməsinə icazə verildi. Məhz bu qərardan sonra Naxçıvan şəhər məktəbinin nəzdində dülgərlik, xarratlıq, dəmirçilik, çilingərlik və kənd təsərrüfatı şöbələri təşkil edilmişdir ki, bu şöbələrdə də 40 nəfərə yaxın şagird təhsil alırdı. Bu dövrdə Naxçıvan şəhər məktəbi İrəvan quberniyasında fəaliyyət göstərən 5 şəhər məktəbi içərisində sənət şöbəsi olan yeganə məktəb idi (24, s.2). XIX əsrin 80-ci illərində Naxçıvan şəhər məktəbində təhsil almış bir çox şəhər sakinləri barədə kameral siyahılarda da məlumat verilmişdir. Diqqət çəkən məqam ondan ibarətdir ki, müsəlmanlardan əsasən yüksək təbəqəyə aid olan əhali təhsilə cəlb edildiyi halda, köçürülən ermənilər çar hökuməti tərəfindən, demək olar ki, təbəqə fərqi diqqətə alınmadan məktəbə qəbul etdirilir və rusların işinə daha çox yarayan ermənilərin sonradan dövlət idarəsinə qəbulu üçün yol açılmış olurdu. Şəhər məktəbində təhsil ala bilməyən ermənilər isə xüsusi imtiyazla xrisitan təbəə üçün yaradılmış Naxçıvan ruhani məktəbində təhsilə cəlb edilirdilər (237, v.313-320; v.578-579; v.580-588). Bir sıra rus müəllifləri, o cümlədən S.Zelinski Rusiyanın müstəmləkəçilik siyasətinə uyğun olaraq ermənilərə daha çox təhsil verməyə çalışmaqla yanaşı, onların guya daha çox təhsilə meyilli olduqlarını əsaslandırmağa, müsəlmanların – azərbaycanlıların isə guya təhsilə meyilli olmadıqlarını göstərməyə çalışmış, molla məktəbləri və mədrəsələrin mahiyyətini düzgün anlamayaraq hər fürsətdə bu məktəbləri gözdən salmağa çalışmışlar (178, c.7, s.249-251). Təəssüf ki, sovet dövründə və son dövrlərdə yazılan bəzi əsərlərdə də bu fikir daha çox qabardılmağa çalışılmışdır. Lakin azərbaycanlılarla ermənilərin təhsilə münasibəti haqqında belə yanlış yanaşma irəli sürən S.Zelinskinin özünün irəli sürdüyü

statistik rəqəmlər də sübut edir ki, bu fikir yanlışdır. S.Zelinski şəhər məktəbləri ilə bağlı təqdim etdiyi statistikada göstərir ki, XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərində 6 azərbaycanlı ibtidai məktəbi olduğu halda, ermənilərin və rusların hər birinin cəmi bir belə məktəbi olmuşdur (178, c.7, s.252).

Bütün bunlara baxmayaraq, XIX əsr Azərbaycanın maarif tarixində xüsusi yeri olan Naxçıvan şəhər məktəbi Naxçıvanın Azərbaycan mühitinə bəxş etdiyi bir çox şəxsiyyətlərin yetişməsində müstəsna rol oynamışdır. Fyodor Domaşevski, Georgi Uturqauri, Mirzə Sadıq Qulubəyov, Əliməmməd Xəlilov (47, s.58-66), Şürbi Mirzəyev (97, c.2, s. 318-319) və digər tanınmış pedaqoqlar Naxçıvan şəhər məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuşdular. XIX əsrdə Naxçıvanın yetişdirdiyi ən görkəmli pedaqoqlardan biri olan Mirzə Sadıq Mirzəkazım oğlu Qulubəyov məhz Naxçıvan şəhər qəza məktəbini bitirmiş, Kutaisi gimnaziyasında təhsilini davam etdirmişdir. M.Qulubəyov 1853-1870-ci illərə kimi Naxçıvan qəza məktəbində Azərbaycan dili və şəriət dərslərini tədris etmiş və onun fəaliyyəti məktəbin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.

Bu məktəb o dövrə görə zəngin kitabxanaya malik olmuşdur. S.Zelinski XIX əsrin 70-80-ci illərində məktəbin kitabxanasında 844 adda kitabın olması barədə məlumat vermişdir (178, c.7, s.253). Bundan əlavə, məktəbin nəzdində diyarşünaslıq muzeyi, meteoroloji stansiya, nəbatat və mineroloji kabinetləri də fəaliyyət göstərirdi.

XIX əsr rus mənbələrində Naxçıvan mövzusunu tədqiq edən Y.Rəhimov yazır ki, XIX əsrin 70-ci illərindən başlayaraq Naxçıvan bölgəsinin regionlarında dini məktəblərin sayı da artmışdır (120, s.131). Təbii ki, özü-özlüyündə bu fakt maraq doğurmaya bilməz. Bu dövrdə Naxçıvan şəhərində isə müvafiq olaraq 6 müəllimin çalışdığı və 90 şagirdin təhsil aldığı 6 dini məktəb var idi (189, s.38).

XIX əsrin 80-ci illərində Naxçıvan şəhər əhalisinin – ziyalıların təhsil aldıqları əsas təhsil müəssisələrindən biri də İrəvan Seminariyası olmuşdur. 1886-cı ilə aid kameral siyahılarda ağa və bəy Kəngərlilər qollarına məxsus bir çox zadəgan övladlarının məhz bu seminariyada təhsil aldıqları görünməkdədir (237, v.595).

Kameral siyahılarda bəzi şəhər sakinlərinin universitetlərdə təhsil alması ilə bağlı da məlumatlar əksini tapmışdır. Belə şəxslərdən biri olan Cəmşid paşa İsmayıl ağa oğlunun adının qarşısında universitetdə təhsil aldığı göstərilsə də, bu universitetin hansı universitet olduğu qeyd edilməmişdir. Siyahıda bu şəxsin tatar dili ilə yanaşı, rus dilinə də mükəmməl şəkildə bələd olduğu aydınlaşmaqdadır (237, v.599).

1893-cü ildə Naxçıvan şəhərinin təhsil tarixində əlamətdar bir hadisə baş vermişdir. Belə ki, həmin il noyabr ayının 22-24-də "İrəvan quberniyası xalq məktəblərinin sahə qurultayı" Naxçıvan şəhərində keçirilmişdir. Qurultayda "Məktəblərdə müəllimlər heç bir əlavə vəsait sərf etmədən hansı kənd təsərrüfatı məşğələlərini təşkil edə bilərlər?" mövzusunda müzakirələr aparılmışdır. Burada həmçinin Naxçıvan şəhər məktəbində müxtəlif fənlər üzrə keçirilmiş açıq dərslər də müzakirə olunmuşdur (97, c.2, s.159-160). Qurultayda Naxçıvan şəhər məktəbinin müəllimi Nəsrulla Əmirov da çıxış etmişdir. Qurultay məktəblərdə ipəkçiliyin təşkili və inkişaf etdirilməsi ilə bağlı qərar qəbul etmişdir.

Əvvəldə də qeyd etdiyimiz kimi, çar Rusiyasının Qafqazda, o cümlədən Naxçıvanda təhsil siyasəti hər nə qədər insanları öz tarixi köklərindən, milli mənəvi dəyərlərindən ayırmağı qarşısına məqsəd qoysa da, Azərbaycan ziyalıları öz simalarında buna imkan verməmiş, təhsilin verdiyi imkanlardan maksimum yararlanmağa çalışmışlar.

Artıq əsrin sonlarına doğru Azərbaycan ziyalılarının özləri yeni məktəb və maarif modelləri təklif etmək və onları reallaşdırmaqla

adlarını maarif tariximizə qızıl hərflərlə yazdırmış oldular. Belə şəxsiyyətlərdən biri olan Məhəmməd Tağı Sidqinin 1894-cü ildə Naxçıvan şəhərində açdığı "Məktəbi-tərbiyə" adlı tədris ocağı da məhz milli ziyalılarımızın düşündüyü və reallaşdırdığı təhsil layihəsi idi. Qeyd edək ki, Məhəmməd Tağı Sidqi bu tipli məktəbin ilk nümunəsini – "Əxtər"i 1892-ci ildə Ordubad şəhərində təsis etmiş (26, s.285), sonradan isə naxçıvanlı ziyalıların xahişi ilə Naxçıvan şəhərində də məktəb yaratmışdır (107, c.2, s.179). Görkəmli ədib Cəlil Məmmədquluzadə M.T.Sidqinin yaratdığı bu məktəbi yazılarında "təzə türk məktəbi" adlandırmış, məktəbin "türk balalarının təzə üsulla savad və bilik əxz etmələrinə səbəb" olduğunu qeyd etmişdir (107, c.2, s.179). O dövrdə nəşr olunan Qafqaz qəzeti isə məktəbdə "mədəni xalqların ibtidai məktəblərinə xas olan bütün adi fənlər"in keçirildiyini yazmış və məktəbin yerli müsəlman ictimaiyyətinin xərci ilə idarə olunduğundan bəhs etmişdir (107, c.2, s.179). Q.Mədətov yazırdı ki, bu məktəblərdə səs üsulu ilə hazırlanmış əlifbalar, partalar, qlobuslar, sinif yazı taxtaları var idi. M.T.Sidqi məktəb proqramına rus, fars, ərəb dillərinin, tarix, coğrafiya və başqa fənlərin tədrisini əlavə edərək, öz şagirdlərini qabaqcıl rus ədəbiyyatı ilə tanış edirdi (84, s.13). Bu məktəbin özündən əvvəlki məktəblərdən fərqini təhlil edən akademik İsa Həbibbəyli göstərir ki, o vaxta qədər mövcud olan qəza, şəhər, zemstvo və normal məktəblər ana dilinin ancaq bir fənn kimi tədris olunduğu rus məktəbləri idi. XIX əsrin 80-ci illərinin sonlarında meydana çıxmış rus məktəbləri isə anadilli fənlərin bir qədər də genişləndirdiyi rus məktəbləri idi. "Məktəbi-tərbiyə" isə rus dilinin xarici dil kimi tədris olunduğu milli Azərbaycan məktəbi idi (129, s.6). Bu məktəbin binası əvvəllər şəhərin Buzxana məhəlləsindəki binalardan biri olmuş, sonralar isə Came məscidinin həyətində yığılmış ianə hesabına 4 otaqlı məktəb inşa edilmiş və məktəb burada fəaliyyətini davam etdirmişdir (129, s.269). Mənbələrdən aydın olur ki, məktəbin yeni

binası 14 may 1896-cı ildə istifadəyə verilmişdir (129, s.269).

XIX əsrin sonları Naxçıvan şəhərinin tarixində həm də ilk qadın məktəbinin yaradılması ilə əlamətdar olmuşdur. Naxçıvanda azərbaycanlı xanımlar üçün ilk dünyəvi qadın məktəbi də Məhəmməd Tağı Sidqi tərəfindən 1896-cı ildə təsis olunmuşdur (12, c.4, s.351). M.T.Sidqinin təhsil tariximizdəki bu fövqəladə xidmətləri unudulmamış, 11 mart 2004-cü il tarixində "Görkəmli pedaqoq, maarifçi və şair M.T.Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında" Sərəncam imzalamış, Sidqinin irsi akademik İsa Həbibbəyli tərəfindən toplanaraq nəfis şəkildə nəşr edilmişdir (129, s.278).

Beləliklə qeyd edə bilərik ki, XIX əsr Naxçıvan şəhərinin təhsil tarixində dəyişikliklər və yeniliklər mərhələsi olmuşdur. Əsrin əvvəllərində Naxçıvanda əsasən Şərq tipli məktəb və mədrəsələrə əsaslanan təhsil sistemi olmuşdusa, əsrin ortalarından etibarən yaradılan məktəblər Şərq ənənələri ilə yanaşı Qərbi Avropa və Rusiyanın maarif nailiyyətlərindən də müəyyən müsbət çalarlar əxz etmişdir.

### *3.4. Naxçıvan şəhərinin elmi həyatı, ictimai fikrin inkişafı prosesləri*

Təhsil sahəsində qeyd etdiyimiz dəyişikliklərlə bağlı fikirlərimizin Naxçıvan şəhərində elmi mühitin inkişafı prosesini izah edərkən də analogiyasını aparmaq mümkündür. Belə ki, Naxçıvanın Rusiya tərəfindən işğalına qədərki dövrdə naxçıvanlı alimlərin elmi yaradıcılığında batini və irfani elmlər üstünlük təşkil edirdi. Hətta XIX əsrin 60-cı illərində Naxçıvan şəhəri üzrə adları qeydə alınmış müsəlman ruhaniləri arasında belə batini elmlərin sirlərinə vaqif olan, elm və irfan sahibi yüksəktitullu bir sıra şəxslərin adları qeydə

alınmışdır. K.Smirnov Naxçıvan bölgəsində yaşamış batini və irfani elmlərlə məşğul olmuş bəzi üləmaların adlarını öz əsərində qeyd etmiş və onlar barədə məlumat vermişdir (224, s.48). 1860-cı ilə aid Naxçıvan şəhərində yaşayan xan, bəy və müsəlman ruhanilərinin siyahısında adı çəkilən belə şəxslərdən biri Şeyxülislam Molla Əli Molla Tahir oğludur. 45 yaşında şeyxülsilam titulunu daşıması adıçəkilən şəxsin yüksək dini və irfani bilgilərə sahib olmasının göstəricisi hesab edilə bilər (237, s.618). K.Smirnov onun adını mücdəhid Şeyx Əli Naxçıvani olaraq göstərmişdir. Qeyd etmək lazımdır ki, XIX əsrin ortalarına qədər Naxçıvanın dini fitvalar verə bilən müctəhidinin olması xüsusi bir hal idi. Sonralar Knyaz Vorontsovun xüsusi tapşırığı ilə bu alim Tiflisə dəvət edilmiş və Tiflisdə yaşaması tövsiyə olunmuşdur. Şeyx Əli Naxçıvani dini və irfani elmlərlə yanaşı, riyaziyyat elmi ilə məşğul olmuşdur (224, s.48). Onun oğlu Hacı Şeyx Məhəmməd Naxçıvani də müctəhid olmuş və rus istilasında olan vətəninə dönməyərək Nəcəfdə yaşamışdır. Şeyx Məhəmməd Naxçıvani özü vətənə qayıtmasa da Naxçıvan üçün dövrünün görkəmli alimlərindən və din adamlarından biri olan Şeyx Əbdülkərim Naxçıvanini yetişdirmişdir.

XIX əsrin sonlarında Nəcəfdə yaşamış məşhur naxçıvanlı alimlərdən biri Ağa Şeyx Məhəmməd Əli Hacı Xudadat Naxçıvani oğlu olmuşdur (224, s.48). O da bir sıra fiqhi əsərlər yazmış və əsərləri İran və Azərbaycanda vaxtilə çox məşhur olmuşdur.

Rusiya işğalından sonrakı dövrdə isə daha çox dünyəvi və tətbiqi elmlər inkişaf etməyə başladı. Humanitar və sosial elmlər sahəsində mövcud olan romantizm və təzkirəçilik ənənələri realist ənənələrlə əvəzlənməyə başladı. Elmi əsərlərin dili də ərəb-farscadan ruscaya doğru dəyişməyə başlamışdı. Bu mənada XIX əsrin 30-70-ci illəri arasındakı dövrü, ümumilikdə, Azərbaycan elmi üçün keçid dövrü hesab etmək mümkündür. XIX əsrin yetmiş-səksəninci illərindən etibarən Avropada, Rusiyada, Qafqazın siyasi və mədəni

mərkəzi sayılan Tiflisdə təhsil alıb qayıtmış ziyalıların ölkə ictimai-maarifçi mühitində özünəməxsus yer tutması ilə elmi mühitdə də yeni istiqamətlər və dəyərlər oturuşmuş oldu.

Artıq XIX əsrin 70-ci illərindən etibarən Avropada təhsil almış Məhəmməd ağa Şahtaxtılı, Moskva Universitetini bitirmiş Fərəculla Şeyxov, Nəsrulla Şeyxov, Cəlil Səfiyev, Qori Müəllimlər Seminariyasının məzunları Cəlil Məmmədquluzadə, Mirzə Əliməmməd Xəlilov, Mirzə Ələkbər Süleymanov, Əbülqasım Sultanov, Novorossiysk İmperator Universitetinin məzunu Paşa ağa Sultanov, Xarkov Universitetindən məzun olmuş Ələkbər Məmmədxanov və başqalarının fəaliyyəti Naxçıvanda yeni maarifçi elmi dünyagörüşün formalaşmasında mühüm rol oynamışdır (107, c.2, s.180).

Bəhs olunan dövrdə Naxçıvanda elmi fikrin inkişafından bəhs edərkən xatırlamalı olduğumuz əsas şəxsiyyətlərdən biri Məhəmməd ağa Şahtaxtlıdır (1846-1931). Dövrünün görkəmli aydınlarından biri olan M.Şahtaxtlı həm Şərq, həm də Qərb elmi mühitinin nailiyyətlərini mənimsəmiş, bu isə onun hərtərəfli elm xadimi kimi yetişməsində əhəmiyyətli rol oynamışdır. O, rus, alman, fransız, ərəb, fars, yunan dilləri ilə yanaşı, qədim pəhləvi, zənd və latın dillərinə də bələd olmuşdur (43, s.7; 167, s.8). Hələ Naxçıvan şəhərində mədrəsə təhsili aldığı illərdə Şərqin elm və ədəbiyyat dilləri sayılan ərəb və fars dillərini mükəmməl şəkildə mənimsəmiş, ibtidai məktəbi bitirdikdən sonra Tiflis klassik gimnaziyasının məzunu olmuşdur. Avropanın o dövr üçün ən məşhur elmi mərkəzləri sayılan Almaniyanın Leypsiq Universitetinin tarix, fəlsəfə və hüquq fakültəsində, sonra isə Fransanın məşhur Sorbon Universitetindəki Ali Təcrübi Məktəbdə Qərb dünyasının elmi nailiyyətləri ilə tanış olmuşdur. Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. XIX əsrin 70-ci illərində dərc etdirdiyi ilk məqalələrində liberal xalqçılığın təsirləri duyulmaqdadır (97, c.2, s.297).

Görkəmli maarifçinin 1879-cu ildə Tiflisdə “Tomson” mətbəəsində çap etdirdiyi “Təkmilləşdirilmiş Azərbaycan əlifbası” layihəsi də tarixşünaslığımızda “elmi sistemə malik olan əhəmiyyətli hadisə” kimi qiymətləndirilməkdədir (107, c.2, s. 182).

Ümumdünya Coğrafiya Cəmiyyətinin Paris konfransının iştirakçısı, Beynəlxalq Fonetika Cəmiyyətinin və Asiya Cəmiyyətinin üzvü kimi böyük yol keçmiş Məhəmməd ağa Şahtaxtlının Fransa, Rusiya və Qafqaz mətbuatındakı məqalələrində elmi baxış qabarıq şəkildə ifadə olunmuşdur (107, c.2, s.181). Onun Tiflisdə rus dilində çıxan “Qafqaz” qəzetində 1882-ci ildə çap olunmuş “Müsəlmanlarda məktəb həyatı” adlı məqalələr silsiləsini Şərq təhsil sistemi, dil və əlifba islahatları, tarix, ədəbiyyat və maarifinin əsaslarını elmi şəkildə açan sanballı tədqiqat əsəri hesab etmək olar. M. Şahtaxtlının “Konstantinopoldan məktublar” silsilə məqalələri isə ciddi politoloji təhlilləri ilə seçilir. Dövrün siyasi proseslərinə elmi politoloji yanaşmanı ortaya qoyan bu yazılar siyasət nəzəriyyəçiləri üçün qiymətli mənbə hesab edilə bilər.

Bütün bunlarla yanaşı, şəksiz ki, M.Şahtaxtlının müəllifi olduğu əsərlər içərisində “Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı” məqaləsi ən ümdə yerlərdən birini tutur. Əsər mahiyyətcə həm etnogenoloji, həm tarixi, həm də politoloji əhəmiyyətə malikdir. Məqalənin başlığı kimi seçilmiş sualın cavabını elmi şəkildə açıqlamağa çalışan müəllifin gəldiyi qənaət belədir: *“Zaqafqaziya müsəlmanlarını azərbaycanlılar, onun dilini isə Azərbaycan dili adlandırmaq çox yerinə düşərdi. Böyük bir hissəsi İrandan Rusiyanın payına düşmüş Azərbaycan mahalı – indiki Zaqafqaziyadır, əhalisi də türk xalqıdır.*

*Onları həm Şərq yazıçıları, eləcə də Avropa coğrafiyaçıları və etnoqrafları başqa adla yox, ancaq Azərbaycan türkləri adlandırırlar. Gündəlik həyatımızda xalqın adını və onun dilinin adını iki sözlə ifadə etmək rahat deyil. Məsələn, azərbaycanlı türk dili... Ona*

*görə də Zaqafqaziya müsəlmanlarını azərbaycanlı, Zaqafqaziya türk dilini isə tatar dili əvəzinə Azərbaycan dili adlandırmaq məqsədəuyğun olardı"* (130).

O, əlifba islahatları sahəsindəki fəaliyyətini 1902-1903-cü illərdə də davam etdirmişdir. Akademik İsa Həbibbəyli yazır ki, M.Şahtaxtlı Azərbaycan, rus və fransız dillərində 5 kitab çap etdirmişdir (48, s.149).

Məhmməd Tağı Sidqi XIX əsr təhsil sahəsində olduğu kimi, elmi pedaqoji fikir tariximizdə də özünəməxsus iz qoymuşdur. Bədii əsərlərindən birində "Dinü-dünyanı elm edər abad" deyən M.T.Sidqi bir sıra elmi əsərlərin də müəllifi olmuşdur.

Onun müəllifi olduğu "Nümuneyi-əxlaq" əsəri o dövrün ən mükəmməl pedaqogika dərsliklərindən biri hesab edilə bilər. Əsərdə müxtəlif pedaqoji istilahların elmi mahiyyəti açıqlanmışdır (129, s.65-66). Müəllifin "Heykəli-insanə bir nəzər" əsəri isə tarixşünaslığımızda həm pedaqoji, həm də fəlsəfi əsər kimi qiymətləndirilir (107, c.2, s.183). İ.Həbibbəyli yazır ki, bu ədəbi-fəlsəfi traktatda müəllifin həyat və cəmiyyət, ictimai-mədəni tərəqqi haqqındakı fikir və düşüncələri əks etdirilmişdir. Sidqinin insanın formalaşması və bəşər cəmiyyətinin keçdiyi inkişaf mərhələləri haqqındakı elmi mülahizələri öz dövrü üçün yeni və cəlbedici olmuşdur (129, s.14).

Sidqinin rus şairi Aleksandr Sergeyeviç Puşkinin yaradıcılığına həsr olunmuş və 1912-ci ildə Bakıda "Kaspi" mətbəəsində kitab halında nəşr olunmuş məruzəsi isə ciddi bir ədəbiyyatşünaslıq əsəri hesab edilə bilər. Bu əsərlə tanış olduqdan sonra belə bir qənaətə gəlmək mümkündür ki, Məhəmməd Tağı Sidqi nəinki A.S.Puşkinin eləcə də Firdovsi, Hafiz, N.Karamzin, İ.Krılov, A.Qriboyedov, M.Lermontov, V.Şekspir, Volter kimi dünya nəhənglərinin ədəbi və fəlsəfi yaradıcılığı ilə tanış olmuşdur (129, s.130).

Sidqinin "Töhfeyi-benat, yainki qızlara hədiyyə", "Nəsihətnamə" əsərlərini də ciddi pedaqoji və didaktik əsərlər kimi qiymət-

ləndirmək mümkündür.

Onun "Müxtəsər coğrafiya risaləsi" adlı əsəri isə coğrafiya sahəsində XIX əsr Azərbaycanında qələmə alınmış ciddi elmi əhəmiyyətə malik dərsliklərdən biridir. Əsərin yazılması zamanı müəllif Osmanlı və rus qaynaqlarından da geniş şəkildə istifadə etmişdir (129, s.277). Əsərdə yerin ölçüləri, Yerin təbii peyki olan Ayın Yer planeti ətrafında hərəkəti, kartoqrafik təsvirlər, coğrafi cəhətlər və bunların xəritə üzərində əks etdirilməsi ilə bağlı mühüm məlumatlar verilmişdir (129, s.140-142). M.T.Sidqi o dövrdə insanlara məlum olan 5 qitə haqqında (Avropa, Asiya, Afrika, Amerika, Avstraliya və ya Okyanusiya) məlumat vermiş, okeanlardan bəhs etmişdir. M.T.Sidqinin bu coğrafi əsərində 4 deyil, 5 dünya okeanından bəhs edilmişdir. 5 böyük dünya okeanını M.T.Sidqi bu cür təqdim edir: 1) Bəhri-mühiti-Atlasi (Atlantik okeanı), 2) Bəhri-mühiti-Kəbiri (Böyük okean və ya Sakit okean), 3) Bəhri-mühiti-Hindi (Hind okeanı), 4) Bəhri-mühiti-Müncəmidi-şimali (Şimal Buzlu okean), 5) Bəhri-mühiti-Müncəmidi-cənubi (Cənub okeanı) (129, s.143). Bu əsərdə müəllif həm də ayrı-ayrı qitələrin siyasi coğrafiyasından bəhs etmiş, mövcud olan ölkələr, onların iri yaşayış məntəqələri haqqında məlumat vermişdir. Coğrafi əsərdə dünyanın çayları, körfəzləri, gölləri, adaları haqqında maraqlı məlumatlar verilmişdir.

XIX əsrdə Naxçıvan şəhərində dilçilik və lüğətçilik sahəsində xüsusi xidmətləri olan elm adamlarından biri Cümşüd Paşa İsmayıl oğlu Sultanov-Kəngərli olmuşdur. O, orta təhsilini Naxçıvanda almış, ərəb, fars və rus dillərini mükəmməl şəkildə öyrənmişdir. Sonralar Paris Universitetinin hüquqşünaslıq fakültəsini bitirmiş, bir müddət hüquqşünas işləmiş, Parisdə olarkən fransız dili ilə yanaşı alman dilini də öyrənmişdir. Vətənə qayıtdıqdan sonra uzun müddət Naxçıvan şəhərində hüquqşünas kimi fəaliyyət göstərmişdir. Lakin cəhalət və mövhumata qarşı mübarizə, xalqın maariflənməsi uğrunda fəaliyyət onun düşmənlərini artırmış, nəticədə dövlət

qulluğundan uzaqlaşaraq, bildiyi dillər əsasında lüğət tərtib etmişdir (96, c.1, s.290). Cümşüd Paşa Sultanovun bu lüğətini professor Abbas Zamanov Tiflis kitabxanalarından birindən təsadüfən əldə etmiş və elm aləminə təqdim etmişdir.

Bu dövrdə Naxçıvanda elmi mühitin inkişafında və elmi əsərlərin meydana çıxmasında Naxçıvan şəhər məktəbinin xüsusi rolu olmuşdur. Bu məktəbdə müəllimlik fəaliyyəti göstərən Qori Seminariyasının məzunu Əliməmməd Xəlilovun və məktəbin nəzarətçisi Konstantin Nikitinin 1881-1882-ci illərdə yazdıqları "Naxçıvan şəhərinin metroloji müşahidə gündəliyi" əsəri coğrafiya, iqlimşünaslıq və diyarşünaslıq – Naxçıvanşünaslıq sahəsində maraqlı əsərlərdən biri hesab edilə bilər. Əsərdə müəlliflərin müxtəlif metodlardan, xüsusilə müqayisəli təhlil metodundan geniş şəkildə istifadə etmələri əsərin elmi əhəmiyyətini daha da artıran məqamlardandır. Yerli təbiət hadisələrinin elmi şəkildə öyrənilməsində Bulqan hərbi hissəsinin həkimi N.A.Fyodrovun apardığı elmi tədqiqatlar bu istiqamətdə atılmış ilk addımlardan biri hesab edilə bilər (46, s.122).

XIX əsrdə Naxçıvanda folklor nümunələrinin toplanılması, onların elmi tədqiqata cəlb olunması istiqamətində də bir sıra işlər görülmüşdür. Eynəli bəy Sultanovun "Azərbaycan atalar sözləri" adlı əsəri bu sahədə qiymətli əsərlərdən biri hesab edilə bilər. Bundan başqa, öz dövrünün görkəmli şəxsiyyəti olmuş E.Sultanovun "Azərbaycanlılar nə oxuyurlar", "Qleb Uspenski Qafqazda", "Şahtaxtinski və Şərq fonetik əlifbası" əsərləri də ciddi elmi əhəmiyyətə malik əsərlərdir.

XIX əsrin sonlarında Naxçıvanda seçilən maarif və elm xadimlərindən biri Kərim bəy İsmayılov olmuşdur. O, 1890-cı ildə Qori Müəllimlər Seminariyasını bitirmiş, 1892-1893-cü illərdə Cəlil Məmmədquluzadənin müdir olduğu Nehrəm məktəbində müəllimlik etmişdir. O, "Hesab" dərsliyi hazırlamışdır. Onun "Nehrəm kəndi" adlı tarixi-etnoqrafik oçerki Tiflisdə nəşr edilən "Qafqaz ölkəsi

və tayfalarını öyrənmək üçün materiallar" məcmuəsində nəşr edilmişdir (107, c.2, s.277). Bu məqalədə bölgənin coğrafiyasına dair çox mühüm məlumatlar əksini tapmışdır (107, c.2, s.185).

XIX əsrdə Naxçıvanın Rusiya tərəfindən işğalından sonra bölgəyə xarici tədqiqatçıların, xüsusən rus müəlliflərinin marağı daha da artmış və bu dövrdə Naxçıvanşünaslıq sahəsində mühüm əsərlər meydana çıxmışdır. Bu əsərlər əksər hallarda rus imperializminə xidmət etsə də, bir çox hallarda tarixi faktları müəlliflərin şəxsi təəssübünün və mövqeyinin təsiri altında təhrifə uğratsa da bir sıra məsələlərin öyrənilməsi baxımından qiymətli qaynaqlardır.

Naxçıvanın tarixi, etnoqrafiyası, demoqrafiyası, coğrafiyasının öyrənilməsi üçün əhəmiyyətli diyarşünaslıq əsərlərindən biri V.Qriqoryevin "Naxçıvan əyalətinin statistik təsviri" adlı əseridir. Əsər bu gün də Naxçıvanın XIX əsr tarixinin öyrənilməsi üçün ən əhəmiyyətli qaynaqlardan biri hesab edilir.

Yuxarıda adını təhsil işçisi və coğrafi tədqiqatlar müəllifi kimi çəkdiyimiz Konstantin Andreyeviç Nikitin (1812-1894) də Naxçıvan tarixinə dair qiymətli bir məqalə yazmışdır. Onun "Naxçıvan mahalı və Naxçıvan qəzası" adlı geniş həcmliəsəri "Qafqaz ölkəsini və tayfalarını öyrənmə materialları" məcmuəsində (СМОМПК) çap edilmişdir. Əsərdə Naxçıvanın tarixi, tarixi coğrafiyası, memarlıq abidələri haqqında geniş məlumat verilmişdir (198, s.109-142).

Məşhur kolleksiyaçı, əczaçı Şovits Naxçıvanın florasının öyrənilməsi istiqamətində maraqlı tədqiqatlar aparmışdır. O, 1829-cu ilin iyun ayında Zəngəzur dağlarından keçməklə Naxçıvan şəhərinə gəlmiş və xeyli miqdarda yeni bitki növü müəyyən etmişdir (13, s.9).

1830-cu ildə Q.Voskoboynikov Naxçıvan duz mədənini tədqiq edərək "Naxçıvan daş duzunun təsviri" adlı əsərini yazmışdır (166, s.102-114). Bununla yanaşı o, Naxçıvandakı mineral sular,

Darıdağ mərgümüşlü bulağı haqqında da məqalələr yazmış və onları dərc etdirmişdir.

XIX əsrin ortalarında Naxçıvanda olmuş K.V.Abix Naxçıvanın faydalı qazıntıları, mineral sularını öyrənmiş, 1857-ci ildə Naxçıvan şəhərinin yaxınlığında yerləşən daşduz mədəni, 1860-cı ildə isə Darıdağın mərgümüşlü bulaqları haqqında məlumat vermişdir (13, s.10).

Duzdağ mədənləri və Darıdağ bulaqları 1868-1869-cu illərdə Sulikidze, Arxipov, Xalatov tərəfindən tədqiq edilmiş və onların əsərlərində şərh olunmuşdur (13, s.10).

Məşhur təbiətşünas, səyyah və etnoqraf Q.İ.Radde 1871-ci ildə Naxçıvan şəhərində olmuş, bölgədən keçərkən heyvanat və bitki aləminə, həmçinin etnoqrafiyaya dair geniş kolleksiya toplamışdır (13, s.10). Tədqiqatçının topladığı materiallar sonralar Tbilisidəki Qafqaz Muzeyində nümayiş etdirilmişdir. Naxçıvan şəhəri yaxınlığındakı Daşduz yatağı 1873-cü ildə Valberq tərəfindən də öyrənilmiş və təsvir edilmişdir.

XIX əsrin 70-ci illərində Naxçıvan şəhər məktəbində müəllimlik etmiş S.P.Zelinski həm də folklorşünaslıq və dilçiliyə dair tədqiqatlar aparmışdır. Onun СМОМПК məcmuəsində 1881-ci ildə nəşr edilmiş "İrandan köçürülmüş və Naxçıvan qəzasında yaşayan ermənilərin məişəti haqqında etnoqrafik oçerklər" əsəri Naxçıvan şəhərinin XIX əsr tarixinə və etnoqrafiyasına dair məlumat verən mühüm mənbələrdən biridir. S.P.Zelinskinin əsərinin əhəmiyyəti ondan ibarətdir ki, burada ermənilərin bölgəyə köçürülmə olması faktı dəfələrlə vurğulanmışdır. Əsərin mənfi cəhəti isə ondan ibarət olmuşdur ki, Zelinski bir sıra azərbaycanlı-türk adət-ənənələrini ermənilərin adına yazmışdır. Fikrimizcə, bu daha çox yerli əhalinin adət və ənənələrini mənimsəmiş ermənilərin bu adət-ənənələri öz adətləri kimi təqdim etmək istəyinin nəticəsidir. Bu əsərdən əlavə, S.Zelinski dilçilik sahəsində mühüm addımlardan biri hesab edə

biləcəyimiz "Tatar, gürcü və erməni dillərinin izahlı lüğəti"ni hazırlamış və bu lüğəti 1889-cu ildə Tiflisdə nəşr etdirmişdir (49, s.120). Onun 1874-cü ildə "Qafqaz" qəzetinin 63-cü nömrəsində çap edilmiş "Naxçıvan qəzası əyalət məktəbinin gündəliyindən" adlı məqaləsini də XIX əsr Naxçıvan şəhərinin elmi pedaqoji fikir tarixinə aid mühüm məqalələrdən biri hesab etmək olar.

XIX əsrin sonlarında bölgəyə maraq daha da artmış, 1890-cı ildə akademik V.İ.Lipski, 1895-ci ildə A.A.Lomakin, 1896-1898-ci illərdə B.Q.Levandovski Naxçıvan ərazisində olmuş və böyük kolleksiyalar toplamışlar (13, s.10). 1895-ci ildə şəhərdən 12 kilometr cənubda Araz çayının sahilində Qızılburun adlanan yerdə təsərrüfat işləri zamanı boyalı gil qab nümunələrinin tapılmasından sonra ərazidə arxeoloji tədqiqat işlərinə başlanılmışdır. Belə ki, 1896-cı ildə İmperator Arxeoloji Komissiyasının tapşırığı ilə həvəskar arxeoloq N.V.Fedorov Qızılburun ərazisində arxeoloji qazıntı işləri aparmışdır (86, s.16). Qazıntı işləri zamanı N.V.Fedorovun ən mühüm tapıntılarından biri kişi insan heykəli ilə bağlı olmuşdur. Belə ki, kişi heykəli təqribən 20 sm. hündürlükdə olmuş, onun başında uzunsov papaq, əynində çuxaya oxşar geyim, belində isə qurşaq təsvir olunmuşdur. Heykəl cəhrayı rəngli yerli gildən hazırlanmış və eramızdan əvvəl II minilliyin axırlarına aid edilmişdi (86, s.17-18). Ehtimal ki, heykəldə təsvir olunan şəxs bir sıra qaynaqlarda "şişpapaqlar" kimi təsvir edilən sak tayfalarının bir nümayəndəsi olmuşdur.

Nəticə olaraq qeyd edə bilərik ki, Naxçıvan elmi mühitindəki bu canlanma XX əsrin əvvəllərində də yüksələn xətlə davam etmiş, xüsusən sovet hakimiyyətinin qurulmasından sonrakı dövrdə Naxçıvan şəhəri elmi tədqiqatların episentr nöqtələrindən birinə çevrilmişdir.

**Mətbuat.** XIX əsr Azərbaycan tarixində həm də mətbuatın inkişaf dövrü kimi yaddaqalan olmuşdur. Bizə qədərki tədqiqatlarla

tanışlığımız göstərir ki, XIX əsrdə Naxçıvan şəhərində mətbu orqanların yayım durumu ilə bağlı tədqiqatlar aparılmamışdır. Arxiv materialları sübut edir ki, XIX əsrin 60-cı illərində Naxçıvan şəhərində bir sıra rusdilli qəzet və jurnallar yayılırdı. Rus tədqiqatçısı İ.Y.Semyenov Ermənistan Dövlət Arxivində saxlanan sənədlər əsasında XIX əsrin 60-cı illərində İrəvan quberniyasının ayrı-ayrı məntəqələrində rusdilli jurnal və qəzetlərə abunəliklərlə bağlı cədvəl təqdim etmişdir. Cədvəl əsasında müəyyən etdik ki, 1865-ci ildə Naxçıvan şəhərində "Russkiy vestnik" ("Rus xəbərləri"), "Oteçestvennie zapiski" ("Yurddan qeydlər"), "İskra" ("Qığılcım"), "Voskresniy dosuq" ("Bazar asudəliyi"), "Uçitel" ("Müəllim"), "Qornıy jurnal" ("Dağ dərgisi") adlı jurnallar, "Kavkaz" ("Qafqaz"), "Birjevıe vedimosti" ("Birja şərhləri"), "Senatskie vedimosti" ("Senat şərhləri"), "Qolos" ("Səs"), "Narodnaya qazeta" ("Xalq qəzeti"), "Veçernyaya qazeta" ("Axşam qəzeti"), "Sovremenniy listok" ("Müasir səhifə") qəzetləri olmaqla, ümumilikdə, 13 qəzet və jurnala 34 abunəlik mövcud olmuşdur (222, s.62). Naxçıvan şəhərində xüsusən maraq göstərilən qəzetlərdən biri "Kavkaz" qəzeti olmuşdur. Bunun əsas səbəbi, fikrimizcə, qəzet səhifələrində Naxçıvanla bağlı məsələlərə geniş yer verilməsi ilə bağlı olmuşdur. Tədqiqatçı Zəhmət Şahverdiyev yazır ki, 1850-ci illərin sonlarından başlayaraq "Kavkaz" qəzetinin səhifələrində Naxçıvan haqqında xüsusi materiallar çap olunmağa başlamış, bu materiallarda Naxçıvan və Ordubad şəhərləri, Naxçıvanın ayrı-ayrı yaşayış məskənləri haqqında bəhs edilmişdir (132, s.15).

AMEA Əlyazmalar İnstitutunun fondunda saxlanılan Məhəmməd Tağı Sidqinin oğlu Sidqi Səfərovun "Tərcümeyi-halım" adlı avtobioqrafik əsərində verilən məlumatlar isə sübut edir ki, bu dövrdə Naxçıvan və Ordubad şəhərlərində nəinki Rusiya mətbuatı, hətta Osmanlı imperatorluğu və Qacarlar dövrlərində nəşr edilən qəzetlər də yerli ziyalılar tərəfindən mütəmadi olaraq izlənilirmiş.

Hətta naxçıvanlı ədib və fikir adamlarının Kəlküttədə nəşr edilən "Həblül-mətin", Tehranda çap olunan "Əxtər", "Sürəyyə", "Pərvəriş", Bağçasarayda çıxan "Tərcüman", Misirdə nəşr edilən "əl-Hilal" qəzetləri ilə əməkdaşlıq etmələri barədə də məlumatlar vardır (129, s.7, 270). Məsələn, M.T.Sidqinin "Məktəbi-tərbiyə"si üçün 1898-1899-cu tədris ilində 24 manatlıq "ruznamə və jurnal" alınmışdı.

### *3.5. XIX əsr Naxçıvan şəhərində ədəbi mühit, incəsənət və teatrın inkişafı*

XIX əsrdə Naxçıvan şəhəri Azərbaycanda ədəbi mühitin əsas mərkəzlərindən biri hesab edilirdi. Azərbaycan ədəbiyyatında maarifçi realizmə keçidin əsas hərəkətverici qüvvəsi məhz bu şəhərdə formalaşırdı. Bu dövr Azərbaycan ədəbiyyatında yeniləşmə prosesləri orta əsrlər klassik ədəbi ənənələrinin, təzkirəçiliyin, nəzirəçiliyin arxa plana keçirilməsi və maarifçi-realist ədəbiyyatın meydanının genişləndirilməsi uğrunda mübarizənin daha da qüvvətlənməsinə yol açmışdır. Lakin, ümumilikdə, bütövlükdə Azərbaycan ədəbi mühitində olduğu kimi, Naxçıvan ədəbi mühitində də klassik ədəbi ənənə ikinci planda olsa da, xeyli dərəcədə zəifləsə də, yaşamışdır. Yəni XIX əsrin müxtəlif mərhələlərində Naxçıvanda yaşayıb-yaratmış sənətkarların bir qismi klassik poeziya ənənələrini davam etdirmişlər (107, c.2, s.187).

Əsərlərində klassik poeziya ənənələrini davam etdirən Naxçıvanda yaşamış şairlərimizdən biri Heyran xanım Dümbüli (1794-1860) olmuşdur. O, Kərimxan Dümbülinin ailəsində dünyaya göz açmış, ilk təhsilini Naxçıvan şəhərində almışdır. Rusiya ilə Qacarlar dövləti arasında baş verən müharibələr zamanı Naxçıvanı tərk edən ailələrdən biri də məhz Heyran xanımın ailəsi olmuşdur (96, c.1, s.229). Onun yaradıcılığına aid olan ədəbi nümunələrin əksəriyyəti

qəzəl janrındadır. Onun şeirlərində şəxsi kədər və hicran motivləri ilə yanaşı, ictimai kədər motivləri də əksini tapmışdır. Şairənin öz əli ilə tərtib etdiyi "Divan"ı dövrümüzədək gəlib çatmışdır (96, c.1, s.229). Şairə həm də ud musiqi alətində mükəmməl ifa etmə qabiliyyətinə sahib olmuşdur.

XIX əsr Azərbaycan ədəbi mühitindən bəhs edərkən ən mühüm məsələlərdən biri ədəbi məclislərdir. Dövrün ədiblərini, ziyalılarını birləşdirən bu cür ədəbi məclislər ədəbi əsərlərin keyfiyyət baxımından yüksəlməsinə, onların daha da zənginləşməsinə ciddi təsir göstərirdi. XIX əsrin I yarısında Naxçıvanda fəaliyyət göstərən "Qönçeyi-ülfət" ədəbi məclisi də məhz belə məclislərdən biri olmuşdur. Ədəbi məclis şairə Qönçəbəyimin şərəfinə təşkil olunmuşdur (96, c.1, s.347). "Qönçeyi-ülfət" ədəbi məclisində Naxçıvanda yaşayıb-yaradan sənətkarlarla yanaşı, o zaman burada rəsmi vəzifədə çalışmış gürcü şairi Nikolos Barataşvili də iştirak etmişdir (107, c.2, s.188). Öz dövrünün romantik söz adamlarından biri olan şairə Qönçəbəyimin yaradıcılığından bəhs edən akademik İsa Həbibbəyli yazır ki, Qönçəbəyimin şeirlərində dövrün gərdişindən şikayət, xalqın ülvi keyfiyyətlərinə ehtiram sədaları ucalır (51, s.7). Qönçəbəyimin həyatı və yaradıcılığı ilə bağlı hələ sovet dövründə M.Nəsirli "Barataşvili və Qönçəbəyim" adlı məqaləsində məlumat vermişdir (113). Uzun müddət tədqiqatçılar Qönçəbəyimi yerli hakim Ehsan xan Naxçıvanskinin qızı kimi təqdim etmişlər (96, c.1, s.347-348). Ə.Cəfərzadənin tərtib etdiyi 1991-ci ildə nəşr edilmiş "Azərbaycanın aşıq və şair qadınları" kitabında da (Kitab 2005-ci ildə "Azərbaycan qadın şairləri antologiyası" adı ilə yenidən nəşr edilmişdir.) Qönçəbəyimin Ehsan xanın ailəsində anadan olduğu yazılmışdır (9, s.58). Tədqiqatçı Şəmistan Nəzərli Qönçəbəyimi Kalbalı xan Naxçıvanskinin bacısı, yəni Ehsan xanın qızı kimi təqdim etmişdir (114, s.11). Lakin 1831-ci ilə aid Naxçıvanın kameral siyahılarında Ehsan xanın ailə üzvləri ilə bağlı tədqiqat aparan tarixçi

Musa Quliyev yazır ki, şairə Qönçəbəyimin adı Ehsan xanın övladları sırasında yoxdur (79, s.147-148). Nikolos Barataşvilinin Tiflisə yazdığı məktublarında onu "xan qızı" olaraq təsvir etdiyini, lakin adının Ehsan xanın ailə üzvləri sırasında olmadığını nəzərə alsaq, belə bir fikir irəli sürmək olar ki, o, Ehsan xanın olmasa da, nəsli xan titulu daşıyan Kəngərli xanlarından birinin qızı olmuşdur. Çünki dövrün şərtlərinə görə də sıradan bir qadının ictimai həyata belə geniş şəkildə qoşulması, ədəbi məclis təşkil etməsi statuslu bir ailənin övladı olmadan qeyri-real görünür.

XIX əsrdə Naxçıvan şəhərində fəaliyyət göstərən Məhəmməd Tağı Sidqinin "Tərbiyə" məktəbi də ədəbiyyatımıza yeni nəfəslərin gəlməsində mühüm rol oynamış, Azərbaycanın gələcək bir sıra ədəbi simaları məhz bu məktəbdə təhsil almışdılar. Onların sırasında Hüseyn Cavid, Əli Səbri Qasımov, Əziz Şərif, Rza Təhmasib, Əliqulu Qəmküsar kimi görkəmli ədiblərin və dramaturqların adlarını qeyd etmək olar.

Elmi-pedaqoji fikir tarixində mühüm xidmətləri olmuş Məhəmməd Tağı Sidqinin ədəbiyyatımızda da özünəməxsus rolu olmuşdur. O, ədəbi əsərlərinin bir çoxunu Naxçıvan şəhərində yaşadığı dövrdə qələmə almışdır. Onun klassik üslubda yazılmış ədəbi əsərlərində maarifçi-realist ideyaların əksini tapması keçid dövrü üçün Azərbaycan ədəbiyyatının xarakterini ən mükəmməl şəkildə ifadə etməkdədir.

M.T.Sidqinin ən maraqlı əsərlərindən biri sayılan "Şikayətnamə" qəzəli ictimai məzmun daşıyır. Ədibin elmi yaradıcılığında olduğu kimi, bədii yaradıcılığında da tərbiyələndirici, didaktik mahiyyət özünü qabarıq şəkildə göstərir. Şairin "Elmin şərafəti", "Məhəmmədəliyə nəsihət", "Məktəbdə", "Dərsə diqqət", "Yüz il yatandan sonra" və sair şeirlərində maarifçi ideyalar əksini tapmışdır.

Məhəmməd Tağı Sidqinin "Kəblə Nəsir" mənzum hekayəti

isə Azərbaycan ədəbiyyatında "dərs-hekayət" formasında yazılmış orijinal uşaq ədəbiyyatı nümunəsidir (107, c.2, s.191). Əsərdə avamlıq, cəhalət, fanatizm tənqid edilmiş, cəhalətin aradan qaldırılması yolunun təhsil və bilikdən keçdiyi göstərilmişdir.

Azərbaycan ədəbiyyatında uşaq nəsrinin ilk nümunələri də məhz XIX əsr Naxçıvan ədəbi mühitində meydana çıxmışdır. Azərbaycan uşaq nəsrinin ilk nümunələri sayıla bilən kiçik hekayələri də məhz Məhəmməd Tağı Sidqi qələmə almışdır.Akademik İsa Həbibbəyli apardığı tədqiqatlar nəticəsində müəyyən etmişdir ki, Məhəmməd Tağı Sidqi uşaq hekayələrini özünün hazırladığı "Əxlaq nümunələri" və "Qızlara hədiyyə" dərsliklərinə oxu materialları kimi daxil etmişdir (48, s.135-136).

XIX əsr Naxçıvan şəhərində ədəbi əsərləri, xüsusən tənqidi yaradıcılıq nümunələri ilə hər kəsin diqqətini çəkən ədiblərimizdən biri də Cəlil Məmmədquluzadə (1869-1932) olmuşdur. Naxçıvan şəhərində ibtidai təhsil, Qori Müəllimlər Seminariyasında pedaqoji ixtisas almış Cəlil Məmmədquluzadə XIX əsrin sonlarında yazdığı "Çay dəstgahı" alleqorik dramı (1889), "Kişmiş oyunu" pyesi (1892), "Danabaş kəndinin əhvalatları" (1894) və "Danabaş kəndinin məktəbi" (1896) povestləri ilə nəinki Naxçıvanda, ümumən Azərbaycan ədəbiyyatında realizm yeni mərhələyə – tənqidi realizm mərhələsinə qaldırılmışdır (107, c.2, s.192).

Azərbaycan ədəbiyyatı tarixində ilk alleqorik, ilk mənzum dram nümunəsi, ilk uşaq pyesi sayılan "Çay dəstgahı" əsəri ədəbi mühitdə hadisəyə çevrilmiş, əsər 1889-cu ildə Baş Noraşen məktəbində müəllimlər və şagirdlər tərəfindən tamaşaya qoyulmuşdur (46, s.160).

Ədibin "Kişmiş oyunu" əsərində ictimai həyatdakı haqsızlığın tənqidi əsas yer tutur. Cəlil Məmmədquluzadənin həyatı və yaradıcılığının Naxçıvan dövründə yazdığı ən mühüm və səs-küylü əsər isə "Danabaş kəndinin əhvalatları" povesti olmuşdur. Əsərdə feo-

dal-patriarxal quruluşunda ictimai münasibətlər, gerilik və cəhalət ən kəskin formada tənqid atəşinə tutulmuşdur. Əsər hələ əlyazması şəklində XIX əsrin 90-cı illərində yayılmışdır (107, c.2, s.193).

Publisistik və elmi əsərlərlə yanaşı, bir sıra ədəbi əsərlərin də müəllifi olan Eynəli bəy Sultanov (1865-1935) təkcə yazıçı deyil, həm də XIX əsrin Naxçıvan şəhərində ədəbi-mədəni prosesin əsas təşkilatçılarından biri olmuşdur. Onun yaratdığı və Naxçıvan şəhərində fəaliyyət göstərən "Müsəlman Şiə İncəsənəti və Dram Cəmiyyəti" (97, c.2, s.57), "Ziyalı Məclisi" təşkilatları bu prosesdə mühüm rol oynamışlar.

E.Sultanovun ədəbi əsərləri sırasında "Tatar qızı" pyesi, "Kiçik sərgüzəşt", "Novruz ağa", "Çalma" hekayələri xüsusi yer tutur. O təkcə ədəbi əsərlər yazmaqla qalmamış, həm də "Novoye obozreniye" qəzetində çap etdirdiyi bir sıra məqalələrində ədəbiyyatşünaslıq və folklorşünaslıq məsələlərinə də toxunmuşdur (107, c.2, s.194).

XIX əsrin 80-90-cı illərində Naxçıvanda Mirzə Cəlil Şürbi, "Fani" təxəllüsü ilə yazan Məhəmmədhüseyn Hacı Nəcəf oğlu və başqaları kimi qələm sahibləri də yaşayıb-yaratmışlar (107, c.2, s.194).

Azərbaycan romantizminin banilərindən olan Hüseyn Cavidin (1882-1941) ilk ədəbi qələm nümunələri də məhz Naxçıvan şəhərində yazılmışdır. "Məktəbi-tərbiyə"də təhsil aldığı illərdə Gülçin təxəllüsü ilə şeirlər yazan Hüseyn Cavid tezliklə Azərbaycan ədəbi mühitinin ən tanınmış simalarından birinə çevrilmişdir.

Bu dövrdə Naxçıvan ədəbi mühitinin yetirmələrindən biri də Qurbanəli Şərifzadə (1854-1917) olmuşdur. O, mühəndis olsa da, milli təhsilin, mətbuat və mədəniyyətin fəal müdafiəçilərindən olmuş, hətta XX əsrin başlanğıcında "Leylək" ədəbi imzası ilə bir sıra əsərlər yazmış və "Molla Nəsrəddin" jurnalında nəşr etdirmişdir. O, "Mozalan bəyin səyahətnaməsi"nin İrəvan və Naxçıvana aid his-

sələrinin müəllifidir (97, c.2, s.308).

Nəticə olaraq qeyd edə bilərik ki, XIX əsrdə Azərbaycan ədəbiyyatının inkişafında Naxçıvan ədəbi mühiti – Naxçıvan şəhərində fəaliyyət göstərən ədəbi məclis və dərnəklər, eləcə də burada təhsil alan, yaşayıb-yaradan ədiblər mühüm rol oynamışlar.

Bəhs olunan dövr Naxçıvan şəhərinin mədəni həyatında da bir sıra dəyişikliklərlə yaddaqalan olmuşdur. Qərb və Rusiyanın mədəni təsirləri nəticəsində Şərqdə o dövr üçün xeyli dərəcədə modern hesab edilə biləcək incəsənət sahələrinin, o cümlədən teatrın yaranması və inkişafı Naxçıvan şəhərinin həyatında fövqəladə hadisə olmuşdur.

XIX əsrin II yarısından etibarən Naxçıvanda təsviri və dekorativ-tətbiqi sənətdə yeni meyillər meydana çıxmağa başlamışdır. Musiqi sənəti əsasən yerli ifaçıların yaradıcılığı ilə qorunub saxlanılırdı. Arxiv sənədlərindən aydın olur ki, XIX əsrin 30-cu illərində Naxçıvan şəhərində digər peşə sahibləri ilə yanaşı, 9 nəfər musiqiçi də yaşayırdı (236, v.16). XIX əsrdə isə Naxçıvan şəhərində yaşayan zurna və balaban ifaçılarının sayı 6 nəfər idi (95, s.236).

Yuxarıda da qeyd etdiyimiz kimi, teatrın yaranması isə XIX əsr mədəniyyətimizin ən inqilabi hadisələrindən biri sayılır. Naxçıvan şəhərində ilk teatr tamaşasının göstərilməsi Azərbaycanda ilk teatrın yaranmasından düz 10 il sonraya təsadüf edir. 10 (23) mart 1873-cü ildə Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" pyesinin tamaşası ilə Azərbaycan teatrının yaranması haqqında xəbərlər Naxçıvana çatan kimi yerli həvəskarlar teatr işinin inkişafı və yayılması istiqamətində fəaliyyətə başladılar (107, c.2, s.195). Qeyd etmək lazımdır ki, Naxçıvanda teatrın yaranmasında və teatr tamaşalarının nümayişində Eynəli bəy Sultanovun rəhbərlik etdiyi "Ziyalılar cəmiyyəti" (1882) və "Naxçıvan Müsəlman İncəsənəti və Dram Cəmiyyəti"nin (1883) xüsusi rolu olmuşdur. Məhz Eynəli bəy Sultanov Tiflisdəki tanışlarının köməyi ilə M.F.Axundovun

"Müsyö Jordan və Dərviş Məstəlişah" komediyasının surətini əldə edərək Naxçıvana gətirmiş (72, s.64) və 1883-cü ilin mart ayında tamaşa nümayiş etdirilmişdir. Komediya tamaşası Naxçıvan şəhər sakini Hacı Nəcəf Zeynalovun evinin böyük salonunda nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır. Bununla da Naxçıvan teatrının əsası qoyulmuşdur. Bu maraq nəzərə alınaraq tamaşanın daha çox insan üçün nümayiş etdirilməsi nəzərdə tutulmuş və 1883-cü ilin may ayında tamaşa yenidən oynanılmışdır. Həmin tamaşanı 200-dən artıq tamaşaçı izləmişdir (112, s.14). Naxçıvan truppası 1885-1886-cı illərdə yerli müəllimlərin yazdıqları vodevilləri, məsələn, "Kəl döyüşü"nü, "Üsuli-cədid"i səhnələşdirmişdir (12, c.4, s.398).

Teatrın yaranmasını o dövrün mühüm mədəni hadisəsi kimi dəstəkləyənlərlə yanaşı, mürtəce qüvvələr tərəfindən buna qarşı çıxanlar da olmuş, digər tərəfdən tamaşanın rus dilində deyil, Azərbaycan türkcəsində səhnəyə qoyulması müstəmləkəçi çar məmurlarını xeyli narahat etmişdi. Hətta şəhər rəisi guya xalqın şikayətini nəzərə alaraq teatr tamaşalarına qadağa qoymuşdu (107, c.2, s.197). Çar məmurlarının əsl hiddətinin səbəbini bilən E.Sultanov məhz bu məqsədlə rusca yazdığı "Tatar qızı" əsərinin səhnələşdirilməsinə başlamış və əsəri rus dilində tamaşaya qoymuşdur. "Naxçıvan teatrının salnaməsi"nin müəllifləri yazırlar ki, həmin vaxt "Tatarka" ilə bir vaxtda N.Solovyovun "İşin başlanğıcında" və fransız T.Barrer və L.Tivunun "Evdə qalmaqal" əsərləri də tamaşaya qoyulmuşdur (75, s. 45).

1887-ci ildə Naxçıvan teatrında – Hacı Nəcəf Zeynalovun evində M.F.Axundovun "Molla İbrahim Xəlil kimyagər" komediyası tamaşaya qoyulmuş və tədqiqatçıların yazdığına görə əldə olunan vəsait şəhər məktəbinin yoxsul şagirdlərinin hesabına keçirilmişdir (107, c.2, s.197).

Məhəmmədtağı Sidqinin rejissorluğu ilə 1889-cu ildə N.

Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" pyesi göstərilmişdir (74, s.10). XIX əsrin 90-cı illərində Naxçıvan şəhərində M.F.Axundovun "Hacı Qara", "Molla İbrahim Xəlil kimyagər", "Dərviş Məstəlişah" komediyaları təkrar tamaşaya qoyulmuşdur (75, s.52). 1890-cı ildə C.Məmmədquluzadənin "Çay dəstgahı" əsəri ilk dəfə tamaşaya qoyulmuşdur (107, c.2, s.197). Əsrin sonunda, 1899-cu ildə Naxçıvan teatrında M.F.Axundovun "Hacı Qara" və "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyaları tamaşaçılara nümayiş etdirilmişdir.

Teatrın yaranması və ən müxtəlif əsərlərin səhnələşdirilməsi təkcə incəsənətin və mədəniyyətin inkişafına deyil, ədəbiyyatın, dramaturgiyanın, eləcə də ictimai-siyasi fikrin inkişafına ciddi təsir göstərmişdir. Heç də təsadüfi deyildir ki, teatr tamaşaları məhz geriliyi, avamlığı, cəhaləti, dövrün haqsızlıqlarını tənqid etdiyi üçün ciddi basqılara məruz qalırdı. Lakin bütün mürtəce cəhdlərə baxmayaraq, Azərbaycan ziyalıları gərgin zəhmət və məhrumiyyətlər bahasına da olsa, teatr tamaşalarını səhnələşdirərək ərsəyə gətirir, onların nümayişindən toplanan vəsaitləri xeyriyyə məqsədi ilə istifadə edir, məktəblərdə şagirdlərin təhsilinə sərf edirdilər.

### *3.6. Naxçıvan şəhərində memarlıq*

Bütün sahələrdə olduğu kimi, memarlıq sahəsində də XIX əsr keçid dövrü sayıla bilər. Belə ki, bu dövrə qədər Naxçıvan şəhəri ərazisində mövcud olan və inşa edilən binaların əksəriyyəti sırf Şərq memarlığını özündə əks etdirirdi. XII əsrdə Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaratdığı memarlıq məktəbinin ənənələri davam etdirilir, bir çox hallarda bu ənənələr İsfahan və Anadolu memarlığının təsirindən də bəhrələnirdi. Lakin XIX əsrdə rus işğalı ilə Naxçıvan şəhərində inşa edilən binaların memarlığında da dəyişikliklər baş verdi. "Naxçıvan tarixi"nin ikinci cildində bu barədə yazılır*: "Rusiya tərəfindən ilhaq edildikdən sonra Azərbaycanın hər yerində*

*olduğu kimi, Naxçıvanda da Rusiya şəhərsalma ənənələri müəyyən qədər yayıldığı və tətbiq olunduğu üçün milli monumental memarlığın tənəzzülü özünü aydın şəkildə göstərirdi. Rus hərbi mühəndisləri tərəfindən bir sıra iri şəhərlərin, o cümlədən Naxçıvanın tərtib edilmiş planı şəhərin gələcəkdə hazırlanacaq baş planlarının başlanğıcı oldu"* (107, c.2, s.201). Lakin bütün bunlarla yanaşı bu dövrdə milli memarlıq üslubunda inşa edilən binaların tamamilə aradan qalxdığını söyləmək də doğru olmazdı.

Baş vermiş müharibələr şəhərin memarlığına və şəhərsalma quruluşuna da təsirsiz ötüşməmişdi. V.Qriqoryev şəhərin memarlıq abidələrindən bəhs edərkən, fransız səyyahı Şardenin Naxçıvan şəhəri ərazisində 5 karvansaradan, böyük bazardan, hamamlardan və 2000 evdən söz açdığını göstərmişdir. Bu abidələrin XIX əsrin 20-30-cu illərindəki durumundan bəhs edən rus müəllifi göstərir ki, adıçəkilən möhtəşəm memarlıq incilərinin çoxunun yalnız qalıqları qalmışdır. Böyük bazar, ümumiyyətlə, mövcud deyildir, "xəndəklərlə türk məscidinin arasındakı ərazidə görünən daşlara görə" müəllif bazarın böyüklüyünü qeyd etmişdir (173, s.67).

Şəhərdə yalnız üç hamam mövcud idi. Tədqiqatlar göstərir ki, bu hamamlar mülkiyyətində olduqları şəxslərin adları ilə – "Şıxəli bəy hamamı", "Fəzli hamamı", "Mirzə Əli hamamı" (30, s.49) adlanırdılar. Bu hamamlardan birisi böyük ehtimal ki, inşa tarixi XVIII əsrə aid edilən və gerçək adı "İsmayılxan hamamı" olan hamam olmuşdur. Bu gün Naxçıvan şəhərinin Heydər Əliyev prospektində, "Təbriz" Mehmanxanasının qarşısında yerləşən hamam o zaman Naxçıvan şəhərinin içərisindən axan və Naxçıvançayın qollarından biri olan Bazarçayın kənarında inşa edilmişdi. Şərq memarlıq üslubunda inşa edilmiş bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə (su çəni) və ocaqxanadan ibarətdir (96, c.1, s.276).

Bu dövrdə şəhərdə qalmış əsas karvansara isə elə də böyük olmamış və baxımsız bir vəziyyətdə olmuşdur (173, s.67). Kar-

vansara hətta o qədər baxımsız vəziyyətdə idi ki, şəhərdən keçən karvanlar çox vaxt açıq havada gecələməli olurdular. Halbuki XII-XIII əsrlərdə mövcud olmuş Naxçıvan karvansaraları o qədər böyük idilər ki, eyni vaxtda bir neçə karvanı qəbul edə bilirdilər (194, s.41). Görkəmli ədib M.T.Sidqinin 23 sentyabr 1898-ci ilə aid məktublarından biri əsasında isə o zaman şəhərdə fəaliyyət göstərən daha bir karvansara haqqında məlumat alırıq. Belə ki, o, bu məktubda "Hacı Cəfərin karvansarası"ndan bəhs etmişdir (129, s.219). Deməli, XIX əsrin sonlarında da Naxçıvan şəhərində karvansaralar öz fəaliyyətini davam etdirməkdə idi.

Naxçıvan şəhərinin tarix boyunca ən gözəl guşələrindən biri şəhərin mərkəzi meydanının yaxınlığında yerləşən – bugünkü Əcəmi seyrəngahına daxil olan şəhər bağı olmuşdur. V.Qriqoryev XIX əsrdə şəhərin mərkəzində yerləşən böyük bağın əvvəlki möhtəşəmliyindən əsər-əlamət qalmadığını yazmışdır (173, s.67). V.Qriqoryevdən fərqli olaraq K.Nikitin bu bağın daha ətraflı təsvirini vermiş, hətta buradakı ağac növlərindən belə bəhs etmişdir. O, bağdakı nalbənd, çinar, akasiya, qarağac, sərv ağaclarının şəhərə xüsusi gözəllik verdiyini, burada istirahət məqsədi ilə müxtəlif oturacaqların olduğunu göstərmişdir (198, s.120).

V.Qriqoryev göstərir ki, XIX əsrdə şəhərdə mövcudluğunu qoruyub saxlamış tarixi memarlıq abidələrindən biri Nuh peyğəmbərin türbəsi, digəri isə Türk məscidi olmuşdur (173, s.67-68). XIX əsrin 70-80-ci illərində Naxçıvan şəhərindən bəhs edən S.Zelinski şəhərdə 5 məscidin olması barədə məlumat vermişdir (178, c.7, s.260).

Bu dövrdə şəhərdə bina edilmiş mühüm memarlıq abidələrindən biri Cəfəriyyə məscidi olmuşdur. Naxçıvan şəhərində, el arasında "Şəhər məscidi" kimi tanınan məscidin giriş qapısının baş tərəfində vaxtilə qoyulan, əvvəli dini mətndən ibarət olan mərmər lövhə üzərində həkk edilmiş kitabədə bu məscidin inşası və memarlığı

barədə məlumat verilmişdir. Epiqrafik abidənin mətnini tədqiq etmiş Hacıfəxrəddin Səfərli kitabənin mətninə əsasən müəyyən etmişdir ki, Cəfəriyyə məscidi 1894-cü ildə naxçıvanlı xeyriyyəçi Hacı Novruzun oğlu Hacı Məhəmmədcəfər ağa adlı şəxsin səyi ilə bina edilmişdir (123, s.269-270). Kitabənin mətninə əsasən həmçinin o da müəyyən edilmişdir ki, məscidin memarı Məhəmmədtağı, kitabənin həkkakı isə Məhəmməd Saleh adlı Təbriz memarlıq məktəbinə mənsub sənətkarlar olmuşdur (123, s.269-270). Qeyd edək ki, təxminən 1000 $m^2$ sahəni əhatə edən məscid bir minarəlidir. Apardığımız tədqiqatlar nəticəsində rus rəssamı İvan Pavloviç Şeblıkinin (1884-1947) arxivindəki 1934-cü ildə çəkilmiş şəkildə də XIX əsrdə inşa edilmiş bu məscidin təkminarəli olması və ətrafdakı yardımcı tikililəri açıq-aşkar müşahidə etmək mümkündür. Şəkildəki təsvirlər barədə tədqiqatçı S.Əhmədov "Naxçıvan rus rəssamı İ.P.Şeblıkinin rəsm əsərlərində" adlı məqaləsində geniş şəkildə bəhs etmişdir (158, s.18-22).

Atabəylər dövrünün yadigarı olan Naxçıvan Cümə məscidi də bu dövrdə mövcudiyyətini qoruyub saxlamaqda idi. Dövrün müəllifi V.A.Engelqart yazır: *"Türk məscidi yonulmuş daşdan qurulmuş tağları olan tikilidir və onun içərisində yüksək işləməli, müxtəlif yapma naxışların izləri görünür. Binanın bir bölümü artıq uçmuşdur, qalanı isə hər an uçulmaq təhlükəsindədir"* (97, c.2, s.75). Qeyd edək ki, analoji "türk məscidi" ifadəsi V.Qriqoryevin əsərində də keçməkdədir (173, s.67). Təbii ki, şəhərin bütün məscidləri məhz şəhərin aborigen sakinləri olan türklər tərəfindən inşa edilmişdi, bəs məscidin məhz xüsusi olaraq "türk məscidi" kimi xarakterizə olunması nə ilə əlaqədar ola bilərdi? Fikrimizcə, məscid hələ XII əsrdə səlcuqlu-türk imperiyasının varislərindən biri olan Azərbaycan Atabəyləri dövründə inşa edildiyi üçün və əsasən səlcuqlu-türk memarlıq üslubunun Naxçıvan məktəbinin ənənələri əsasında inşa edildiyi üçün belə adlandırılmışdır. Məhz bu səbəbdən səlcuqlu-türk me-

marlığını əks etdirən bu məscid yerli əhali və əhalidən bu məlumatları alan rus müəllifləri tərəfindən “türk məscidi” kimi qeydə alınmışdır. Qeyd edək ki, XIX əsrdə Naxçıvana gəlmiş fransız səyyahı Jan Dyelaufa bu məscidin rəsmini çəkmişdir. Əsrin sonlarında isə alman memarı E.Yakobstal Came məscidinin fotoşəklini çəkmişdir (127, s.22).

Naxçıvan şəhər məktəbinin müəllimi olmuş K.Nikitin isə Nuh peyğəmbərin məzarüstü türbəsi ilə yanaşı, onun bacısının məzarüstü türbəsinin qalıqlarının da Naxçıvan şəhərində olduğunu yazmış və məzarın şəhərin İrəvan yolu istiqamətində olan çıxışında olduğunu qeyd etmişdir (198, s.112). Fikrimizcə, bu məzar ehtimal ki, indiki Naxçıvan şəhərinin Fəxri xiyabanla Əliabad məzarlığının arasında yerləşən ərazidə olmuşdur. Çünki, yerli əhalinin düşüncəsində müqəddəs sayılan məzarın yüksəklikdə və nəzərəçarpan bir yerdə olması daha ağlabatandır, eynilə Nuh peyğəmbərin məzarüstü türbəsinin tikildiyi yer kimi.

Atabəylər dövrünün yadigarı olan Möminə xatın türbəsi haqqında da mənbələrdə məlumat saxlanılmışdır (173, s.68).

XIX əsrdə Naxçıvan şəhəri ətrafında inşa edilmiş ən möhtəşəm memarlıq nümunələrindən biri Abbasabad qalası olmuşdur. General Paskeviçin yazdığına görə, Qacar şahzadəsi Abbas Mirzə Abbasabad qalasını avropalı mühəndislərin təlimatı ilə inşa etdirmişdi. Şahzadə İrəvandan cənubda yerləşən bu qalaya ciddi əhəmiyyət vermişdir (116, s.152). Avropa memarlığının nailiyyətləri əsasında inşa edilmiş qalanın mühasirə vəziyyətində davam gətirməsi üçün ciddi qorunma və içəridən su təchizatı sistemi olmuşdur.

XIX əsrdə Naxçıvanda şəhər memarlığının ən möhtəşəm nümunələrindən biri Cəfərqulu xan tərəfindən inşa etdirilmiş binadır. İnşa tarixi XIX yüzilliyin II yarısına təsadüf edən binanın ümumi sahəsi 320 $m^2$-dir. Binanın inşası zamanı çiy kərpicdən istifadə edilmiş və fasad hissəsi isə bişmiş kərpiclə üzlənmişdir. Naxçıvan

xanlarının nəslindən olan bir sıra sülalə nümayəndələri, o cümlədən məşhur general Cəmşid xan Cəfərqulu xan oğlu Naxçıvanski 1920-ci ilədək burada yaşamışdır. Cənubdan iki, şimaldan birmərtəbəli görünən bina 22 oktyabr 1982-ci ildən görkəmli sərkərdə, general Cəmşid Naxçıvanskinin ev-muzeyi kimi fəaliyyət göstərir (95, s.59).

1897-ci ildə Naxçıvan qızlar məktəbi üçün Şərq və Qərb memarlıq elementlərinin sintezindən inşa edilən bina da Naxçıvan şəhərinin XIX əsr memarlığının fərqlənən nümunələrindən biri hesab edilə bilər. Ümumi sahəsi 560 $m^2$ olan bu bina da çiy kərpicdən inşa edilmiş, fasadı bişmiş kərpiclə üzlənmişdir (107, c.2, s.203). Binanın birinci mərtəbəsində 7, ikinci mərtəbədə 5 otaq yerləşir (95, s.40-41). Qeyd edək ki, bu binada hazırda görkəmli rəssam Bəhruz Kəngərli Muzeyi yerləşir.

XIX əsrin I yarısında Naxçıvan şəhərində mənzil və fərdi yaşayış evlərinin inşasında elə bir ciddi dəyişikliklər olmamışdır. K.Nikitin XIX əsrin ortalarında şəhərdə 1140 yaşayış evinin olması barədə məlumat vermişdir (198, s.121). XIX əsrin 70-80-ci illərində isə S.Zelinski şəhərdə 1263 evin olduğunu göstərmişdir (178, c.7, s.260). XIX əsrdə Naxçıvanda tikilən evlər bir neçə tipli idi, tipinə və memarlıq quruluşuna görə də evlərin xalq arasında adlandırılması mövcud olmuşdur. Naxçıvan şəhərində möhrə evlər, zirzəmili evlər, "balaxana" evlər, daxmalar, qaradamlar və b. dediklərimizə misal göstərmək olar. XIX əsrin sonu - XX əsrin I yarısında Naxçıvan ərazisində yaşayış məskənlərindən bəhs edən İ.Zeynalov da müxtəlif ev növlərindən, o cümlədən qaradamlardan bəhs etmiş və bəzi hallarda belə evlərin 20 nəfərdən artıq üzvü olan böyük külfətlərin yaşaması üçün əlverişli olmasını göstərmişdir (145, s. 11).

XIX əsrin 30-cu illərində şəhərdəki məhəllələrdə olan yaşayış evlərinin təsvirini verən V.Qriqoryev xanlara məxsus evlərdən başqa, digərlərinin bir-birindən elə də fərqlənmədiyini yazmışdır.

Ehtimal ki, evləri daha çox xaricdən müşahidə etmək imkanına malik olmuş V.Qriqoryev onları xarici görünüşünə görə eynitipli olaraq dəyərləndirmişdir. Rus müəllifi yazır ki, yaşayış evləri birmərtəbəli və düz tavanlı idi. Bu evlər küçədən doğranmış saman və kiçik daşlarla qarışdırılmış gildən inşa edilmiş hündür divarlarla ayrılırdı (173, s.68). İ.Şopen şəhərdəki evlərin cansıxıcı mənzərəsindən və dağıntılardan bəhs etmişdir: *"Naxçıvanın görünüşü qəddarlıqla zəbt olunmuş şəhəri xatırladır. Şəhərdəki dəhşətli dağıntılar nəticəsində uçurulmuş evlər, ensiz dar küçələr cəhənnəmi andırır. Bəzi yerlərdə palçıqdan hörülmüş divarların qalıqları üzərində quşlar yuva salmışdı"* (231, s.478). K.Nikitin də şəhərin xarici görünüşü barədə oxşar fikirlərlə çıxış etmişdir: *"Naxçıvanın xarici görünüşü İran şəhərlərini xatırladır. Bütün evlər hündür palçıq divarlarla əhatə olunmuş birmərtəbəlidir. Küçələr dar, əyri və natəmiz olduğundan, nə qədər gəzsən də, hündür divarlardan başqa heç nə görməzsən. Meşə olmadığından evlərin hamısı palçıqdan hazırlanmış kərpiclərdən hörülmüşdür. Ümumiyyətlə, burada ağacdan tikilmiş evlərə rast gəlmək mümkün deyildi"* (198, s.120-121). K.Engelqard da evləri əhatə edən hündür hasarlar barədə məlumat vermiş və bunu belə əsaslandırmışdır: *"Evlərin bu tipdə tikilməsini həm asiyalıların qısqanclığı ilə, həm də özlərini müdafiə etmək hissləri ilə izah etmək lazımdır. Çünki ardı-arası kəsilməyən basqınlar və hər saatda təhlükə gözlənildiyi zamanda, hər ev bir qalanı əvəz edirdi"* (234, s.350).

Beləliklə, mənbələrdəki məlumatlardan yaşayış evlərinin quruluşu ilə bağlı belə qənaətə gəlmək mümkündür ki, şəhərdəki əksər yaşayış evləri birmərtəbəli olmuşdur. Sənətkarların evlərindəki otaqlardan biri emalatxana və ya dükan üçün ayrılırdı. Kasıbların bir və ya iki otağı olardı. Bunlar həm yataq otağını, həm də mətbəxi əvəz edirdi. Bu cür evlərdə adətən pəncərə qoyulmurdu. Ona görə də belə evlər, xüsusilə qış dövründə yaşayış üçün əlverişli deyildi.

Yoxsulların evlərinin döşəməsində çörək bişirmək üçün təndir olurdu. Evlərdə kiçik ocaqlar da düzəldilirdi. Tüstünün çıxması üçün evin tavanında baca qoyulurdu (30, s.50). Evlərin döşəməsi əksər hallarda gil ilə suvanılırdı. Bölgədə meşə sahələri az olduğundan döşəmələrin taxtadan olmasına nadir hallarda rast gəlinirdi (198, s.121).

Etnoqrafik materialların təhlili göstərir ki, bəhs olunan dövrdə Naxçıvanda fərdi yaşayış evlərinin həyətləri əsasən iki bölməyə ayrılmışdır: birincisi məişət bölməsinə, ikincisi isə təsərrüfat-əkin bölməsinə. Məişət bölməsinə əsasən yaşayış binası, təsərrüfat tikililəri və istehsal bölməsinə məişət işlərinin icra edildiyi "eşik" daxil idi (145, s.19).

Varlılara – xan və bəy ailələrinə, zadəganlara və ruhanilərə məxsus olan evlər isə nisbətən fərqlənirdi. Varlı ailələrin evlərində otaqların sayı nisbətən çox olurdu. Onların mətbəxləri də ayrı idi. Belə evlərdə sadə ocaqlar əvəzinə daşdan hörülmüş buxarılar olurdu (30, s.51). Naxçıvan xanlarının evlərinin divarları milli naxışlarla bəzədilirdi, pəncərələrə rəngli şüşələr vurulurdu.

Naxçıvan şəhərində də mənzil və fərdi yaşayış evlərinin inşasında bir sıra yeniliklərin tətbiqinə, əsasən, XIX əsrin II yarısından etibarən başlanmışdır. Bu dövrdən başlayaraq şəhərdə inşa edilən binalar tədricən qapalılığını itirməyə başlamış, evlərin daxili planlaşdırılmasında dəyişikliklər edilmiş, yaşayış evlərinin əsas fasadı küçəyə doğru yönəldilməyə başlamışdır. Fasadlarda böyük pəncərələr, geniş küçə eyvanları və ifadəli bəzək ünsürlərinin tətbiqinə də Naxçıvan şəhərində məhz bu zamandan etibarən rast gəlinməkdədir.

# NƏTİCƏ

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan şəhərinin XIX əsr tarixinin kompleks şəkildə öyrənilməsinin aktuallığı nəzərə alınaraq, problem xüsusi tədqiqat obyekti olmuşdur. Mövzu üzrə tarixşünaslıq problemin öyrənilməsi səviyyəsini müəyyən etməyə, nailiyyətlərlə birgə mövcud boşluqları, dövr üzrə qarşıda duran vəzifələri ortaya çıxarmağa imkan vermişdir. Müəyyən olunmuş məqsədi və ona uyğun vəzifələri həll etmək üçün geniş və hərtərəfli mənbə bazası yaradılmışdır. Bütün bunlar problemin əhatə etdiyi hər bir məsələni yüksək səviyyədə araşdırmağa və onu yeni elmi müddəalarla zənginləşdirməyə imkan vermişdir. Nadir şahın ölümündən sonra genişlənən xanlıqyaranma prosesində meydana gələn Naxçıvan xanlığı Azərbaycanın xanlıqlar sistemində özünəməxsus yer tutmuşdu. Rusiya imperiyasının Şimali Azərbaycan torpaqlarının işğalının ilk mərhələsində Naxçıvan və eyni zamanda İrəvan xanlıqlarını tutmaq mümkün olmamışdı. Lakin buna baxmayaraq, çar Rusiyası bu xanlıqların işğalı planından əl çəkməmişdi. 1826-1828-ci illər rus-Qacar müharibəsinin gedişində bu xanlıqlar da ilhaq edilmiş, 1828-ci il Türkmənçay müqaviləsilə bu rəsmiləşdirilmişdi. Rusiya imperatoru I Nikolay Türkmənçay müqaviləsindən qısa müddət sonra, 1828-ci il martın 21-də Naxçıvan və İrəvan xanlıqlarının torpaqları əsasında qondarma «Erməni vilayəti» yaratmaq haqqında sənəd imzalamışdı. Belə bir sənədin qəbulu tamamilə yanlış olub, gerçəkliyi əks etdirmirdi. Təsadüfi deyil ki, çar hökuməti, yalnız beş il sonra, 1833-cü ildə bu vilayətin idarəsinin quruluşu haqqında Əsasnamə qəbul etmiş, 1840-cı il islahatı zamanı isə bu vilayət ləğv olunmuşdu. Bundan sonra keçmiş Naxçıvan xanlığının ərazisi Şimali Azərbaycan torpaqlarına dair ümumi siyasətə uyğun idarə olunmuşdu. 1840-cı il islahatı ilə Naxçıvan əyaləti qəzaya çevrilərək Gürcü-İmeret quberniyasının, 1846-cı ildə Tiflis quberni-

yasının, 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə verildi. Keçmiş Naxçıvan xanlığının ərazisi, bəzi daxili bölgülərə də məruz qalmışdı. İlk vaxtlar İrəvan quberniyası tərkibində Naxçıvan və Ordubad qəzaları ayrılmış, lakin Ordubad qəzası 1867-ci ildə ləğv edilərək Naxçıvan qəzası ilə birləşdirilmişdi. 1870-ci ildə İrəvan qəzasının Şərur sahəsi Naxçıvan qəzasının tərkibinə verilmiş, 1874-cü ildə isə bu qəzanın Şərur və Dərələyəz sahələri əsasında Şərur-Dərələyəz qəzası təşkil edilmişdi. Bütün bu proseslərdə Naxçıvan şəhəri əsas siyasi və diplomatik mərkəz rolunu oynamışdır.

Əgər I Rusiya-Qacarlar müharibəsində proseslərin mərkəzində olan Naxçıvan şəhərinin işğalının gerçəkləşdirilməsi növbəti mərhələyə saxlanılmışdısa, ikinci müharibənin (1826-1828) əsas hədəflərindən biri İrəvan və Naxçıvan şəhərləri olmuşdur. Apardığımız tədqiqatlar nəticəsində belə bir qənaətə gəlirik ki, İrəvanın ələ keçirilməsi üçün zəruri olan ilk vəzifə ruslar tərəfindən Naxçıvan şəhərinin və Abbasabad qalasının ələ keçirilməsi olmuşdur. Naxçıvan şəhərini ələ keçirən rus qoşunları və qoşunların komandanı Paskeviçin şəninə təriflər söyləyən dövrün rus tarixçilərinin qeydləri də məhz yuxarıda söylədiyimiz fikirləri təsdiq etməkdədir. Naxçıvan şəhərini ələ keçirən ruslar şəhərdə dağıntılar törətməsələr də, xristian bir imperatorluğun boyunduruğu altında yaşamayan əhalinin bir qismi Arazın cənub sahilinə miqrasiya etmişdir. Rus qoşunlarının əhalinin mülkiyyətinə toxunmamasına baxmayaraq, hərbi qüvvələrin istinadgahlarından biri kimi Naxçıvan şəhərini seçməsi şəhərin sosial-iqtisadi həyatına da təsirini göstərirdi. Gedən döyüşlər təsərrüfatın inkişafında durğunluğa səbəb olmuşdur. Naxçıvan xanlığının Arazdan şimaldakı ərazilərinin, o cümlədən Naxçıvan şəhərinin Rusiya imperiyasının nəzarətinə keçməsi ilə Naxçıvan şəhərinin tarixində də yeni dövr başlamışdır.

Artıq qeyd etdiyimiz kimi, dərs vəsaitində ən çox diqqət yetirdiyimiz məsələlərdən biri Naxçıvan şəhərinin tarixi coğrafiyası

ilə bağlı olmuşdur. Tədqiqatlarımız göstərir ki, XIX əsrin 50-ci illərinə qədər Naxçıvan şəhərinin xarakterində ciddi bir dəyişiklik baş verməmiş və o xeyli dərəcədə orta əsr şəhəri xüsusiyyətlərini qoruyub saxlamışdı. Lakin işğaldan sonrakı dövrdə əhalinin miqrasiyası ilə əlaqədar olaraq şəhərdəki məhəllələrin və yaşayış kvartallarının sayında artım olmuşdur. Şəhər 10 $km^2$ ərazidə yerləşmişdi, 13 əsas məhəllədən formalaşmışdı.

Naxçıvan şəhəri Rusiya idarəçiliyinə keçdikdən sonra şəhər əhalisinin həm sosial, həm də etno-demoqrafik tərkibində ciddi dəyişikliklər baş vermişdir. Rus işğalından sonrakı dövrdə əhalinin sosial strukturundakı dəyişikliklər – müəyyən yeni siniflərin yaranması, burjuaziyanın formalaşmağa başlaması, kəndli qruplarının yeni sosial-iqtisadi sistemə görə strukturlaşması təbii ictimai-iqtisadi proseslərin uzunmüddətli dövrdə meydana çıxan nəticəsi idi. Əhalinin etno-demoqrafik strukturunda baş verən dəyişikliklər isə sırf Rusiya imperiyasının işğalçılıq siyasətinə xidmət edən, dayaq yaratmaq məqsədi güdən köçürmə və xristianlaşdırma siyasətinin nəticəsi olaraq meydana çıxmışdır.

XIX əsr Naxçıvan şəhərinin tarixində həm də kapitalist münasibətlərinin yaranması dövrü kimi qiymətləndirilə bilər. Bu dövrdə kənd təsərrüfatı və sənayedə kapitalist istehsal üsulunun ilkin rüşeymləri meydana gəlmiş, əsrin sonlarına doğru isə xeyli dərəcədə inkişaf etmişdi. Çar Rusiyası dövründə iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına diqqət yetirilirdi. Burada əsas məqsəd heç də yerli əhalinin yaşayış səviyyəsinin yüksəldilməsindən ibarət olmamışdır. Əksinə müstəmləkəçilik məqsədlərinin həyata keçirilməsi, təbii sərvətlərin daha çox istismarı çarizmin regiondakı iqtisadi siyasətinin əsasını təşkil edirdi. Arxiv sənədlərində əksini tapmış müxtəlif faktlar da sübut edir ki, Naxçıvan diyarının təbii zənginlikləri daim buranı istismar etməyə çalışan Çar Rusiyasının diqqət mərkəzində olmuşdur. Bunu müxtəlif dövrlərdə çar məmur-

larının və XIX əsrdə çar Rusiyası tərəfindən buraya köçürülən ermənilərin dövlət idarələrinə ünvanladıqları məlumatlar da sübut edir.

XIX əsr Naxçıvan şəhərinin kənd təsərrüfatında taxılçılıq, meyvəçilik, üzümçülük, pambıqçılıq və bağçılıq mühüm yer tuturdu.

Apardığımız təhlillərdən belə bir qənaətə gəlirik ki, Naxçıvanın çar Rusiyası tərəfindən işğalından sonrakı dövrdə Naxçıvan şəhərində müstəmləkəçilik siyasətinə uyğun olaraq sənayenin inkişafında müsbət artım meyilləri müşahidə olunmuşdur. Daha çox xammalın əldə olunması və istehsal edilməsi həm də imperiyanın mərkəzinə daha çox məhsulun göndərilməsi demək idi ki, çarizm müstəmləkə sistemi də məhz buna çalışırdı. Digər tərəfdən çar Rusiyası bu bölgələrdə inkişafı təmin etməklə həm Osmanlı dövlətinin həmsərhəd şərq əyalətləri üçün, həm də Qacarlar dövlətinin tərkibində qalmış Azərbaycan əyalətləri üçün çar Rusiyasının cəlbediciliyini artırmağa çalışırdı.

Beləliklə qeyd edə bilərik ki, XIX əsr Naxçıvan şəhərinin təhsil tarixində dəyişikliklər və yeniliklər mərhələsi olmuşdur. Əsrin əvvəllərində Naxçıvanda əsasən Şərq tipli məktəb və mədrəsələrə əsaslanan təhsil sistemi olmuşdusa, əsrin ortalarından etibarən yaradılan məktəblər Şərq ənənələri ilə yanaşı, Qərbi Avropa və Rusiyanın maarif nailiyyətlərindən də müəyyən müsbət çalarlar əxz etmişdir. Analoji hal elmin inkişafı sahəsində də özünü göstərmişdir. Təhlillərimiz nəticəsində gəldiyimiz qənaət ondan ibarətdir ki, XIX əsrin rus işğalına qədərki dövrdə Naxçıvan alimlərinin yaradıcılığında batini və irfani elmlər, XIX əsrin ortalarından sonrakı dövrdə isə dünyəvi elmlər üstünlük təşkil etmişdir. XIX əsrin 30-cu illərindən etibarən Naxçıvan şəhərində elmin müxtəlif sahələrində tədqiqatlar aparanlar sırasında xarici tədqiqatçılar da meydana çıxır. Əksəriyyəti çar məmurları olan və ya xüsusi tapşırıqlarla bölgəyə

gələn bu cür tədqiqatçıların tədqiqatları çar Rusiyasının gələcəkdə Qafqazı daha çox istismar etmək və bu strateji ərazini əldə saxlamaq maraqlarına xidmət edirdi.

XIX əsr Naxçıvan şəhərinin tarixində həm də teatrın yaranması və o dövr üçün çağdaş hesab edilən bir sıra incəsənət sahələrinin inkişafı baxımından da fərqlənməkdədir.

XIX əsr Naxçıvan şəhərinin memarlığının təhlilindən isə belə bir nəticəyə gəlirik ki, XIX əsr Şərq memarlıq ənənələrindən Qərb və rus memarlıq ənənələrinə keçid dövrü olmuşdur. Bu dövrdə inşa edilən rəsmi dövlət idarələrinə aid binalar, hərbi müdafiə tikililərinin əksəriyyəti Avropa və Rusiya memarlıq məktəbinin ənənələrini əks etdirir. Dini tikililər, fərdi yaşayış evləri və məzarüstü türbələr yenə də Şərq memarlıq məktəblərinin ənənələrinə uyğun inşa edilmişdi.

